AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU
" SIYASI NƏZƏRIYYƏLƏR" ŞÖBƏSI

# "SİYASİ SOSİOLOGİYANIN MÜASİR PROBLEMLƏRİNƏ DAİR"

(VII BURAXILIŞ)

- 16263 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – "Təknur" – 2014

Kitab AMEA Fəlsəfə və Hüquq İnstitutunun„ Siyasi nəzəriyyələr" (keçmiş"Politologiya və siyasi sosiologiya")şöbəsinin əməkdaşları tərəfindən 2014-cü ilin plan işi əsasında hazırlanmış və İnstitutun Elmi Şurasının 12.11.2014-cü il tarixli 11 saylı qərarı ilə çapa məsləhət görülmüşdür.

**Elmi məsləhətçi:** f.e.d. İlham Məmmədzadə
**Mövzunun ümumi rəhbəri:** f.e.d. Rəna Mirzəzadə

**Redaksiya heyəti:** R.Mirzəzadə, Ə.Tağıyev, L.Mövsümova, Z.Ağayeva, T.Allahyarova, H.Həmidov, M.Sərdarov, D.Həşimov, T.Quliyev, Ü.Qasımova.

**Siyasi sosiologiyanın müasir problemlərinə dair. Bakı, "Təknur", 2014, 190s.**

Fəlsəfə və Hüquq İnstitutunun„Siyasi nəzəriyyələr",(keçmiş"Politologiya və siyasi sosiologiya") şöbəsinin əməkdaşlarının 2014-cü il plan işi əsasında təqdim olunan topluda "Azərbaycan 2020- Gələcəyə Baxış İnkişaf Konsepsiyası" kontekstində siyasi sosiologiyanın müasir problemləri öyrənilmişdir. Kitabda qlobal siyasi nizamın strukturunun öyrənilməsində siyasi qlobalistikanın bir elm kimi rolu, siyasi sosiologiyanın bir elm kimi formalaşması, obyekti, predmeti və strukturunun müəyyənləşdirilməsi, mahiyyəti və xüsusiyyətləri nəzəri metodları və əsas inkişaf istiqamətləri, siyasi sosiologiyanın əsas ideyalarının təkamülünün Qərb və Şərq ənənələri, siyasətin sosiologiyasında nəzəri metodlarının XXI əsrdə əsas inkişaf istiqamətləri, Azərbaycanda siyasi sosiologiyanın yaranması və inkişafı, ictimai həyatda siyasi sosiologiyanın yeri, siyasi sosiallaşma prosesində ideologiyaların yeri, gənclər Azərbaycanda humanitar forumlar tarixi-siyasi aspektdə "Əsrin müqaviləsi" müstəqil Azərbaycanda dönüş nöqtəsi kimi" məsələlər geniş tədqiqata cəlb olunmuşdur. Kitab bu sahədə tədqiqat aparan mütəxəssislər və müvafiq fakultələrin tələbələri üçün nəzərdə tutulmuşdur.

## *ÖN SÖZ*

AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Siyasi nəzəriyyələr" (keçmiş "Politologiya və siyasi sosiologiya") şöbəsinin əməkdaşlarının təqdim olunan "Müasir Azərbaycanda siyasi sosiologiyanın aktual problemləri" adlı monoqrafiyası 2014-cü il üçün pilot şöbə kimi plan işlərindən ibarətdir. Bu monoqrafiyada siyasi elmin müasir Azərbaycan cəmiyyətində bilavasitə mühüm əhəmiyyət kəsb edən problemləri tədqiqata cəlb edilərək araşdırılmışdır. Siyasət bəşəriyyətin ümumi rifah və xoşbəxt həyata xidmət edən birlik forması kimi yarandığı vaxtdan xarakterizə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edir ki: "Azərbaycan siyasətinin təməlində və mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi və rifahı durur". Bu məsələlərin həllində çox vacib amillərdən biri də elm və təbii resursların sintezindən çıxış edərək "qara qızılın insan kapitalına çevrilməsi" prosesidir. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin malik olduğu zəngin təbii resursların elm və biliklə əlaqələndirilməsi və qara qızılın insan kapitalına çevrilməsini dövlətimizin qabaqcıl, müasir ölkələr sırasına çıxmasında çox vacib şərt kimi qiymətləndirmişdir. Müasir dövrdə İlham Əliyev "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya və bu strategiyanın həyata keçirilməsi ilə bağlı proqram"ın qəbul edilməsi, bu əsasda 2009-cu ildə Prezident yanında Elmin İnkişafı Fondunun yaradılması və 2012-ci il dekabrın 29-da Prezident İlham Əliyevin "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması ilə bağlı imzaladığı tarixi sərəncam bu məsələlərin siyasi-nəzəri və siyasi-praktiki cəhətdən daha məqsədyönlü və sürətli tədqiqinə, səmərəliliyinin artırılmasına zəmin ya-

ratmışdır. Müasir dövrdə gələcəyə hesablanmış bu konsepsiyalar ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasının başlanğıcı olub, gələcəyə hesablanmışdır. Bu konsepsiyaların hazırlanmasında Azərbaycan Respublikasında elmin inkişafının təşkili və təmin edilməsi, müasir elmin inkişaf tələblərinə uyğunlaşdırılması, inteqrasiyası prioritet məsələ kimi müəyyən edilmişdir. Bu sərəncam eyni zamanda Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, elm və elmi-texniki siyasəti həyata keçirən ali dövlət orqanı kimi Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında da çox ciddi və mühüm vəzifələr qoymuşdur.

Müasir Azərbaycan üçün 2020-ci ilədək yeni iqtisadi modelin formalaşması və elmi potensialın gücləndirilməsi, İKT-lərin tətbiqinin genişləndirilməsi və insan kapitalının inkişafı, gender bərabərliyinin təmin olunması və ailənin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin təkmilləşdirilməsi, ətraf mühitin qorunması prioritet məsələlər kimi müəyyən olunmuşdur.

Siyasi elmin daimiliyini və fasiləsizliyini təmin etmək məqsədilə tədqiqat işində müasir sosiologiya ilə politologiyanın kəsişdiyi nöqtədə yeni bir elmi istiqamət – siyasi sosiologiyanın yaranması məsələsi, onun çoxşaxəli inkişaf istiqamətləri,sosial-siyasi elmlər sistemindəki yeri müəyyənləşdirilmiş, geniş şəkildə araşdırılaraq bir sıra tövsiyyələr irəli sürülmüşdür. Siyasi sosiologiyanın predmeti, onun siyasi münasibətlərin, institutların və siyasi şüurun kompleksi kimi öyrənilən sosioloji bilik sahəsindən ibarət olması, təsviri və normativ yanaşma, siyasi dəyər kimi komponentlərlə, fəlsəfi, politoloji və sosioloji paradiqmalarla siyasi qüvvələrin mübarizə mexanizmlərinin fəaliyyətə gətirilməsi ilə bütün siyasi məqamlar əks etdirilmişdır.



Kitabda dövlətçiliyin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən Azərbaycanda siyasi sosiologiyanın yaranması və inkişafı, ölkəmizin ictimai həyatında onun yeri və rolu elmi-nəzəri cəhətdən araşdırılmış, qədim sivilizasiyaya mənsub olan xalqımızın siyasi-sosioloji fikir tarixi, siyasi-mənəvi irsimiz tədqiq olunmuşdur.

Vətəndaş cəmiyyətinin yaranması və inkişafı, dövlətlə qarşılıqlı əlaqəsi və onların fəaliyyət sərhədlərinin müəyyənləşdirilməsi sosial-siyasi elmlərin əsas istiqamətlərindən biridir. Məhz bu baxımdan cəmiyyətdə siyasi partiyaların formalaşması və fəaliyyəti, vətəndaş cəmiyyətindəki yeri və rolu, onların qeyri hökumət təşkilatları ilə qarşılıqlı münasibətləri tədqiqata cəlb olunmuş, araşdırılaraq ümumi nəticələr çıxarılmışdır. Monoqrafiyada respublikada keçirilən humanitar forumlar da təhlil olunmuşdur. Eyni zamanda, siyasi ideologiyaların modifikasiyası, bu ideologiyaların müasir Azərbaycanda siyasi sosiallaşma prosesinə təsir xüsusiyyətlərinin müəyyənləşdirilməsi, Azərbaycançılıq ideologiyası, ideoloji plüralizm – müasir Azərbaycan reallığı kimi məsələləri tədqiq edilmişdir.

Azərbaycan barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində informasiya-telekommunikasiya texnologiyalarının rolu mühüm əhəmiyyət kəsb edir.Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının qarşısında duran əsas vəzifələrdən biri kimi qlobal informasiya cəmiyyətinin təzahürü şəklində meydana çıxan virtual dünyanın tərkib hissəsi olan Elektron Azərbaycanın formalaşdırılması və inkişaf etdirilməsi prioritet məsələlərdən biridir. "Politologiya və siyasi sosiologiya" şöbəsinin əməkdaşları tərəfindən bu toplunun hazırlanaraq sizlərə təqdim olunmasında əsas məqsəd elmin aktual problemləri ilə məşğul olan tədqiqatçıları müasir politologiya və siyasi sosiologiyanın əsasları və siyasi tədqiqat istiqamətləri ilə tanış etməkdir.

Təqdim olunan mövzu ətrafında məqalələri aşağdakı müəlliflər yerinə yetirmişlər: Elmi təmələ söykənən mütərəqqi inkişaf strategiyası: Ilham Məmmədzadə (f.e.d.) Siyasi qlobalistika bir elm kimi: *Rəna Mirzəzadə* (f.e.d), Формирование политической социологии как науки: Лала Мовсумова (f.e.d), Azərbaycanda siyasi sosiologiyanın yaranması və tarixi inkişaf mərhələləri (XIX əsrin sonu, XX əsrin əvvəlləri): Əlikram Tağıyev (prof. f.e.d), Siyasətin sosiologiyasında nəzəri metodların XXI əsrdə əsas inkişaf istiqamətləri: *Tahirə Allahyarova* (f.e.d), Siyasi sosiologiya haqqında elmi ideyaların genezisi:Qərb ənənəsi: *Ziba Ağayeva* (f.e.d), Siyasi sosiologiya haqqında elmi ideyaların genezisi: Şərq ənənəsi: *Davud Həşimov* (s.e.ü.f.d), Elitanın sosial mənşəyi və rolları siyasi-sosioloji kontekstdə: Şahin Bağırov (s.e.ü.f.d), Siyasi sosiologiyanın optimal konsepsiyası: Əli İbrahimov (f.e.ü.f.d), Siyasi sosioloji texnologiyaların mahiyyəti və xüsusiyyətləri: *Zaur Əliyev* (s.e.ü.f.d), Siyasi sosiologiyanın obyekti, predmeti və strukturu *Etibar Əsədov* (s.e.ü.f.d), Siyasi sosiallaşma prosesində ideologiyaların rolu: *Kamran Məmmədov* (elmi işçi), "Əsrin müqaviləsi" müstəqil Azərbaycanda dönüş nöqtəsi kimi: *Telman Quliyev*(elmi işçi), Azərbaycanda humanitar forumlar(tarixi-siyasi aspektdə): *Mehman Kərimov* (k.e.i).



## *GİRİŞ ƏVƏZİ*
## ELMİ TƏMƏLƏ SÖYKƏNƏN İNKİŞAF STRATEGİYASİ

İqtisadi inkişaf strategiyasını elmi-texniki əsaslar üzərində quraraq innovasiya inkişafını dövlət quruculuğu prosesinin mühüm təminatı sayan, proqressiv ənənələrə istinad edən dövlətlər milli tərəqqiyə nail olur, iqtisadi, sosial və intellektual inkişaf müstəvisində rəqabətə davam gətirirlər. Hazırda nəinki Avropanın, eləcə də Uzaq Şərqin və Asiyanın iqtisadi cəhətdən inkişaf etmiş bəzi dövlətlərinin – Yaponiyanın, Cənubi Koreyanın, Malaziyanın, Sinqapurun informasiya-kommunikasiya texnologiyaları, ümumilikdə elmi-texniki tərəqqi sahəsində heyrətamiz uğurlara imza atması bu qənaətin doğruluğunu bir daha təsdiqləyir. Bu dövlətlərin təkcə iqtisadi cəhətdən deyil, həm də vətəndaş cəmiyyəti təsisatlarının və demokratiyanın inkişafı sahəsində əldə etdiyi uğurlar müasir dövrdə elmi-intellektual inkişafın cəmiyyət üçün müstəsna əhəmiyyətini qabarıq şəkildə önə çıxarır.

Vətəndaşa sərmayə qoyulması, onun fərdi keyfiyyətlərinin və qabiliyyətlərinin inkişafı, nanotexnologiyaları dərindən mənimsəmiş yeni menecerlər sinfinin yaradılması, intellektin milli inkişafda prioritet amili kimi müəyyənləşdirilməsi müstəqil Azərbaycanda da həyata keçirilən dövlət siyasətinin əsasını təşkil edir. Prezident İlham Əliyevin son 11 ildə qarşıya qoyduğu ən mühüm vəzifələrdən biri də məhz milli inkişafda intellektual irəliləyişə nail olmaqla, dövlətin siyasi suverenliyinin, davamlı iqtisadi rifahının təmin edilməsindən ibarətdir.

Azərbaycan Prezidentinin 2012-ci il 30 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasına əsasən, uzunmüddətli davam-

lı iqtisadi inkişafının təmin edilməsi, bilik iqtisadiyyatının formalaşdırılması, elmtutumlu texnologiyanın, məhsulun (işin, xidmətin) yaradılmasının sürətləndirilməsi məqsədilə innovasiya fəaliyyətinin genişləndirilməsi 2020-ci ilədək əsas istiqamətlərdən biri olacaqdır. Bununla əlaqədar elmin inkişafı onun ölkəmizdəki tarixinə və dünyada gedən meyllərə əsasən prioritetləşdiriləcək və mütərəqqi dünya elminə səmərəli inteqrasiya prosesi davam etdiriləcəkdir.

Dövlət başçısı İlham Əliyev hələ AMEA-nın 2011-ci il aprelin 26-da keçirilmiş illik ümumi yığıncağında iştirakı və dərin məzmunlu nitqi ilə bir daha təsdiqləmişdir ki, elm xadimləri, o cümlədən yaradıcı zəka sahibləri, intellektual, kreativ kadrlar dövlətin lazımi diqqət və qayğısı ilə əhatə olunmuşlar: «Azərbaycan müstəqil dövlət kimi uğurlu siyasət aparır. Ölkəmiz inkişaf edir. Bu inkişaf özünü bütün istiqamətlərdə göstərir. Əlbəttə, elmin inkişafı da ümumi inkişaf templəri ilə uzlaşmalıdır. Azərbaycanda elmin, ali təhsilin, iqtisadiyyatın birliyi yaradılmalıdır. Bizim üçün elmin inkişafı ilə bağlı əsas məsələ prioritetlərin düzgün seçilməsidir. İşimizi bu prioritetlər üzərində qurmaq üçün konkret təkliflər verilməlidir".

Prezident İlham Əliyevin elmin problemlərinə xüsusi diqqətlə yanaşması, həm də respublikamızın sürətli iqtisadi inkişaf yolunda olması, geniş maliyyə imkanları qazanması ilə şərtlənir. Neft gəlirləri ilə bağlı dövlət büdcəsinin vəsaitlərinin ildən-ilə artması, təhsil sahəsində məhz maliyyə çatışmazlığı səbəbindən uzun illərdən bəri yığılıb qalmış çeşidli problemlərin məhz hazırkı mərhələdə həlli məsələsini aktuallaşdırır.

Ölkə başçısının hələ 2013-cü il 20 avqust tarixli Sərəncamı ilə AMEA-nın elmi-tədqiqat institutlarında çalışan əməkdaşların məvaciblərinin daha 10 faiz artırılması bu sahəyə göstərilən diqqət və qayğının sistemli səciyyə daşıdığını göstərir. Xatırladaq ki, bu dövlət başçısının son 3 il ərzində



elm adamlarının məvaciblərinin artırılması ilə bağlı üçüncü sərəcamı olmuşdur. Dövlət başçısının hələ 2011-ci il 27 aprel tarixli Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan, dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi tədqiqat müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2011-ci il mayın 1-dən orta hesabla 20 faiz artırılmışdır. Həmin ilin dekabrında isə ölkə başçısı elm adamlarının məvaciblərinin daha 10 faiz artırılması ilə bağlı növbəti sərəncam imzalamışdır. Ümumilikdə, elm sistemində çalışanların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi ötən 11 ildə Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində olmuşdur. Ötən illərdə aspirantların təqaüdləri, alimlik dərəcələrinə görə əlavələr, habelə AMEA-nın müxbir üzvlərinin və akademiklərinin rütbə maaşları dəfələrlə qaldırılmışdır.

Xatırlatmaq lazımdır ki, dövlət başçısı İlham Əliyevin hələ 2008-ci il 10 aprel tarixli «Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında» Sərəncamında da elmin maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsinin vacibliyi əksini tapmışdı. Sərəncamda xüsusi vurğulanırdı ki, ölkədə aparıcı alimlər nəslinin yaşlaşması və gənc nəslin elmə axınının zəifləməsi elmdə kadr potensialının aşağı düşməsi təhlükəsini yaratmışdır. Bütün bunlarla yanaşı, sərəncamda Azərbaycan Respublikasında elmi qurumların strukturunun müəyyənləşdirilməsi, tədqiqatların müasir standartlar səviyyəsində aparılması və maliyyələşdirilməsi, ölkənin elmi kadr potensialının artırılması və onun sosial müdafiəsinin gücləndirilməsi, bütövlükdə elmin inkişafı üzrə milli strategiyanın həyata keçirilməsi, Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunması məsələləri əksini tapmışdır.

Sərəncama əsasən 2009-2015-ci illər üzrə elm sahəsində aparılacaq islahatların, habelə elmin inkişaf strategiyasının konkret proqram modelində hazırlanması üçün hökumət və elm adamlarından ibarət dövlət komissiyası yaradılmışdı. Komissiya tərəfindən hazırlanaraq dövlət başçısının 2009-cu il 4 may tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı» elm sahəsində həyata keçiriləcək islahatların konseptual əsaslarını özündə əks etdirmişdir.

2009-cu ildə respublikada Elmin İnkişafı Fondunun yaradılması elmi tədqiqatların stimullaşdırılmasının yeni maliyyə mexanizmi kimi diqqəti çəkmişdir. Fondun yaradılması fundamental elmi tədqiqatların stimullaşdırılması, ölkənin təbii resurslarının, mədəni və tarixi irsinin öyrənilməsinin gücləndirilməsi, elmin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliliyinin artırılması məqsədi ilə əsaslandırılır.

Ölkə rəhbərliyinin xaricdə kadr hazırlığına xüsusi diqqətlə yanaşması respublikada demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan mükəmməl, çevik və mütərəqqi dövlət idarəçilik sistemi formalaşdırmaq niyyətindən irəli gəlir. Azərbaycan Prezidentinin 2006-cı il 19 oktyabr tarixli «Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında» sərəncamı bu sahədə həyata keçirilən dövlət siyasətində ardıcıllığının və sistemliliyin təmin olunması məqsədi daşımışdır.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında» 2010-cu il 9 fevral tarixli Sərəncamı respublikada elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını, ölkənin elmi kadr potensialının



artırılmasını və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını daha da sürətləndirmək məqsədi daşımışdır. Sərəncamla Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Milli Elmlər Akademiyasına gənc alimlərin Avropanın elmi mərkəzlərinin doktoranturalarında təhsil almaları üçün 500 min (beş yüz min) manat məbləğində vəsait ayrılmışdır. Bu, Azərbaycan elminin beynəlxalq elm məkanın inteqrasiyası baxımından son dərəcə əhəmiyyətli addım olmuşdur.

AMEA-nın infrastrukturunun, maddi-texniki bazasının, iş şəraitinin yaxşılaşdırılması məsələləri də son 11 ildə Prezident İlham Əliyevin daimi diqqət mərkəzindədir. Dövlət başçısının 29 aprel 2011-ci il tarixli «Azərbaycan Milli Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında» Sərəncamı da Akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsinə və mövcud bir sıra problemlərinin həlli məqsədinə xidmət etmişdir. Ötən illərdə Akademiyanın Mərkəzi Elmi Kitabxanasının yeni binasının inşasına başlanmış, Azərbaycan Milli Tarix Muzeyində, Nizami Gəncəvi adına Azərbaycan Milli Ədəbiyyat Muzeyində, Rəyasət Heyətinin binasında təmir işləri başa çatdırılmışdır.

Prezident İlham Əliyevin son illər imzaladığı sərəncamlarla, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun, Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının müasir tələblər səviyyəsində qurulması, kadr potensialının gücləndirilməsi məqsədi ilə zəruri vəsaitlər ayrılmışdır.

Akademiya sistemində həyata keçirilən islahatlar son 2 ildə daha geniş vüsət almış, AMEA-da genişmiqyaslı

struktur islahatlarına başlanılmışdır. Bu islahatların əsas məqsədi Akademiyanın fəaliyyətini mövcud qanunvericiliyin tələblərinə uyğun təmin etmək, hüquqi təminat bazasını möhkəmləndirmək və idarəetmə strukturunu təkmilləşdirməkdir. Təhsil və kadr siyasətinin müasir səviyyədə qurulması, informasiya və elmin kütləviləşdirilməsi sahələrində fəaliyyətin səmərəliliyinin artırılması da islahatların hədəflərindəndir. Bu məqsədlə AMEA Rəyasət Heyətində müasir dövrün idarəetmə sistemlərinə uyğun yeni akademik bölmə və şöbələr yaradılmış, idarəetmə sisteminin müasirləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. İdarəetmədə çevikliyin və aparılan islahatların səmərəsinin artırılması, elmi müəssisələr üçün aktual məsələlərin geniş müzakirəsi, problemlərin səmərəli həll yollarının tapılması məqsədi ilə AMEA Elmi Müəssisələrinin Direktorlar Şurasının yaradılması da mühüm yeniliklərdən biri olmuşdur. İnnovativ Layihələrin Ekspertizası və Koordinasiyası Şurasının yaradılması əldə olunan elmi nəticələrin praktikada tətbiqi istiqamətində aparılan islahatların uğurlu davamıdır.

Elmi-tədqiqatların, əldə olunan innovativ nəticələrin həm ölkə, həm də dünya ictimaiyyətinə çatdırılması AMEA-nın fəaliyyətində mühüm yerlərdən birini tutur. Bununla bağlı akademiya nüfuzlu «Thomson Reuters» jurnalı ilə elmi təcrübələr həyata keçirir. Gənc alimlərinin zəhmətinin stimullaşdırılması son dərəcə vacib məsələlərdən biridir. Bu məqsədlə son illər 8 gənc alimin adı Prezident mükafatına namizəd irəli sürülmüşdür. 2014-cü ildə Prezident İlham Əliyevin dəstəyi ilə 10-dan çox gənc tədqiqatçı Avropanın elmi müəssisələrində fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə təhsil almağa göndərilmişlər. Elmin inkişafına böyük töhfələr verən və mühüm nailiyyətlər qazanan alimlərin yaradıcılığını stimullaşdırmaq məqsədi ilə "Nizami Gəncəvi adına Qızıl medal"ın təsis olunması da mühüm



yeniliklərdən biri olacaqdır. Bundan başqa, hazırda AMEA əməkdaşlarının mənzil problemlərinin həlli, müasir tələblərə cavab verən səhiyyə, ticarət və istirahət mərkəzlərinin yaradılması istiqamətində də mühüm işlər həyata keçirilir.

AMEA-nın həyata keçirdiyi islahatlar onun mühüm elmi-tədqiqat institutlarından biri olan Fəlsəfə və Hüquq İnstitutunda da ciddiliklə nəzərə alınır. Son illərdə institutun ümumi tədqiqat planlarında müasir dövrün aktual fəlsəfi, siyasi və hüquqi problemlərinin tədqiqinə xüsusi diqqət yetirilir, elmi istiqamətlər müəyyənləşdirilir. Birinci elmi istiqamət Azərbaycan fəlsəfə tarixi, ictimai-siyasi, mənəvi-psixoloji tərəqqi, sosial idarəetmənin və vətəndaş cəmiyyətinin formalaşması; qlobal etika və milli əxlaq, ideologiya ilə əxlaqın qarşılıqlı münasibətləri, estetika və mədəniyyət, idrakın, təbiətşünaslığın, qloballaşmanın və informasiya cəmiyyətinin fəlsəfi problemlərini; ikinci istiqamət Azərbaycanda demokratik hüquqi dövlətin formalaşması məsələlərini; üçüüncü istiqamət Azərbaycanda beynəlxalq münasibətlər sistemini və ölkədaxili siyasi prosesləri əhatə edir.

İnstitut hər 3 elmi istiqamət üzrə Azərbaycan və Şərq xalqlarının fəlsəfi və ictimai fikir tarixi; müasir Azərbaycanda yeniləşmə proseslərinin sosial-fəlsəfi və sosial-siyasi problemləri; mənəvi, etik və estetik baxışların, sosial dəyərlər sisteminin inkişaf xüsusiyyətləri; milli və tarixi özünüdərk; gender, dinşünaslıq problemləri və müasir Azərbaycanın mədəni, ideoloji həyatında və ictimai-siyasi proseslərdə onların təzahürü; idrak nəzəriyyəsi, sosial idarəetmənin, təbiətşünaslığın və informasiya cəmiyyətinin fəlsəfi problemləri; geosiyasət və Azərbaycanın beynəlxalq münasibətlər sistemində xarici siyasət strategiyası; müstəqil Azərbaycanın demokratik inkişaf yolları və formaları, ictimai-siyasi proseslərin demokratikləşdirilməsinin sosial və mənəvi faktorları; hüquqi dövlətə keçid dövründə dövlət və hüquq qu-

ruculuğu problemləri və s. məsələləri tədqiq edir. İnstitutun fəaliyyətinin başlıca məqsədi- Azərbaycan xalqının mənəvi mədəniyyətinə, ictimai-fəlsəfi fikrinin tarixinə, fəlsəfə, siyasət və hüquq elmlərinin aktual problemlərinə dair aparılmış elmi tədqiqatların nəticələrini elmi əsərlər kimi nəşr etdirməkdir.

Vaxtilə institutun yetirdiyi alimlər hazırda Rusiyada, Türkiyədə, İran İslam Respublikasında, İsraildə, ABŞ-da və bir sıra başqa ölkələrdə elmi fəaliyyətlə məşğuldurlar. İnstitutun qarşısına qoyduğu vəzifələrdən biri də xarici ölkələrlə elmi əlaqələri genişləndirməkdir. Əməkdaşlarımız Rusiya, Qazaxıstan, Almaniya, Fransa, Türkiyə, İran İslam Respublikası və digər ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda fəal iştirak edirlər.

İnstitut Azərbaycan MEA Rəyasət Heyətinin, Milli Elm Assosiasiyası və Respublika Elm Fondunun təsis etdikləri "Şərq Fəlsəfəsi Problemləri" adlı elmi jurnal çap etdirir. Jurnalın redaksiya heyəti və redaksiya şurası islam regionu fəlsəfəsinin ənənələri və müasir nailiyyətləri ilə elmi ictimaiyyəti və geniş oxucu kütləsini tanış etməyi qarşısına məqsəd qoymuşdur.

Son illər ərzində institutun Rusiya, İran İslam Respublikası, Türkiyə, Ukrayna, Qazaxıstan, Misir, Belarus Respublikası ilə elmi əməkdaşlığı genişlənməkdədir. Buna misal olaraq institutun xarici ölkələrlə birgə keçirdiyi beynəlxalq konfransları göstərmək kifayətdir. 10-dan çox xarici ölkə alimlərinin qatıldığı görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsinə həsr olunmuş «İbn-Ərəbi simpoziumu» (2009), «Muğamın fəlsəfəsi» adlı beynəlxalq konfransı (2009), ənənə şəklini almış, Ulu Öndər Heydər Əliyevin ildönümü ilə əlaqədar keçirilən «Heydər Əliyev qiraətləri; Qloballaşma dövründə mədəniyyətlərin qarşılıqlı əlaqəsi. 2009-2010» Moskva və Bakı Forumlarını, Fransa, Kanada, Türkiyə,



Rusiya və İran alimlərinin iştirakı ilə beynəlxalq konfransı və s. beynəlxalq konfransları göstərmək olar.

Müasir dövrdə intellektual potensial əhəmiyyətinə və gətirdiyi dividendlərə görə bu gün, hətta zəngin təbii sərvətləri belə üstələyir. Hesablamalarına görə, hazırda 1 kq elmtutumlu məhsulun qiyməti 70 ton neftin qiymətinə bərabərdir. Yeni dünya nizamında elmi-informativ biliklər inkişafın mühüm katalizatoruna, innovasion yeniliklərin başlıca təminatına çevrilmişdir. Elmtutumlu informasinın yaradılması, əldə edilməsi, tətbiqi sosial-iqtisadi inkişafın, qlobal rəqabətin, ən başlıca demokratikləşmə prosesinin mühüm amilləridir. Bu baxımdan son illərdə milli gəlir artdıqca, ölkə başçısı İlham Əliyevin respublikamızda elmə, təhsilə, informasiya texnologiyalarına ayırdığı vəsaitlər də artır və bu da insan amilinin və ümumən demokratik proseslərin inkişafı üçün böyük təməl yaradır.

***İlham MƏMMƏDZADƏ***
*AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun direktoru*
*fəlsəfə elmləri doktoru, professor*

## SİYASİ QLOBALİSTİKA BİR ELM KİMİ

Siyasi qlobalistika "ex nihilo" yaranmamışdır: qlobal siyasi nizamın strukturunun öyrənilməsi ilə hələ geosiyasət, geoiqtisadiyyat və geomədəniyyət kimi bir-birinə yaxın və belə deyilən "qlobal tədqiqatlara" (global studies) aid edilən elm sahələri də məşğul olmuş və məşğul olmaqdadırlar.

2012-ci ildə ABŞ-da qlobal tədqiqatlar üzrə fundamental bir elmi əsər – X.Anhayerin, M.Yurgensmeyerin və B.Fesselin redaksiyası altında "Global Studies" adlı ensiklopediya çıxmışdır. Bu elmi layihənin əsas məqsədi fəal inkişaf edən global studies sahəsinin başlıca anlayışlarının standartlaşdırılması idi. "Qlobal tədqiqatlar" dedikdə, ensiklopediya müəllifləri transmilli olan və ya dünyanın bütün regionlarına təsir göstərə biləcək hadisələrin, fəaliyyətlərin, ideyaların, proses və axınların təhlilini nəzərdə tuturlar. Professor Yurgensmeyer qeyd edir ki, qlobal tədqiqatların "çiçəklənməsi" XXI əsrin əvvəllərinə düşür.

Yuxarıda adı çəkilən elmi əsər global studies sahəsinin inkişafında mühüm rol oynayır, lakin bu elmi biliklərin mənbəyində məhz milli qlobal tədqiqatlar məktəbi dururdu ki, onun da mənşəyində tarixi, elmi ədəbiyyatda qlobal inkişafın müxtəlif futuroloji proqnozlarının geniş yayıldığı bir dövrə, XX əsrin 1960-cı illərinin sonundan başlayır.

Müasir rus elmi məktəbi qlobal tədqiqatları üç əsas qrupa bölür:

**1)** Qlobalistika interaktiv bir elm kimi;

**2)** qloballaşma prosesinin tədqiqatları (globalization studies) qloballaşmanın elmi tədqiqinin fənlərarası sahəsi kimi;

**3)** qlobal tədqiqatların özü (qlobal studies) qlobal hadisələrin elmi tədqiqinin multifənlərarası sahəsi kimi.

Burada qeyd etmək lazımdır ki, qlobal tədqiqatların



«nüvəsi» kimi məhz özlüyündə predmeti qarşılıqlı əlaqədə olan və həm də təşəkkül edən qlobal proseslər və sistem anlamına gələn qlobal inkişafdan ibarət olan fənlərarası bir elmdir. İ.V.İlyin qeyd edir ki, qlobal tədqiqatlarda fənlərarsı elmi biliyin (o cümlədən siyasi) Yer planetində ümumplanetar bütövlük və əhəmiyyət kontekstində mövcud olan və inkişaf edən bütün qlobal prosesləri və sistemləri əks etdirən fənlərarası elmi biliyin xüsusi forması istehsal olunur.

Qlobalistika -elmi biliyin qlobal hadisələrin həm nəzəri (fəlsəfi, humanitar, təbiət elmləri, texniki, həm də tətbiqi iqtisadi, siyasi, ekoloji və s.) tədqiqi aspektlərini ehtiva edən elmi biliyin yeni inteqrativ sahəsidir. Mütəxəssislər qlobalistikanın nəzəri-metodoloji əsası kimi bir neçə prinsipial müddəanı önə çəkirlər.

**Birincisi**, qlobal tədqiqatlar bəşəriyyətə onun elmi-texniki tərəqqiyə əsaslanan dəyişdirici fəaliyyəti tərəfindən artan hədələrin tənqidi dərkindən doğmuşdur.

**İkincisi**, qlobalistikanın formalaşmasında böyük rolu sosial-siyasi elmlərin dinamikası nəzəriyyəsi oynamışdır ki, bunun da çərçivəsində qlobal modelləşdirmənin prinsipləri işlənib hazırlanmışdır.

**Üçüncüsü**, elmi biliyin yeni sahəsinin fomalaşmasında siyasi prosesin dialektik tədqiqi metodlarına malik marksist elmi ənənənin (xüsusilə Rusiyada) böyük payı vardır.

**Dördüncüsü**, qlobalistika nəzəriyyəsinin inkişafına V.İ.Vernadskinin əsərləri böyük təsir göstərmiş və hələ də göstərməkdədir. Belə ki, Vernadski tərəfindən hələ 30-cu illərdə irəli sürülmüş biosferin noosferə transformasiyası nəzəriyyəsi faktiki olaraq özlüyündə müasir dövrün qlobal problemlərinin fəlsəfi-siyasi, təbii-elmi və texniki-iqtisadi aspektlərinin iyerarxiyasından ibarətdir.

Özümüzə belə bir sual verək: qlobalistikanın (yuxarıda adıçəkilən nəzəri-metodoloji baza nəzərə alınmaqla) və

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

politologiyanın sintezindən nə almar? Hesab edirik ki, belə bir sintezin məhsulu «məhz siyasi qlobalistikadır ki, onun da ümumi-elmi və universal - təkamül dili siyasi hadisələri və prosesləri öyrənən xüsusi elmi fənlərin məhdudluğunun öhdəsindən gəlməyə kömək edir.

Professor M.A.Vasilikin redaksiyası altında çıxmış «Politologiya» dərsliyində siyasi qlobalistikaya «qlobal problemlərin siyasi aspektləri haqqında biliklər sistemi kimi» tərif verilir. Bu elm «siyasi elmin planetar miqyaslı bu fenomenə», yəni «bəşəriyyətin inkişafının ən vacib faktoruna çevrilmiş qlobal problemlərin dünya tarixində misli görünməmiş kəskinləşməsinə» reaksiyası kimi nəzərdən keçirilir.

Siyasi qlobalistika üzrə ilk tədqiqatlardan birinin müəllifi İ.A.Vasilenko bu elmi belə müəyyənləşdirir: «Siyasi qlobalistika bu gün bəşəriyyətin fasiləsiz dəyişmələri, onun daim və labüd olaraq yeni mövcudluq - elmi, mənəvi, dini, intellektual dəyişmələrinə uyğunlşması haqqında elm kimi çıxış edir». Bu o uyğunlaşmalar, o müvazinət haqqında elmdir ki, onlar bütün dövrlərdə insan varlığının müxtəlif və eyni vaxtda mövcud olan şərtləri arasında öz-özünə bərqərar olurlar: maddi şərtlər, texniki şərtlər, mənəvi şərtlər». Beləliklə, müəllifə görə siyasi qlobalistikanın predmeti «qloballaşma prosesinin onun sivilizasiyaların yaradıcı dialoqu yolu ilə vahid qarşlılıqlı əlaqədə olan dünyanın formalaşması kimi bir tarixi dinamikasında tədqiqidir».

Şübhəsiz ki, siyasi qlobalistikada tədqiqatların fənlərarası xarakteri qloballaşmanın siyasi aspektinin, qlobal proses və problemlərin çoxplanlılığı, eləcə də onların qlobal siyasi sistem üçün mümkün nəticələri ilə şərtlənir.

Biz hesab edirik ki, siyasi qlobalistika özlüyündə qlobal tədqiqatların fənlərarası istiqamətlərindən birindən, ümumi qlobalistikanın qlobal siyasi problemləri və onların qarşılıqlı təsiri və qarşılıqlı əlaqəsində qlobal siyasi inkişafın tendensiyalarını, eləcə də qlobal siyasi sistemin formalaşması və təkamülü mexanizmlərini öyrənən bölməsindən ibarətdir.



Başqa sözlə desək, siyasi qlobalistikanın predmeti qlobal siyasi inkişaf, yəni qarşılıqlı əlaqədə olan və həmtəkamül edən qlobal siyasi proseslərin və sistemlərin tam məcmusu; obyekti - qlobal siyasi problemlər, proses və sistemlərdir.

Siyasi sistemin özülüyündə dövlət və ictimai təşkilatların, birliklərin, hüquqi və siyasi normaların, cəmiyyətdə siyasi hakimiyyətin təşkili və həyata keçirilməsi prinsiplərinin məcmusundan ibarət olmasından çıxış edərək, biz «qlobal siyasi sistem» tərifini ifadə edə bilərik.

Qlobal siyasi sistem - dünya siyasətinin aktorlarının qlobal stratifikasiyası sistemi, siyasi hakimiyyətin və idarəçiliyin qarşılıqlı fəaliyyət göstərən və yaxud da qarşılıqlı asılı olan institutlarının məcmusudur. Başqa sözlə, biz öz strukturu (arxitekrturası) və iyerarxiyası olan qlobal siyasi nizamın elementlərinin sistemindən danışırıq.

Qlobal siyasi təkamül faktından çıxış edərək, qeyd etmək istərdik ki, qlobal siyasi strukturlar dəyişikliklərə məruz qalmışlar. Bununla əlaqədar olaraq biz artıq «keçən minillik ərzində qlobal siyasi arxitekturanın aşağı dərəcəli birlik vəziyyətindən və ən sadə strukturdan bu gün kifayət qədər yüksək birlik və möhkəm struktura qədər xeyli dəyişdiyini» görməyə bilmərik. Hələ bundan başqa qlobal siyasi nizamın bu inkişafı sadəcə cəmiyyətdə münasibətlər sisteminin bəsit dəyişməsi yox, artan əhali üçün məqbul ola biləcək təşkilat formalarının istiqamətli axtarışı olmuşdur. Bundan başqa qlobal siyasi nizamın inkişafı o mənada təkamülçü olmuşdur ki, o ümumi niyyətin postulat və məqsədyönlülük kimi qəbul edilməsini tələb etməyən «təbii» sınaq və səhv prosesi kimi baş tutmuşdur (onu təkamülün genişlənməsi prosesi kimi nəzərdən keçirmək olar).

Siyasi qlobalistikasının predmet sahəsinin müəyyənləş-

dirilməsi zamanı elmi ictimaiyyətin rəyi ən əvvəldən ayrılmışdı. Ən başlıca iki yanaşmanın - dar və geniş yanaşmanın hüdudları dəqiq işarələndi: bir sıra alimlər tədqiqatların predmetini aktual problemlərin öyrənilməsində, digərləri isə insan varlığının təşəkkül tapan bütövlüyünün araşdırılmasında görürdü.

Əgər bütün mövqeləri birləşdirsək, onda siyasi qlobalistikanın predmet sahəsinə bunları daxil etməliyik:

- qlobal siyasi inkişafın mahiyyəti, onun mümkün modelləri;
- dünya siyasi sisteminin qlobal siyasi sistemə transformasiyası;
- qlobal siyasi sistemin formalaşdırılması və inkişafı, onun mümkün modelləri;
- qlobal siyasi nizamın strukturu və iyerarxiyasını;
- qlobal siyasi proses və problemlərin mahiyyəti və xüsusiyyətlərini, onların qloballıq meyarlarını;
- siyasi qloballaşmanın mahiyyət və tendensiyalarını, onun mümkün modellərini.

Siyasi qlobalistika tədricən siyasi və sosial-humanitar problemlərin geniş dairəsini öyrənən prinsipcə yeni elmi istiqamət, beynəlxalq siyasəti, iqtisadiyyatı, ideologiyanı və sosial-humanitar münasibətlər sferasını əhatə edən siyasi və ictimai praktika sferası kimi təşəkkül tapır.

Beləliklə, qlobalistikanın bizim nəzərdən keçridiyimiz istiqamətləri qlobal dünyada cərəyan edən qlobal siyasi transformasiyaların, köklü səbəblərini, qlobal siyasi proseslərin mahiyyət və məzmununu, qlobal siyasi problemlərin xarakterini və onların həllinin optimal yollarını tədqiq edirlər.

Ümumən qlobalistikanın, xüsusən də siyasi qlobalistikanın mühüm vəzifələri bunlardır:

1) fənlərarası ünsiyyət dilinin formalaşdırılması, qlobal



fenomenləri əks etdirən açar anlayışların (terminlərin) və kateqoriyaların işlənib hazırlanması və dəqiqləşdirilməsi;

2) siyasi qlobalistikanın elmi statusunun müəyyənləşdirilməsi;

3) prioritet tədqiqiat istiqamətlərinin aşkarlanması;

4) qlobal siyasi problemlərin, proseslərin və sistemlərin öyrənilməsi üzrə metodoloji prinsiplərin və yanaşmaların işlənib hazırlanması.

Qlobal siyasi sistemlərin tədqiqat metodologiyası onların mahiyyətinin, genezisinin və inkişaf perspektivlərinin başa düşülməsi üçün fundamental əhəmiyyət əhəmiyyət daşıyır və buna görə də xüsusi diqqət tələb edir. Qlobal tədqiqatların aparılması üzrə bir sıra metodoloji yanaşmalar vardır ki, onlar da İ.V.İlyinin «Qlobalistika siyasi proseslər kontekstində» (M.,2010) adlı moinoqrafiyasında ətraflı nəzərdən keçirilmişlər. Qlobal tədqiqatların siyasi istiqamətinin metodoloji əsasını həm baza ümumelmi xarakterli, həm də siyasi qlobalistikanın predmet sahəsinin profil nəzərdən keçirilməsinə yönələn fənd və metodların məcmusu təşkil edir. Ənənəvi (ümumelmi) metodlara komplekslilik, obyektivlik, sistemlilik və bütövlük kimi elmi prinsiplərlə şərtlənən metodları aid etmək olar. Xüsusi olaraq, öyrənilən obyektin əsas əlamətlərini (bizim halda - qlobal siyasi problemlərin, proseslərin və sistemlərin xüsusiyyətlərini) aşkarlamağa kömək edən *tipoloji metodu* ayırmaq lazımdır. Müqayisəli-tarixi metod ictimai inkişafın müxtəlif mərhələlərində qlobal siyasi proseslərin / sistemlərin inkişaf dinamikasının nəzərdən keçirilməsini təmin edir. Yuxarıda adları çəkilən metodlar siyasi cəhətdən önəmli hadisənin eyni zamanda gerçək, tarixi və dövri zaman çərçivəsində nəzərdə keçirilməsini öngörən sosial-siyasi fenomenlərin temporal təhlilinin profil metodologiyasının reallaşdırılmasım əhəmiyyətli dərəcədə təmin edirlər.

Tədqiqatın profil metodlarından biri qlobal siyasi sis-

temin mədəni-informasiya, sosial-psixoloji, iqtisadi və siyasi-hərbi səviyyələrini ahəng və qarşılıqlı əlaqədə nəzərdən keçirməyə imkan verən *çoxaspektli iyerarxik təhlildir.* Dünya siyasətinin qlobal aktorlarının onların hakim təsisatlarının eyniyyətindən, və həm lokal-regional, həm də qlobal əhəmiyyət daşıyan konkret qarşılıqlı əlaqə / konfrontasiya aktının təzahür və nəticələrinin situativ xarakterindən çıxış edərək sistemləşdirilməsini nəzərdə tutan sistem-siyasi metod fövqəladə dərəcədə/ vacibdir. Digər yanaşma və metodların içərisində stuktur-funksional, komparativ təhlil, kontent-analiz və s. qeyd etmək lazımdır.

Siyasi qlobalistikada tədqiqatın başlıca profil metodu ümumplanetar miqyaslı siyasi proseslərin qlobal inkişaf dinamikasının riyazi modelləşdirilməsi və proqnozlaşdırılmasıdır.

Qlobal siyasi proseslərin və problemlərin tədqiqatına yanaşmaların içərisində məşhur «çağırış-cavab» metodologiyasını xüsusi olaraq seçmək lazımdır. «Çağırış» meydana çıxmaqda olan qlobal mədəniyyətdən - əsasən qərb və təbii ki, öz mənşəyinə görə amerikan mədəniyyətindən - çıxış etməli və elitalar və geniş kütlələr səviyyəsində bütün qalan dünyada yayılmalıdır. L.Berger yazırdı ki, «çağırış» edilmiş cəmiyyətlər tərəfindən «cavab» «birgə mövcudluq» və «sintez» kimi aralıq dərəcələri ilə «qəbuletmə» və «inkar» şkalası üzrə qiymətləndirilir. Baxmayaraq ki, siyasi istiqamət müasir qlobalistikada müstəqil trend kimi hələ formalaşma mərhələsindədir, biz deyə bilərik ki, qlobal siyasi tədqiqatların (global political studies) metodoloji prinsipləri bunlardır:

1) qlobal siyasi sistemin inkişaf variantlarının proqnozlaşdırılması;

2) qloballaşma şəraitində milli dövlətlərin və regional sistemlərin qarşılıqlı fəaliyyət formaları;

3) qlobal idarəçilik institutlarının formalaşdırılması;



4) qlobal dünya subyektlərinin iyerarxiyasının formalaşdırılması;

5) qlobal dünyanın təşəkkül tapan sturkturu arxitekturası;

6) qlobal dünyanın geosiyasi məkanının transformasiyası və onun yeni konfiqurasiyasının təşəkkülü;

7) ayrıca planetar problemlərin və onların həm beynəlxalq münasibətlər sistemi, həm də qlobal siyasi proseslərlə qarşılıqlı fəaliyyətinin politoloji təhlili;

8) dünya birliyinin konkret regionlarında qloballaşmanın təzahürlərinin və onların orada siyasi vəziyyətə təsirinin öyrənilməsi.

## ФОРМИРОВАНИЕ ПОЛИТИЧЕСКОЙ СОЦИОЛОГИИ КАК НАУКИ

С учетом тех процессов, которые происходят в общественной практике и общественном сознании, связаны, в первую очередь, с демократизацией общественной жизни, "вторжение" социологии в политическую сферу (сферу политических отношений) представляется делом чрезвычайно актуальным.

Конечно, формирование политической социологии идет не "с нуля". Есть опыт социологических исследований в этом направлении в различных странах, есть значительные публикации, соответствующая научная специализация.

Именно с учетом этого опыта следует рассматривать проблемы институционализации политической социологии в нашей стране, определение ее места в системе общественных наук.

Как специализированная отрасль науки политическая социология утвердилась на Западе в 30 — 50-е годы XX в. Однако элементы социологического подхода к явлениям и процессам политической жизни выявляются уже в научной мысли Древнего Востока, античной Греции и Рима, особенно в трудах Платона и Аристотеля, затем у мыслителей позднейших эпох — Н. Макиавелли, Ж. Бодена, Т. Гоббса, Ш. Л. Монтескьё, А. Токвиля и др. По мнению многих западных ученых (Р. Бендикс, С. Липсет и др.), основателями политической социологии как науки были К. Маркс и М. Вебер. В ее формировании значительную роль сыграли В. Парето, Г. Моска, П. Сорокин, Р. Михельс, Т. Парсонс, Г. Лассуэлл, С. Липсет, М. Дюверже, а в марксистском направлении научной мысли — Г. Плехa-



нов, В. Ленин, А. Грамши, К. Каутский и др.Современная политическая социология использует в исследованиях различные методологические подходы, собственный понятийный аппарат. Границы исследований, проводимых политической социологией как специализированным направлением науки, не всегда четко обозначены. Социологи, подчеркивая, что политическая социология в той или иной мере связана с функционированием политических институтов, концентрируют внимание на восприятии населением власти и различных форм ее существования и развития. Политическая социология объясняет эти явления с позиций политического сознания и политического поведения как всего населения, так и различных социально-классовых групп. Современная политическая социология стремится преодолеть ранее существовавшее противопоставление государства и общества: государство рассматривается как один из политических институтов, а политические институты как разновидность социальных институтов, взаимоотношения внутри их и с другими институтами всегда в той или иной мере имеют политическое звучание.

В XX в. развитие политической социологии характеризуется использованием различных подходов к изучению политических процессов: институциональный (Дж. Брайс, А. Бентли), бихевиористский (Ч. Мерриам, Д. Вальдо, К. Боулдинг), постбихевиористский (Р. Ч. Миллс, С. Додд), моделирования (Д. Истон, К. Дойч, Г. Алмонд), ценностный (Г. Лассуэлл, Л. Хоффман, Ф. Бро). Характерной особенностью политической социологии является ее национальная специфика. Если в США исследования носят ярко выраженный эмпирический характер и касаются различных аспектов политической власти и конфликтов, то в ФРГ они были тесно связаны с госу-

дарствоведением и политической философией, а в Великобритании — с политической историей и политической экономией. В послевоенный период, особенно в 60-х годах и позже, в ряде стран Запада в университетах стали создаваться кафедры и вводиться учебные программы по социологии политики, политической социологии и др.

Политическая социология в СССР XIX —начала XX вв.— это, несомненно, часть мировой науки, тем более что обмен идеями отечественных и западных ученых осуществлялся тогда беспрепятственно и интенсивно. В то же время она имеет ряд отличительных черт, связанных с историческими особенностями общего положения СССР.

Развиваясь под сильным влиянием господствующих западных учений, советская политическая социология не только находилась на уровне мировой науки в целом, но и зачастую опережала ее, что было связано в первую очередь с остротой социальных противоречий общества.

В СССР на протяжении многих лет проблемы политической социологии исследовались и преподавались преимущественно в рамках исторического материализма, научного коммунизма (теории социализма) и частично в рамках правовых наук. С 1990—1991 гг. наметился переход к специализации и институционализации политической социологии как науки и учебного предмета. В отдельных вузах России и других стран СНГ созданы кафедры политической социологии, где преподается самостоятельный курс этой науки.

Предмет политической социологии как науки и научной дисциплины является темой незавершенных дискуссий. Это связано с тем, что политическая социология сформировалась как результат синтеза социоло-



гических и политических знаний, социологизации политической науки, развиваясь в рамках каждой из этих наук. Поэтому она определяется иногда как дочерняя дисциплина социологии и политологии.

Понятие "социология политики" безошибочно определяет участок, подразделение общего поля социологии так же, как, например, социология религии, отдыха и т. д. Используя его, мы уточняем, что подход, область или фокус исследования социологичны.

Понятие "политическая социология", напротив, нечетко. Оно может употребляться как синоним социологии политики, но может означать и что-либо другое. Употребление понятия политической социологии делает фокус подхода неясным. Многие европейские исследователи, подобно Морису Дюверже, полагают, что "в самом общем смысле эти два понятия (политическая социология и политические науки) синонимичны".

Определяя линию, разделяющую социологию и политическую науку, Смелсер утверждает, что фокус научной дисциплины... может быть охарактеризован перечнем зависимых и независимых переменных, которыми занимается исследователь. Социология может быть определена как дисциплина, которая предпочитает в качестве объясняющих переломных социально-структурные условия. Соответственно, политическая наука может быть определена как наука, предпочитающая использовать в этих целях политико-структурные условия. Бендикс и Липсет придерживаются этой же точки зрения, утверждая, что политическая наука начинает с государства и исследует, как оно воздействует на общество, а политическая социология начинает с общества и изучает, как оно влияет на государство.

Можно также утверждать, что независимыми переменными причинами, детерминантами или факторами для социолога являются в основном социальные структуры; в то время как независимыми переменами-причинами, детерминантами или факторами для политических исследователей являются в основном политические структуры.

После разделения политической науки и социологии встает вопрос о наведении мостов через пропасть, их разделяющую, — мостов интердисциплинарных. Политическая социология является одним из таких связующих мостов. Она — междисциплинарный гибрид, в котором должны сочетаться социальные и политические объясняющие переменные.

Следует признать, что предложенное определение политической социологии в значительной степени нормативно. Создание политической социологии как подлинно междисциплинарного подхода, как результат сбалансированного перекрестного соглашения между социологами и политологами является скорее задачей будущего, чем характеристикой сегодняшнего ее состояния. В действительности многое из того, что определяется как "политическая социология", — это не что иное, как социология политики, незнакомая с политической наукой.

Политическая социология сегодня представляет собой зачастую "социологическую редукцию" политики. Этот подход так же легитимен, как и остальные, но мы будем именовать его "социологией политики". В своей часто цитируемой энциклопедической статье Яновиц утверждает, что наряду со стратификационным подходом всегда существует и институциональный подход" к политической социологии, определенный влиянием Вебера, у которого "политические институты являются...



независимыми источниками социетальных изменений.

Политическая социология рождается только тогда, когда социологический и "политологический" подходы сочетаются и пересекаются. Если "социология политики" имеет дело с неполитическими причинами того, почему люди в политической жизни поступают именно так, то политические социологи должны для выяснения этого включать и политические причины. Подлинная политическая социология в связи с этим является междисциплинарным прорывом, занимающимся поиском широкомасштабных моделей, включающих в качестве переменных данные каждого составляющего компонента.

Мы живем во все более политизирующемся мире. Это не просто означает, что политическое участие и/или политическая мобилизация становятся всемирным феноменом. Это означает прежде всего, что власть власти возрастает огромными темпами, сравнимыми с темпами роста технологии в отношении как манипулятивных и принудительных возможностей государственной власти, так и ситуации отсутствия таковой. Чем больше роль политики, тем меньше роль "объективных факторов". Все наши объективные долженствования все в большей мере подчинены и обусловлены политической неопределенностью. Тем выше в этих условиях значимость политических наук, способных предсказать эту неопределенность.

Как рассматривают предмет этой науки современные исследователи, какие точки зрения наиболее часто встречаются в этой связи, какие тут возможны подходы?

1. Политическая социология определяется как социологическое объяснение проявления власти, как такая интерпретация общей социологической теории, которая проблеме власти отводит центральное место(1; с.21-22) (Ежи Вятр). 2. Как наука, занимающаяся обще-

ственными основами власти во всех институционализированных секторах общества(1; с. 423) (Моррис Яновиц). 3. Как дисциплина, изучающая взаимоотношения между обществом и государством, между социальным строем и политическими институтами(2; с. 204) (Сеймур Мартин Липсет). 4. Как приложение общей системы отсчета переменных и объяснительных моделей социологии к исследованию комплекса различных видов политической деятельности и политического сознания (по аналогии с подходом Дж. Н. Смелзера к определению экономической социологии). 5. Как ветвь социологической науки, раскрывающая отношение общества к государству и институтам распределения и формирования власти, которое проявляется прежде всего в направленности политического сознания и политического поведения. "Политическая социология, — отмечают Ж. Т. Тощенко г и В. Э. Бойков, — призвана ответить на вопрос: как осознаются индивидом, социальными группами и слоями, партиями и общественными организациями существующая политическая реальность, система властных отношений, их политические права и свободы. Это дает основание представить, как гражданское общество взаимодействует с политическими институтами, структурами"(3; с.9). 6. Как "наука о взаимодействии между политикой и обществом, между социальным строем и политическими институтами и процессами. Она выясняет влияние остальной, неполитической части общества и всей социальной системы на политику, а также ее огромное воздействие на свою окружающую среду"(4; с. 32). Как бы ни отличались подходы к предмету политической социологии, ясно, что речь идет об изучении влияния социальных отношений (социальной сферы) на политические (политическую) и политических на



социальные, иначе говоря, о диалектике их взаимодействия и взаимовлияния. Последнее проявляется в политической деятельности и политическом поведении людей, составляющих те или иные социальные общности и имеющих свои специфические интересы, содержание которых предполагает создание и функционирование специальных политических и общественных структур, институтов, организаций.

Политические социологи должны сосредоточиваться на рассмотрении того, как общество воздействует на государство, изучая "силовое поведение" во всех его проявлениях и во всей совокупности инструментов, с помощью которых оно реализуется. Это практически делает политическую социологию тождественной всей социологии. На практике, однако, политические социологи пытаются концентрировать внимание на "силовом поведении" в той степени, в какой это позволяет понимать специфику и способ работы политической системы.

Большое количество используемых в социальных науках теорий узки по сфере исследования. Мертон определил их как "теории среднего уровня"(5; р. 72). Это теории узкого круга явлений — выбор электората, иерархия политических партий, революций и т. д. Они касаются лишь малых сегментов социальной жизни. Другие теории могут рассматривать более широкие проблемы, но на сегодняшний день их уровень оставляет желать лучшего. Таким образом, политические социологи заимствуют свой концептуальный аппарат у социологов; в основном это идея о сети социальных взаимосвязей, исследуемых с помощью таких понятий, как роль, норма, ценности, социальная структура и стратификация, межпоколенная их передача, и понятия организации. Данные понятия связаны между собой в теориях большей или меньшей сложности и степе-

ни логической строгости.

Не вызывает сомнений, что идущий в обществе политический процесс социально обусловлен, и все, что связано с ним, начиная от распределения власти между различными государственными и общественными институтами и кончая политико-пропагандистской деятельностью, связано с теми или иными социальными группами, их статусом, ролью, интересами, их политической активностью.

Только изучая повседневную деятельность политических институтов на основе такого подхода, можно выявить систему связей и зависимостей, закономерности и тенденции в функционировании политических институтов, понять причины их неэффективности, приводящие к политической нестабильности и конфликтам.

Сказываются, конечно, и недостаток политической культуры, и политическая неопытность масс, позволяющих втянуть себя в межнациональные и другие конфликты, не умеющих своевременно разобраться в истинных целях тех или иных политических лидеров.

Политическая социология дает обобщенное знание того, как то или иное социальное изменение в социальной структуре, мобильности, статусе групп и т. п. сказывается на функционировании политической системы в целом или ее какого-то элемента. Она позволяет выявить социальные факторы, как способствующие политическому согласию, политической стабильности, так и вызывающие различного рода "дисфункции", срывы, напряженность, политический экстремизм в тех или иных формах, политические риски.

Характеризуя исследовательский потенциал политической социологии, можно попытаться выделить ключевую категорию в ее понятийном аппарате. Если, например, в политической экономии К. Маркса центральной явилась категория "товар", в социологии — категория "социальное", в экономической социологии — категория "социально-экономическое", то в политической социологии в качестве таковой может рассматриваться понятие "социально-политическое". Оно помогает увидеть и понять смысл других, во многом производных от него категорий, имеющих "стыковой" характер. Данная категория ориентирует на выявление социальных факторов, условий, связей, объясняющих направленность и основной смысл политической деятельности тех или иных субъектов. Нередко в науке рассматриваются политическая сфера (политические отношения) и экономическая сфера (экономические отношения) как непосредственно связанные субстанции и игнорируется то, что их опосредует — социальная сфера (социальные отношения). Ни экономическая, ни политическая деятельность не могут быть правильно поняты, если за рамками научного анализа останутся "действующие субъекты", т. е. социальные общности с их специфическими интересами и механизмами взаимодействия. Изучение социальной детерминированности политических отношений и политической деятельности, выявление закономерностей взаимовлияния политической и социальной сфер в конкретных исторических условиях и является предметом политической социологии.

Однако такой подход требует некоторых уточнений. Распространенность вышеназванных категорий свидетельствует не только о "включенности" социального в другие виды отношений, но и об известном "примате" социального как такой качественной определенности, которая выражает сущностную сторону в деятельности тех или иных субъектов (каких бы сторон обществен-

ной практики они ни касались) как носителей определенного способа взаимодействия людей (общностей, институтов, организаций).

Этот способ совместной деятельности (взаимодействия) людей проявляется в разных ее сферах, но какие-то сущностные стороны, свойственные социальным общностям, обязательно при этом "присутствуют". Удачным, на наш взгляд, является следующее определение этой категории: "Социальное — это совокупность тех или иных свойств и особенностей общественных отношений, интегрированная индивидами или общностями в процессе совместной деятельности (взаимодействия) и конкретных условиях и проявляющаяся в их отношениях друг к другу, к своему положению в обществе, к явлениям и процессам общественной жизни"(6; с. 27). Это относится в полной мере и к политической сфере (политическим отношениям), где интересы и способы борьбы за претворение разных социальных общностей особенно видны.

### Литература


См.: Вятр Е. Социология политических отношений. М., 1979

См.: Американская социология. М., 1972

Тощенко Ж.Т., Бойков В.Э. Политическая социология: состояние, проблемы, перспективы. Политическая социология: проблемы становления. Информационные материалы. Вып.1.М., 1990

Пугачев В.П., Соловьев А.М. Введение в политологию: Учебник для вузов. М., 1999

Mertol R. K. Social Theory and Social Stucture. 2-nd ed. Glencoe, 1968

Социология. Г.В., Осипов Ю.П., Коваленко Н.И, Щипанов. М., 1990




## AZƏRBAYCANDA SİYASİ SOSİOLOGİYANIN YARANMASI VƏ TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ
### (*XIX əsrin sonu XX əsrin əvvəlləri*)

**Siyasi sosiologiya elmi nədir və bizə nə üçün lazımdır?**

Siyasi sosiologiyanın tarixi qədimdir. Onun vətəni antik Yunanıstan və Romadır. Aristotel özünün «Politika» (Siyasət) əsərində ilk dəfə olaraq bu termini işlətmişdir. Lakin siyasət məvhumu hələ ona qədər də mövcud idi. Onun tarixi dövlətin tarixilə üst-üstə düşür. Platon özünün «Dövlət» və «Qanunlar» adlı əsərlərində siyasət haqqında müfəssəl məlumat verir. Orta əsrlərdə islam şərqində mütəfəkkirlərin əsərlərində siyasət, siyasi münasibətlər, siyasi vəziyyət, siyasət adamları və s. haqqında zəngin nəzəri ədəbiyyat mövcuddur. Əl Fərabi, Nizamül-mülk, İbn Xaldun, Nəsirəddin Tusi və b. siyasəti hakimiyyətlə, dövlətlə, hökmdarların fəaliyyətlərilə əlaqələndirmişlər. İntibah dövrü Avropasında siyasət elmi artıq real siyasəti əks etdirməyə başlayır və onun əsas ideoloqu kimi Nikola Makiavelli çıxış edir. Makiavelliyə görə dövlət və hökmdar real siyasətin əhəmiyyətini qiymətləndirməli və əxlaqla onun münasibətində birinciliyi siyasətə verməlidir.

Yeni tarixi dövrdən etibarən Avropada güclənən liberal dəvərlər uğrunda mübarizə, azadlıq və hüquq bərabərliyi ideyaları hakimiyyətin bölünməsi zərurətini ortaya qoydu. Burjua mütəfəkkiriəri və maarifçiləri siyasəti liberallaşdırmaq uğ-runda mübarizəyə qoşuldular. Bu hərəkatın fonunda da siyasət haqqında elm olan politologiya da xüsusi diqqət mərkəzinə çevrilmişdir. Siyasəti öyrənən müxtəlif cəmiyyətlər, mərkəzlər, mətbuat orqanları, tədris müəssisələri və s. yaranmağa başla-mışdır. Sosiologiyanın tədqiq və tədrisilə ilkin olaraq ABŞ, daha sonra isə Avropa ölkələri məşğul olmağa başladılar. SSRİ-də isə bu elm «burjua elmi» kimi qiy-

mət-bndirilmişdi və ona görə də bu fənnin tədrisi bizdə ABŞ və Avropadan gec başla-mışdır.

Azərbaycanda siyasi sosiologiya elmi XX əsrin 90-cı illərində təşəkkül tapsa da siyasi-dövlətçilik ideyaları qədim tarixə malikdir. Hələ orta əsrlər müsəlman şərqində siyasi sosiologiya sahəsində mühüm mülahizələr söylənmişdi. İnsanlar despotik siyasi rejimlərdə, cəmiyyətdə ədalətsizliklərə məruz qaldıqlarından adil hökmdar, ədabtli dövlət və cəmiyyət ideyaları uğrunda mübarizəyə qalxırdılar.

Orta əsrlərdə Müsəlman Şərqində siyasət elminin inkişafında Xacə Nizamül-mülk Həsən ibn Əlinin (1063-1072) «Siyasətnamə» əsəri xüsusi yer tutur. Onun 50 fəsildən ibarət həmin əsəri Azərbaycanın Səlcuqilər imperiyası tərkibində olduğu illərdə yazıldığından bizim siyasi fikir tariximiz üçün də qiymətlidir. Əsər orta əsrlərin hüquq qanunlarını, idarətmə sistemini, siyasi rejimini və hərbi hakimiyyə-tini, daxili və xarici siyasət məsələlərini əks etdirir. Nizamülmülkün siyasi görüşlə-rində hakimiyyət və əxlaq problemləri müstəsna yer tutur. "Siyasətnamə"nin müəllifi dövlətin ədalətli olmasını idarəçilikdə mühüm əxlaqi meyar sayır.Azərbaycanda siyasi biliklərin formalaşmasında Nizami Gəncəvinin mühüm rolu olmuşdur. Mütəfəkkirin «İskəndəmamə» əsərində təklif etdiyi adil şah və əda-lətli cəmiyyət modelləri Avropa ictimai-siyasi fikrinə, ilk utopik sosialistlərdən To-mas Mora və Tommazo Kompanellaya, müxtəlif «ictimai müqavilə» nəzəriyyələri-nin yaranıb meydana gəlməsinə ideyaca güclü təsir göstərmişdir. Höte özünün «Şərq-Qərb divanı»nda Nizaminin siyasi ideya irsində ədalət və dövlət məsələləri-nin mühüm əhəmiyyətini qeyd etmişdir.Azərbaycan siyasi fikrində M.F.Axundovun sosial-siyasi irsi mühüm mərhələdir. Siyasi fikir tədqiqatçıları, məs., M.B.Məmmədzadə, H.Baykara, Y.V.Çəmənzəminli və b. qeyd edirlər ki, «milliyyət ideyası və fikri» ən əvvəl M.F.Axundovun, sonralar isə



H.B.Zərdabi və Əlibəy Hüseynzadənin əsərlərində azərbaycanlıların milli-siyasi şüurunun formalaşmasının mənbəyi kimi təqdir edilmişdir. Z.B.Göyalp, F.Köçərli yeni dövr Azərbaycan yeniləşmə hərəkatını «Axundov mərhələsi» adlandırırlar.O dövrdə Qərb ideyaları Şərqə, Qafqazda Rusiya və İran-Türkiyə vasitəsi ilə yayılırdı. Burada yayılan yeni qabaqcıl fikirlər regionun xalqlarının məfkurəsinə mütərəqqi təsir göstərirdi. Həmin dövrdə Qərb ölkələrindəki ideya-siyasi proseslər öz əksini Azərbaycan ictimai fikrində də taparaq ölkədə formalaşmaqda olan yeni mütərəqqi ziyalılar zümrəsinin şüuruna sirayət edirdi. A.A.Bakıxanov, M.F.Axun-dov, H.B.Zərdabi, Ə.B.Hüseynzadə, Ə.Ağayev, C.Məmmədquluzadə və onlarca digər ictimai-siyasi fikir nümayəndələri Qərbdə cərəyan edən siyasi prosesləri diqqətlə izləyir, millətin sosial inkişaf yolunu Qərb ictimai-siyasi dəyərlərinə qovuşmaqda görür, xalqın siyasi mədəniyyətə yiyələnməsinin yollarını axtarırdılar. Avropada və Rusiyada parlament, Konstitusiya, vətəndaş azadlıqları, insan hüquqları və s. haqqında ideyalar Azərbaycan ziyalılarını da düşündürürdü. «Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktub» və «Cəlalüddövlənin ona göndərdiyi cavab» əsəri M.F.Axundovun siyasi-hüquqi ideyalarının əks olunduğu ilk böyük əsəridir. 1869-cu ildə İranın Londondakı səfiri Hacı Möhsün xana «şəxsi-naməlum» imzası ilə göndərilmiş bu əsərdə mütəfəkkir siyasət və cəmiyyət problemlərinə öz münasibətini bildirir. M.F.Axundov "Aldadılmış Kəvakib" əsərində siyasi fikir tariximizdə müasir ədalətli hökmdar problemini ön sıraya çəkmişdir. Hakimiyyətin sadə xalqın içindən çıxmış Yusif Sərrac kimi sənətkara tapşırılması, Yusif Sərracın qısa bir müddətdə həyata keçirdiyi siyasi-inzibati islahatlar və onların hakim sinfin mənafelərilə ziddiyyət təşkil etməsi nəticəsində hakimiyyətdən devrilib yenidən şah Abbasla əvəz olunması ilə M.F.Axundov yaşa-

dığı cəmiyyətin liberal islahatlar üçün hələ yetişmədiyini gös-tərmək istəmişdir. Xalq Konstitusiyanın və demokratiyanın, despotizmin və respublikanın, monarxiyanm və tiraniyanın siyasi hakimiyyətinin zidd mahiyyətini dərk etməli, ölkəsinin siyasi rejimini özü seçməlidir. O, «Con Stüart Mill azadlıq haqqında» məqaləsində ingilis aliminin siyasi azadlıq haqqında fikirlərinin konkret siyasi mahiyyətini açıqlayır.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın ictimai həyatında can-lanma və yeniləşmə hiss olunmağa başladı. Qafqazda, eləcə də Azərbaycanda mü-tərəqqi ziyalılar dünyada və xüsusilə Rusiyada baş verən sosial-siyasi proseslərə pozitiv reaksiya verirdilər. Azərbaycanın ümumrusiya iqtisadi bazarına cəlb olun-ması, iqtisadiyyatın və xüsusilə neft sənayesinin inkişafı formalaşmaqda olan milli burjuaziyanın siyasi ideyalarla mübarizə meydanına çıxmasına sosial şərait yara-dırdı. Bakı tədricən Rusiyadakı siyasi hadisələrin ağırlıq mərkəzlərindən birinə çevrildikdə siyasi cəhətdən təşkilatlanmağa meylli sosial qruplar çarizmin milli və dini zülmünə qarşı milli istiqlal çağırışları ilə çıxış edir, Rusiya dövlətindən islam— türk xalqları üçün əvvəlcə muxtariyyət, sonralar isə milli müqəddərat tələb etməyə başladılar. M.F.Axundov, H.Zərdabi. N.B.Vəzirov, C.Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, S.M.Əfəndiyev, Y.B.Çəmənzəminli, Sabir, Ə.B.Haqverdiyev, N.Nərimanov kimi demokratik məfkurəli ziyalıların əsərlərində inkişaf etdirilən respublikaları» ifadəsini işlətmişdir. Lakin bu siyasi fikirlər utopik xarakterli olduğundan həyata keçməyəcək xəyaldan başqa bir şey deyildi. N.Nərimanov mərkəzin rus-erməni agenti L.Mirzəyan kimi qatı millətçilərin əhatəsində milli məsələdə hakim rus şovinizminin siyasi mahiyyətini tənqid edirdi. V.İ.Leninə yazdığı məktubunda Azərbaycanda milli siyasətin düzgün yeridilməməsini göstərirdi.

Xalqımızın dövlətçilik və parlamentarizm tarixində ikinci respublika Azərbaycan Sovet Sosialist Respublikası (ASSR) sosial-siyasi qüsurlarına və avtoritar xüsusiyyətlərinə baxmayaraq, onun mövcudluq illəri (70 il) siyasi tariximizin ayrılmaz hissəsidir. Siyasət sahəsində hakim marksist ideologiyanın və Kommunist Partiyasının xalqa zidd fəaliyyətinə baxmayaraq mütərəqqi ideyalar da özünə geniş yer ala bilmişdi.



Azərbaycanda kommunist rejimi siyasi fikrin azad inkişafına imkan verməmişdir. Prezident Heydər Əliyev hələ respublikaya başçılıq etdiyi illərdə mümkün qədər azad olmaq, xalqı da müstəqilliyə alışdınnaq kursunu nümayiş etdirmişdir. Milli mənafelərimiz naminə mərkəz və siyasi elita ilə yaxşı münasibətlər quraraq inzibati-amirlik rejimində Azərbaycanın inkişafına çalışmışdır. İri sənaye obyektlərinin Azərbaycanda yerləşdirilməsi, elmi və hərbi kadrların hazırlanması mərkəzin ermənipərəst qüvvələrinin təsirinə düşməməsi, hələ o dövrdə ermənilərin ərazi iddialarının qarşısını alması və s. kimi onlarla faktlar onun siyasət aləmində mühüm yer tutmasından xəbər verir. H.Əliyevin pozitiv siyasi fəaliyyəti müstəqil Azərbaycanda digər ictimai elmlərlə yanaşı siyasi sosiologiya elminin yayılmasına da imkan yaratmışdır. Hazırda Azərbaycanda siyasi-sosioloji tədqiqatlarda bu elm sahəsinin aktual istiqamətləri öyrənilir. Onlardan aşağıdakıları qeyd etmək olar: siyasət sosiologiyası, elita nəzəriyyələri, sisasi partiyalar və siyasi hərəkatlar nəzəriyyəsi, beynəlxalq münasibətlər nəzəriyyəsi, geosiyasət nəzəriyyələri, konfliktologiya problemləri və s. Azərbaycan sosioloqları elmi metodologiya problemlərini də tədqiq edirlər. Siyasi elm sahələrinin müxtəlif səviyyələrdə ümumiləşdirilməsi və sosioloji problemlərin konkret sahələrinin öyrənilməsində nəzəri, tətbiqi istiqamətlər əsas götürülür. Müqayisəli tarixi metod, empirik metod, sistemli yanaşma metodu ilə yanaşı sosioloqlar fənlərarası tədqiqat metodlarından, xüsusib psixoloji yanaşma metodlarından da istifadə edirlər.

Siyasət sosiologiyası üzrə mütəxəssislər son zamanlar sosioloji tədqiqatların metodları, siyasi hakimiyyət nəzəriyyələrini tədqiq edirlər. Azərbaycan sosioloji fıkrində siyasi sosiologiyanın metodlarının siyasi hakimiyyətə keçid dövrünün təbbbri baxımından tətbiqi məsələlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu mənada siyasi sabitlik, müasir elita və hakimiyyət məsələsi; vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu, Azərbaycanın beynəlxalq siyasi və iqtisadi proseslərə inteqrasiyası, Heydər Əliyev və Azərbayca-nın müstəqilliyi problemləri tədqiqatlarda önəmli yer tutur.

Sosioloji tədqiqatların intensiv aparılması bu sahədə kadr məsələsinin də həlli üçün yeni imkanlar açmışdır. Hazırda bu problemlər araşdırılır; respublikada demokratik siyasi proseslərin obyektiv xüsusiyyətləri; cəmiyyətin ictimai həyatının transformasiyası şəraitində siyasi hakimiyyət, iqtidar və müxalitət, siyasi innovasiyalar və islahatlar, siyasi ha-kimimiyyətin demokratikiəşdirilməsi istiqamətləri, azadlıq və məsuliyyət, siyasi münasibətlərin humanistləşdirilməsi masələləri, vətəndaş cəmiyyəti və qeyri-hökumət sektorunun və vahidlərinin çoxalması, yeıi özünüidarə problemləri və s.; keçid dövrü şəraitində milli ideya və milli ideologiya problemləri, türkçülük, islamçılıq və azərbaycançılıq məsələləri, türklərin tarixi dövlətçilik ideyaları, milli-etnik proseslər və azsaylı xalqlar, millətçilik və beynəlmiləlçilik, milli diaspor və lobbi, milli-siyasi şüur və onun səviyyələri və s.; milli təhlükəsizlik və siyasi strategiya məsələləri, müasir genderologiya, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursunun prezident İlham Əliyev tərəfindən davam etdirilməsi, «Əsrin müqaviləsi», neft strategiyası, «Xəzər siyasəti, Ermənistan-Azərbaycan kontlikti və onun ətrafında baş verən hadisələrin sosioloji təhlili və s. hazırda Azərbaycanda aparılan sosioloji tədqiqatlarda mühüm istiqamətdir.



Siyasi-sosiologiya ilə bizdə bir sıra tədris ınüəssisələri və elmi mərkəzlər məşğul olurlar. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, BDU və digər ali məktəblər, tədrislə yanaşı olaraq həm də bu sahədə elmi tədqiqatlar aparırlar. Amma bu sahədə elm tədqiqatlar sahəsində əsas ağırlıq AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq institutunun üzərinə düşür. Burada yerinə yetirilən tədqiqatların təxminən üçdə biri siyasi sosiologiyanın payına düşür. İn-stitutda «Heydər Əliyev məktəbi» fəaliyyət göstərirlər. Deməli, burada siyasi sosioloji tədqiqatlarla iki şöbə və bir mərkəz məşğul olur. İnstitutda keçirilən elmi konfranslarda mütamadi olaraq Heydər Əliyev mövzusu ön plana çəkilir, bu möv-zuda, məcmuələr, kitablar və məqalələr nəşr edilir. Akademik Ramiz Mehdiyevitı son məqalələri ətrafında müzakirələr keçirilmişdir. (Onun materialları «Xalq qəzetində» çap olunmuşdur.) Akademik R. Mehdiyev özünün bu əsərlərində ictimai elmlər, eləcə də siyasi sosiologiya elmi qarşısında mühüm vəzifələr qoymuş, bu elmin respublikanın bu günkü sosial-siyasi reallıqlarını əks etdirməli olduğunun zərurətini ortaya qoymuşdur. Siyasi sosiologiya hazırda institutda apanlan elmi tədqiqatların mühüm sahələrindən biridir.Bu gün institutun ıəailəyyətində xüsusi bir istiqamət kimi aprılan siyasi sosioloji tədqiqatlar Cəmiyyətimizin müasir inkişaf dinamikasını özündə əks etdi-rərəк günümüzün siyasi reallığını öyrənir. Bunlardan siyasi strateji və milli təhlü-kəsizlik, tarixi. politologiya və konfliktologiya, beynəlxalq siyasi proseslər, ölkə daxilində gedən sosial-siyasi proseslər və s. problemləri göstərmək olar. Siyasi sosiologiyanın bu istiqamətlər üzrə tədqiqi respublikamızın bu günkü dinamik in-kişafı ilə əlaqədardır və onun gələcəkdə də öyrənilməsi zəruridir. 2009-2015-ci il-lərdə elmi inkişaf strategiyası proqramına görə siyasi sosiologiya elmi real həyatla, iqtidarın fəaliyyəti ilə, möhtərəm prezident İlham

Əliyevin yeritdiyi konstruktiv daxili və xarici siyasət xətti ilə əlaqələndirilməlidir.Yuxarıda deyilənləri ümumiləşdirərək demək olar ki, bu sahədəki tədqiqatla-rın, elmi işlərin daha da genişləndirilməsi zəruridir, və o, günün tələbatından irəli gəlir. Bu yönümdə bakalavr və maqistr təhsili, doktorantura yolu ilə elmi kadrların hazırlanması, dünya standartlarına uyğun gələn yeni təmayüllü elm və tədris adam-larının yetişdirilməsi respublika hava və su kimi lazımdır.

**1. Abbasqulu ağa Bakıxanov.** XIX əsrin ikinci yarısı İslam Şərqində, xüsusən Azərbaycanda yeniləşmə hərəkatının ilkin rüşeymləri artıq yetişməkdə idi. Bu dövrdən başlayaraq inqilabi-demokratik məfkurə sahəsində və milli proseslərdə yeni bir canlanma hiss olunurdu. İslam Şərqi Avropa və Amerikada gedən köklü dəyişikliklərdən kənarda qala bilməzdi. Bu əsaslı dəyişikliklər axınına qoşulan Azərbaycanın ictimai-siyasi fikrində də yeni tərzdə düşünən, xalqın və millətin tərəqqisini Avropa sivilizasiyasına qoşulmada görən böyük fikir dahiləri meydana çıxırdı. Azərbaycana gələn bu yeni ab-hava isə əsasən qabaqcıl rus və Avropa ictimai-siyasi məfkurəsindən qidalanırdı. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay sülh müqavilələrindən sonra Şimali Azərbaycanın Rusiya imperiyasının tərkibinə qatılması özünün bütün müstəmləkəçilik rəzalətinə və iyrəncliklərinə baxmayaraq siyasi və iqtisadi sabitlik baxımından elm və mədəniyyətin gələcək inkişafı üçün müəyyən bir zəmin hazırlamaqda idi.

Belə bir zəmində yetişmiş nəhəng fikir dühalarından biri də Abasqulu Ağa Bakıxanov idi. XIX əsr Azərbaycanın mühitində yetişmiş A.A.Bakıxanov mədəniyyət və ictimai-siyasi fikir tariximizin tam bir səhifəsini yazmış olan sənətkarlarımızdan biridir. Akademik F.Köçərlinin yazdığı kimi XIX əsrdən Azərbaycan fəlsəfəsinin inkişafı tarixində yeni bir mərhələ başlanır. Bu dövr Azərbaycan ictimai-siyasi fikri rus, həmçinin Qərbi Avropa mədəniyyəti ilə sıx əlaqədə inkişaf etmişdir. Bakıxanov, Axundov, Zərdabi yeni dövr Azərbaycan mədəniyyətinin inkişaf yolunu müəyyən etmiş mütəfəkkirlərdəndir.

Akademik F.Qasımzadənin yazdığı kimi "Azərbaycan fəlsəfəsi və ictimai fikir tarixinə, ümumiyyətlə, Yaxın Şərq xalqlarının mədəniyyət tarixi, klassik irslə bağlı olan müxtəlif siyasi, ideoloji cərəyanlara münasibətdə də yeni baxış tələb olunur. Obyektivlik, ədalət prinsiplərinin bərpası, ümumbəşəri sərvətləri ön plana çəkmək, tarixi hadisələrə, dar siyasi və birtərəfli, həm də mütləq sinfi mənafelər baxımından deyil, əsl elmi prinsiplərlə yanaşmaq", bugünkü yeni siyasi təfəkkürün çox mühüm tələblərindən biridir. Yeni təfəkkür tərzi bizdən tələb edir ki, ictimai-siyasi fikir dahilərinə qiymət verərkən donuq və sxolastik sterotiplərdən əl çəkək, onları yabançı olan ideyaların təbliğində bir vasitəyə çevirməyək. Necə ki, bir sıra şair və mütəfəkkirlərimiz illərlə kommunist ideyalarının təbliğində bir vasitə kimi istifadə olunmuşlar. Habelə, belə bir cəhət ilə də razılaşmaq olmaz ki, son illərdə demokratiya və aşkarlıq şüarları altında ziyalılarımızın bəzi nümayəndələri tərəfindən əslində mütərəqqi ideyalara qarşı təəssüf doğuran hücumlar edilir, həm də bu zaman problemə dərindən nüfuz etmədən, heç bir yaradıcılıq işi aparılmadan, diletantcasına tarixi və elmi həqiqətlər saxtalaşdırılır, mütəfəkkirlərin yaşadığı konkret tarixi şərait də ya nəzərə alınmır, ya da onların fəaliyyətinə hadisələrin bugünkü axınından çıxış etməklə qiymət verilir. Şübhəsiz ki, bununla razılaşmaq olmaz və belə bir münasibət bizi yalnız və yalnız yalnışlığa aparıb çıxara bilər. Doğrudur, A.A.Bakıxanov (eləcə də İ.B.Qutqaşınlı, M.F.Axundov və b.) rus ordusunda xidmət etmişlər. Bunu heç kim danmır. Lakin onlar rus ordusu sıralarında olmaqla, onun yuxarı eşalonlarında baş verən hadisələri izləmək və ondan xəbər tutmaq imkanına malik idilər. Bunun da nəticəsində yerli müsəlmanlara qarşı

törədilə biləcək fitnələrdən onları xəbərdar edə bilmək üçün böyük əhəmiyyətə malik idi. A.A.Bakıxanov xalqla çarizm arasında körpü salmaq və xalqı nahaq qanlardan və əzablardan qorumaq baxımından da xeyli işlər görmüşdür. İkinci bir tərəfdən də A.A.Bakıxanov kimi ensiklopedik zəkaya malik olan bir şəxsin yüksək rus hərbi dairələri və ziyalıları ilə oturub-durması onların nəzərində milliyyətcə erməni olan və Azərbaycan xalqının başına olmazın münasibətini gətirmiş Behbudov və Mədətov kimi generalların xalqımızın timsalında yaratmaq istədikləri "barbar", "vəhşi" obrazının heçə endirilməsi üçün də çox vacib idi.

A.A.Bakıxanov və digər mütəfəkkirləri xalqın milli azadlıq hərəkatına qoşulmadığına görə, qaçıb İrana və Türkiyəyə getmədiklərinə görə qınamaq cəhdləri də əbəsdir. Əvvəla ona görə ki, A.A.bakıxanov kimi adamlardan inqilabçılıq gözləmək sadəlövlük olardı. Axı o öz zəmanəsinin, xalqının övladı və ziyalısı idi, ruslara rəğbət bəsləyən bir nəsildən çıxmışdı, digər tərəfdən isə özü Tiflisdə işləməklə Mehdiqulu xanın, Cəfərqulu xanın və başqalarının tapdanmış hüqqularının bərpası üçün, Mədətov tərəfindən yüz cür fırıldaqçılıqla əllərindən alınmış mal-mülklərinin geri qaytarılması, onlarla bərabər el-obalarını da öz ata-babalarının məskənlərinə gəlib orada məskun olmaları üçün əlindən gələni edirdi. Məhz onun və Mirzə Adıgözəl bəyin xidmətləri sayəsində Qarabağdan didərgin salınmış yüzlərlə ailə öz ev-eşiklərinə qayıtmış, Mədətovun törətdiyi vəhşiliklər aşkar olunmuşdur. Elə bu fəaliyyətin nəticəsidir ki, Quba üsyanında onun da əli olduğuna şübhələnirlər. o da öz növbəsində ona qarşı belə bir münasibətin müqabilində polkovnik rütbəsində istefa verri və Məkkə ziyarətinə yola düşür. Çox qəribə də olsa bu bir həqiqətdir ki, A.A.Bakıxaov öz nəslindən üçüncü adam idi ki, Məkkədə vəfat edir və orada da dəfn olunurdu. A.A.Bakıxanovun Rus-İran və Rus-Türk müharibələri dövrü



və ondan sonrakı dövrlərdəki fəaliyyətini izlədikcə mütəfəkkirin yaşadığı ziddiyyətli, gərgin ictimai-siyasi vəziyyət, parçalanmış və xanlıqlara bölünmüş Azərbaycan torpağının sakinlərinin başlarına gətirilən zülm və məşəqqətlərin şahidi oluruq. Şahidi oluruq ki, istəsə də, istəməsə də A.A.Bakıxanov bu hadisələrdə iştirak etməli olmuş və elə ona görə də indinin özündə də tənqid obyekti kimi böyük bir söhbətin mövzusuna çevrilmişdir. Bütün bu hadisələrin fonunda A.A.Bakıxanovun maarifçilik fəaliyyəti bir anlıq onun bütün mənfi və müsbət keyfiyyətlərini üstüləyir, onu xalqın həqiqi hünərvər oğlu kimi təsdiqləyir.

2. **M.F.Axundzadə** və Azərbaycan maarifçilərinin sosial-siyasi ideyaları. Akademik F.Köçərli özünün "M.F.Axundov və yeni dövr Azərbaycan mədəniyyətinin təşəkkülü" məqaləsində yazır: "M.F.Axundov aydın görürdü ki,... xalqda milli mənlik şüurunu inkişaf etdirmədən, milli ləyaqət, milli vətənpərvərlik hissi aşılamadan onu mədəniyyət yoluna çıxarmaq olmaz... M.F.Axundovun özü milli şüuruun inkişafının rəmzi idi. Fikrimizcə, görkəmli maarifçi xalqın milli mənlik şüurunun inkişafı məsələsini ciddi bir kəskinliklə qoyarkən milli şüurun inkişafını həm də xalqın müstəmləkəçiliyə qarşı, müstəqillik uğrunda mübarizəsi üçün ən zəruri şərt hesab edirdi... M.F.Axundovun adı ilə bağlı olan maarifçilik səciyyəsi kəsb etdi, bu maarifçilik milli Azərbaycan vətənpərvərliyi, milli qeyrət ideyasını dövrünün ən vacib, ən zəruri ideyası kimi irəli sürdü, heç də təsadüfi deyildir ki, Yusif Vəzir Çəmənzəminli yazırdı: "Milliyyət hissi birinci olaraq bu ədibdə oyanmışdır"[1]

Azərbaycan xalqının tarixində ilk dəfə olaraq məhz M.F.Axundov milli dil və mədəniyyət, vətən, sevgisi məsələlərini qoyur və ön plana çəkirdi. Azərbaycan vətənsevərliyi M.F.Axundovu düşündürən ən ümdə məsələlərdən idi.

---

1 Az.SSR EA. Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1990, №1. s.92

Akademik F.Köçərli yazır: "Azərbaycanda maarifçilik də məhz bu dövrdə təşəkkül tapmışdır. Onun inkişafı və demokratik ictimai fikrin qəti şəkildə formalaşması, birinci növbədə M.F.Axundovun adı ilə bağlıdır. Axundov XIX əsr mədəniyyətinin, ictimai-fəlsəfi fikrinin ən parlaq nümayəndəsidir. Onun yaradıcılığı yalnız sosial-fəlsəfi fikrin deyil, ümumiyyətlə, dramaturgiyanın, materialist estetik -tənqidi fikrin, Azərbaycan dilinin inkişafında yeni mərhələdir. Bu mərhələni şərti olaraq "Axundov mərhələsi" adlandırmaq olar. Milli ictimai-siyasi fikrimizdə və onun azadlığı probleminin qoyuluşu da Axundovun adı ilə bağlıdır".[2]

XIX əsrin ikinci yarısı və XX əsrin əvvəlləri Azərbaycan ictimai-siyasi fikri üçün yeni intibah dövrünün başlanması ilə səciyyələnir.

Bu intibah dövründə yeni ideya cərəyanları: islamçılıq, türkçülük, inqilabi demokratik fikir, maarifçilik, millətçilik, marksizim, anarxizm, menşevizm, irqçilik və s. kimi ideyaca bir-birinə yaxın və zidd olan müxtəlif ideoloji baxışlar, məktəblər, cərəyanlar yaranıb inkişaf etməyə başladı. Bütün bu görüşlər arasında yaranışının adı bilavasitə A.A.Bakıxanov və M.F.Axundov ilə bağlı olan Azərbaycan milli hərəkatı ideyaları daha çox diqqəti cəlb etməkdə idi. Əgər A.A.Bakıxanov və M.F.Axundov olmasa idilər, heç sonralar H.B.Zərdabi, C.Məmmədquluzadə, Əlibəy Hüseynzadə, Əhməd Ağayev, M.Ə.Rəsulzadə, N.Nərimanov, S.M.Qənizadə və başqaları kimi fikir dahiləri də yetişməzdilər. Onların yaradıcılığı və fəaliyyəti boş, zəminsiz yerdə yarana bilməzdi. Ona görə də onların fəaliyyəti bu cəhətdən də qiymətlidir.

Yuxarıda deyilənlərdən bir daha aydın olur ki, M.F.Axundov xalqımızın yetişdirdiyi ən samballı simalardan biri olmuşdur. Ona və digər münəvvərlərimizə qarşı müxalifət bayrağını qaldıranlar unutmamalıdırlar ki, bugünkü milli

2 F.Köçərli. Azərbaycan fəlsəfəsinin tənqidi. "Bəzi nəzəri-metodoloji məsələlər". "Xalq qəzeti", 31 iyul 1992.



hərəkatımız üçün biz, hər hansı şəxsdən daha çox M.F.Axundova borcluyuq. "Çarizmə xidmət etdiyinə, çar paqonları daşıdığına", "milli cəhalət və rəzaləti qamçıladığına, xalqın gözünü açdığına görə böyük simalarımızı pisləməyə başlasaq, o zaman 150-200 illik bir düşüncə tariximizin üstündən xətt çəkmiş olarıq. Şünki, "Bizdə, Azərbaycan milli şüurunun təşəkkül tarixi ziddiyyətli, aldanışlı bir həyat yolu keçmiş, M.F.Axundovdan başlanır. Demokratik milli məfkurəni yaradan nəslin başında da o durur. Sonra bu yolu H.Zərdabi, F.Köçərli, E.Sultanov və başqalrı davam etdirirlər. XX əsrin əvvəllərində millətin vüsətli və sədaqətli tale yükünün altına öz çiyinlərini C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Hüseynzadə, Ə.Nemanzadə verdilər. millətin siyasi, mənəvi və mədəni inkişaf tarixini bu şəxsiyyətlərsiz təsəvvür etmək qeyri-mümkün deyil. Rusçuluğa və ruslaşmağa, milli köləliyə qarşı mübarizənin bayraqdarları əsrin dolaşıq fikir burulğanları içərisindən vahid, dəyişməz və önəmli bir ideyanı- millətin haqqını yalnız millətin özü müdafiə etməlidir – ideyasını qoparıb üzə çıxara bildilər".[3] M.F.Axundovun irəli sürdüyü ideyaların böyük gələcəyi olmuşdur. Bütün sonrakı böyük ziyalılarımız məhz ondan öyərnmiş və milli inkişaf sahəsində irəli sürdükləri proqram müddəalarında onun zəngin irsindən bəhrələnmişdir. A.A.Bakıxanov və M.F.Axundovla başlayan milli yeniləşmə hərəkatı ideyalrı H.Zərdabi ilə C.Məmmədquluzadə məktəbləri, Ə.Hüseynzadə və Ə.Ağayev ideyaları üçün bir qaynaq idi.H.Zərdabi, M.Ə.Sabir, Ə.Hüseynzadə, Ə.Ağayev, N.Vəzirov, A.Səhhət, F.Nemanzadə, N.Nərimanov, C.Məmmədquluzadə və sonrakı ziyalılar milli ideya axtarışları yollarında xeyli işlər görmüşlər. Azərbaycanlıların bir millət kimi formalaşmasının tarixi çətinlikləri ondan ibarət olmuşdur ki, onun xalqı illərlə coğrafi, iqtisadi, siyasi və mənəvi cəhətdən parçalanmış, yadellilərə qarşı mübarizə

3 M.Məmmədov. Kütlə psixologiyası və millilik. "Həyat" qəzeti, 8 aprel 1992, №77 /331 /

prosesində sayca azalmış, maddi və mənəvi həyatı kasadlaşmışdır. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı bu mübarizə prosesində daha da mətinləşmiş, bütün mərhumiyyətlərə sinə gəlmiş və bugünkü millət halına gəlib çıxa bilmişdir.

Millət o zaman güclü olur ki, onun əlində fəaliyyət üçün rəhbər tuta biləcəyi güclü milli ideyaları olsun. Fransız şairi və dramaturqu E. Rostan yazırdı ki, "bir sərkərdə üçün qarşısındakı düşmən ordusunun nə qədər əsgəri, nə qədər silah və ləvazimatı olduğunu bilmək çox faydalıdır, amma onun üçün bunlardan daha çox faydalı bir şey vardır ki, o da qarşısındakı düşmən ordusunun fəlsəfəsini bilməkdir". Z.B.Göyalpa görə türk millətini əsarətdən qutaran onun milli zəmində güclü ideyaya malik olması idi.

M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində yazır:"Bundan 50-60 sənə əvvəl müasir Azərbaycan ədəbiyyatının binası quruldu. Şərq mədəniyyəti ilə mükəmməl surətdə mücəhhəz və rusca vasitəsilə də Qərb mədəniyyətini əsaatı ilə aşna bulunan Mirzə Fətəli Axundov ilə başlayan teatro ədəbiyyatı, Nəcəf bəy Vəzirov, Əbdülrəhim Haqverdiyev, Sultan Məcid Qənizadə kibi mühərrirlər tərəfindən tənzir və idamə edildi. Mirzə Fətəlinin komediyaları türk aləmində yazılmış ilk komediyalardır. Münəqqidlərcə "Şərq Molyeri" ləqəbini qazanan Mirzə Fətəlinin məcmueyi-asari ruscaya, almancaya, ingiliscəyə, qismən də fransızcaya tərcümə edilmişdir... Bu zəmində rus məktəbi vasitəsilə mədəniyyəti-hazirəyi az-çox dərk etmiş ürəfa ilə xalq arasında yek digərini anlamaq dövrü başladı".[4]

A.S.Puşkin Lomonosovu rus xalqının "İlk Universiteti" adlandırmışdır. Lomonosov rus xalqı üçün nədirsə, M.F.Axundov da bizim üçün odur. Bu tarixi bir və onu nə danmaq, nə də saxtalaşdırmaq olar.

---

4 M.Ə.Rəsulzadə. "Azərbaycan Cümhuriyyəti", Bakı, Elm, 1990, S. 17-18



## SİYASƏTİN SOSİOLOGİYASINDA NƏZƏRİ METODLAR VƏ ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ

Hər bir elm sahəsində araşdırma aparmadan əvvəl qəbul edilən bəzi təməl şərtlər var. Bu şərtlərin hamısına ümumi olaraq **"paradiqma"** deyilir. Bu təməl şərtlər aparılacaq elmi araşdırmaların "istiqamətini" müəyyən edir. ([5])

"Sosial olanın", sosial gerçəkliyin mahiyyəti və inkişafı haqqında təkcə Avropa deyil, həm də ərəb ictimai-siyasi fikrində maraqlı fikirlər irəli sürülmüşdür. Q.Sorokin qeyd hesab edir ki, XI yüzillikdə böyük ərəb mütəfəkkiri və dövlət xadimi İbn Xaldun (1332-1406-cı il.) tərəfindən yazılmış "Müqəddimə" əsərindən sonra sosiologiya sistemləşdirilmiş forma aldı. Belə yüksək dəyərləndirilməyə təsadüf deyildi, çünki O «köçəri və mədəni cəmiyyətlər» əsasında müasir ümumi və xüsusi sosiologiyanın demək olar ki, bütün əsas problemlərinə hərtərəfli baxmışdır. Bu əsər bu gün də öz müasirliyini saxlayır. Platon, Aristotel, J.Viko və O.Kontla yanaşı İbn Xaldun da mübahisəsiz olaraq, sosiologiyanın banisi hesab edilir. [6]Təəssüf ki, İbn Xaldunun əsəri XIX əsrin əvvəlinə qədər Qərb alimlərinə naməlum qalib. Sosiologiyanı multiparadiqmal elm hesab edirlər. Bu o deməkdir ki, cəmiyyətə, "sosial reallığa" müxtəlif nöqteyi-nəzərdən baxmaq olar. Belə yanaşma nadir halda şübhəli hesab edilə bilər. Xüsusən "postmodern" məktəblərin təsiri altında olan "nəzəriyyələrin çoxluğu" ideyasını, həm də müəyyən bir məsələnin rasional həllinin olmaması amili ilə bağlayırlar.

Paradiqmanın aşağıdakı üç növü elmi cəhətdən sistemləşdirilmiş və qruplaşdırılmışdır: Elmi-texnoloji paradiq-

---

6 Зикиров Х.Х. Социально-политическая философия Ибн Хальдуна. Автореферат

Дисс. на соискание уч.степ. кандидата филос. Наук.-Душанбе -2009

ma. Onun əsasını həqiqətin konkret elmi metodologiya ilə sınaqdan çıxarılması, təcrübədə təsdiqi təşkil edir; Humanist paradiqma. Onun əsasını həqiqətin dərk olunması təşkil edir; Ezoterik paradiqma. Onun əsasını həqiqətin əbədi, dəyişməz olduğu və ona çatmağın (yüksəlməyin) imkan və yolları təşkil edir.[7] Hər şeydən əvvəl, aydınlaşdırmaq lazımdır ki, sosioloqlar "nəzəriyyə", anlayışlar, "paradiqma" və ya "yanaşmalar" dedikdə nəyi nəzərdə tuturlar.Yalnız onda nəzəriyyə nədir və nəyə o xidmət edir?-sualına cavablarda yekdillik mümkün ola bilər. Nəzəriyyənin funksiyasına aid olan ideyalar özləri də nəzəriyyələrdən asılıdırlar. Elmin fəlsəfəsinin bu məsələyə dair verdiyi təriflərə olan ümidlər də özünü doğrultmadı. "Paradiqma" termini də vəziyyətdən çixiş yolu ola bilmədi, o mənada ki, sosioloji nəzəriyyələrin formalaşması zamanı bu sözü necə anlamaq və tətbiq etmək yönündə qızğın müzakirələr davam edir. Ümumi konsensus adlandırıması mümkün olarsa, hələlik praktikada mövcud olan nəzəriyyələrdən yola çıxmaq və onların təməl xüsusiyyətlərini sosioloji baxımdan sərf-nəzər etmək lazımdır. Bu nəzəriyyələr sosiologiyada əsas hesab edilən hadisələrin və problemlərin öyrənilməsi şərtlərini müəyyən edir. Beləliklə, onlar - sosial fenomenlərin və araşdırılan problemlərin qavranılmasında süzgəc rolunu oynayır. Bu o deməkdir ki, bu yanaşmalar təhli predmetini, əsas problemləri və meyarları müəyyən etməklə normativ aspektə malikdir. Sosial fəallıq və sosial faktlar və s. kimi sosial sferanı izah edən fenomenlər mövcuddur. Müasir siyasi sosiologiyanın formalaşması və inkişafı ümumilikdə politologiya və sosiologiya ilə ayrılmaz surətdə bağlıdır. Belə ki, son iki yüzillik ərzində sosioloji tədqiqatların müxtəlif paradiqmaları elmi dövriyyəyə daxil

7 В.И. Добреньков, А.И. Кравченко. История зарубежной социологии. Основные парадигмы и перспективы в социологии. Парадигма в социологии: методология вопроса. М, 2001,209с. С.88



olmuşdur. Paradiqma, T. Kunun bu anlayışa verdiy mənada "müəyyən vaxt ərzində elmi cəmiyyətə problemlərin və onların həlliyollarmın qoyuluşu modellərini təqdim edən, hamı tərəfindən qəul edilmiş elmi nailiyyətləri nəzərdə tutur". Paradiqmalar ən əhəmiyyətli, hamının qəbul etdiyi, elmin inkişafında dərin iz buraxan "paradiqmal" anlayışlar, prinsiplər, nəzəriyyələr, məktəblər, istiqamətlər və s. seçməyə imkan verir. Onlar zaman sərhədlərini fərqləndirərək elm tarixinin dövrləşdirməsinin meyarları kimi çıxış edir, siyasi və sosioloji biliyin inkişafında bu və ya digər dövrünbaşlanıc və sonunu ifadə edirlər. Siyasi sosiologiyanın tarixində *paradiqmal anlayışlara nümunə* kimi: "sosial determinizm", "sinfi mübarizə", "siyasi partiya", "siyasi sinif", "maraq qrupları", "elektoral davranış", "siyasi sistem", "siyasi təbəqələşmə"; *paradiqmal nəzəriyyə, nəzəri istiqamətlər və məktəblərə nümunə* kimi: evolyusionizm(təkmülçülük), iqtisadi determinizm, funksionalizm, elitizm və s. misal çəkmək olar. Elmdə belə bir xüsusi qayda formalaşmışdır: paradiqma zaman etibarı ilə bizdən nə qədər uzaqlaşırsa, onun paradiqmal xarakteri o qədər mübahisəsiz və aşkar üzə çıxır. Və əksinə, paradiqmalar müasirliyə nə qədər yaxındırsa, elmi cəmiyyətdə onların paradiqmal xarakterinə dair o qədər çox, bəzən onların imtina edilməsinə gətirib çıxaran mübahisələr və müzakirələrə səbəb olurlar. Paradiqmal yanaşma sosioloji biliyin seçilməsinin qeyri-ixtiyariliyini minimuma endirməyə imkan verir. Amma hətta belə ciddi elmi yanaşma vəziyyətində də, çoxsaylı paradiqmalar qalır ki, onların da təfərrüatlı və düşünülmüş tədqiqi tələb olunur. Sosioloji elmdə uzun müddət iki əsas paradiqma üstün idi — sosioloji realizm (tədqiqatın obyekti — cəmiyyət, sosial struktur, sosial institutı) və sosioloji nominalizm (tədqiqatın obyekti — individ, şəxsiyyət, insan, sosial qruplar və birliklər). XX sonunda əsr daha bir sosioloji strategiya— konstruktivizm intensiv inkişaf et-

məyə başladı. Bu gün elmi cəmiyyət, heç vaxt olmadığı qədər bir çox istiqamətlərə- məktəblərə və cərəyanlara bölünmüşdür. Amma bu o demək deyil ki, onun daxilində konsensus mövcud deyil. Bütün elmi müzakirələrə baxmayaraq, həmişə bütün elmi cəmiyyət tərəfindən olmasa da, onun əksəriyyəti tərəfindən qəbul edilən müəyyən qədər şərti (konvensional) bilik, idrak metodları mövcuddur.

Sosiologiyada iki əsas paradiqma ənənəsi vardır. Bu iki əsas paradiqma ənənələrindən birincisi "pozitivist paradiqma"dır. Onun ideyalarına əsaslanan siyasi sosiologiya da pozitivist sosiologiya adlandırılmışdır.([8])Digəri, alman fəlsəfəsinə əsaslanan, xüsusilə də təməli Kant və Hegel tərəfindən atılan "şərhedici" paradiqma və onun əsasında inkişaf etdirilən sosioloji ənənədir. Pozitivist paradiqma sosiologiyanın cəmiyyəti və onunla bağlı olan məsələləri tədqiq etməkdə və cəmiyyəti tənzimləməkdə təbiət elmlərinin tətbiq etdiyi metodlardan istifadə etməyi məqbul hesab edir. Hesab edilir ki, cəmiyyəti tədqiq edərkən təbiət elmlərinin metodları daha yaxşı nəticə verə bilər. Pozitivist paradiqmaya görə sosiologiya təbiət elmlərini nümunə götürən bir elm olmalıdır. Şərhedici paradiqma isə pozitivist paradiqmanın qəbul və müdafiə etdiyi görüşlərin tam əksi ilə çıxış edir. Şərhedici paradiqmaya görə cəmiyyət təbiət elmlərinin istifadə etdiyi metodla tənzimlənə bilməz. Bu paradiqmaya görə "təbiətin həqiqətləri" ilə "cəmiyyətin həqiqətləri" tamamilə fərqlidir və bunları eyni metoddan istifadə edərək tədqiq etmək mümkün deyildir. Göründüyü kimi mövcud olan bu iki əsas paradiqma əslində iki fərqli sosioloji cərəyanı meydana gətirmişdir. Əslində pozitivist paradiqmanın köklərini yunan fəlsəfəsinə, daha sonra isə İntibah dövrünün materialist

8 Елисеев С.М. Политическая социология: Учебное пособие. СПб., 2007. S.



fəlsəfəsinə qədər gedib çıxır. Elmi universal bilik əldə edə biləcək bir fəaliyyət sahəsi olaraq qəbul edən pozitivist paradiqmanın ən əsas qayəsi ümumbəşəri idrakı kəşf etməkdir. Pozitivist sosiologiyanın bəzi xüsusiyyətlərinə gəldikdə, pozitivist sosiologiya cərəyanı təbii və sosial elmlərin birliyini müdafiə edir. Sosial fenomenlərin də təbiət elmlərində olduğu kimi nizam və səbəbiyyət (determinizm-səbəblə təsir arasındakı əlaqə) qayda-qanunlarına tabe olmasə fikriniqəbul edir. Pozitivist sosioloq, pozitivist paradiqma metafizikanı rədd edir, hadisələrin sadəcə zahiri xüsusiyyətlərinə baxır, tədqiqatlarında kvantitatif-(kəmiyyətə əsaslanan) eksperimental metoddan istifadə edirlər. Buna görə də ən etbarlı bilginin, məlumatın təcrübə ilə əldə olunan məlumat olduğunu və biliyin baş verən hadisədə olduğunu düşünür.

Pozitivist paradiqma "elmin birliyi, ümumi mahiyyətə malik olması" düşüncəsini müdafiə edir, bu fikri universal prinsip kimi qəbul etdirmək istəyir. Bu da o deməkdir ki, bütün elmlərin əsasında, mərkəzində riyazi məntiq dayanır və bütün elmlər mərkəz,-nüvə ətrafında birləşdirilməlidir. Təbiətdəki qanunlar da ümumbəşəridir. Pozitivizm üçün elm ətrafdakı dünya ilə bağlı ehtimal və şərhə əsaslanan məlumat toplama təşəbbüsüdür. Pozitivizmdə "metod birliyi" prinsipi mövcuddur. Bu prinsipə əsasən də yalnız bir elm məntiqi vardır və elm adını ifadə edən hər bir cərəyan da bu prinsipə riayət etmək məcburiyyətindədir.

Əgər sosial elmlər də "elm olmaq" iddiasında dırlarsa bu prinsipə riayət məcburdurlar. Pozitivist paradiqmaya görə təcrübədə sübut edilə bilməyən heç bir amil nəzərə alınmır. Bu amillərə məna, duyğu, məqsəd kimi amilləri misal olaraq göstərmək mümkündür. Bu düşüncəyə əsaslanaraq deyə bilərik ki, pozitivist sosiologiyada maddənin (cəmiyyətin, insanın) davranışını başa düşmək və izah etmək üçün sadəcə kənardan müşahidə etmək kifayətdir. Pozitivist idrak nəzəriyyəsinin əsas fərziyyəsi həqiqət və nəzəriyyə arasında

əlaqənin olmasıdır. Bu düşüncəyə görə həqiqət nəzəriyyədə təmsil olunur və öz əksini tapır. Pozitivist paradiqma anlayışına görə bütün elmlərin məqsədi müşahidə ilə sübut ediləbiləcək ümumi qaydalar formalaşdırmaqdır. Bir məlumatın elmi olmasının əsasını da müşahidə və təcrübə ilə isbat oluna bilmə keyfiyyəti təşkil edir. Bu pozitivist paradiqmaya görə kainatda baş verən bütün hadisələr təbiətdə mövcud olan universal qaydalar tərəfindən idarə olunur. Elm də əsas olaraq bu qaydaları kəşf etmək fəaliyyətidir.([9])

Elmi araşdırmalardakı ilk addım "hipotez" (fərziyyə) müəyyənləşdirməkdir. Alimlər tədqiq edəcəkləri mövzu haqqında əvvəlcə müəyyən bir hipotez irəli sürürlər. Daha sonra bu hipotez elmi faktlarla sınanır. Əgər aparılan təcrübə və müşahidələr hipotezi təsdiqləyərsə, "hipotez" "sübut edilmiş prinsip və ya qanun" adlandırılır. Əgər hipotez təkzib edilərsə, başqa ehtimallar sınanır və bu proses davam edir.

Elmi tədqiqat prosesinin ilk mərhələsi olan hipotezin müəyyənləşdirilməsi elm adamlarının qəbul etdiyi tamamilə yanlış görüş ilə əlaqədardır. Məsələn, elm adamları bu səhv görüşləri səbəbindən "maddənin hər hansı bir şüurlu nizamlama olmadan, öz-özünü nizamlamaq qabiliyyətinə malik olması" kimi bir hipotez irəli sürə bilərlər. Sonra da bu hipotezi təsdiq etmək üçün illərlə davam edən çoxsaylı araşdırmalar apara bilərlər. Amma maddənin belə bir xüsusiyyəti yoxdur və dolayısı ilə bütün bu səylər uğursuzluqla nəticələnəcəkdir.

Materializm bu iddialarını elm dünyasına mərhələli şəkildə qəbul etdirmiş və XIX əsrin ikinci yarısından etibarən elmi araşdırmaların böyük hissəsi bu iddiaları dəstəkləməyə həsr edilmişdir. Bu məqsədlə kainatın sonsuzluqdan bəri mövcud olduğunu fərz edən "sonsuz kainat modeli", həyatın təsadüflər nəticəsində əmələ gəldiyini irəli sürən Darvinin təkamül nəzəriyyəsi, insan zehninin beyindən ibarət olduğunu irəli sürən Freydin görüşləri və buna bənzər nəzəriyyələr ortaya çıxmışdır.Lakin bu gün geriyə dönüb baxdığımız zaman materializmin bu iddialarının elmə sadəcə vaxt itkisi "qazandırdığını" görürük. Çünki bu iddiaların hər birini isbat etmək üçün on illər boyu bir çox alimlər səy göstərmiş, ancaq ortaya çıxan nəticələr bu iddiaların əsassız olduğunu göstərmişdir. Beləliklə də, pozitivist paradiqmada sosiologiya bir təbiətşüaslıq elmi, sosiologiyanın mövzusu isə obyektlərdir.Fransa burjua inqilabından sonrakı dövrdə pozitivist paradiqma sosiologiyanı təbiət elmlərinə bənzətməyə çalışmışdır. Bunun siyasi səbəbi işçi təbəqəsinin yenidən inqilaba təşəbbüs etməsinin qarşısını almaq idi. Bu baxımdan pozitivizm burjuaziyanın ideologiyası olmağa başlamışdır. Sosiologiya Fransız inqilabından sonra meydana gələn ictimai sıxıntıların yenidən baş verməməsi üçün yeni qurulan burjuaziya nizamının keşikçisi vəzifəsini yerinə yetirirdi.

9 Монсон П. Современная западная социология: теории, традиции, перспективы. М., 1992. С.87



Pozitivizmin banilərindən olan *Ogüst Kont* da Fransız inqilabından sonra qurulan burjua nizamının hökmran olduğu bir cəmiyyətdə dünyaya gəlmiş, onun elmi, dini, fəlsəfi baxımdan bu şəraitdə yetişmişdir. İctimaiyyət elminə "sosiologiya" adını vermiş və eyni zamanda da pozitivist sosiologiyanın da banisi hesab edilir. Konta görə ictimai fenomenlərin və qanunların elmi olaraq sosiologiyanın məqsədi cəmiyyəti və ictimai yaşayışı nizamlamaq, sahmana salmaqdır. Sosiologiya, cəmiyyəti sistemli bir şəkildə nizamlamağa və nəticədə insanlığın birliyini, bərabərliyini təmin etməyə məsul olan yeganə elmdir. Pozitivist sosiologiyada Kontun fikirlərini inkişaf etdirərək bu düşüncələri bir elm olaraq formalaşdıran Fransız sosioloq və filosofu Emile Dürkheim olmuşdur. Bundan başqa Dürkheim "Sosioloji metodun qaydaları" adlı əsəri ilə ilk dəfə sosiologiyanı sistemləşdirmiş və sosiologiya ilə necə məşğul olmağı açıqlamışdır.Elm yaşadığımız maddi

dünyanın təcrübə və müşahidə yolu ilə tədqiqinə deyilir. Elm bu tədqiqatları apararkən təcrübə və müşahidə yolu ilə əldə etdiyi faktlara əsaslanaraq və onları nəzərə alaraq nəticə çıxarır.

Ötən yüzillikdə başqa sahələrdə olduğu kimi gerçəkliyin təhlili sahəsində də sistem anlayışı mərkəzi anlayışa çevrildi.XX əsrin elmi-tədqiqat üsullarına, metodoloji mədəniyyətə nəzər salsaq, burada "sistemli təhlilin qırmızı xətt kimi keçdiyini görəcəyik. Həm də mənim fikrimcə, bir-birini əvəzləyən elmi metodlar sırasında adlar müxtəlif olsa da (kibernetik, informasiya, sinergetik, semiotik və s.) əslində söhbət sistemli yanaşmanın, sistemli fəlsəfənin "cilalanmasından" getmişdir və bu gün də proses davam edir.

L.F.Bertalanfinin başlanğıcını qoyduğu sistem hərəkatının yaşı artıq yüzə yaxınlaşır. L. fon Bertalanfı özünün ümumi sistemlər nəzəriyyəsi ilə sistemin ontoloji əsaslarını müəyyənləşdirməyə cəhd etdi. Sistemlilik – həyat və təşkilatlanma prosesində keyfiyyət dəyişikliklərinin baş verməsini mümkün edən münasibətlərin qarşılıqlı qurulmasıdır. Sistem qarşılıqlı təsirdə olan elementlərin kompleksidir. ədalət naminə deyilməlidir ki, "təşkilatlana bilmək" keyfiyyəti xüsusiyyəti hələ A.A.Boqdanov tərəfindən 20 il əvvəl söylənilmişdi Bu müddət ərzində sistem anlayışı və ideyası bütün elmlərin təhlil metodlarına sirayət etmişdir. Saysız-hesabsız sistem konsepsiyaları işlənmişdir. Lakin təbiətşünaslıqdakı "vahid sahə nəzəriyyəsi" yaratmaq istiqamətindəki cəhdlər kimi, vahid sistem konsepsiyaları işlənmişdirş Lakin təbiətşünaslıqdakı "vahid sahə nəzəriyyəsi" yaratmaq istiqamətindəki vəhdlər kimi, vahid sistem metodologiyası hələlik formalaşdırılmamışdır. Müasir təbiətşünaslıqda bu hətta "Bertalanfi problemi" adı ilə məlumdur. "Bertalanfi problemi" dedikdə nəzəri biologiya, informasiya nəzəriyyəsi və kibernetikanın ümumi sistemlər nəzəriyyəsi çərçivəsində elmi sintezi problemi nəzərdə tutulur. Problem bu günə qədər təbiətşünaslıqda həll edilə bilməmişdir. Sistem, onun meyar və hüdudları, sistem olmayandan fərqləri və s. kimi məsələlərin araşdırılması istiqamətində aparılan tədqiqatçıların bir çoxu tərəfindən xüsusilə vurğulanır.



"Sistem sözünün mənası qədim yunan dilində "sistema" – nə üçünsə (hər hansı məqsəd üçün) nəyi isə bir yerdə etmək" mənasını verir" (149; s.206). Sistem bütövlük və struktur sözləri ilə bilavasitə bağlıdır. "Bütöv – hissələrin məcmuyundan çoxdur" fikri Platona məxsusdur. Platonun "ideya" konsepti həm substansional həm də funksional müstəvilərdə məna, mahiyyət və məzmun bütövlüyü kontekstində, belə demək olarsa sistemlər sistemi kimi başa düşülə bilər. Struktur və funksiya sistem nəzəriyyəsinin mühüm komponentini təşkil etdi.

Siyasi institutların təşəkkülü uzunmüddətli prosesdir. O, öz başlanğıcını qarşılıqlı təsirin keyfiyyətcə yeni növü olan siyasi hakimiyyətin tədricən təşəkkül tapdığı vaxtdan götürür. Siyasi hakimiyyətin təsisatlaşması müasir sosial inkişafın zəruri şərtidir. Siyasi institutlar siyasi hakimiyyətin reallaşmasını həyata k. cirirlər. Bu hakimiyyətin zəruriliyi onunla şərtlənir ki, fərdlərə, sosial qruplara müyəssər olan ehtiyatlar, sərvətlər və sosial cəhətdən əhəmiyyətli digər obyektlər heç zaman tükənməz deyildir. Onlara yiyələnmək, sferasını genişləndirmək kimi təbii səyi məhdudlaşdıra bilən sosial cəhətdən müəyyənləşmiş hüdudlar olmalıdır. Belə ehtiyatlar, sərvətlər təkcə maddi xarakterli deyildir. Onlara həm də təhlükəsizlik, informasiya əldə etmək imkanı, status, nüfuz, hakimiyyət aiddir. Zəruri hüdudlar olmadıqda qarşılıqlı sosial təsirlər nizamlana bilməz. Anarxiyaya, sosial sistemlərin nizamsızlığına gətirib çıxaran mübahisələr, münaqişələr, toqquşmalar labüd olar. Hüdudların müəyyənləşdirilməsi

cəmiyyətdə hakimiyyət münasibətlərinin qərarlaşmasını tələb edir. Hakimiyyət mübahisə və münaqişələrin inkişafının elə hüdudlarını müəyyənləşdirməyə qadir olmalıdır ki, onlara nail olmağı təmin edən hakimiyyət qərarı hamı tərəfindən məcburi akt kimi qəbul edilsin.

Hakimiyyəti bir subyektin digər subyektin (və ya subyektlərin) davranış aktlarına, fəaliyyətinə nəzarət imkanı kimi müəyyənləşdirmək olar. Siyasi hakimiyyət bütövlükdə cəmiyyəti əhatə edir. Ancaq siyasi hakimiyyət üçün bütün növ sanksiyaların tətbiqi hüququ etiraf olunur (fiziki məcburiyyət, mülkiyyətdən, azadlıqdan məhrumetmə və s.). Lakin siyasi hakimiyyətin zorakılığı legitim olmalıdır, yəni cəmiyyətin əksər üzvləri tərəfindən etiraf və qəbul olunmalıdır. Dövlət mühüm siyasi institutdur. O, təsisatlaşmış siyasi hakimiyyəti həyata keçirir. Siyasi sosiologiya sahəsində maraqlı tədqiqatları olan M.Veberə görə, siyasi hakimiyyətin bazası kimi legitimlik ənənəyə, əksəriyyət tərəfindən etiraf olunan avtoritetə (harizmaya) və rasional seçimə əsaslana bilər. Ənənəvi hakimiyyət qədimdən təşəkkül tapmış ənənələrin sarsılmazlığına, müqəddəsliyinə, hakimiyyət orqanlarının təbii qanuniliyinə ən ümumi inama istinad edir. Harizmatik hakimiyyət bir şəxsin böyüklüyünə, müqəddəsliyinə, əksəriyyət üzərindəki üstünlüyünə, onun qəhrəmanlığına hökmran inama əsaslanır. Belə hakimiyyətin əsası həmin şəxsin simasında millətin atası, rəhbəri, şəksiz lideri kimi təzahür edir. Ona tam əminliklə, könüllü şəkildə, əqidə gücünə, şəxsi sədaqətlə tabe olurlar. Rasional xarakterli hakimiyyət qərarlaşmış qaydanın qanuniliyinə üstün inama, əksəriyyət tərəfindən dövlət orqanlarının hakimiyyəti həyata keçirmək hüququnun əsaslılığına istinad edir.

Siyasi sistemlərin mövcudluğu üçün dövlətin olması müqəddəm şərtdir. Dövlət dedikdə ən ümumi şəkildə öz təbəələri (üzvləri) üzərində hakimiyyətə malik və əhəmiyyətli



əraziyə sahib olan formal təsisat-qrup nəzərdə tutulur. Burada hakimiyyət səlahiyyətli şəxslər və hüquq normalarına əsaslanan formal dövlət aparatı tərəfindən həyata keçirilir.

Dövlət xüsusi güc balansına malik olan hökumətdən fərqlənir. Hökumət qanunlarda və hakimiyyət rollarında mühüm dəyişikliklər edə bilər, lakin dövlət olduğu kimi qalır. Dəyişilən sadəcə siyasət, xüsusi hüquqi normalar və hakimiyyət rollarıdır ki, elita öz marağını məhz bunların vasitəsilə həyata keçirir. Dövlətin siyasi sistemi də dövlətdən fərqlənir. Siyasi sistem dövlətin əhali və ərazi üzərində suverenliyini göstərən formal və qeyri-formal strukturlardan ibarətdir. Bu, dövlətin sivil xüsusiyyətidir. Lakin dövlət mövcud olduğu müddətdə müxtəlif siyasi sistemlərə malik ola bilər. Məsələn, Çin, Rusiya və Fransada olduğu kimi. Siyasi elita məcburi gücdən istifadə edirsə, bu halda həmin dövlət güclü hesab edilir. İdeologiyalar siyasi sistemi az və ya çox dərəcədə gücləndirirsə, onda biz həmin ideologiyaları dövlətçi ideologiya adlandıra bilərik.

Siyasi sistemlərin 3 tipi vardır. Yuxarıda bəhs edlən amerikan siyasi alimi İston siyasi sistemi müəyyən funksiyalara və institutlara, "giriş və çıxışlara" malik anlayış kimi nəzərdən keçirsə də, unutmamalıyıq ki, siyasi sistem həm də bir-biri ilə mübarizə aparan maraqlar, bacarıqlar və məqsədlər arasında balans, status kvonu formalaşdırır. Bu, xüsusilə də şəxslər arasındakı balansdır. Xüsusi bir siyasi sistem tarixən münaqişələr hesabına müəyyən edilmiş səlahiyyətli rolların, hüquq normalarının, bölünmüş vəzifə və hüquqların, gücün göstəricisidir. Bu rollara uyğun gələn və digərlərini idarə etməyi bacaran insanlar siyasi elita hesab olunur. Aydındır ki, ABŞ, Çin, Yaponiya, Fransa, Hindistan, İspaniya və İordaniyada olduğu kimi bəzi güc balansları mövcud ola bilər. Amma dövləti idarə edən bu güc balansları ortaq xüsusiyyətə malik ola və bir-birindən əhəmiyyətli xüsusiyyətlərə görə fərqlənə bilərlər.

Belə xüsusiyyətlərdən biri səlahiyyətli rolların vəzifəyə görə dəyişə bilməsi və qanun normalarının mahiyyətcə dəyişməsidir. Bu zaman belə bir sual yaranır: Status kvo dövlətin üzvlərinə elit status uğrunda mübarizə aparmağa imkan verirmi və dövləti idarə edən fundamental qanun normalarını dəyişməyə şərait yaradırmı? Açıq siyasi sistemdə siyasi müxalifət azadlığı və hakimiyyət mübarizəsi varmövcuddur. Qapalı sistemdə isə hüquqi və ya adi halda, səlahiyyətli rollar və qanun normaları qeyri-elita trəfindən təcrid edilir.

Ən yeni dövrdə hüquqi dövlət konsepsiyası etiraf olunur və inkişaf etdirilir. Bu konsepsiya istənilən dövlət fəaliyyəti formasının hüquqa, ilk növbədə isə Konstitusiyaya tabe olması ideyasına əsaslanır. Demokratik cəmiyyətdə Konstitusiyanın başlıca vəzifəsi vətəndaşların ən mühüm hüquq və azadlıqlarını qorumaq naminə dövlət hakimiyyətinin həlledici məhdudlaşdırıcısı, vətəndaş cəmiyyətinin əsas institutlarının özinkişafının və özünütəşkilinin mühüm təminatçısı olmaqdır. Konstitusiya dövlət hakimiyyətini hüquqla məhdudlaşdıraraq, bəyan etdiyi mülki və siyasi hüquqları mühafizə edir, hüququn başlıca funksiyasını reallaşdırır. Bu funksiya azad yaşamağın, fəaliyyət göstərməyin təcəssümü və meyarı olmalıdır. Azadlıq olmadan hüquq yuridik fiksiyadır, özbaşınalığın pozitiv sanksiyasıdır. Hüquqsuz azadlıq hamının hamıya qarşı müharibəsidir, cəmiyyətin və dövlətin dağılmasıdır.

Siyasi sistemin transformasiyasının proses və mərhələlər üzrə təhlilinə yanaşmalar metodoloji məsələlərin bir sıra məqamlarına diqqət etməyi tələb edir. Bu, hər şeydən əvvəl onun bir sıra struktur və mahiyyət cəhətlərini əhatə edir.Onu da qeyd etmək lazımdır ki, siyasi transformasiya proseslərinin tədqiqi qeyd edilən məqamlarla məhdudlaşmayaraq, digər çoxsaylı nəzəri-metodoloji məsələləri, transformasiya modellərinin tipoloji sistemləşdirilməsini, fövqəlmürəkkəb amillərin qarşılıqlı təsirini və çulğaşmasını diqqət mərkəzində saxlamağı tələb edir. Bəzi tədqiqatçılara görə, siyasi sistemin transformasiyası nəticəsində mövcud olan konkret siyasi rejim tipi onun formalaşma üsullarından və proseslərindən birbaşa asılıdır. Siyasi rejim dedikdə siyasi prosesin, institutların, aktorların, siyasi hakimiyyətin saxlanması üçün mübarizənin strategiyaları və resursların, nailiyyətlərin məcmusu anlaşılır. Siyasi sistemin transformasiyası politoloji və sosioloji tədqiqatların əsas obyektidir. Bu, demək olar ki, bütün tədqiqatçılar tərəfindən etiraf edilir. Lakin müasir elmdə bu sahədə həm nəzəriyyə, həm də praktika baş verən dəyişikliklərə adekvat olan səviyyədə inkişaf edə bilmir. Səbəblər isə Siyasi sistemlərin hədsiz sürətli templərlə dəyişikliyə uğraması, təcrübənin nəzəriyyəni önləməsidir. Yeni müstəqil dövlətlərin siyasi transformasiya təcrübələri də bunu təsdiq edir. Bu baxımdan XXI yüzillikdə siyasi sistem nəzəriyyəsinni potensialı və xüsusiyyətləri yenidən diqqət mərkəzindədir.

Nəzəriyyələrin çoxluğunun səbəbi nədir? Aparılan araşdırmaya əsaslansaq cavab çox da çətin deyil. Sosial fəallıqlar çoxluğunun qarşılıqlı münasibətlərinin müəyyən aspektləri, qeyd edildiyi kimi, - ən əhəmiyyətlilər və sistemyaradıcı rola malikdir. Bu nəzəriyyələrin əsas problemi odur ki, onlar sosial fenomenləri öz müddəalarına uyğunlaşdırırlar. Beləliklə, hər nəzəri prizmadan baxdıqda bir çox "sosial dünyalar" meydana çıxır ki, onları başqanəzəri yanaşmadan müqayisəli görmək olar.

Ancaq bütün bu nəzəriyyələrdə zəif tərəfləri mövcuddur. Müxtəlif iradlara baxmayaraq,qeyd etmək lazımdır ki, fərqli yanaşmaların mövcudluğu pozitiv hesab edilməlidir, çünki müxtəlif natamam baxışlar bir-birini tamamlayaraq zənginləşir.Vahid tama, bütöv nəzəriyyəyə töhfəsini verir. Digər tərəfdən, paradiqmalar çoxluğu mənfi nəticələr də verir. On-

ların rəqabətində sosial faktların xarakterix xüsusiyyətləri itir,sezilməz olur. Nəzəriyyələrin empirik faktlara tətbiqi bununla müqayisədə daha praqmatik xarakter daşıyır. Ayrı-ayrılıqda götürüldükdə heç bir nəzəriyyə sosial fenomenlərin bütöv (holistic) mənzərəsini yaratmağa imkan vermir ki, bu da intellektual diskussiyalarn aparılmasını qeyri-mümkün edir.

## Ədəbiyyat


Амелин В. Н. Социология политики. М., 1992.

Американская социология. Перспективы. Проблемы.Методы. М., 1972.

Американская социологическая мысль. Р. Мертон, Дж. Мид, Т. Парсонс, А.Шюц. (Тексты). М., 1994.

Арон Р. Этапы развития социологической мысли. М., 1992.

Бурдье П. Социология политики. М., 1993.

Бурдье П. Социология социального пространства. М., 2005.

Вебер М. Основные социологические понятия // Вебер М. Избранные произведения. М., 1990.

Гидденс Э. Социология. М., 2000.

Елисеев С.М. Политическая социология: Учебное пособие. СПб., 2007.

Маркс К. Немецкая идеология // Маркс К., Энгельс Ф. Соч. Т. 3.

Михельс Р. Принципиальное в проблеме демократии // Социологический журнал. 1994. № 3.




# SİYASİ SOSİOLOGİYA HAQQINDA ELMİ İDEYALARIN GENEZİSİNDƏ

## Qərb ənənəsi

Siyasi sosiologiya, sosiologiyanın bir hissəsi olmaq etibarı ilə onunla bir çox məsələlərdə ümumi tarixə malik olan, onun əsas ideyalarının təkamül konturlarını və dövrləşməsini; inkişafını müəyyənləşdirən amilləri; iştirakçı şəxsləri; elmin bu sahəsinin gələcək inkişafını proqnozlaşdıran parametrlərini qabaqcadan müəyyən edir. Siyasi sosiologiyanın tarixini üç dövrə bölmək olar:

-siyasi sosiologiyanın tarixə qədərki (XIX əsrin ortasına qədər) dövrü;

-siyasi sosiologiyanın inkişafında klassik mərhələ(XIX-in ikinci yarısı- XX əsrin 20-ci illəri)

- müasir mərhələ.

Belə dövrləşmə əsasən sosiologiyanın və siyasi elmin tarixinin (politologiyanın) inkişaf mərhələlərinə uyğun gəlir. Elm tarixçiləri indiki dövrdə öz fənlərinə üç amilin: dəyişən cəmiyyət və «sosial sifariş»; elmin özünün dəyişməsi; elmi biliyin tipinin təkamülünün qarşılıqlı təsiri kontekstindən yanaşırlar. Elmşünaslar hesab edirlər ki, elmə klassik yanaşma tipi öz yerini, elmə Eynşteyn yanaşmasına verdiyi kimi, hal-hazırda elmi biliyin Eynşteyn tipi də öz yerini postmodernist tipə güzəştə gedir. Qərb alimlərinin əsərlərində siyasi sosiologiyaya dair ideyaların genezisinin izahı bu metodoloji yanaşmaya əsaslanır.Siyasi sosiologiyanın tarixi qədim dövrün ictimai-siyasi fikir klassikləri Konfusi, Platon, Aristoteldən başlayır. Bu onunla izah olunur ki, siyasət haqqında biliklər insanın əsas yer aldığı ictimai həyatın əbədi problemləri ətrafında mərkəzləşir. Hətta siyasi fikir tədqiqatçıları

« Kolumb fenomeni» anlayışından istifadə edərkən, Kolumb qitəni kəşf edənə qədər, qitənin mövcudluğu haqqında məlumatın olmasını nəzərdə tuturdular. Məsələ bundadır ki, siyasi sosiologiyanın əsas ideyaları cəmiyyət, hakimiyyət, dövlət haqqında fikirlər, siyasi və ictimai fikir tarixində daima öz əksini tapmışdır. Qədim dövrün mütəfəkkirləri zamanın onları həyəcanlandıran hadisələrinə yazdıqları əsərlərlə cavab verirdilər.

Cəmiyyət və siyasətin öyrənilməsinin Avropa ənənələrinin öz əsasını götürdüyü qədim Yunanıstanda həyat şəhərlərdə mərkəzləşmişdi. Bu müasir dövrümüzə qədər "şəhər" sözünün kökündən yaranmış terminlər formasında, məsələn, "vətəndaş", "vətəndaş cəmiyyəti" eyni zamanda "siyasət", "sivilizasiya", "polis" anlayışları kimi gəlib çatmışdır. Şəhər, məkanın fiksə olunmasından başlayaraq, fərdə "siyasətin" zəruriliyi hissini verirdi, başqa sözlə, hakimiyyət və sosial mühitlə qarşılıqlı münasibətlərdə fəaliyyət üçün müvafiq tənzimləyicilik verirdi (5).

Şəhərlərdən kənarda, nəzarətsiz məkanlarda insanların davranışları başqa formada, əsasən xaricdən, yuxarıdan idarə olunurdu. Bu mənada qədim dövrlərin qayda və qanunlarının çoxu yalnız məlum şərtlərlə aqrar cəmiyyətlər üçün yaradılırdı.Qədim Yunan və Çin sosial və siyasi məkanlarının fərqli xüsusiyyətlərinə görə Konfusinin (b.e.ə. 551-479-cu illərə yaxın) hakimiyyət sxemi Yunanıstan mütəfəkkirlərinin görüşlərindən fərqlidir. Konfusi siyasətçidən çox, inzibatçı təsiri bağışlayır. O, göyün, yerin, hakimiyyətin və nizamın qanunlarını realizə edir. Lakin həm o, həm də Yunan mütəfəkkirləri hələ o vaxt siyasi fikir və təcrübəni bu gün də maraqlandıran problemləri görürdülər.

Konfusi hakim dairələrə xüsusi keyfiyyətə, biliyə və hazırlığa malik şəxslərin irəli sürülməsini istəyirdi (10). Mahiyyət etibarı ilə Konfusiyə görə ciddi şəkildə imtahandan



keçən məmurların (daha sonralar Platon (b.e.ə. 428, və ya 427-348, və ya 347-ci illər), ştatda olan müdriklər, Orta əsrdə xəlifələrin münnəcimləri eyni bir dövrün b.e.ə. 322-ci illərin təzahürü olmuşdur) daha sonra müasir siyasi sosiologiya üçün aktual olan problemləri dərindən mənimsəmələri üçün siyasətin, qanunların öyrənilməsi metodları üzərində fikirlərlə zənginləşdirilməlidir. Çünki bunlar özlərində elmin, biliyin, təhsilin hakimiyyətlə, siyasətlə institusional birlik ideyasını əks edirlər.

Konfusiyə görə hakimiyyətin mənşəyi, nüfuzu (həqiqətə yiyələnmə), hakimiyyəti tənzimləyən standartlar, hakimiyyət və cəmiyyət, onun qrupları və s. arasındakı münasibətlər məhz belə təsəvvür olunurdu. Aristoteldə (b.e.ə. 384-322-ci illər) isə müasir siyasi sosiologiya üçün aktual sayılan, problemə daha dərindən nüfuz etmək üçün siyasətin öyrənilməsinin metodları üzərində düşüncələrlə fərqlənir.Yunan və Roma mütəfəkkirlərinin siyasətə baxışı orta əsrlərdə ilahiyyatın güclü təsiri altında formalaşdığından, monarxlar Allahın yerdəki valiləri hesab olunur və kilsə tərəfindən müdafiə olunurdular. Belə vəziyyət rasional təhlilə və xüsusilə hakimiyyətin tənqidinə yol vermirdi. Dünyəvi və ruhani avtokratlar tərəfindən həyata keçirilən siyasət, Allahın verdiyi səlahiyyətlərin ifadəsi hesab edilirdi. Məsələn, XVIII əsrdə Rusiya hökmdarları Plutarxa görə alicənablıq, qəhrəmanlıq və həqiqətsevərlik nümunələri əsasında tərbiyə edilirdilər. A.S. Puşkinin Çarski Selodakı müəllimi A.P.Kunisın siyasi və mənəvi elmlər professoru titulunu daşıyırdı. Hakimiyyəti, əxlaqı və siyasəti vahid bir sistem kimi qəbul edən nəzəri fikir ənənəsi, bir sıra Avropa ölkələrində gələcək dövlət xadimlərinin hazırlığında indiyə qədər mövcuddur.

N.Makiavellinin (1469 — 1527) əsərlərində siyasətin, dövlətin təhlili dinin qanunlarından ayrı götürülür (6). Cəmiyyətdə, insanın təbiətində və zamanın reallıqlarında siyasi

prosesləri hərəkətə gətirən qüvvələrin səbəblərini araşdırmağa cəhd edilmişdir. N. Makiavelli, (daha sonralar T. Hobbs, Ş. Monteskye və başqaları) cəmiyyəti, vətəndaşları vətəndaş və xarici müharibələrin gətirdiyi hücum və bədbəxtliklərdən azad edən hakimiyyəti göstərməyə çalışırdı.

Siyasətin təhlilin rinasionalizmi — ümumi və siyasi sosiologiyanın yaranmasına təkan verdi. Müasir tədqiqatçılar siyasi-sosioloji fikirin bu mərhələsinin sələfləri sırasına C. Viko, Ş. Monteskye, C. Lokk, T. Hobbs, D. Yum, A. Ferqyusson və digər bu kimi alimləri qoyurlar. Lakin xüsusilə qeyd etmək lazımdır ki, o dövr üçün qabaqcıl Avropa ölkələrində yaranmış ictimai şərait böyük sosial mütəfəkkirlərin və ictimai-siyasi konsepsiyaların yaranmasına şərait yaradırdı. Avropa ölkələrinin inkişafın kapitalist mərhələsinə qədəm qoyması müəyyən sosial və siyasi fenomenlər yaratdı. Bu fonda əmtəə mübadiləsinin intensivləşdirməsini, maşın istehsalının formalaşmasını, cəmiyyətin sosial tərkibində dəyişikliklərin baş verməsini əks etdirən siyasi iqtisadiyyat meydana çıxdı. İqtisadiyyatın ardınca, ictimai fikir, əvvəllər yalnız hakim dairələrin səlahiyyətlərinə daxil olan cəmiyyət, siyasət kimi sahələrə öz diqqətini yönəldə bildi.

Napoleon müharibələrinin və restavrasiyaların ardınca, müasir sosiologiyanın formalaşmasının başlanğıcını qeyd edən O. Kontun (1798-1857) əsərləri dərc edilməyə başlayır. Siyasi sosiologiya kontekstində Konta Sen-Simonun ideyalarının güclü təsirinin olduğunu qeyd etmək lazımdır. Utopistlərin metodologiyasından çıxış edərək, Kont ideal cəmiyyətin qurulması üçün elmlərin universal təsnifatını yaratdı. Yoxsul ailədən, marginal təbəqədən çıxmış bir çoxları kimi o, elmdə cürətli, ideala doğru fəaliyyətdə ziyanın olmasının zəruriliyini etiraf edirdi (11;118). O. Kont da siyasi və sosial fikirə, ictimai istehsalın, siniflərin, sinfi hakimiyyətin və cəmiyyətin həyatında iqtisadi amilin aparıcı rolunun təhlili kimi



tövfələr vermiş K. Marks (1818-1883) kimi, praktik olaraq eyni suallara cavab axtarırdı. Müasir dövrdə də onun «vətəndaş cəmiyyəti» və «siyasi cəmiyyət» kateqoriyaları haqqında fikirləri aktuallığını itirməyib, əsasən vətəndaş cəmiyyətini öyrənən siyasi sosiologiyanı və siyasi hakimiyyəti öyrənən siyasi elmi (politologiyanı) bir-birindən ayırmağa imkan yaratdı (7;350). Elmi ədəbiyyatda K. Marksın sosiologiyaya və siyasi elmə verdiyi töhfələr haqqında müxtəlif fikirlər mövcuddur. Lakin bir şey şübhəsizdir ki, onun siyasi və sosial baxışlarının istər tərəfdarları, istərsə də əleyhdarları on illər ərzində Marks tərəfindən qoyulmuş problemləri həll etməyə cəhd göstərirlər. Onun sosial inqilabların zəruriliyi haqqında çıxardığı nəticə, kəskin sosial münaqişələrdən təkamül yolu ilə çıxmağın yollarının axtarışını stimullaşdırdı.

Marksın müasiri olmuş H. Spenser (1820-1903) dövrünün müasir bilikləri (Ç. Darvin nəzəriyyəsi) səviyyəsində, sosial sistemlərin təkamülünü, anatomiya və fiziologiyanın öyrəndiyi keyfiyyətlərə analoji olaraq göstərməyə çalışırdı. Kont, Marks, Spenser — erkən kapitalizm dövrünün mütəfəkkirləridir. Sosiologiya tarixinə onlar: rasional elmi biliklər əsasında (Kont), formasiyaların qanunauyğun şəkildə dəyişməsi (Marks) və "orqanizmik" təkamüllər (Spenser) nəzəriyyələri ilə cəmiyyətin dəyişilməsinin üç universal sisteminin yaradıcıları kimi daxil olmuşlar Bütövlükdə XIX əsr, klassik bilik əsasında qurulmuş «böyük» universal sxemlər əsri olmuşdur(13).

Siyasi sosiologiyanın gələcək metodlarından biri kimi sosial statistikanın formalaşmasını da qeyd etmək lazımdır. Bu istiqamətdə xüsusilə İngiltərədə əldə olunmuş nailiyyətlər diqqətə layiqdir. XIX əsrin ikinci yarısının İngiltərədə «statistika əsri» sayıldığı bir dövrdə aristokratlar günün hava proqnozu ilə yanaşı, bu və ya digər problemlərlə bağlı statistik məlumatlar haqqında da müzakirələr aparırdılar.

Müzakirələrə marağın artması reformizmlə, eyni zamanda inqilabın qaçılmazlığı haqqında peyğəmbərcəsinə deyilən fikirlərin bir növ təkzib edilməsi, cəmiyyətin ən kasıb təbəqələrinin vəziyyətinin dəyişilməsinə edilən cəhdlərlə, yoxsulluq, xarabalıqlar fenomenlərinin öyrənilməsiylə əlaqədar idi. Bu dövrdə cəmiyyət, dövlət və hakimiyyətin nisbəti məsələsində bir sıra qaranlıq məqamlar aydınlaşmağa başladı. Bu məsələ ilə bağlı xüsusi yer ABŞ hakimiyyətini, bir növ «ictimai müqavilə» ideyasının reallaşması, müəyyən olunmuş dəyərlərin reallaşması və onlara riayət olunması üçün cəmiyyətin aşağı təbəqələri ilə yuxarılar arasında "konsensus" kimi göstərən A. de Tokvilin (1805 -1859) əsərlərinə məxsusdur. Bu Avropanın ənənəvi monarxiyasından fərqlənən, cəmiyyətin sosioloji mənimsənilməsinə yol açan, siyasi sosiologiyaya anqlosakson töhfəsinin zəruri hissəsi idi. Tokvilin fikrinə görə, vətəndaş assosiasiyaları milləti və dövləti «aşağıdan» qura bilərlər. Hakimiyyət probleminə daima yenilənən yanaşmalar istiqamətdə dövlət aparatı haqqında, şəxsiyyətlərin yeri və rolu haqqında, XIX əsrin görkəmli siyasi xadimləri haqqında biliklər dərinləşirdi. Zaman, demokratik hüquq və azadlıqlarını, eyni zamanda siyası hüquqlarını reallaşdırmağa cəhd göstərən o dövr üçün üstünlük təşkil edən qrup və aşağı təbəqələrin problemlərini aktuallaşdırdı. Aşağı təbəqələrin çılpaq şəkildə üzə çıxan çətin həyatı, özgələşmə, sosial-siyasi gərginliyin son həddi, böyük daxili və xarici kataklizmlər (inqilablar, müharibələr) zəniri alimlərin diqqətini cəlb edir, yeni tədqiqat sahələrini formalaşdırırdı. Bəzi ölkələrdə bir sıra alimlər islahatlar vasitəsilə siyasətə təsir göstərməyə cəhd edir, siyasətçılərə və kilsəyə vətəndaş və dövlətlərarası münaqişələrdən yayınmaq üçün qərarlar qəbul etməyi təklif edirdilər. Belə bir şəraitdə bir sıra böyük sosioloqların yaradıcılığı formalaşmışdı ki, bunlardan biri də siyasi sosiologiyanın əsasını qoymuş M. Veber (1864 -1920)



sayılır.

Avropanın bir çox ölkələrində monarxiyaların mövcud olduğu şəraitdə (Birinci dünya müharibəsi nəticəsində onların əksəriyyət tarixin səhnəsindən getdi) sosioloqlar və politoloqlar daha fəal şəkildə rasional demokratik siyasəti, hakimiyyəti (M. Veber), siyasi partiyalar, sosial siniflərin və təbəqələrin siyasi maraqlarını (M.Ostroqorskiy, R.Mixels), hakimiyyətin reallaşdırılması formalarını (M.Veber), siyasi elitaları (İl Moska, V.Pareto), seçki kampaniyalarını (bir sıra amerika sosioloqları), cəmiyyəti dağılmaqdan saxlayan interaktiv əlaqələri (E.Dyurkqeym 1858-1917), hüquqi dövlət və s. bu kimi məsələləri aydınlaşdırmağa cəhd göstərirdilər. Veberin siyasi sosiologiyasında əsas yeri hakimiyyət anlayışı tutur. Veber hakimiyyəti - bir şəxsin, müəyyən sosial münasibətlər çərçivəsində öz iradəsini, bu münasibətlərin digər iştirakçılarına, onların müqavimətinə baxmayaraq diktə etməsi kimi müəyyənləşdirir.

Veberi hakimiyyətin xüsusi forması – legitim hakimiyyət: yəni qəbul olunan, tanınan hakimiyyət maraqlandırırdı. Tanınan legitimliyi Veber hakimiyyət anlayışı kimi qəbul edirdi. Hakimiyyət strukturunda Veber üç elementi müəyyənləşdirirdi: 1.siyasi birliyin başçısı, siyasi lider (monarx, prezident, partiya lideri); 2.liderin söykəndiyi idarəetmə aparatı; 3.kütlənin hakimiyyətə tabeçılıyi.XX əsrin başlanğıcında sosiologiya, XIX əsrin bir çox təlimləri üçün xarakterik olaraq ictimai həyatın «anatomiyasının» və «fiziologiyasının» öyrənilməsindən, sürətlə ən mürəkkəb olanın - ictimai həyatın tərkib hissəsi kimi insanın psixi, sosial-psixoloji vəziyyətinin və sonda insanın, qrup və birliklərin siyasi davranışının, maraqlarının və s. öyrənilməsinə başlayır. Artıq elm və cəmiyyət üçün insanın öyrənilməsinə laqeyd münasibət arxada qalır. Bu cəhətdən siyasi proseslərin konseptuallaşdırılması yeni səviyyəyə E. Dyurkqeymin və bir sıra amerika

müəlliflərinin, xüsusilə Z. Freydin (1859-1939) əsərlərində yeni səviyyəyə qalxır. Düzdür, bu ideyalar həmin dövrün sosial və siyasi fikri üçün xarakterik olan millətçiliyin düzgün qiymətləndirilməməsi, avromərkəzçılık, iqtisadi iddialar, iqtisadi iddialar, ərazi ambisiyaları ilə pərdələnsə də, nəzərə almaq lazımdır ki, bunlar ilk addımlar idi.

Siyasi sosiologiyanın inkişafında yeni mərhələ Birinci Dünya Müharibəsi (1914-1918) və Rusiyada baş verən sosialist inqilabıyla bağlı hadisələrlə başlanır. Siyasi sosiologiya, ictimai fikirin dəyişən dünya problematikasını mənimsəməsi səviyyəsindən asılı olaraq formalaşırdı. Veber və Dyurkqeymdən sonra sosioloqlara aydın oldu ki, «böyük nəzəriyyələr» deyil, cəmiyyətin konkret sahələrinin predmet, eləcə də empirik tədqiqatı sosiologiyanın böyük inkişaf yolunu müəyyənləşdirir. Cəmiyyət haqqında elmlər sırasında müstəqil siyasi sosiologiya və siyasi elmin formalaşması dövrü XX əsrin 20-ci illərinin başlandığı tarixə aid edilir. Bu elmlərin inkişafı o dövrdə sosioloqların imkanı daxilində siyasi proseslərin tədqiqinə və təhlilinə kifayət qədər təsir göstərirdi. Birinci dünya müharibəsindən sonra bəzi ölkələrin siyasi təcrübəsində reformizm üstünlük təşkil etməyə başladı. Bu demək olar ki, avtomatik şəkildə siyasi sosiologiya və onun metodlarının: sorğuların, müsahibələrin, ekspert qiymətləndirmələrinın və s.-in əhəmiyyətini qaldırdı. Belə fikirin yaranması siyasi proseslərə, institutlara və hakim strukturlara sosiologiyanın təsirinin artması nəticəsində yaranmışdı. Bu dövrdə siyasətin «elmiləşdirilməsinin» real ilkin şərtləri də ortaya çıxdı. Sosiologiyanın empirik, tətbiqi tərəfinə marağın artması (yalnız ABŞ-da 1920-ci ildə 2800 sorğu keçirilmişdi) (8;187) nəticəsində, siyasi cəmiyyətin təhlilinin universal sxeminin yaradılması cəhdləri (T. Parsonsdan başqa 1902 - 1979) keçmişdə qaldı.

Siyasi sosiologiyaya siyasi proseslərin sonrakı demokratikləşdirilməsi tendensiyası: monarxiyaların aradan qaldırılması, demokratik azadlıqların genişlənməsi, kütləvi partiyaların artması, həmkarlar ittifaqının, qadın və gənclər təşkilatlarının fəallığının gücləndirilməsi öz təsirini göstərirdi. Bu hadisələrin sosioloji mənimsənilməsi zərurətinın yaranması nəticəsində insanın iqtisadi, siyasi davranışı, psixologiya və ideologiyasına maraq daha da artdı. İctimaiyyətin və qrupların əhval-ruhiyyəsi və davranışlarının (biznesdən siyasi təcrübəyə tez-tez keşən qruplar) idarəedilməsi və manipulyasiyası formaları işlənməyə başladı. Münaqişə, siyasi liderlik, zorakılıq problemlərinin tədqiqi aktualaşdı. Sosiologiyada belə dönüşün yaranması kütlənin, aşağı təbəqələrin yeni mövqeyi ilə izah olunurdu. Bu dövr kütləvi cəmiyyət konsepsiyasının formalaşması, insanların şüur və davranışlarına, siyasi partiyalara, birliklərə və kütləvi hərəkatlara marağın yüksəlməsi ilə xarakterizə olunur. Bununla yanaşı sosiologiyanın inkişaf etdiyi və xüsusilə tətbiq olunduğu ölkələr bu dövrdə o qədər də çox deyildi. Bir çox ölkələrdə sosiologiya və eləcə də siyasi sosiologiya siyasətə yaxın buraxılmırdı. Bu ölkələr sırasında keçmiş SSRİ və digər sosialist dövlətləri də var idi. Keçmiş SSRİ-də siyasi sosiologiya yalnız XX əsrin 60-cı illərindən başlayaraq reabilitasiya qazandı. İkinci dünya müharibəsi ABŞ-da, İngiltərədə, Fransada və başqa ölkələrdə siyasi sosiologiyanın inkişaf tendensiyasını möhkəmləndirdi. Siyasətin və cəmiyyətin empirik öyrənilməsinin Amerika ənənəsi dünyada geniş şəkildə yayılmağa başladı: bir çox alimlər siyasi maraqlar, institutlar, mexanizmlər, siyasi proseslər haqqında bu ənənənin təsiri altına düşürlər.

Siyasi sosiologiya XX əsrın ikinci yarısında baş vermiş ictimai hadisələrə fəal reaksiya verirdi. Siyasi həyatın sonrakı demokratikləşməsi ideyasının həyata keçirilməsində A. de Tokvilin yuxarıda qeyd etdiyimiz dövlətə hökmranlığın forma və texnikasına münasibətdə yuxarıların və aşağıların bir növ "konsensusu" kimi yanaşma geniş yayılmağa başladı

(14). Dövlətə istisnasız olaraq varlıların yoxsullar üzərində hökmranlıq, əsarətdə saxlama və zülm orqanı kimi münasibət artıq dəyişirdi. Vətəndaş cəmiyyətinin, individlərin fəaliyyəti üçün ictimai-siyasi məkan dairəsi genişlənirdi.

XX əsrin sonlarına yaxın yalnız «aşağıdan» yaradılmış ayrı-ayrı icma və federasiyaların birləşmələri deyil, eyni zamanda ənənəvi güclü mərkəzə malik dövlətlər də vətəndaş cəmiyyətinə öz dayaqları kimi baxırdılar. Seçicilər formal olaraq siyasi qərarların, xüsusilə, maliyyənin və başqa resursların bölüşdürülməsində əsas subyektlərə çevrilirlər. XX əsrin böyük sosioloqları (T. Parsons, P. Burdye, A. Şyuts, N. Luman, İ. Vallerstayn, N. Smelzer, U. Bek, E. Qiddens və başqaları) dünya sosioloji fikirinin inkişafını müəyyən edən nəzəriyyə və konsepsiyalarında siyasi sahənin tədqiqatçıları tərəfindən alınmış məlumatlardan geniş şəkildə istifadə edirdilər.

XX əsr həqiqətən xalq kütlələrinin əsri olması haqqnıda alimlərin və praktiklərin fikri daha da möhkəmləndi. Bu dövrdə şəxsiyyətlərin subyektlərinin, partiyaların (M. Dyuverje), hərəkatların, siyasi qrupların siyasi fəaliyyətində iştirak edən vətəndaşların ictimai rəyinə və elektorat davranışına həsr olunmuş tədqiqatlar intensivləşdirildi və yeni səviyyəyə qalxdı (15). Artıq siyasi proseslərin ayrı-ayrı tərkib hissələrinin sosioloji təsvirindən, alimlər siyasi proseslərin təhlilinə, o cümlədən komparativ təhlilə keçid almağa başlayırdılar. Siyasi münaqişə problemləri ilk növbədə «münaqişə-konsensus» kimi cüt terminlərdə (C. Lipset), dərin təhlilə cəlb olundu (16).

Sosial psixologiyanın uğurları insanların siyasi davranışı haqqında təsəvvürləri zənginləşdirməyə, daha dəqiq fərdlərin və qrupların maraqlarını müəyyənləşdirməyə, onların təmin olunması yollarını, siyasi nəzarət üsullarını tapmağa icazə verdi. Antropologiyanın nailiyyətləri siyasi mədəniyyətin sosioloji p roblemlərinin yeni səviyyəsinin mənimsənilməsinə şərait yaratdı. (Q. Almond) (3).



ABŞ-da bələdiyyə səviyyəsində siyasi institutlarda, xüsusilə lobbiləşmə yolu ilə reallaşdırılan «maraq qrupları» fenomeni aşkar edilmişdi. Hələ XX əsrin başlanğıcında ABŞ-da ortaya çıxan qrup münaqişələri ideyası (A.Bentli, 1908), siyasi nüfuzun, lobbizmin, seçki kampaniyalarının, elektoratın davranışının, seçki yerlərinə namizədlərin təsir texnologiyalarının, təzyiq qruplarının, təşkil edilmiş maraqların öyrənilməsinə təkan verdi (2).

Bundan əlavə, siyasi qərar və qanunların hazırlanması və reallaşdırması mexanizmləri kimi icma və bələdiyyələrin öyrənilməsinə başlandı (C. Lipset). Kütləvi informasiya vasitələrləri yeni ampluada çıxış etməyə başladı. Siyasi proseslərin əsas tərkib hissələrindən birinə çevrilən və cəmiyyətdə dördüncü hakimiyyət rolunu oynayan KİV siyasi sosiologiyada mərkəzi yerlərdən birini tutdu. Bu tədqiqatların nəticələri, (məsələn, bir sıra ölkələrdə "lobbizmi" tənzimləyən aktların qəbul olunması) qanunverici prosesin əsas hissəsinə çevrildi.

Dünya sosializm sisteminin süqutu siyasi sosiologiyanın bir sıra problemlərinin: yeni dünya nizamının konfiqurasiyası; kapitalizm sistemi üçün yeni çağırışlar; postkommunist ölkələrinin yeni həyat tə. :inə keçməsində ümumi və xüsusi cəhətlər, kəbləri və eçidin hərəkətverici qüvvələri, yeni elitaların davranışının xüsusiyyətlərinin səbəbləri və mənbəyi, hakim qrupların dəyişilməsi və s.kimi problemlərin tədqiqini stimullaşdırırdı. Avropa və Amerikadan olan sosioloqlar da dünyanın bu regionunda 1989-cu ildən sonra baş verən dəyişikliklərə, xüsusilə "Sosioloji tədqiqatlar" jurnalında nəşr olunmuş məqalələrdə (2002, № 5—10) öz münasibətlərini bildirmişdilər. Bu məqalələrdə siyasi sosiologiyanın elektoral proseslərin xüsusiyyətləri, elita və cəmiyyətin aparıcı qruplarının davranışı, beynəlxalq maliyyə təşkilatlarının

rolu, siyasətin iqtisadiyyat, mədəniyyət və elmlə əlaqəsi və s. kimi problemləri əks olunmuşdu. Şərqi Avropada əldə olunmuş empirik material "modernizasiya", "transformasiya" və s. sosioloji konsepsiyaların dəqiqləşdirilməsinə gətirdi(12).

Dünya siyasətinə keçmiş müstəmləkə ölkələrinin cəlb olunması prosesi sürətləndikcə, müxtəlif dəyişikliklər yaranırdı. Bu dəyişikliklərin ilkin şərtlərinin öyrənilməsi, üçüncü dünya ölkələrində hərbçilərin siyasi rolu; üçüncü dünya ölkələrinin sosial problemləri, onların fəaliyyəti və inkişaf perspektivləri sahəsində tədqiqatlar nəticəsində mümkün oldu. Bu kontekstdə «inkişafın sosiologiyası» nəzəriyyəsi yarandı (Q. Myurdal, R. Keniq və başqaları) (9).

Raket-nüvə faciəsinin mümkünlüyü siyasi təhlükəsizlik problemlərini kəskinləşdirdi, qəbul edilən siyasi qərarların qüvvəsini şübhə altına saldı. Siyasi təcrübədə münaqişələr və onların həlli haqqında elmlər, etnososiologiya sahəsində ekspert biliklərinin rolu artdı. XX əsrin sonu və XXI əsrin əvvəlləri sosioloqların ən yaxın gələcəyə baxmaq cəhdinin artması (D. Aleksander, İ. Vallerstayn və başqaları), «risklər sosiologiyasının» yaranması (U.Bek), kütləvi mədəniyyətlərdə qlobal proseslərin tədqiqi (amerikanlaşdırma və «makdonaldlaşdırma» - D. Ritser), antiqlobalizm fenomeninin sosioloji dərk edilməsi, terrorizm təhlükəsi və s. məsələlərin tədqiqi ilə yadda qalmışdır.

Bu dövrdə tədqiqatların metodları mükəmməlləşdi. İkinci dünya müharibəsinə qədər formalaşmış T.Parsonsun struktur funksionalizm ideyası əsasında formalaşan sistemli yanaşma, sosioloqlara siyasi təcrübənin sistemli təhlilnə imkan yaratdı (2).

Elmi-texniki tərəqqi siyasi sosiologiya qarşısında yeni üfiqlər açdı. Sosioloji tədqiqatların metodlarının elmi standartları təsdiq olundu: seçilmiş materialların həcmi; sorğularla yanaşı sənədli dosyenin öyrənilməsi; çap nəşrlərinin və



sənədlərin məzmun-analizi; standartlaşdırılmış müsahibə; fokus-qruplar; eksperimentlər və s. Belə ki, 1947-ci ildə F. Merei (ABŞ) məktəbəqədər yaş qrupunda olan uşaqlar arasında liderliyə anadangəlmə qabiliyyəti olanları üzə çıxarmağa, və bu qabiliyyətin reallaşdırılmasının formalarını müəyyənləşdirməyə kömək edən eksperiment keçirdi. Qərbin siyasi sosiologiyasında gedən müasir proseslərlə bağlı başqa nümunələr də gətirmək olar. Lakin biz siyasi sosiologiyanın yeni və əsas ideyalarının açılmasının əsasında, kökündə duran məsələləri seçəcəyik. Əhəmiyyətli məsələ odur ki, siyasi sosiologiya başqa elmlərlə yanaşı institusional olaraq siyasi proseslərə, ilk növbədə seçki proseslərinə və siyasi qərarların qəbul olunması məsələsinə qoşulur. Siyasi elitalar bu elmin imkanlarını müsbət qiymətləndirir. Bu 1936-cı ildə ABŞ-da prezident seçkilərində qələbənin F.D. Ruzveltə deyil, onun rəqibinin olacağı barədə qabaqcadan deyilənləri Dj. Qellapın apardığı proqnozlarla alt-üst olduğu dövrdən başlayır. Siyasi sosioloqların iştirakıyla alınmış ekspert qiymətləndirmələri sosial və digər dövlət proqramlarının reallaşdırması proseslərində də nəzərə alınmağa başladı. Beləliklə, siyasət cəmiyyət haqqında elmlərlə dialoqdadır.

Göstərmək lazımdır ki, hazırda, demokratiya şəraitində siyasi sosiologiyada mərkəzi yeri getdikcə daha çox insan, eyni zamanda həm qrup, həm birlik, həm də təşkilat üzvü kimi çüur və davranışı ilə siyasiləşmiş insan tutmağa başlayır.

## Ədəbiyyat

1.Алмонд Г. Гражданская культура. Политические установки и демократия пяти наций. В кн.: Антология мировой политической мысли. Т. II. М.: 1997.

2.Американская социология. Перспективы. Проблемы.Методы/Подред.Т.Парсонса. М.: 1972.

3. Алмонд Г. Гражданская культура. Политические установки и демократия пяти наций. В кн.: Антология мировой политической мысли. Т. II. М.: 1997.
4.Вебер М. Избранные произведения: Пер. с нем./ Сост., общ. ред. и послесл. Ю. Н. Давыдова; Предисл. П. П. Гайденко. М.: Прогресс, 1990.
5.Коноплева-Коноплянная К.И. Идеальное государство и идеальное управление в политических учениях Платона и Аристотеля. М.: 1992.
6.Макиавелли Н. Государь. М.: Планета, 1990
7.Маркс К., Энгельс Ф. Соч. 2-е изд. Т. 17. с. 350)
8.Mitchell D. A hundred years of sociology. Chicago, 1968. P. 187.
9.Политическая социология: Учебник для вузов./ Под ред. П 50 чл.-корр. РАН Ж. Т. Тощенько. М.: Юнити-Дана, 2002,495с.
10.Переломов Л.С. Конфуций и легисты в политической истории. М.: 1981.
11.Раймон Арон. Этапы развития социологической мысли. М.: 1993.
12.// Социологические исследования. 2002. № 5. 10.
13.http://www.tamognia.ru/faq/detail.php?ID=1600771
14.http://sceptic-ratio.narod.ru/ku/lt-17.htm
15.http://www.politicalmind.ru/minsos
16.http://bookucheba.com/raznyih-stran-cotsiologiya/



## SİYASİ SOSİOLOGİYA HAQQİNDA ELMİ İDEYALARİN GENEZİSİNDƏ ŞƏRQ ƏNƏNƏSİ

Siyasi sosiologiya yeni elm sahəsi olsa da, bu sahədə fikirlər qədimdir. Həmin sahədə ideyaların mənbəyi Qədim Şərqə gedib çıxır. Qeyd etmək lazımdır ki, siyasi-sosioloji ideyalar uzun bir tarixi yol keçərək dövlətin və cəmiyyətin yaranması ilə bərabər formalaşmağa başlanmışdır. Əlbətdə ki, həmin siyasi görüşlərin yaranması və formalaşması ilkin mifik ideyaların tədricən rasionallaşması nəticəsində baş vermişdir. Belə ki, həm Şərq, həm də Qərb xalqlarının hamısında-qədim misirlilər, hindlilər, çinlilər, babillər, azərbaycanlılar, yunanlar, romalılar- siyasi fikrin əsasları insanın bu dünyada yeri və rolu, onun əhəmiyyəti, cəmiyyətin və dövlətin həyatında yeri və fəaliyyəti, hərəkətləri və s. mifoloji nəzəriyyələrə, baxışlara arxalanır. Bu dünyada nizam-intizam kosmik nizamın tərkib hissəsi olmaqla ilahi təbiətə malikdir. Belə bir anlamda insanların həyatı, onların ictimai və dövlətçilik quruculuğundakı fəaliyyəti, özləri arasındakı qarşılıqlı münasibətləri, hüquq və azadlıqları və s. mühüm əhəmiyyətə malik idi Bu baxımdan, siyasi təhlükəsizlik, sabitlik, onun təmin edilməsi haqqında ilkin ideyalar da (dini-mifik təsəvvürlər) qədim dünyada formalaşmışdır. Qədim cəmiyyətlərdə insanlar bütün prosesləri - dövlətin yaranmasını, siyasi quruluşların sabitliyi, yaxud qeyri-sabitliyini, müharibələrin baş verməsini, sülhün yaranmasını və s. «allahların iradəsi», onların «arzu» və «istəkləri» ilə bağlayırdılar.

Şumer və Akkad hökmdarları və qanunvericiləri həmişə özlərinin hakimiyyətlərinin ilahi olduğunu xatırlamış və yerdə özlərinin Tanrının varisi olduqlarını düşünmüşlər. B.e.ə

XVIII əsrdə Babilistanın qədim siyasi və hüquqi abidəsi olan Hammurapinin Qanunlarında hökmdar Hammurapi özünün hərəkətəlrini tanrıların iradəsi kimi qeyd edirdi. Bütün dini-mifik təsəvvürlərdə, məsələn, Şumer və Akkad əsatirlərində dünyanın, dövlətlərin, insanların yaranışı, onlar arasındakı münasibətlər allahların işləri, arzuları kimi əks olunurdu. Şumer mifologiyasında deyilir ki, nə vaxtsa yer üzərində «qızıl əsr» olmuş, insanlar təhlükəsiz yaşamış, sarsıntıların, xaosun, qırğınların, qanlı toqquşmaların nə olduğunu bilməmişlər: «Yer üzərində sülh və yekdillik mövcud idi... insanlar hamısı bir dildə danışırdı və bir-birilə həmrəy yaşayırdı. Heç kəs hakimiyyət və var-dövlət yolunda rəqabət aparmırdı. Böyük Şumer, ilahi qanunlar ölkəsi və qonşu ölkələr sülh və həmrəylik şəraitində yaşayır, heç bir rəqabət aparmırdılar. Müdriklik allahı Enki birdən öz uçurum aləmindən baş qaldırdı, adamlara baxdı və gördü ki, onlar xeyli çoxalmışlar, hədsiz güclənmişlər, boy-buxunlu olmuşlar, son dərəcədə məharətlənib və fəallaşmışlar. Ən müdrik allah dəhşətə gəldi və Enlilə dedi: «Ehtiyatlı ol qardaşım. Sənə tabe olan insanların sayı çoxalır, onlar qüdrətli bahadurlara çevrilirlər. Onlar fəndgir və fəal olurlar, şəhər və istehkamlar yaradırlar. Onların sayını azaltmaq lazımdır, onları qorxutmaq lazımdır ki, özlərini allahlara tay sanmasınlar». «Vəhşi heyvanlar yaradaq ki, onlar insanları məhv etsin və sayını azaltsınlar. Yer kürəsinə bürkü və tamahkar çəyirtkə göndərək ki, aclıq başlansın və adamların sayı azalsın. Zalım İrranı (vəba allahını) onların üstünə qaldıraq, qoy o, insanları altmış dərd-bəla ilə qırsın. Onda adamların sayı azalar və onları barmaqla saymaq olar. Adamların bir-birilə arasını vuraq, qoy qardaş-qardaşı, qonşu-qonşunu qırsın, qoy tayfa-tayfaya, xalq-xalqa qarşı dursun. Onda adamların sayı azalar, itaətdə olar və bizim qarşımızda qorxudan əsərlər»



[9,118]. Beləliklə, «Qızıl dövr» sona yetdi, müharibə dövrü başladı. Bu əsatirdə ümumi təhlükəsizliyin, xüsusən də təhlükəsizliyin siyasi tərəflərini aydın görmək mümkündür. Əksər hallarda müharibələr, münaqişələr siyasi hakimiyyət uğrunda gedən mübarizədən yaranırdı. Bu da öz növbəsində ölkədə çaxnaşmaların yaranmasına, iqtisadiyyatın zəifləməsinə, dövlətin siyasi əsaslarının sarsılmasına gətirib çıxarırdı. İnsanların daha çox var-dövlət əldə etməsi və hakimiyyət uğrunda vuruşması onların fəndgir, fəal olması, qüdrətlənməsi ilə nəticələnmişdi. Həmin səbəb də allahların narazılığına gətirib çıxarmış və onlar ölkəni həmişəlik təhlükələr girdabına sürükləmişlər.Qədim Misirin abidələrindən olan «Orizis haqqında» əfsanədə, «Misirli Sinuxet» haqqında hekayətdə, «Ptaxoterin nəsihəti»ndə, «Nefertinin nəsihətləri»ndə dövlətin təhlükəsizliyi və onun təmini üçün hər bir vətəndaşın qəhrəmanlıq keyfiyyətlərə malik olması zərurətindən danışırlar.

Qədim Hindistanda e.ə. I minilliyin II yarısında meydana gəlmiş «Artxaşastra»da hərb və sülh, təhlükəsizlik, sabitlik, diplomatiya, iqtisadiyyat və s. məsələlərə xüsusi diqqət verilmişdir. Siyasi-iqtisadi traktat olan «Artxaşastra»da ölkənin siyasi təhlükəsizliyinin təmin edilməsi məsələsi hərbi nöqteyi-nəzərdən təhlil edil... Burada qeyd olunur ki, dövlətin inkişafı, sabitliyi, əhalisinin firavan, əmin-amanlıq şəraitində yaşaması, bir sözlə, təhlükəsizliyə nail olmaq üçün məhz «o, (yəni, ordu-D.H.) dədə-babada bir-birinə keçən dövlət kimi yox, yürüşlərdə dözümlü, dəfedilməz, çətinliklərdən keçən, döyüşlərdə sınaqdan çıxan,silahların bütün növlərindən xəbərdar (məlumatlı), etibarlı olmalıdır. Çünki, xoşbəxtlik və bədbəxtlik onunla bağlıdır» [3,20] Buradan belə bir nəticəyə gəlmək olar ki, ölkənin müdafiə edilməsi, əhalinin işğalçılardan qorunması, mənfi təsvirlərin və amillərin dəf edilməsi yalnız güclü, möhkəm ordu vasitəsilə mümkün-

dür.

«Artxaşaster»da belə bir maraqlı fikir söylənilir ki, təhlükəsizliyin, rifahın, firavanlığın əsasını sülh və əmək təşkil edir. Burada göstərilir ki, sülhün və əməyin (zəhmət) əsasını isə siyasətin 6 metodu təşkil edir.

Sülh; Müharibə; Gözləmə vəziyyəti; Hücum; Müdafiə yollarının axtarışı; İkili siyasət. [10,133 ]

Bütün dövrlərdə və dövlətlərdə olduğu kimi Qədim Hindistanda siyasi təhlükəsizliyin təmin edilməsində aparıcı yer hərbçilərə (kşatrilərə) məxsus idi. Onların dörd kastadan birinə bölünməsi, kşatrilərin xüsusi mövqeyə malik olması hərbi siyasətin, təhlükəsizlik siyasətinin prioritetliyini göstərirdi.Dövlətdə sabitlik, səmərəli idarəetmə sistemi, nizam-intizam, sabitlik, qanun-qayda mövzuları qədim Çin siyasi fikrində mühüm yerlərdən birini tutmuşdur. Məşhur Çin filosofu Konfutsi (e.ə.551-479-cu illər) qeyd edirdi ki, insan hər şeyin əsasıdır. O, dövlətin təhlükəsizliyini, sabitliyini ölkə daxilində iyerarxiyanın (subordinasiya) saxlanılmasında görürdü. Konfutsinin təlimində insanın müdrikliyi məsələsi mərkəzi yerlərdən birini tutur. Böyük mütəffəkirə görə insanın müdrikliyi məsələsi münaqişələrin, böhranların yaranmamasını şərtləndirən amillərdən biridir.

Qədim Çinin digər mütəfəkki Mo-tszı (e.ə. təqr.480-400-cı illər) dövlətin təhlükəsizliyində nizam-intizam, qayda-qanun məsələsini irəli sürürdü. Onun sözlərinə görə, ölkədə nizam-intizam yaratmaq üçün, nizam-intizamsızlığın, qarma-qarışıqlığın səbəbini bilmək lazımdır. «Əgər nizamsızlığın səbəbini bilib, onu aradan qaldırırsansa, onda ölkənin çiçəklənməsinə və əmin-amanlığa nail olacaqsan. Əgər qarma-qarışıqlığın səbəbini bilmirsənsə, onda ölkədə heç vaxt nizam-intizam yarada bilməyəcəksən. Əgər alicənab, müdrik insanlar axmaqları və aşağı təbəqəni idarə edirsə, onda nizam-intizam hökm sürəcək. Əgər axmaqlar və aşağı təbəqənin nümayəndələri alicənab və müdrik insanları idarə edərlərsə, onda qaranlıq dövr başlayacaq». [10,73 ]



Ümumiyyətlə, Şərq siyasi fikrində təhlükəsizlik problemləri dövlətin möhkəmliyi, hərbi-siyasi vasitələrin priotetliyi, vətəndaşların (idarəedənlər və idarəolunanlar) məsuliyyəti kontekstində təhlil olunur. Bundan başqa, antik dünyanın siyasi həyatında, siyasi fikrində isə təhlükəsizlik məsələləri özünəməxsusluğu ilə seçilir.

Qeyd etmək lazımdır ki, qədim türklərin siyasi həyatında cəmiyyətin təhlükəsizliyi məsələsi aparıcı mövzu olmuşdur. Türk filosofu J.Heyət yazırdı ki, ordu və ailə türk cəmiyyətinin iki əsas dayağını təşkil edirdi. [2, 52]Güclü dövlətin və onun əsasını təşkil edən möhkəm ailənin olması, cəmiyyətin təhlükəsizliyinin təmin edilməsi üçün möhkəm nizam-intizamlı, təcrübəli ordunun olması əsas şərt idi. Ona görə də, türk dövlətinin təhlükəsizliyi məsələsi birbaşa güclü ordunun mövcudluğu ilə bağlı olmuşdur.

Görkəmli türk tarixçisi Bahaəddin Ögəl «Böyük hun imperiyası» adlı əsərində türklərin hunların təhlükəsizlik siyasətini hərtərəfli işıqlandırmışdır. O, qeyd edirdi ki, qədim hun dövlətində təhlükəsizliyin təmin edilməsi üçün «ordu xidməti» və müharibə açıq-aşkar bir məslək kimi qəbul olunmuşdu. «Əsgəri ruh və itaət» [ 6, 44 ] siyasəti başqa dövlətlərdə olduğu kimi hun-türk dövlətinin təhlükəsizlik strategiyasının əsasını təşkil edirdi. Qədim türk Orxon-Yenisey yazılı kitabələrində Göytürk imperiyasının (Şərqi Türk Xaqanlığı) başçısı Bilgə xaqan və onun qardaşı Gültəkin haqqında, onların təhlükəsizlik siyasəti, tədbirləri, hərbi fəaliyyətləri barəsində məlumat verilir. Bu abidələrdə Bilgə xaqan qardaşının dövlət, xalq yolunda çəkdiyi zəhmətdən, əzablardan, hərbi zəfərlərdən, onun təhlükəsizlik naminə göstərdiyi qəhrəmanlıqlardan, mərdlikdən geniş söhbət açır. Gültəkin abidəsində xalqın

təhlükələrdən müdafiə edilməsi haqqında belə deyilir: «deyə türk xalqı üçün gecə uyumadım, gündüz oturmadım, kiçik qardaşım Kül Tigin ilə, iki şad ilə əldən düşənədək (ölərək, yetərək) qazandım. Eləcə qazanıb birləşən xalqı oddan, sudan keçirmədim (cəzalandırmadım)...» [7, 80]

Beləliklə, türk dövlətlərində dövlətin, xalqın təhlükəsizliyi, vətənin bütövlüyü, tamlığı – bu dövlətlərin siyasətinin əsasını təşkil edirdi.Şərq siyasi fikrində də təhlükəsizlik ideyaları aparıcı mövzulardan olmuş, Şərq ölkələrinin mütəfəkkirləri humanist fikirləri ilə fərqlənmişlər. Dövlət, cəmiyyət, insan problemləri onlar üçün əsas mövzular olaraq qalırdı. Əl-Fərabi (870–950) «Səxavətli şəhərin sakinlərinin baxışları haqqında» əsərində qeyd edirdi ki, dövlətin əsas məqsədi fəzilətə, səxavətə nail olmaq, şəhər əhalisinə xeyir vermək, əmin-amanlıq gətirməkdir. İdeal hakim sahib olduğu millətini, vətənini sevməli, müdafiə etməlidir. Müdafiə etmək üçün də onda yüksək əxlaqi, mənəvi keyfiyyətlərə malik olmalıdır.

Şərqin digər tanınmış filosoflarından olan İbn-Ruşd (1126-1198) «Mühakimələr» əsərində yazırdı ki, cəmiyyətin sağlamlığı və sabitliyi, insanlar arasında zorakılıqların, müharibələrin baş verməməsi, əmin-amanlığın, rifahın, xoşbəxtliyin olması üçün ədalətli hakimin olması zəruridir. İbn-Rüşdə görə, dövlət xadimi həmişə qabiliyyətli, istedadlı insanları ətrafında birləşdirməli, qanunların köməyi ilə dövləti idarə etməlidir.

Orta əsrlər siyasi fikrin inkişafında müəyyən xidmətləri olan İbn Xaldun (1332-1406) «Nəsihətlər kitabı», «Müqəddimə» əsərlərində dövlətin təhlükəsizliyinin mökhəmliyi məsələsində iqtisadiyyatın inkişafı məsələsini ön plana çəkirdi. Onun fikrincə, dövlətdə sağlam mühitin, ədalətin, qanunauyğunluqların olması, müharibələrin baş verməməsi üçün siyasi hakimiyyətdə təbəələrin iştira-



kı olmalıdır.

Səlcuqilər imperiyasının hökmdarı olan Məlik şahın (1072-1092) sevimli vəziri Xacə Nizamülmülkün (1017/18-1092) «Siyasətnamə» əsərində ictimai münasibətlərin bütün aspektlərinə aid mövzular var. O, ölkənin qorunması, təhlükəsizliyin təmin olunması haqqında maraqlı fikirlər söyləyib. Xacə Nizamülmülk təhlükəsizliyin təmin edilməsində ordunun rolunu xüsusi qeyd edirdi. Onun fikrincə, dövlət xadimi ölkədə baş verən bütün proseslərdən xəbərdar olmalı və bu məqsədlə casuslardan istifadə etməlidir. Tarix Azərbaycan xalqının qədim mədəniyyətinin ən böyük tarixi abidəsi zərdüştiliyin müqəddəs kitablar külliyyatı olan «Avesta»dır. Zərdüştilik Azərbaycan, yaxın və orta Şərq ölkələri ərazisində yaşayan qədim tayfaların dini idi. Azərbaycanın yazılı abidələrindən sayılan «Avesta»da təhlükəsizlik, sabitlik problemlərinə toxunularaq qeyd edilir ki, nə vaxtsa yer üzündə «qızıl dövr» mövcud olmuş, insanlar təhlükəsiz yaşamış, nə xəstəlik, nə ölüm, nə də qara qüvvələr olmuşdur. Sonralar hər şey dəyişmiş, həmin qüvvələr yer üzərinə gəlmiş, insanlar arasında müharibələr olmuşdur. «Avesta»ya görə, bu dövr–yəni bəşəriyyətin «qızıl dövrü» tarixin birinci dövrü idi. İkinci dövr Xeyirlə Şərin mübarizə apardığı dövrdür. Bəşəriyyətin üçüncü dövrü ədalətin haqsızlıq, işığın qaranlıq, Xeyirin Şər üzərində qələbəsindən sonrakı dövrdür. Bu dövrdə insanlar təhlükəsiz, firavan, əmin-amanlıq şəraitində yaşayacaqlar.

Orta əsrlərdə Azərbaycan filosofu Bəhmənyar (993-1066) vətənə xəyanəti cinayətlər içərisində ən ağır, bağışlanmaz cinayət hesab edirdi. İnsanlar arasında pislikləri rədd edən Bəhmənyar təhlükəsizlik məsələlərinin təmin edilməsində insanın daim təkmilləşməsini, mənəvi kamilliyi ön plana çəkirdi. Onun fikrincə, insanın əsl xoşbəxtliyə çatmasında, məqsədlərə nail olmasında təhsilin və tərbiyənin rolu böyükdür. Azərbaycan ədəbiyyatında N.Gəncəvi (1141-1209)

«Xəmsə»də insan və onun təhlükəsizliyi problemləri, onun fəlsəfi, siyasi düşüncələrini ön plana çəkmişdir. Dahi sənətkar nəsihətləri, ibrətamiz sözləri ilə insanları sülhə dəvət edir, xalqın başına olmazın faciələr gətirən, nahaq qanları tökən, ölkəni xarabalıqlara çevirən şahları, zülmkarları gah xalqın qəzəbi ilə, gah da axirətlə qorxuzurdu. N.Gəncəvinin arzuladığı cəmiyyət ideal cəmiyyətdir. Böyük şair, mütəfəkkir təhlükəsizlik sistemini zəiflədən hərbi toqquşmaların, müharibələrin əleyhdarı olmuşdur.

N.Tusi (1201-1274) Azərbaycanın fəlsəfi, ictimai-siyasi fikrində özünəməxsus yeri olan qüdrətli şəxsiyyətlərdən biridir. O, «Əxlaqi-Nasiri» əsərində dövlətin təhlükəsizliyi məsələlərinə xüsusi yer verərək yazırdı ki, hökmdar şücaət sahiblərinə hörmət qoymaqda etinasızlıq göstərməməli, alimlərlə oturub-durmalı, hər an ölkəsi haqqında düşünməli, ordusunun möhkəmliyinə daim fikir verməlidir. O, düşmənə qarşı mübarizə tədbirlərindən biri kimi sirri saxlamağın rolunu qeyd etmiş, ölkənin yadellilərdən qorunmasının xəfiyyə işçilərinin, kəşfiyyatçıların necə işləməsindən asılı olduğu barədə yazmış, siyasi təhlükəsizliyin təmin edilməsinin əhali (yəni, xalq–D.H.) arasındakı münasibətlərdən də asılı olduğunu qeyd edərək yazırdı: «...əhali arasında nizam-intizam olsa, bu, uzun müddət onlara bəsdir... tədbir olmasa, nizam-intizam aradan qalxar, insan cəmiyyəti lazım olduğu kimi inkişaf etməz» [8,177]. Müharibə vaxtı yalan şayiə buraxmaq, hiylə və fənd işlətmək, doğru olmayan məktublar yazmaq, müxtəlif kələkləri işə salmaq irad tutula bilməz, lakin bunları etiraf edib üzr istəməyə qətiyyən yol verilməməlidir» [11, 217-218]

Beləliklə, N.Tusi dövlətin möhkəmliyini, cəmiyyətin təhlükəsizliyini vətəndaşların qayda-qanuna riayət etməsində, nizam-intizamında, ordunun və digər güc qurumlarının priotetliyində görürdü.



Qüdrətli dövlət xadimi, mahir sərkərdə və şair Şah İsmayıl Xətai (1486-1524) Azərbaycan tarixinin, fəlsəfi-siyasi fikrinin, hərb sənətinin görkəmli simalarındandır. O, Azərbaycan Səfəvilər dövlətinin əsasını qoymuş, ölkənin hərtərəfli inkişafı üçün böyük işlər görmüşdür. Xətai mərkəzi hakimiyyəti möhkəmlətmək, ölkənin iqtisadiyyatı, ticarəti, sənətkarlığı inkişaf etdirmək üçün islahatlar keçirmiş, vergi sistemində dəyişikliklər etmiş, xarici ölkələrlə əlaqələri genişləndirmişdir.

Azərbaycanın görkəmli mütəfəkkirlərindən olan M.Füzuli (1494-1556) ölkənin təhlükəsizliyini dağıdan münaqişələri rədd edir, sülhü, əmin-amanlığı tərənnüm edirdi. Füzuli ölkənin təhlükəsizlik aparatı olan ordunun rolunu əhəmiyyətli sayırdı. Onun fikrincə, zalım hakimlər ordunu işğalçı vasitəyə çevirərək xalqı hərbi münaqişələr qarşısında qoyur.

Ümumiyyətlə, bu və ya digər Azərbaycan mütəfəkkirlərinin siyasi təhlükəsizlik haqqında ideyalara diqqət yetirmələri, onu başqa məsələlər arasında əhəmiyyətli etmələri həmin fenomenin daim aktual olduğuna dəlalət edir.

XX əsrin siyasi tarixində Mahatma Qandinin (1869-1948) özünəməxsus yeri olub. O, dünyaya özünün ictimai-siyasi fəaliyyti və oricinal elmi əsərləri ilə tanıdıb. Onun əsas əsərləri arasında mühüm yerlərdən birini «Həqiqət ilə mənim eksprementlərimin tarixi» (1927) və «Cənubi Amerikada satyaqraxa» (1938) tutur. A. Eynşteyn qeyd edirdi ki, gələcək nəsil çətin inansın ki, belə bir insan Yer üzərində olub, sandan və qandan yaradılıb. Qandinin siyasi etika konsepsiyası hind xalqı tərəfindən asanlıqla mənimsənildi və Britaniya müstəmləkəçiliyinə qarşı milli - azadlıq mübarizəsində bir vasitə rolunu oynadı.

Onun siyasi etikasına görə insan iki ənənəvi prinsipin ardınca getməməlidir:[12] Zorakılıq tətbiq etməklə siyasi mübarizəyə getmək; Passiv mövqe tutmaq. Siyasi mütəfəkkir və

dövlət xadimi C. Nehru (1889-1964) Qandinin romantikasını tənqid edirdi. Nehru qed edirdi ki, insan iqtisadi rifah hüququna malikdir. İnsanlar o zaman harmonik cəhətdən inkişaf edirlər ki, əgər onlar özlərinin fiziki tələbatlarını ödəsinlər.

Yaxın Şərqdə müasir siyasi doktrinaları daha çox islam dininin təsiri altında formalaşmışdır. Əbu Əli Maududi, Səid Qütb, Əli Şəriəti, Xomeyni, Kəlim Siddiki, Tarik Ramazanın siyasi nəzəriyyələri islamın təsiri altında formalaşmışdır. Əbu Əli Maududi özünün siyasi görüşlərini «İslamda həyat obrazı», «İslamın prinsipləri» əsərlərində əks etmişdir. O, Yeni dövrün məşhur siyasi nəzəriyyəçilərindən birdir. O, «İslam dövləti» nəzəriyyəsinin yaradıcısıdır. O, Pakistan Konstitusiyasının müəlliflərindən biridir.

Ümumiyyətlə, müasir dövrdə Şərqdə, daha doğrusu Yaxın və Orta Şərqdə siyasi, fəlsəfi, mədəni və sosial fikrin inkişafında islam prinsiplərinin rolu əvəzedilməzdir. Cəmiyyətin inkişaf modellərinin hazırlanmasında islam konsepsiyalarının yeri mühüm olmuşdur.

Beləliklə, Şərq siyasi - sosioloji fikrində cəmiyyətin sabitliyi problemləri dövlətin möhkəmliyi, hərbi-siyasi vasitələrin priotetliyi, vətəndaşların (idarəedənlər və idarəolunanlar) məsuliyyəti kontekstində təhlil olunur. Bundan başqa, Şərq dünyasının siyasi həyatında, siyasi-sosioloci fikrində isə təhlükəsizlik, sabitlik məsələləri özünəməxsusluğu ilə seçilir. Qədim cəmiyyətlərdə insanlar bütün prosesləri - dövlətin yaranmasını, siyasi quruluşların sabitliyi, yaxud qeyri-sabitliyini, müharibələrin baş verməsini, sülhün yaranmasını və s. «allahların iradəsi», onların «arzu» və «istəkləri» ilə bağlayırdılar. Şumer və Akkad hökmdarları və qanunvericiləri həmişə özlərinin hakimiyyətlərinin ilahi olduğunu xatırlamış və yerdə özlərinin Tanrının varisi olduqlarını düşünmüşlər. Xacə Nizamülmülk təhlükəsizliyin təmin edilməsində ordunun rolunu xüsusi qeyd edirdi. Azərbaycanın yazılı abidələrindən sayılan



«Avesta»da təhlükəsizlik, sabitlik problemlərinə toxunularaq qeyd edilir ki, nə vaxtsa yer üzündə «qızıl dövr» mövcud olmuş, insanlar təhlükəsiz yaşamış, nə xəstəlik, nə ölüm, nə də qara qüvvələr olmuşdur. Sonralar hər şey dəyişmiş, həmin qüvvələr yer üzərinə gəlmiş, insanlar arasında müharibələr olmuşdur. N.Tusi dövlətin möhkəmliyini, cəmiyyətin təhlükəsizliyini vətəndaşların qayda-qanuna riayət etməsində, nizam-intizamında, ordunun və digər güc qurumlarının priotetliyində görürdü.

XX əsrdə Şərqdə siyasi sosioloci fikrin inkişafında İran, Pakistan, Hindistan və digər ölkələrinin tədqiqatçılarının ideyaları, nəzəriyyələri mühüm yer tutub. Onlar arasında M.Qandinin, J.Nehrunun, Əli Şəriətinin və digərlərinin adını çəkmək olar.

## Ədəbiyyat


Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası. Bakı: Siyasət, 2004, 603 s.

Hacızadə H. Demokratiya: Gediləsi uzun bir yol. Demokratiya və antidemokratiya antologiyası (e.ə. 430-b.e. 1998) Bakı: Azərbaycan, 2001, 335 s.

Həşimov D. Hərbi politologiyanın problemləri. Bakı: Azərnəşr, 2003, 144 s.

Məlikova M.: Bayramov E. Azərbaycanın siyasi-hüqqi nəzəriyyələr tarixi. Bakı: Maarif, 1984.

Nizamülmülk. Siyasətnamə. Bakı: Elm, 1987, 212 s.

Ögəl B. Böyük hun imperiyası. B.: Gənclik, 1992, 406 s.

Rəcəbli Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993.

Tusi N. Əxlaqi-Nasiri. Bakı: Elm, 1989, 254 s.

Yusifov Y. Qədim dünya tarixi. Bakı: BDU, 1993.

Антология мировой политической мысли: В 5 т, М.: Мысль, 1997.

Ермаков И.А. Политический экстремизм и религия //Власть, 2001, №12, с.58-61.

## ELİTANIN SOSİAL MƏNŞƏYİ VƏ ROLLARI SİYASİ-SOSİOLOJİ KONTEKSTDƏ

Siyasi nəzəriyyə qədim zamanlardan bəri elita mövzusuna müraciət edir. Aristotel özünün "Siyasət" əsərində, siyasi quruluşun tiplərini - oliqarxiyanı, demokratiyanı və tiraniyanı müzakirə edərək onların neqativ tərəflərini hakimiyyətdə olanların xüsusiyyət və maraqları ilə bağlayırdı.

Elita nəzəriyyəsinin mənbələrinə müraciət etsək, onda ilk növbədə üç görkəmli mütəfəkkirin adlarını çəkmək lazımdır: Qaetano Moska, Vilfredo Pareto və Robert Mixels. Onların konsepsiyaları çox oxşarlıqlara malik idi və siyasi elitanın klassik nəzəriyyəsi adlandırıla bilərlər. Bu nəzəriyyənin əsas mühakiməsi o idi ki, istənilən təşkil olunmuş cəmiyyətdə hakim sinif və ya elita, əhəmiyyətsiz dərəcədə azlıq təşkil edir, o vaxt əhalinin əksəriyyəti idarəçilikdə iştirak etmir və elitanın hakimiyyətinə tabe olur.

60-cı illərdə siyasi partiyaların və ictimai rəyin öyrənilməsi sahəsində aparıcı mütəxəssislər daha çox elitaların intensiv öyrənilməsilə məşğul oldular. Çünki iddia var idi ki, siyasi elita, siyasi aktivistlər, liderlər adlandırılan bu kiçik qruplar haqqında tamamilə az tədqiq olunub. İzahını belə verirdilər ki, "biz nə qədər çox anlamağa çalışırıqsa, demokratik rejimlər öz həyat qabiliyyətini bir o qədər qoruyur. Onsuz da ehtimalən təsəvvür edilir ki, əhəmiyyətli dərəcədə izahat liderlər sırasına aid olanları, özləri tərəfindən qorunub saxlanılan dəyərlər sistemində və siyasi oyunun qaydalarında onların davranışını müəyyən edən motivlərdə tapılmış ola bilər (6,s.24)".

Hərçəndi, müharibədən sonrakı illərdə siyasi liderliyə həsr olunmuş çoxlu əsərlər meydana çıxdı. Ancaq müntəzəm müqayisəli empirik tədqiqatlar yalnız son illərdə ABŞ-da



aparılmağa başladı. Belə ki, elitaya aid olan konqres üzvləri, hakimlər, siyasi kampaniyaların təşkilatçıları, milli qurultayların nümayəndələri və partiyaların aktivistləri, dövlət aparatı xidmətçiləri, maraqlar qruplarının liderləri, xarici siyasət şöbələrinin əməkdaşları və s. kimi qruplar araşdırılırdılar. Sürətlə inkişaf etməsinə baxmayaraq elitaya aid tədqiqatlar, siyasi davranışın öyrənilməsi üzrə əsərlərlə, eyni zamanda, siyasətşünaslığın nəzəri xarakterli tədqiqatları ilə müqayisədə çox az idi. Politoloq və sosioloqlar arasında elita nəzəriyyəsinin özünün və onun tərəfdarlarının aldığı nəticələrin tətbiq edilmə imkanları haqqında kəskin fikir ayrılıqları hələ də mövcuddur. Təxminən 20 il əvvəl tərəfdarlarının irəli sürdüyü elita üzvlərinin sosial mənşəyi və klassik demokratiya nəzəriyyəsinin hakim olduğu müasir demokratik dövlətlərdə siyasi iştirakın aşağı səviyyəsi haqqında məlumatlarla elita nəzəriyyəsinin nisbəti problemi ətrafında müzakirə aparılırdı. Klassik nəzəriyyədə cəmiyyətin siyasi həyatında iştirak, nəinki ümumi rifahın həyata keçirilməsinin və ictimai maraqların reallaşdırmasının vasitəsi kimi, həm də intellektual qabiliyyətlərin və vətəndaşın əxlaqı üstünlüklərinin inkişafının vacib şərti kimi nəzərdən keçirilirdi. Sübut edilmişdi ki, "revizionist" elita nəzəriyyələrində, siyasətdə adi vətəndaşla. ın funksiyaları minimuma qədər endirilir, eyni zamanda praqmatik mövqelərin və hətta əxlaqi xarakterin arqumentlərinin köməyi ilə-siyasi elitanın mövcudluğunun siyasi həyatda həlledici rol oynayan ehtiyaclarının əsaslandırılmasına həddindən artıq çox yer ayrılır. Qeyd edək ki, Y. Şumpeter təsdiq edirdi ki, demokratiya bir siyasi metoddur və deməli onları idarə edənləri insanlar nəinki qəbul etmək, həm də onları rədd etmək imkanına (seçkilər vaxtı) malikdirlər (5,s.37). Onun sözlərinə görə, təcrübədə "xalq (camaat) idarəsi" yox, amma vaxtaşırı seçkilər prosesində "xalq (camaat) tərəfindən bəyənilən" idarə mövcud

ola bilər (5,s.38). 1964-cü ildə R.Dal yazırdı ki, siyasət sahəsində, iqtisadiyyat və sosial həyatda əsas qərarlar, insanların dar dairəsi tərəfindən qəbul edilirlər, siyasi sistemlərin ölçüsünə görə əhəmiyyətli başqa nəyinsə ola biləcəyini təsəvvür etmək mümkün deyil, hətta çətindir (7,s.45). Bu nəticə sıralarında özlərinin "Demokratik elitizm nəzəriyyəsi" kitabında elita nəzəriyyəsini öldürücü tənqidə məruz qoymuş C. Uoker və P.Bakrak olan politoloqlarda etirazlar doğurdu (5,s.234). Hal-hazırda politologiyada bu mövzu üzrə müzakirələr daha az kəskindir, ancaq əvvəlki kimi davam edir. E.Şilz və C. Sartori bir qədər əvvəl onların fikirincə olan, liderlərin rolunu vurğulayan istənilən konstruktiv, realist demokratiya nəzəriyyəsininin "elitist" adlandırılması tendensiyasına qarşı çıxış etdilər. Başqa bir misal isə Q. Fildin və C. Xaylinin "Elitizm" kitabında öz əksini tapdı (4,s.37). Onun müəllifləri münaqişələrin qətiyyətlə hərəkət edən elitaların razılığı əsasında həll edilən, öz siyasətində populizmin elementləri olmayan və bununla da cəmiyyətin sabitliyini təmin edən siyasi sistem modelini təklif etdilər. Q.Fild və C. Xayli, belə modeli əxlaqlı və intellektual meyarlar nöqteyi-nəzərindən tamamilə münasib hesab edərək, eyni zamanda xəbərdarlıq edirlər ki, bu, cəmiyyətdə azadlıq və bərabərliyi tam ölçüdə həyata keçməyə prinsipial olaraq uyuşmazdır.

Elita nəzəriyyəsində politoloqlarm arasında ən kəskin fikir ayrılıqlarına səbəb olan dörd tezisi ayırmaq olar. Birincisi, sosial statusun və hakimiyyətin qarşılıqlı əlaqəsi haqqında fərziyyədir ki, burada siyasi qərarları qəbul edən elitanın üzvləri əhalinin ən tutarlı, imtiyazlı təbəqələrinə aiddirlər. İkincisi, klassik nəzəriyyədir ki, burada isə, öz xüsusi maraqlarını dərk edən və qruplara ayırılmış kütlələrə qarşı duran, təşkil olunmuş azsaylı qruplar elitanı təmsil edir. Üçüncüsü isə elitanın razılığına aid məsələdir ki, əsas sosial və siyasi problemlər üzrə onun üzvlərinin razılıq



dərəcələrini, siyasi oyunun qaydalarını, onların tərəfindən bölüşdürülən dəyər eyniliyini ehtiva edir.

Nəhayət, son müddəa isə elitanın üzvlərində demokratik normalara sədaqətin güman edilən yoxluğuna aiddir. Bu müddəalardan hər biri şübhənin altında idi və şübhənin altına qoyulur və onların hər birinin faktlarla yoxlanılmasına ehtiyac duyulur.

ABŞ-da "orta səviyyə elitanın üzvlərinə kimi aid etmək olar" mövzusunda rayon və şəhərlərdə partiya fəallarına həsr edilmiş tədqiqatlar göstərir ki, bütün ölkə üzrə onların sayı 1 milyondan çox insan – yəni yaşlı əhalinin 1%-dən azını təşkil edir. 1956-cı ildən 1986-cı ilə qədər tələbə qruplarının köməyi ilə müəllif Detroytda respublikaçı və demokrat partiyaların yerli təşkilatları, onların aktivistlərinin fəaliyyətini tədqiq edərək siyasi iştirakın proseslərini öyrənmişdir. O zamanlar belə bir tədqiqat layihəsinin həyata keçirilməsinin başalanılması fövqəladə nadir hadisə idi. Belə tədqiqatlardan biri 20-ci illərin sonlarında 30-cu illərin başlanğıcında H.Qosnello tərəfindən Çikaqoda keçirilmişdi - amma o bir qədər başqa xarakterə malik idi, çünki, onun predmeti liderlər tərəfindən nəzarət edilən partiya maşınının əli ilə idarə etdiyi xüsusi növ təşkilat idi.

50-ci illərdə siyasətin sosiologiyasının nəzəri bazası kifayət deyildi, baxmayaraq ki, ABŞ-da siyasi partiyalar haqqında böyük miqdarda əsərlər mövcud idi. Braysdan başlayaraq, bu əsərlərin müəllifləri, demokratik ölkələrdə seçki prosesində partiyaları siyasi həyatdakı mərkəzi rolundan yayındırırdılar. Brays yazırdı ki, "Amerikada aparıcı hərəkətverici güclər siyasi partiyalardırlar", bir çox politoloqlar isə sosial münaqişələrin siyasi həlli mexanizmini yaradaraq fərdin siyasi inteqrasiyasını həyata keçirməyə imkan verən və müxtəlif sosial qrupların tələblərini ifadə edən bu tezisi detallara qədər işlədilər. Braysdan yarım əsr sonra Şattşnay-

der deyirdi ki, "demokratiya partiyaların mövcudluğu şərti olmazsa başqa cür ağlasığmazdır". Hantinqtonunun fikiri isə belə idi: "Partiya müasir dövlət quruluşunun fərqləndirici xüsusiyyətini təşkil edən bir institutdur" (4,s.3). Hərçənd siyasi sistemdə partiyaların aparıcı rolu haqqında ümumi təsəvvür politoloqlarda artıq yaranmışdı, lakin partiyaların müasir vəziyyəti və xüsusilə onların yerli təşkilatları haqqında bilik kifayət qədər az idi. 1956-cı ildə başlanmış işin hədəflərindən biri elə bu boşluğun doldurulması idi. Sonra bir çox analoji layihə ABŞ-da Los-Ancelesdə, Nyu-York, Çikaqo və s. və digər xarici ölkələrdə həyata keçirilmişdi.

Başqa siyasi sistemli və başqa siyasi mədəniyyətli ölkələrdə partiyaların aktivistlərinin motivasiyasında və onların fəaliyyətinin üstünlük təşkil edən formalarında əhəmiyyətli fərqlər müşahidə olunur. Məsələn AFR-də XDS-in 28% aktivistləri öz dini inamlarını rəhbər tutaraq bu partiyanın təşkilatlarında fəaliyyət göstərirdilər. ABŞ-ın demokrat və respublikaçılar partiyasına nisbətən bir çox Avropa ölkələrində sol partiyaların aktivistlərində ideoloji motivasiya daha çox parlaq ifadə edilmişdir, nəinki mərkəz partiyalarının tərəfdarlarında (7,s.9). Bir sıra ölkələrdə, məsələn, Niderlandda, vətəndaşların evlərinə getmədən seçki kampaniyasını keçirmək qəbul edilməmişdir, ancaq Yaponiyada belə növ təbliğat isə qanunla qadağan edilmişdir. Əksinə, İngiltərədə və Hindistanda aktivistlər praktik olaraq bütün seçicilərlə şəxsi əlaqələr qururlar. Hindistanda seçicilərin səslərinin əvəzi olaraq partiyaların aktivistlərin vətəndaşlara müxtəlif növ xidmət göstərməsi adi təcrübədir. ABŞ-dan fərqli olaraq Qərbi Avropada və Hindistanda Partiya aktivistləri arasında "göy yaxalıqlar" və aşağı səviyyəli gəliri olan əhali qrupları (7,s.10-11) daha çox geniş təmsil edilmişdir. Bütün ölkələrin partiya sistemləri üçün partiyaların yerli təşkilatlarına ideoloji motivlərin təsiri altında gəlmiş



aktivistlərin nəticədə birgə işdən məmnunluğu birinci yerə qoyması, ətrafdakılar tərəfindən öz fəaliyyətinin tanınması, siyasi mübarizənin şövqü ümumi xüsusiyyətdir. Çox ölkələrdə partiya strukturlarının öyrənilməsinin nəticələri belə bir nəticə çıxartmağa imkan verir ki, çox zəif tərəflərə baxmayaraq, yerlərdə partiya təşkilatları bir çox hallarda partiyaların özlərinin həyat qabiliyyətini saxlamasını, həm də yeni sosial və iqtisadi şəraitə onların uyğunlaşmasını təmin edir. (7,s.13-14). Orta səviyyə elitalarının tədqiqatında növbəti addım sosial aidliyin, təhsil səviyyəsinin, gəlirləri və onların başqa xarakteristikalarının, şəhər idarəsi orqanlarında məşğul olanların öyrənilməsiylə bağlıdır.

A.de.Tokvil hələ 1831-ci ildə yazırdı ki, yerli hakimiyyət orqanları Amerika demokratiyasının özəyini təşkil edir. Həmin sistemlərdə "hər qəsəbə bir növ öz işlərini müstəqil idarə etməyə öyrəşmiş respublikasını təmsil edir" (7,s.25). Bu nəticə bugünkü gün üçün ədalətlidirmi? ABŞ-ın və başqa ölkələrin şəhərləri və qəsəbələri bunun üçün lazım olan səlahiyyətlərə və vasitələrə, hər şeydən əvvəl, yaranan problemləri müvəffəqiyyətlə həll etmək bacarığına malik siyasətçilərə və administratorlara malikdirmi? Politoloqlar və sosioloqlar öz dünyagörüşlərində hələ ki yalnız hansısa bir ölçüdə bu məsələlərə cavab verməyə imkan verən bəzi tədqiqatların nəticələrinə malikdirlər. Belə tədqiqatlardan biri 1966-cı ildə yerinə yetirilmiş və 4 ölkədə (ABŞ, Hindistan, Polşaya, Yuqoslaviya) 30 şəhəri əhatə edirdi. Şəhərlərin hər birində sosioloqlar tərəfindən şəhər hakimiyyətini təmsil etmiş 30 insan sorğuya cəlb edilmişdi. Demək olar ki, 20 il sonra, 1983-cü ildə, həmin şəhərlərdə və həmçinin əlavə olaraq İsveçin 20 icmasında təkrar sorğular keçirilmişdir.

Şəhər hakimiyyətinin strukturlarına həsr edilmiş işləri iki əsas tipə ayırmaq olar. Birinci işlərə əsasən 60-cı illərdə yerinə yetirilmiş işlər aiddir. Buraya Nyu-Heyven və R.Dal

tərəfindən (1961-ci ildə) və F.Hanterin (1953-cü ildə) Atlantda keçirdiyi və şəhərlərdə real hakimiyyətin əsasən iş dünyasının nümayəndələri daxil olduğu elitaya aid olduğunu iddia edən politoloqlarla, elitalar plüralizmi nəzəriyyəsinin tərəfdarlarının arasında polemikaları canlanmasını doğurmuş tədqiqatlar aiddir. İşlərin başqa qrupuna 1966-1967-ci ildə X.Eylau və onun kolleqaları tərəfindən keçirilmiş San-Fransiskoya yaxın olan 87 şəhərin bələdiyyə şuralarının müqayisəli tədqiqatı aiddir. Adı çəkilmiş tədqiqatların alınan məlumatlarının ümumiləşdirilməsi növbəti nəticələrə gəlməyə imkan verir. Birinci nəticə odur ki, elitaların tərkibinə əksəriyyətdə öz-özlüyündə təhsilinin səviyyəsi ilə seçilənlər və yuxarı orta gəlirli imtiyazlı peşəkar qruplara aid olan daxil olurlar. Yuxarıda adı çəkilən ölkələrarası tədqiqatda aşkara çıxarılmışdır ki, tədqiq edilmiş şəhərlərdə elitaların üzvlərinin 90%-ni hüquqşünaslar, menecerlər, biznesmenlər, müəllimlər və s. və yalnız 1%-ni keçmişdə fəhlə olan şəhər rəhbəri işçiləri təşkil etmişdir.

Yalnız 6% yeri şəhərlərin idarəetmə orqanlarında milli və irqi azlıqların nümayəndələri tutmuşlar, 12%-i isə qadınlar olmuşdur. Amerikadakı vəziyyət başqa ölkələrdəkindən çox az fərqlənir. Məsələn, İsveçdə və Norveçdə fəhlələr şəhər şurasının üzvlərinin 15%-ni təşkil edirdilər (7,s. 30). Mövcud tip elitaların təkrar istehsalı tendensiyası və onların tərkibinin yavaş təzələnməsi narahatlıq yaradır. Eyni zamanda orta sinif olduqca müxtəlif tərkiblidir. Ona müxtəlif peşələrə və müxtəlif etnik mənsubiyyətə aid olan insanlar daxil olurlar. Nəzərə almaq lazımdır ki, elitaların üzvlərinin çoxu hal-hazırda məşğuliyyət növü, təhsili və gəlirinin səviyyəsinə görə orta sinifə aiddir və fəhlə ailələrində doğuldular. Belə şəxslərin sayı şəhər administrasiyası üzvləri arasından sorğuya cəlb edilmişlərin 1966-cı ildə 28%-ni, 1984-cü ildə —24%-ni təşkil edirdi. Bu, elitaların qapalı xarakteri haqqında danışmağa (deməyə) imkan vermir,



ancaq belə bir faktı inkar etməyə əsas verir ki, şəhər idarəçiliyində aparıcı mövqelər imtiyazlı sosial təbəqələrin nümayəndələrinə aiddir (2,s. 31).

İkinci nəticə, şəhər idarəçiliyi məsələləri haqqında elita üzvlərinin arasında mövcud olan razılığ dərəcəsinə aiddir. Şəhərlərin əksəriyyətində belə uzlaşma yox idi. Hətta şəhər siyasətinin prioritetlərinin müəyən edilməsi üzrə və şəhər idarəçilik hakimiyyətinin işsizlik, yaşayış yerlərinin tikintisi, ətraf mühitin müdafiəsi və s. kimi müəyyən problemlərin effektiv həllinin imkanlara malik olmaları ilə bağlı fikir ayrılıqları mövcud idi və mövcuddur. Əgər, hətta oxşar növ çətin həll olunan problemləri istisna etsək, şəhər hakimiyyətinin öz hərəkətlərinin müvəffəqiyyətli olacağını hesabladığı sahələrdə yalnız 38% hallarda konstruktiv addımlara bel bağlanılırdı. Bu məlumatlar amerikan şəhərlərində hakimiyyətin böhranı üzrə idarə olunmazlıq haqqında məsələyə yenidən baxılmasına imkan verir. Açıq aydın görünür ki, şəhər idarəçiliyinin çətinlikləri idarəçilik hakimiyyətində lazımi vasitələrin və səlahiyyətlərin yoxluğu ilə bağlı deyildir. Öz gücü ilə mürəkkəb problemlərin öhdəsindən gəlmək imkanına bir qədər böyük əminlik İsveçin şəhər hakimiyyətində müşahidə olunur, ancaq burada sorğuya cəlb edilmiş liderlərdən yalnız 15%-i güman edirdilər ki, onların tərəflərindən təşəbbüs edilmiş hərəkətlər arzu olunan effekti vermişdir (1,s.32).

Sorğunun keçirilməsi gedişatında şəhər şuralarının və şəhər idarəsinin üzvlərinə suallar verilmişdir ki, onlar adı çəkilən 12 məsələ üzrə qərarların qəbul olunmasına təsir göstərirlərmi? Alınmış məlumatlar müəyyən dərəcədə R. Dalın çıxardığı nəticəni təsdiq etməyə imkan verir ki, şəhər siyasətinin əsas məsələlərində həlledici çəkiyə bir deyil, bir neçə liderlər qrupunun səsləri malikdir. Bununla birlikdə həll edilən problemlərin geniş mühitinə təsir etmək imkanlarına malik olduğunu hesab edən şəhər sovetlərinin üzvlə-

rinin böyük sayı aşkar edilmişdir.

Şəhər liderlərinin şəhər idarəsi orqanlarının üzvləri məsləhət, kömək, tövsiyələrə görə müraciət etdiyi şəxslər dairəsinin – "dəstəkqrupları"nın təyini tədqiqatın vacib momentlərindən biri idi. Toplanmış məlumatlar göstərir ki, hər bir şəhərdə hakimiyyət praktik olaraq ilk növbədə iş dünyasının aparıcı nümayəndələrinin və biznes təşkilatlarının dəstəyinə tələsirdilər (7,s.33). Eyni zamanda şəhər liderləri başqa maraq qruplarına müraciət edirdilər. Bəziləri vətəndaş təşəbbüsləri qruplarıyla daimi əlaqələri dəstəkləyirdilər, bir başqaları isə irqi və ya milli icmalara yönəlirdilər, üçüncülər isə həmkarlar ittifaqlarına və ya partiyanın yerli bölmələrinə müraciət edirdilər. Şəhər idarəsinin 50% üzvü öz şəhərinin aparrıcı din xadimləriylə daim rast görüşürdülər (7,s.34). Oxşar növ seçmə qabiliyyətinin nəticəsi o oldu ki, müəyyən maraq qruplarının səslərinə şəhər hakimiyyəti daha çox diqqətlə qulaq asırdılar, nəinki başqa vətəndaşların səslərinə.

Sorğuya cəlb edilmiş liderlərin yarıdan daha çoxu (60%) özünü seçicilərinin fikirini hökmən izləməyə məsul hesab etmirdilər. Onlar hesab edirdilər ki, siyasətçi ilk növbədə şəxsi inamlarını və vicdanın səsini rəhbər tutmalıdır. Buna görə də yerli cəmiyyətlərin elitalarının tərkibinə daxil olan siyasi xadimlərin baxışlarının öyrənilməsi xüsusi maraq kəsb edir. Sorğular da göstərdi ki, ABŞ-da elitanın üzvlərinin əksəriyyəti (1966-cı ildə 63% və 1984-cü ildə 75%) əhalinin müxtəlif maraq qruplarının fərqini, siyasi partiyaların və liderlərin rəqabəti ideyasını qəbul edirlər, münaqişəni demokratik siyasi sistemin fəaliyyətinin zəruri şərti kimi pozitiv amil hesab edirlər. Əksinə, Hindistanda liderlərin böyük əksəriyyəti siyasətdə "qrup maraqları"nın gözlənməsinə qarşı çıxararaq konsensusun saxlanılmasında dirəniş göstərirlər. ABŞ-da yerli icma liderlərinin 78%-i vətəndaşların siyasi həyatda,



larına sadiq deyildilər, aacaq bu nəticə milli fərqlərin, siyasi mədəniyyət xüsusiyyətlərini, ölkələrin hər birində elitaların sosializasiya proseslərini, elita üzvlərinin təhsilinin xarakterini və karyerasının tipini nəzərə alınmasını tələb edir. (2,s.63-64). Əgər bütovlükdə müasir demokratik cəmiyyətlərdə elitalar haqqında politoloqlar və sosioloqlar tərəfindən əldə edilmiş məlumatları qiymətləndirsək, onda görərik ki, onlar elitanın klassik nəzəriyyəsində təklif edilən modelə uyğun deyillər. Ancaq demokratiyanın klassik nəzəriyyəsi müasir siyasətin reallıqlarını izah etmir. Belə "Demokratik elitizm" adlandırılan revizionist modellər bir çox politoloqlar tərəfindən müasir cəmiyyətdə siyasi proseslərin xüsusiyyətlərini nəzərə almağa imkan verən hansısa orta variant kimi nəzərdən keçirilirdi, amma bu tədqiqatların nəticələri belə yanaşmaları təsdiq etmədi. Əgər elitizmin mahiyyətini siyasi hakimiyyətin imtiyazlı sosial təbəqələrə aidliyinin mövcudluğu kimi qəbul etsək, onda bu asılılıq tamamilə aşkar görünür. Əgər elitanın ən əhəmiyyətli əlaməti kimi onun mütəşəkkilliyini, daxili təşkilinin mövcudluğunu, nəzərdən keçirsək, çətin ki, bu təsəvvür gerçəkliyə cavab versin. Əgər elitizmin vahidliyi baxışların, dəyərlərin, hakimiyyətin ən yüksək eşelonlarının nümayəndələrinin oriyentasiyalarının mövcudluğunda meydana çıxırsa, onda hər ölkə haqqında konkret danışmaq lazımdır. Nəhayət, əgər elitanın mövcudluğunun meyarı demokratik normaların inkarında meydana gəlirsə, onda bu iddia üzrə ölkələr arasında fərqlərin nəzərə alınmasını tələb edir. Demokratik elitizmin bəzi nəzəriyyələri siyasi elitaların işlək modellərini təsəvvür etməyə imkan verir. Amma hər ölkənin özünəməxsusluqları və proseslər olduqca böyük və mürəkkəbdir ki, bu da öz növbəsində hər hansı ümumi nəticələri əldə etməyə imkan vermir (7,s. 67). Müəlliflər fikrini belə tamamlayır ki, sonrakı tədqiqatlarda, tarixi şəraiti və şərtləri, mədəniyyətin xüsusiyyətlərini və

hər ölkənin sosial proseslərini nəzərə almağa və bu əsasda əxlaqi dəyərlərin, baxışların və siyasi elitaların formalaşmasının ən yaxşı üsullarının öyrənilməsinə cəhd etmək lazımdır.

**Ədəbiyyat**


1. Гаман-Голутвина О.В. Региональные элиты России в зеркале экспертного опроса Текст./О.В.Гаман-Голутвина //Власть. 2004. - №4. -С.17-19.

2. Гаман-Голутвина О.В. Политическая элита определение основных понятий // Политические исследования. 2000. № 3. - С.97-103.

3.Bachrach P. Theory of democratic elitism. (Demokratik elitism nəzəriyyəsi). Boston: Little, Brown a. co, 1967.

4.Field L., Highley J. Elitism. L.: Routledge & Kegan Paul, 1980.

5.Gosnell. Politics machine: Cikaqo model. (Siyasət maşını: Şikaqo modeli) Chicago: Univ. Chicago ugh vice, 1937.

6.Bryce J. American democratic. N.Y.: Macmillan, 1916.12

7.Dahl R. Who controls ruls /Trad, say P your Burma. Do (make) Birnbaum P. P.: Libr. Colin, 1971. -373 p. (Coll. «Analyse~polit»).

8.Denzin N. Symbolical interaktionizm and etnomethodoloji: Offering synthesis // Amer. Soc. Rev. Albany, 1969. Vol.34, N 6. P.923-931.

9.Sorokin P., Lundon W. Power and morality: Who shall guard the guardians? Boston, 1959.- 202 p.78 p.




## SİYASİ SOSİOLOGİYANIN OPTİMAL KONSEPSİYASI

Hər bir predmetin əsas və optimal konsepsiyası olduğu kimi siyasi sosiologiya elminin də əsas optimal konsepsiyası vardır. Optimal konsepsiya nədir və o, əsasən nəyin üzərində formalaşmışdır suallarına birinci növbədə cavab verməklə biz mövzunun tədricən və tam şəkildə əhatə olunmasına və bizə lazım olan məsələlərə aydınlıq gətirməyə çalışacağıq. Biz əvvəlki tədqiqat işimizdə qismən də olsa siyasi sosiologiyanın sosioloji bilik sahəsi olaraq siyasi münasibətlərin, institutların və siyasi şüurun kompleksi kimi bir-birindən əlaqəli şəkildə formalaşması və siyasi elmin, yaxud siyasət nəzəriyyəsinin predmeti ilə xeyli dərəcədə kəsişməsi barədə mülahizələr yürütmüşük və belə bir nəticəyə gəlmişdik ki, vətəndaşların siyasi həyatda iştirakı kortəbii proses deyil və siyasi fəaliyyət sferasına şüurlu cəlb olunmaq ən əvvəl müvafiq siyasi biliklərə və təcrübəyə yiyələnməklə şərtləndirilir. İnkişaf etmiş demokratik qərb ölkələrində elə bir böyük universitet və ya humanitar institut tapmaq çətindir ki, orada siyasi elmə aid kafedra və ya siyasi mərkəz fəaliyyət göstərməsin. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, ABŞ-da politologiya üzrə 26 ixtisaslaşdırılmış müstəqil sahə fəaliyyət göstərir. [7,səh.8].

«Optimal» sözü ən əlverişli, ən münasib, yaxud «ən müvafiq» mənalarında işlədilir. «Konsepsiya» isə hər hansı bir hadisə haqqında «görüş», əsas fikir mənalarında başa düşülür. Bu sözlərin ikisinin birləşməsini siyasi sosiologiyanın optimal konsepsiyasına yönəltdiklə məsələ məntiqi cəhətdən tam aydınlaşır. Deməli, biz siyasi sosiologiyanın həyatda, cəmiyyətdə, yaxud siyasi sferada ən çox təsadüf edilən və tətbiq edilən optimal konsepsiyası üzərində dayanacağıq

və əsas fikirləri, siyasi-sosioloji bilgiləri bu baxımdan təhlil etməyə çalışacağıq. Hər şeydən əvvəl «siyasi sosiologiyanın metodoloji əsasları»nın açılmasına və bunun funksiyaları barədə nəzəri müddəalara üstünlük vermək daha maraqlı olardı.

Əvvələn, metodologiya hər hansı bir elmdə istifadə olunan idrak vasitələrinin, metodlarının, üsullarının məcmusudur. Məsələn, elmin metodologiyası elmi biliyi və elmi fəaliyyəti öyrənir. Metodologiyanın inkişaf əsasları bütövlükdə elmi idrakın inkişafının tərəflərindən biridir. İstənilən elmi kəşf təkcə predmetinə görə yox, eyni zamanda metodoloji əhəmiyyətə malikdir, çünki bu kəşf mövcud anlayışlar aparatına, öyrənilən materialın şərhinə olan ilkin şərtlərə və yanaşmalara tənqidi surətdə yenidən baxılması ilə əlaqədardır. Siyasi sosiologiyanın metodologiyası dedikdə ilk öncə o, təhlilin gedişində predmet haqqında bilik əldə edilən fəaliyyəti təhlil obyektinə çevirməklə özünüdərketmənin və özünübaşadüşmənin formalarından biri kimi çıxış edir. Bilik gerçəkliyi əks etdirir və bununla yanaşı reallıq obyektlərinin əlaqə və münasibətlərini yenidən canlandıran təfəkkürün əməli işinin məhsuludur. Siyasi sosiologiyanın metodologiyası bilikdə bitmiş formalar qazanan fəaliyyəti aşkara çıxarır və təhlil edir.

Tədqiqatçı A.Yakovlev bu xüsusda fikrimizin daha dəqiq ifadə edilməsi baxımından E.A.Preobrajenskinin «Yeni iqtisadiyyat» əsərindən verdiyi təklifinə əsasən ilkin sosialist yığım (toplama) nəzəriyyəsini yada salır. «Mahiyyət bundan ibarət idi ki, kəndlilərdən çoxsaylı və hərəkətə az qabil olan sinifdən pul götürmək və onları torpağa bağlamaq mümkün olsun. Bu çoxsaylı sinifdən pasport alınaraq onlar yaşadığı yerdən başqa yerlərə, ölkələrə getmək imkanlarından məhrum edildilər. Çoxlu vergi qoyulmaqla əldə edilən pullarla sosializm quruluşuna başlanıldı». [4, səh.29].

Siyasi sosializm siyasi elmlər sırasına aid edilir və bir



həmçinin qərarların qəbul olunması proseslərində iştirakı ideyasını dəstəkləyirdilər. İsveçdə elitanın sorğuya cəlb edilmiş üzvlərinin 82%-i eyni fikirə tərəfdardırlar. Bunun əksinə olaraq Hindistanda liderlərin yalnız 37%-i sıravi vətəndaşların siyasi fəallığını lazım hesab edirlər. Polşa və Yuqoslaviyada isə siyasətçilərin səsləri bu məsələyə münasibətdə təqribən bərabər bölünürdü (6,s.37). Siyasi bərabərliyin normalarına yönəlmədən, eyni zamanda hind liderlərinin öz növbəsində əksəriyyəti, yəni sorğuya cəlb edilmişlərin 85%-i cəmiyyətdə ən böyük iqtisadi bərabərliyə nail olunması ideyasını dəstəkləyirlər. İsveçdə elita üzvlərinin 61%-i həmçinin ölkədə kasıb və ehtiyacı olanlara dövlət köməyinin artırılmasının zəruriliyi, proqressiv vergi qoyma və əmək haqqının səviyyəsinin tədricən bərabərləşdirməsi və s. ilə razılaşırlar. ABŞ-da oxşar növ fikirləri bir qayda olaraq şəhərlərdə siyasətçilərin az hissəsi bölüşür: 1966-cı ildə - 24%, 1984- cü ildə - 37% (6,s. 38). Başqa ölkələrdə liderlərlə müqayisədə onlar həmçinin öz cəmiyyətlərində hər hansı dəyişiklikləri və ya yenilikləri dəstəkləməyə daha az meyllidirlər. Beləliklə, Amerika şəhərlərinin siyasi liderləri azadlığın və demokratiyanın dəyərinə inanırlar, siyasi münaqişə ideyasını və vətəndaşların siyasi iştirak hüququnu dəstəkləyirdilər. Onlar populistdirlər, amma sosial və iqtisadi bərabərliyin ideyaları bölüşmürlər. ABŞ-ın müxtəlif regionlarında elitaların siyasi və iqtisadi oriyentasiyalarında olduqca əhəmiyyətli fərqlər müşahidə olunurdu ki, bu da bir o qədər elitaların özlərinin xarakteristikası ilə deyil, əksinə yerli iqtisadi, sosial, demoqrafik şərtlərin müxtəlifliyi və bir çox submədəniyyətin ölkədə mövcudluğu ilə izah olunur.

Klassik demokratik nəzəriyyənin və elitanın nəzəriyyəsinin nəticələrinin düzgünlüyünün qiymətləndirilməsi nöqteyi-nəzərindən siyasi hakimiyyətin yüksək səviyyələrini yaradan elitaların müqayisəli tədqiqatları böyük maraq kəsb

edir. Belə tədqiqatlardan biri 1969-cu ilə Miçiqandan olan politoloqlar qrupu tərəfindən 7 ölkə - Böyük Britaniya, İsveç, Niderlandlar, AFR, Fransa, İtaliya və ABŞ-ın ən yüksək qulluqçu dövlət aparatı və parlamentlərin üzvləri arasında keçirilmişdi və 1500 insan əhatə edirdi. Gözlənildiyi kimi, elitalar öz tərkibi etibarilə kifayət qədər həmcins idi, onlarda yalnız əhalinin bəzi (bir qədər) təbəqələri təmsil edilmişdi. Qadınlar elitaların üzvlərinin 7%-ni, parlament üzvlərinin 80%-ni, ali təhsilli qulluqçuların 96%-ni təşkil edirdilər. (ölkələr üzrə müqayisədə orta hesabla 8%).

Onların Fəhlə ailələrindən gələnlərin sayı daha az idi. Belə ki, qulluqçuların 7%-i, qanunvericilərin 20%-i, eyni zamanda sorğuya cəlb edilmişlərin 60%-i keçmişdə və ya hal-hazırda müxtəlif siyasi postları tutanların qohumları idilər. (s. 54). Milli səviyyəli elitaya şəhər elitalarından hərəkət axını ilə ali təhsilli şəxslərin sayının artması zamanı "nisbətsizliklərin böyüməsləri qanunu", və ya bütövlükdə əhali ilə siyasi liderlər arasında distansiyanın artması "qanunu" "qüvvəyə minirdi". Sorğu zamanı öz sosial mənşəyini fəhlə ailəsi olduğunu göstərmiş liderlər əsasən "sol" partiyalarda aktiv fəaliyyət vasitəsi ilə elitanın üzvü olubmuşlar. Müşahidə edilən bu göstəricilər Nümayəndələr Palatasının üzvləri olan demokrat deputatlar arasında social mənşəyinə görə fəhlə sinifindən olan və aşağı təbəqədən gəlmələrin 14%, onların kolleqaları respublikaçılar arasında isə 25% təşkil etdiyi ABŞ-a aid deyil.

7 ölkədə elita üzvləri yaranmasının tipinə görə kəskin fərqlənirdilər. Böyük Britaniyada yüksək vəzifə tutan qulluqçuların 40%-i, Almaniyada 2%-i, ABŞ-da 6%-i, humanitar təhsili almışdılar, hüquqşünasları nəzərə almasaq Niderlandda humanitar elmlər sahəsində təhsil alanlardan bu sahədə heç bir nümayəndə yox idi. İngiltərədə yüksək vəzifə tutan qulluqçuların arasında hüquq təhsilinə malik olan-



lar praktik olaraq yox dərəcəsində idi. halbuki Almaniyada hüquq fakültələrinin məzunları bu kateqoriya qulluqçular arasında 66%, İtaliyada 54%, Niderlandda 89%, ABŞ - 20% təşkil edirdilər. ABŞ-ın Nümayəndələr Palatasının qanunvericiləri arasında hüquqşünaslar 51%, İngiltərədə parlament üzvləri arasında isə 21% təşkil edirdilər (7,s.55). Sosiallaşma prosesində bu fərqlər elitaların üzvlərinin baxışlarında, stillərində və onların fəaliyyət metodlarında əhəmiyyətli xüsusiyyətləri şərtləndirə bilər. Ali səviyyəli dövlət qulluqçuları və qanunverici qurumların üzvləri siyasi prosesdə öz rolu müxtəlif siyasi institutlar yeri və rolu haqqında ümumi təsəvvürləri bölüşürlər. Onlar arasında siyasi həyatın problemləri üzrə əhəmiyyətli fikir ayrılıqları aşkara çıxarılmışdır. Məsələn, dövlət aparatı qulluqçuları arasında 27% iqtisadiyyata dövlət müdaxiləsinin genişlənilməsi dəstəkləyirlər, parlament üzvləri arasında sə bu fikiri dəstəkləyənlər sorğuya cəlb edilmişlərin 54%-ni təşkil edirlər (7,s. 56).

Həmçinin milli elitaların hər iki qrupunun ideoloji oriyentasiyalarında ideoloji fərqləri göstərən məlumatlar da mövcuddur, ancaq daim nəzərə almaq lazımdır ki, 7 ölkə üzrə orta rəqəmlər onlardan hər birinin xüsusiyyətləri haqqında tam təsəvvürlər vermirEyni zamanda ölkələr üzrə elitaların üzvlərinin bu və ya digər problemlərə münasibətdə əhəmiyyətli fərqlər də çoxdur. Belə ki, elitaların üzvlərinin 23%-i hesab edir ki, ictimai mülkiyyət payı artırılmalı və ya tam milliləşdirilmə həyata keçirilməlidir. Ancaq əgər Hollandiyada belə fikirləşənlərin sayı parlament üzvləri arasında 68% idisə, AFR və Fransada yalnız 13% təşkil edirdi (9,s. 56).

Tədqiqatın növbəti bəndi elitaların üzvlərinin kimlərlə daimi əlaqələri dəstəkləmələri və cəmiyyətdə hansı qruplarla qarşılıqlı təsirdə olduqları məsələsinə aid idi. Burada da həmçinin ölkələr üzrə alimənsəb dövlət qulluqçuların əlaqələrinin müntəzəmliyinin dərəcəsi və qanunverici qu-

rumların üzvlərinin bir-biri ilə nəzərə çarpan fərqlər müşahidə olunur. Əgər ABŞ-da və AFR-də dövlət aparatının qulluqçularının 2/3-dən, 3/4-nə qədər parlament üzvləriylə daimi əlaqələr dəstəkləyirdisə, Niderlandda yalnız 16%, və Böyük Britaniyada 5% qulluqçu bildirdilər ki, qanunverici orqanların üzvləriylə daim görüşürlər (6,s.57). Elita üzvlərinin vətəndaşlarla əlaqələrinə gəlincə, bu və ya digər sahədə, 7 ölkə üçün ənənəvi olan, qanunvericilərin öz seçiciləriylə müntəzəm görüşmələri istisna olmaqla qarşılıqlı təsirin tipləri müxtəlif idilər. ABŞ-da qulluqçuların 93%-i maraq qruplarının nümayəndələriylə, 68%-i ictimaiyyətlə isə daim görüşürlər. Böyük Britaniyada ictimaiyyətlə əlaqələri yüksək səviyyəli qulluqçuların yalnız 9% ən dəstəkləyirdi (8,s. 58).

Nəhayət, demokratik dəyərlərə elita üzvlərinin münasibətinin üzə çıxardılması tədqiqatın son vacib anı idi. Elitalar demokratiyanın müdafiəçisidir fikri haqqında təsəvvür doğrudurmu? Elitaların üzvlərinin ümumilikdə 90%-i siyasi prosesə bərabər təsir göstərmək imkanının bütün vətəndaşlara verilmə ehtiyacı haqqında təsəvvürün zəruriliyi iddiasıyla razılaşmışlar. Bu məsələ barədə sual konkretləşdirilərkən isə, siyasi bərabərlik prinsipinin dəstəklənməsi barədə rəylər əhəmiyyətli dərəcədə azalmışdır. Ali mənsəb qulluqçuların 40%-dən azı və qanunvericilərin isə 60%-dən azı vətəndaşların seçkilərdə iştiraklar çərçivəsindən kənara çıxan siyasi fəallığına dəstəklədikləri haqqında fikrlərini bildirmişlər. (8,s. 59). Siyasi müxalifət ideyasına münasibət də eynilərə aşağı olmuşdur. Müxtəlif fikirlərə özlərinin dözümlü yanaşması haqqında yüksək səviyyəli qulluqçuların 75%-i və parlament üzvlərinin isə 66%-i rəylərini bildirmişlər, ancaq sorğuya cəlb edilmişlərin ½-dən daha azı pozitiv siyasi münaqişəni amil hesab edirdilər. Hələ kiçik azarkeşlik belə partiyanın daxilində münaqişələrin mövcud olmasına rəvac verirdi.Beləliklə, bir çox liderlər demokratik siyasət norma-



neçə paradiqmalara əsaslanır. Onlardan birinin siyasi sosiologiya üçün olması kifayət deyildir. Ən başlıcası (1) fəlsəfi paradiqmadır. Bu paradiqma əsasında dövlət, siyasət, dövlət quruculuğu haqqında görkəmli filosofların nəzəriyyələri (təlimləri) götürülür və siyasi sosiologiyanın açar müddəalarının əsaslandırılması məqsədilə yenidən nəzərdən keçirilir. Siyasi sosiologiya üçün siyasi və sosioloji paradiqmaları xüsusi əhəmiyyəti vardır. Onlardan məhz siyasi sosiologiya anlayışı təşəkkül tapmışdır.

Politoloji paradiqma (2) cəmiyyətin fəaliyyətinin əsas sahəsi kimi siyasətin təşəkkülünü, inkişafın tarixini müəyyən edir. Siyasət nədir? Onun predmet, prinsipləri və həyata keçirilməsinin metodları hansılardır? Hərəkətverici qüvvələr, siyasətin fəaliyyət (işlənmə) qanunları, onun nəticələrinin qiymətləndirilmə kriteriyası – bütün bu kimi suallar siyasi paradiqmaları təşkil edir. Bütün bunlar müvafiq fəsil və paraqraflarda öyrənilən məsələlərdir.

Sosioloji paradiqma (3) siyasi sosiologiyanın tədqiqatında çox gərəklidir, ona görə ki, siyasi sosiologiya konkret elmdir, hadisələrin ümumi təsvirini yox, onun real ilkin şərtlərinin, imkanlarının real hərəkətverici: gücünün, siyasi mexanizmlərin fəaliyyətində subyektiv amillərin və obyektiv şəraitin üzə çıxarılmasını tələb edir. Siyasi sosiologiya üçün «bu gün tezdir, sabahsa gecdir» şüarı prinsipial əhəmiyyət kəsb edir. Ən vacibi sosioloji təhlilin vaxtında keçirilməsidir. Siyasi qüvvələrin mübarizə mexanizmlərinin fəaliyyətə gətirilməsi siyasi məqamı əks etdirir və effekt gətirə bilən tövsiyyələrdən fikir söyləməklə mümkün olan nəticəni ən böyük dəqiqliyi ilə göstərməyə müvəffəq olur. Sosioloji paradiqma müstəvisində olduqca effektli əmək sərf edən K.Marks, F.Engels, Q.B.Plexanov, V.İ.Lenin, K.Kautski, M.M.Kovalevsk, P.A. Sorokin və başqaları olmuşdur. Onlar sosialist cəmiyyətinin nəhəng nəzəriyyəsinin matrisasını (qəlib) təşkil etdilər.

Siyasi sosiologiyanın prinsipləri – elmin əsaslarının şərhinə olan vacib tələbləri ifadə edir. İctimai-elmlər sahəsinə həm də siyasi sosiologiya məxsusdur və aşağıdakı əsas prinsiplərdən ibarətdir: obyektivlik, konkret tarixi yanaşma, təbəqələşdirmə, sistemlilik, müəyyən şəraitlərdə **siyasətin məntiqi başlılığı (asılılığı).** Sadalanan bu prinsiplər **Sosiologiya** elmi ilə daha çox bağlı olduğundan biz bu elmin bəzi məziyyətləri ilə bağlı qısa xülasələri səciyyələndirməyə çalışacağıq.

**Sosiologiya** obyektiv elmdir. **Sosiologiya** latınca sosietas-cəmiyyət və yun. loqos–təlim, söz anlayışların birlikdə cəmiyyət və istərsə xüsusi sosial sistemlərin inkişafı və fəaliyyət qanunauyğunluqları öyrənir. Müstəqil elm kimi 19-cu əsrdə fransız filosofu pozitivizmin banisi Kont Oqyst (1798-1857) tərəfindən elmə gətirilmişdir. Lakin ilk mərhələsi keçmişə gedib çıxır. 18-ci əsrdə ayrıca bir fənn kimi cəmiyyətin inkişaf qanunlarının və hərəkətverici qüvvələrinin öyrənilməsinə həsr olunmuş tarix fəlsəfəsi ilə inkişafa başlamışdır. İctimai həyatın mürəkkəbləşməsi və elmi biliyin diferensiasiyası (yəni, növlərə ayrılması, təbəqələşməsi) sosiologiyanın fəlsəfədən ayrılması, ictimai hadisələrin nəzəri təhlilini sosial amillərin empirik tədqiqi ilə birləşdirən müstəqil elmə çevrilməsini labüdləşdirir. Bu prinsip müasir sosiologiyanın öyrənmə predmetini təşkil edən ictimai hadisələrin geniş dairəsi, onun ixtisaslaşmasının labüdlüyünün şərtidir. Ümumi sosiologiya və sosioloji nəzəriyyə ilə yanaşı az və ya çox dərəcədə muxtar və müstəqil tədqiqat sahələrinə ayrılan sənaye sosiologiyası, ailə, şəhər, cinayətkarlıqla bağlı, həmçinin siyasi sosiologiya fəaliyyət göstərir ki, bununla da həyatın köklü məsələlərinə cavab vermək mümkündür. Getdikcə sosioloqların çoxu ümumiləşdirici sosioloji nəzəriyyənin hazırlanması zərurətini duymuş və bu nəticəyə gəlmişlər.

Tarix obyektiv şəraitdən doğan vaxtilə və bəzən həllinə başlanılan xeyli məsələləri özündə əks etdirir. Eramızdan əvvəl



I əsrdə Roma hakimiyyəti silahlı romalılara güzəştə getməyə məcbur olmuşdur, çünki onlar müharibəyə getməkdən boyun qaçırmışdılar. Səbəbi də bu idi ki, sıravi vətəndaşlara qarşı aristokratiyanın soyğunçu münasibətləri baş vermişdi. Romalılar ilk dəfə olaraq hakimiyyətin konkret fəaliyyətinin ümumxalq müzakirəsinin girişinə nail oldular ki, bu da plebist (ümumxalqın səs verməsi), metodla və əhalinin ümumxalq sorğusu ilə mümkün oldu. İndiki şəraitdə referendum (səs sorğusu) çağırmağa bənzər metodla mümkün olan ən çətin problemlərin həlli də qədim dövrdəki mübahisələrin həllinin davamı kimi səslənir. Roma xalqı və hakimiyyətinin bütün hərəkatlarında həm real siyasətdə, həm də xalq əxlaqının öyrənilməsində obyektivlik prinsipi nümayiş etdirildi. Referendum birbaşa demokratiyanın xüsusi formasıdır. Siyasi sosializmin cəmiyyət daxilində funksiyası plyuralist demokratiya konsepsiyaların optimallığını labüd edir. Ayrı-ayrı ölkələrin siyasi nəzəriyyələri və praktikası nümayəndəli və birbaşa demokratiyanın ən müxtəlif formalarını və növlərini işləyib hazırlamışlar. Xüsusi hüquqi ədəbiyyatda qeyd olunur ki, bəşər tarixində ilk referendum 1439-cu ildə keçirilmişqdir, onun «vətəni» isə İsveçrə hesab olunur. [7, səh.329]. Referedumun keçirilməsinin çoxu konstitusiya məsələsinə aiddir. Referendum Fransada, İtaliyada, Danimarkada, Norveçdə, İrlandiyada, Braziliyada, Uruqvayda və digər kapitalist ölkələrində və hazırda inkişaf etməkdə olan ölkələrdə keçirilmişdi. Referendumlardan dünyada ən məşhuru və beynəlxalq ictimaiyyətin diqqətini cəlb edən 1905-ci ildə Norveçdə keçirilən referendum hesab olunur [7, səh. 329].

Dövlətlərarası münasibətlər sferasında referendumun plebisit növünün əhalinin yaşadığı əraziyə, bu və ya digər dövlətə mənsubiyyəti barədə səsvermə sorğusu kimi tətbiq olunduğunu yuxarıdakı abzasda şərh etdik. Bundan istifadə etmək dövlət başçısının həyata keçirdiyi siyasət məsələsinə inamı ifadə edir. Aleksandr Yakovlevin «siyasi sosiologiya-

sı»nda gətirilən iqtibaslardan çox məsələlərin aydınlaşması kimi istifadə etmək olar. O yazır: «Görkəmli qədim yunan arxontu (məmur) Klisben (eramızdan əvvəl 5-ci əsr) Afina sakinlərindən öyrənməklə həm də Afinanın dəniz sahilində yerləşməsi barədə öz dillərinə əsaslanaraq dəniz donanmasının inkişafına nail oldu. Kim güclü donanmaya malikdirsə, o dənizdə ağalıq edir, deməli, bütün antik dünyada, antik dünyanın dövlətləri də ya dəniz sahillərində, ya da adalarda yerləşmişlər. Güclü donanmaya malik olaraq Afina ellin dənizlərində ağalıq edən bir dövlət olmuşdur [4, 31].

Deməli, siyasi sosiologiyanın konkret tarixi yanaşma prinsipi ilə biz bu sahədəki nəzəri müddəaların ən optimal variantını mövcud ədəbiyyatdakı mülahizələr əsasında formalaşdırmağa çalışırıq.

Vətəndaşların hər bir sosial qrupu öz həyatında əsas maraqları əldə rəhbər tutur. Məsələn, alim, yazıçı, rəsam hər şeydən yüksək yaradıcılıq azadlığını dəyərləndirir, dəzgah qarşısında olan fəhlə tələb edir ki, bütün növbə ərzində işlə təmin olunsun, öz əməyinə görə vaxtında və tam olaraq haqqı ödənilsin. Qadınlar əməyin, xüsusən sanitar-gigiyenik şərtlərinə daha həssasdırlar. Hərbçilər, komandirdən əsgərə qarşı diqqətli münasibət, döyüşün həlledici yerində qoşunun atəş gücünün bir yerə cəmləşdirilməsi şəraitinin dəqiq məlumatlarını tələb edirlər. A.Yakovlev yazır: «O siyasətçi nəzərəçarpan müvəffəqiyyətlərə nail olar ki, o, öz fəaliyyətində konkret sosial qrupların xüsusiyyətlərini, öz işini sosial qrupların təbəqələşdirilməsi əsasında təşkil etməyi nəzərə alır» [4, səh.31].

Deməli, sistemlilik, yaxud «müəyyən şəraitdə siyasətin məntiqi bağlılığı» adlı siyasi sosiologiyanın növbəti prinsipinə aid gətirilən çoxlu həyati misallarla biz işin mahiyyəti ilə tanış olur, hər hansı fəaliyyətlə bağlı təşkilat müvəffəqiyyətini təmin etmiş oluruq. Lazımı inşaat materialı olmadan,



tikinti meydançası hazırlamadan hər hansı qurğunun tikintisinə başlamaq olmaz. Hər bir işdə əsaslandırılmış ardıcıllığın «məntiqi» qanunauyğunluq «prinsipi» vacibdir. Deməli, siyasi sosiologiyanın məntiqliliyi – onun siyasətinin tədqiqatında müvəffəqiyyətlərinin rəhnidir.

Nəhayət, alim-politoloqların bütün əməlləri, onların fəaliyyətlərinin sistemliliyi ilə əlaqəli olur. Deməli, siyasətin konkret hadisələri və proseslərini öyrənərək alim-politoloqlar obyektin təkcə bir tərəfini deyil, bütövlükdə götürülən bütün qarşılıqlı asılılıqlara nüfuz edir və siyasi sosiologiyanın bütün prinsiplərini əldə rəhbər tuturlar.

## Ədəbiyyat


Fəlsəfə Ensiklopedik lügəti. «Azərbaycan Ensiklopediyası». Nəşriyyat-poliqrafiya birliyi. 517 s.Politologiya: Ensiklopedik lüğət. Bakı, «Günəş» nəşriyyatı, 2008, 831 səh.

Cola Dominik. Politiçeskaya soioloqiya. (Perevod s fransuzskoqo A.İ.Kristalovskoqo, Ö.A.Nemetaeva). İzdatelğstvo «Vesğ mir» 2001, 405 str.

YAkovlev Aleksandr İliç. Uçebnoe posobie. Politiçeskaya soialoqiya. Moskva, İzdatelstvo – torqovaya Korporasiya «Daşkov i Ko», 2009, 384 str.

Ramiz Mehdiyev. Demokratiya yolunda irs haqqında düşünərkən. Bakı, Şərq-Qərb, 2008, 792 səh.

Ramiz Mehdiyev. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: «modernləşmə xətti». Bakı, Şərq-Qərb, 2008, 216 səh.

Məcid Əfəndiyev Siyasi elmin əsasları. «Siyasət» nəşriyyatı, 2004, 635 səh.

Abulqasan Abbasov. Demokratiya: Naliçnaya i doljnaya. İzdatelğstvo «Adiloqlı» Baku-2005, 179 str.

Əlikram Tağıyev. İnsan və siyasət. Bakı, AMEA. «MBM» 2005.

## SİYASİ SOSİOLOJİ TEXNOLOGİYALARİN MAHİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

İndiki texnoloji inqilab informasiyanın innovasiya ilə innovasiyadan istifadə istiqamətləri arasında əks-əlaqə ilgəyində yaradılması ilə xarakterizə olunur. Yeni informasiya texnologiyaları təkcə tətbiq edilməli alətlər deyil, həm də işlənib hazırlanmalı proseslərdir. Texnoloji paradiqma qarşılıqlı surətdə bağlı olan texnoloji və idarəetmə innovasiyaları sistemidir ki, bunların da üstünlüyü investisiyaların strukturunun müəyyən dinamikasından ibarətdir. Yeni informasiya-texnoloji paradiqmanın aşağıdakı xarakteristikaları vardır:

-sadəcə, texnologiyaya təsir göstərilməsi üçün informasiya deyil, informasiyaya təsir göstərilməsi üçün texnologiya diqqət mərkəzindədir;

-yeni texnologiya effektlərinin hər şeyi əhatə etməsi – həyat fəaliyyətinin bütün prosesləri yeni texnologiyaların təsiri altında formalaşır;

-münasibət sistemlərinin şəbəkə məntiqi çevikliyin qorunması ilə bir vaxtda struktursuz olanın strukturlaşdırılması üçün lazımdır, çünki struktursuz olan novatorluğun hərəkətverici qüvvəsidir;

-çeviklik təşkilatların və təsisatların komponentlərini yenidən qruplaşdırmaq yolu ilə onları əsaslı surətdə modifikasiya etmək olar;

-texnologiyaların konvergensiyası (qarşılıqlı nüfuz etməsi) informasiya yaradılmasının ümumi məntiqindən irəli gəlir. Bu məntiq təbii təkamüldə daha aşkar görünür və informasiya sistemlərində getdikcə daha tez-tez təqlid olunur.

«Sosiologiya» istilahının özü latınca «Sosietas» (cəmiyyət) və yunanca «λογοζ» (söz, təlim) sözlərindən əmələ gəlmiş və hərfən cəmiyyət haqqında təlim deməkdir. Lakin bu



heç də o demək deyildir ki, sosiologiya cəmiyyət haqqında yeganə və hər şeyi əhatə edən elmdir. (1, 23-25)

Məlum olduğu kimi bir sıra ictimai elmlər vardır. Onların hər biri öz predmetinə müvafiq olaraq cəmiyyətin yalnız müəyyən tərəfini tədqiq edir, onu öz baxımından öyrənir.Sosiologiyanın predmetini sosial münasibətlər, yəqin insanların bir-birinə onların həyat fəaliyyəti şəraiti və amilləri ilə, cəmiyyətdəki mövqe və rolları ilə şərtləndirilmiş münasibətləri təşkil edir.

Məhz bu münasibətlər mövqeyindən sosiologiya sosial topluları, o cümlədən sosial qrupları, təbəqələri, sinifləri, ərazi və etnik birlikləri, bütövlükdə cəmiyyəti, yəni insanların sabit birgə yaşayış formalarını tədqiqat obyekti kimi nəzərdən keçirir.

Eynilə, sosiologiyanın mühüm tədqiqat obyektlərindən biri olan şəxsiyyət də həmçinin sosial münasibətlər mövqeyindən nəzərdən keçirilir.Sosial topluların daxilində və arasında müxtəlif növ əlaqələr yaranır, müxtəlif hadisə və proseslər (sosial, iqtisadi, siyasi, ideoloji, psixoloji və s.) baş verir. Onların arasında sosiologiyanı hər şeydən əvvəl insani münasibətlər və asılılıqlar kompleksindən ibarət olan sosial əlaqələr, sosial strukturlarda insanların qarşılıqlı təsiri əsasında ba° verən sosial hadisə və proseslər maraqlandırır.

Sosiologiyanın mərkəzi problemlərindən biri ictimai həyatın, yəni müəyyən məhdud məkanda yerləşən fərdlər və onların toplularının qarşılıqlı təsirindən yaranan hadisələr kompleksinin tədqiqidir.

Beləliklə, sosiologiya sosial münasibətlər və onların şərtləndirdiyi insanların müxtəlif ictimai həyat formalarında baş verən sosial əlaqələr və proseslər haqqında elmdir. Sosiologiya elminin strukturunda ümumi və müxtəlif xüsusi sosioloji nəzəriyyələri ayırırlar. (2, 59-62)

Ümumi sosiologiya ictimai həyatın bütün sahələri üçün

əhəmiyyəti olan biliklərin toplanması və sosial əlaqələr, hadisə və proseslər haqqında nəzəriyyələrin yaradılması ilə məşğul olur. Sosiologiya iqtisadiyyat elmilə də sıx əlaqələrlə bağlıdır, çünki bu sahələrin xeyli təmas nöqtələri vardır. Nəhayət, sosioloq üçün qanunvericiliyi və hüquqşünaslığı da bilmək vacibdir. Həqiqətən; sosiologiya spontan surətdə (öz-özünə) yaranan sosial proseslər haqqında elm kimi inkişaf etmiş və buna görə də sosioloqlar arasında həmişə hüquqşünaslığa müəyyən qədər etinasızlıq olmuşdur. Normativ aktların tənzimedici qüvvəsinə güvənən hüquqşünaslar da, öz növbələrində, sosioloqların tədqiqatlarına etinasızlığa meylli olmuşlar. Lakin hal-hazırda mövcud sosial proseslərin tam təsvir və izah olunması hər iki baxışın birləşdirilməsini tələb etdiyi üçün, bu iki sahə bir-biri ilə yaxınlaşır. Bundan başqa, sosiologiya etnoloqların, etnoqrafların, tarixçilərin və xüsusilə mədəniyyət tarixçilərinin araşdırmalarının nəticələri ilə maraqlanmalıdır. (3,44-45)

Deməli, XIX əsr sosiologiyasının yaradıcılarının geniş humanitar təhsilli adamlar olması heç də təsadüfi deyilmiş və sosioloji tədqiqatların hüdudlarının xeyli genişləndirilməsi heç də xülyadan yaranmamışdır. Düzdür, sonralar sosioloqlar özlərinin tədqiqat sahələri hüdudlarını daha dəqiq müəyyənləşdirməyə çalışaraq bu cür «imperializmdən» qəti surətdə imtina etdilər. Lakin bu heç də o demək deyildir ki, müxtəlif elmlərin bir-birinə qarşılıqlı nüfuz edərək və bir-birini qarşılıqlı surətdə tamamlayaraq təmasda olduğu sahələr öz əhəmiyyətini itirmişlər. Əksinə, yalnız ictimai elmlərin deyil, ümumiyyətlə elmin tarixi göstərir ki, ən maraqlı və səmərəli nəzəriyyələr məhz elmlərin kəsişdiyi sahələrdə meydana çıxır.

Sosiologiyanın ictimai vəzifəsi əsasən onun yerinə yetirdiyi funksiyalarla müəyyən edilir. Onların arasında ən mühümləri müxtəlif sosial hadisə və proseslərin dəyişmə təmayüllərinin, sosial inkişaf qanunauyğunluqlarının öyrənilməsi ilə bağlı olan idrak funksiyası, sosiologiyanın müxtəlif sosial proseslərin idarə olunmasının səmərəliliyini artırmaq üzrə əməli tövsiyə və təkliflərin hazırlanmasında nə dərəcədə iştirak etməsi ilə müəyyənləşdirilən praktiki funksiya və nəhayət sosiologiyanın ideoloji fəaliyyətdə iştirakı ilə şərtləndirilən ideoloji funksiyadır.

Cəmiyyətin sosial inkişafının qanunauyğunluqları və perspektivlərinin açılmasında, sosiologiyanın çox mühüm rolu vardır. Sosioloji nəzəriyyə zəmanəmizin aktual problemlərinə elmi cavablar verir, dünyanın sosial dəyişdirilməsinin real yolları və metodlarını göstərir.

Dünya tarixində bu günə kimi bir çox dönüş nöqtələri olub, və bu dönüş nöqtələrindən biri olan Sənaye İnqilabı məhz texnoloji innovasiyaların sahəsində gerçəkləşib. 18-ci əsrdə baş verən Sənaye İnqilabı ilk öncə qərbi Avropa, daha sonra isə Amerika və bütün dünyanın mənzərəsini köklü şəkildə dəyişdi. Şotland mühəndis *James Watt və ingilis *Matthew Boulton bu hadisənin baş rolunda idilər, çünki məhz onların birgə kəşf etdikləri buxarla işləyən mühərrik Sənaye İnqilabının simvoluna çevrilən zavod və fabriklərin yaranmasına və effektiv şəkildə məhsul istehsal etməsinə səbəb oldu.

Eyni zamanda kimya, fizika və mühəndislik sahələri üzrə əldə olunan çoxsaylı innovasiyalar sadə insandan tutmuş ən yüksək sosial təbəqədə olan şəxslərin həyatına mühim təsir etdi. Yeni tibbi kəşflər və istilik sistemləri insanların ömürünü uzaltdı, dəmir yolları insanların coğrafi əhatəsini genişləndirdi, iqtisadi əlaqələri gücləndirdi. Yeni gəmilərdən istifadə edilərək daha da uzaq kəşf olunmamış yerlərə getmək mümkün oldu, hansı ki bir çox mühim coğrafi kəşflərə və daha sonra isə yeni torpaqların koloniyalaşdırılmasına səbəb oldu. İllər keçdikcə ilk sənayeləşən ölkələr iqtisadi gücə, daha sonra isə iqtisadi gücün verdiyi siyasi gücün sahə-

sində dünyada hegemon mövqeyə sahib olmağa başladılar. Dünya hətta nəzəri olaraq xəritədə iki təzadlı hissəyə də bölünməyə başladı (Brandt xəritəsi); Şimal (hegemon qərbi Avropa, Amerika, Yaponiya) və Cənub (qalan digər ölkələr). İndiki zamana kimi də bu vəziyyət elə də kəskin dəyişməyib, hərçənd inkişaf etmiş dövlətlərin sayı indi daha çoxdur (Çin, Cənubi Korea, Cənubi Afrika-hamısı Bertrand xəritəsinin cənub hissəsinə aid idi). Müasir dövrdə də adı çəkilən dövlətlər daha üstün siyasi-iqtisadi mövqedə duraraq öz ideallarını özlərindən aşağı təbəqələrdə duran dövlətlərə diqtə edirlər. Qısa formada yekunlaşdırsaq, texnologiyanın ortaya çıxartdığı məhsullar qərb dünyasının 18-ci əsrdən başlayan və indi də davam edən hegemonluğunun fundament daşı rolunu oynayaraq dünya tarixinin gedişatını dəyişdi(5,33-34)

Daha da müasir nümunələrə gündəlik həyatda istifadə etdiyimiz texnoloji əşyaları göstərə bilərik. Əgər qatar, təyyarə, maşın və digər nəqliyyat vasitələri olmasaydı dünyanın hazırkı mənzərəsi olduqca fərqli olardı. Müasir dövrün ən aktual mövzularından olan qloballaşma (*globalisation) baş verməz, xalqlar və dövlətlər arasında əlaqələr belə sıx olmazdı. Telefon və internetsiz müxtəlif coğrafi məkanlarda yaşayan insanlar arasında əlaqə indiki kimi yaxın ola bilməzdi. Bu nümunələr açıq-aydın texnologiyanın cəmiyyət üzərindəki nəzərə çarpacaq dərəcədə təsir gücünün olduğunu nümayiş edir. Lakin, əks mövqenin də tutarlı arqumentləri var, hansılar ki bizləri bu məsələyə tənqidi nöqtədən baxmağa vadar edir.Siyasi sosiologiya isə siyasi prosesdə yer alan insanı araşdırır. Yəni, siyasi fəal vətəndaşla sistem arasında olan qarşılıqlı əlaqəni tədqiq edir.

Əvvəlcə "sosiallaşma nədir?" sualına cavab tapaq.

Bu proses insanın cəmiyyətə adaptasiyası deməkdir. Yəni, o artıq cəmiyyətin fəal bir üzvünə çevrilir ki, başqa cür tərif versək - sosiallaşma insanın fəal vətəndaş, bir şəxsiyyət



kimi formalaşma prosesidir. (liderlik isə şəxsiyyət kimi formalaşmanın ən yuxarı pilləsidir (super ego – Z.Freyd) Çünki şəxsiyyət kimi formalaşmada bioloji və psixoloji faktorlarla yanaşı, sosial təsir faktoru da mövcuddur. Sosial faktor dedikdə, ictimai-siyasi fəaliyyət nəzərdə tutulur ki, nəticədə bu da fəal vətəndaşı yaradır. Sosiallaşma üçün aşağıdakı amillər mütləqdir:

1. Mühit-cəmiyyət, 2. İnsanın buna psixoloji hazırlığı (nəticədə uğurlu və uğursuz sosiallaşmaya səbəb olur), 3. Və sosiallaşmaya olan ehtiyacı. Bəs siyasi sosiallaşma nədir? Prosesi formalaşdıran faktorlar hansılardır? Bu proses hansı cəmiyyətlərdə realdır? (7, 66-67)Siyasi sosiallaşma insanların siyasi münasibət və davranışlarda bulunduğu uzunmüddətli, bəzən də ömürlük bir prosesdir. Prosesin pik nöqtəsi də siyasətdə birbaşa iştirak və ya siyasi qərarlara təsir etmə gücüdür.

Siyasi sosiallaşma üçün vacib olan ilk amil "siyasi dil"dir. Yəni, ümumən siyasəti anlamaq, maraqlanmaq, fikir yürütmək və məsələlərə münasibət bildirmək. Məhz siyasi sosiallaşmanı iki mərhələyə ayırsaq, birinci mərhələnin vətəndaşın ictimai-siyasi proseslərə marağının olması və onlarla yaxından maraqlanması olduğunu qeyd etməliyik. Çünki cəmiyyətdən kənarda bir sistem mövcuddur ki, birbaşa və dolayısı yolla cəmiyyətə təsir gücünə malikdir. Əslində isə həmin sistem ümumi mühitin bir hissəsidir.Və hər bir vətəndaş həmin mühitin, cəmiyyətin və sistemin tam hüquqlu bir üzvüdür.Təbii olaraq da onun müəyyən sosial və siyasi funksiyaları, öhdəlikləri vardır. Cəmiyyətin siyasi həyatı da məhz insanlar arasındakı siyasi əlaqələrin təcəssümü və cəmidir.(8,29-31)

Siyasi sosiallaşma prosesi cəmiyyətə və sistemlərə görə fərqlənir. Totalitar və avtoritar cəmiyyətlərdə siyasi sosiallaşmadan söz gedə bilməz. Çünki şəxsiyyətin azadlığı məhdudlaşdırılır. Demokratik cəmiyyət isə bütün həlləri yuxarı-

lar ilə aşağıların konsesusunda görür. Və bu tip cəmiyyətlər fərdin şəxsiyyət-vətəndaş kimi formalaşmasında maraqlıdır. Digər bir tərəfdən prosesə olan mikro və makro mühitin təsiri də danılmazdır. Çünki mikro mühitdə, plüralizmin olmadığı yerdə sən olmasan belə siyasət özü səninlə məşğul olur. Müxtəlifliyin olduğu yerdə isə situasiya fərqlidir.

Sosiallaşma ilə siyasi sosiallaşmanın fərqi nədir? İnsan ilk növbədə sosiallaşma prosesini seçir. İkinci mərhələ artıq vətəndaş kimi siyasi sosiallaşma prosesinə qoşulmaqdır ki, bu da onun siyasi fəal vətəndaş olub-olmamasından, bunu istəyib-istəməməsindən asılıdır. Azərbaycanı təhlil etsək, fikrimcə, cəmiyyətimizdə ictimai həyatın və siyasi proseslərin ən aktiv iştirakçıları gənclər və onların yaratmış olduğu sosial qruplardır. Bu gün Azərbaycanda əksər insanların siyasi sosiallaşma prosesinə qoşulması məhz yeniyetməlik və gənclik yaşlarına təsadüf edir.

Qloballaşan, daim irəliyə – yeniliyə doğru can atan dünyamızı bu gün ən müasir informasiya və kommunikasiya texnologiyaları – İnternet, elektron poçt və qlobal rabitə imkanları olmadan təsəvvür belə etmək mümkün deyil. Yeni minillikdə bəşər sivilizasiyasını düşündürən ən aktual və təxirəsalınmaz məsələ – telekommunikasiya və informasiya texnologiyaları sahəsində "inqilabi" dəyişikliklər yolu ilə əlçatmaz zirvələri fəth etmək, dövlətlər və xalqlararası zaman və məkan fərqlərini aradan qaldırmaqdır. İKT cəmiyyətin inkişafına müsbət təsir etmək imkanlarına malik olan mühüm bir vasitədir. O, dövlət orqanları, vətəndaş cəmiyyəti institutları, iqtisadi-biznes və sosial sektorlarla yanaşı həm də elm, təhsil, mədəniyyət sahələri və insanların gündəlik həyatına öz təsirini göstərir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr İKT-nin tətbiqi nəticəsində böyük nailiyyətlər əldə etmişlər və beləliklə də dünya mədəniyyətinin gələcəyinə aparan yolun İKT-nin cəmiyyətdə



geniş tətbiqindən keçdiyi artıq heç kimdə şübhə doğurmur. Dünya təcrübəsi açıq-aydın göstərir ki, İKT-nin geniş tətbiqi ölkənin ümumi sosial-iqtisadi inkişafına təkan verir və o, yoxsulluğun azaldılması üçün təsirli vasitələrə malikdir. Buna görə də inkişafı gücləndirmək məqsədilə ölkə potensialından istifadə etmək üçün hər bir ölkənin öz milli İKT strategiyasının işlənib hazırlanması həlledici əhəmiyyət daşıyır. (9, 66-78)

Bu da Azərbaycan kimi sosial-iqtisadi dəyişikliklər dövrünü yaşayan və dünya birliyinə tam inteqrasiyaya can atan ölkələr üçün xüsusilə vacibdir.İnformasiya cəmiyyətinə keçid, qloballaşma və dünya birliyinə inteqrasiya Azərbaycanın da üzv olduğu Birləşmiş Millətlər Təşkilatı və Avropa Şurası kimi təşkilatların əsas öncəlik verdiyi məsələlərdəndir. İnformasiya cəmiyyətinə keçid üçün müvafiq mühitin yaradılması Azərbaycan Hökumətinin siyasi kursunun tərkib hissəsidir və Milli İKT Strategiyasının işlənməsi bu istiqamətdə atılmış ilk addım kimi mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda İKT-nin inkişafı və istifadəsi üçün ümummilli strategiyanın hazırlanması və qəbul edilməsi də məhz bu səbəbdən zəruri idi. Strategiyaya tam əhatəli prinsip və öncəliklər, realist zaman çərçivəsinə əsaslanan xüsusi fəaliyyət məqsədləri daxil olmalı və o, Azərbaycan Respublikası hökumətinin "İnformasiya, informasiyanın yayılması və təhlükəsizliyi" haqqında qanunu ilə müəyyən edilmiş informasiya siyasəti ilə üst-üstə düşən nəticələr nəzərdə tutmalıdır. İKT infrastrukturunun inkişaf prosesinin hökumət tərəfindən idarə olunması da öz həllini gözləyən məsələlərdəndir. Müasir cəmiyyətin inkişaf səviyyəsi onun informasiya infrastrukturunun inkişaf dərəcəsi ilə təyin olunur. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə demək olar ki, insan fəaliyyətinin bütün sahələrini əhatə edən güclü informasiya infrastrukturu sürətlə inkişaf etməkdə davam edir və forma-

laşır. İKT-nin inkişafı sayəsində dünyada elmə heç vaxt indiki qədər maraq oyanmamışdır, lakin bu elmin müxtəlif ölkələr üzrə yayılması ayrı-ayrı zamanlara təsadüf edir. (10, 112-113)

Sosial siyasət - dövlətin, yerli hakimiyyət orqanlarının, müəssisə və təşkilatların əhalini işsizlikdən, istehlak qiymətlərinin artımından müdafiə edən kompleks sosial iqtisadi tədbirlər sistemidir.Sosial siyasət, anlayış olaraq XIX əsrin ikinci yarısında Almaniyada ortaya çıxıb. İlk dəfə sadəcə fəhlə və kapitalist sinfi arasındakı mənfəət qarşıdurmasını nizamlamaq üçün dövlətin gördüyü tədbirləri nəzərdə tutan bu anlayış, daha sonra inkişaf edərək geniş mənada işlədildi. Bütün sosial sinif və qruplar üçün dövlətin gördüyü tədbirlər bütününü əhatə etdi. Sosial siyasət müasir mənada: cəmiyyətdəki bütün sosial sinif və qrupların sosial müdafiə, sağlamlıq, təhsil, məşğulluq və.s kimi problemlərini həll etməyə istiqamətlənmiş, qruplar və siniflər arasında yaranan mübarizə və münaqişələri sosial ədalət prinsiplərinə görə həll etməyə çalışan və cəmiyyətin sosial rifahı üçün həyata keçirilən bütün tədbirlərin cəmidir. (12, 99-101)

Bu anlayış hazırkı mənanı alana qədər uzun bir tarixi inkişaf mərhələsi keçib. Bu mərhələlərdə dövlətlər öz funkisiyalarını dəyişdikləri kimi sosial siyasətin də mənasını dəyişdirib və onu daha da genişləndiriblər. Sosial siyasətin vəzifələri dedikdə, onun həll etməli olduğu əsas məsələlər nəzərdə tutulur. Sosial siyasətin əsas vəzifələrini aşağıdakı kimi təsnif etmək olar:

Gəlirin ədalətli bölgüsü və yoxsulluğun azaldılaması: Sosial siyasətin qarşısına qoyduğu ən əsas məsələlərdən biri milli gəlirin cəmiyyətdə ədalətli bölügüsü ilə əlaqədardır. Dövlət bu yöndə siyasətlər həyata keçirərək siniflər arası maddi uçurumun qarşısını alır və sosial ədaləti yaratmağa çalışır. Gəlirin ədalətsiz bölgüsü zamanı yaranan yoxsulluq



probleminin həlli də sosial siyasətin ən əsas vəzifələri sırasındadır. Fürsət bərabərliyi: liberal fəlsəfəyə əsaslanan qanun qarşısında bərabərlik prinsipinin sosial-iqtisadi sahəyə tətbiq olunmasıdır. Bərabərlik prinsipi daha çox təhsil və fərdin özünü inkişaf etdirəcəyi müəyyən sahələrə tətbiq edilir. Sosial Müdafiə: hər hansı bir sosial risk, qocalıq, xəstəlik, işsizlik, iş qəzalarına görə vətəndaşın gəlirinin azalması və ya ümumiyyətlə dayanması zamanı onun digər insanlardan asılı olmadan yaşamasını təmin etmək üçün görülən tədbirlər bütünüdür.Tam məşğulluğun təmin olunması və işsizliklə mübarizə: bütün vətəndaşların gəlir əldə edə biləcəyi bir iş yerinin olması sosial siyasətin əsas məqsədlərindən biridir. (13, 79-85) Sosial nizam və sülhü təmin etmək: sosial dövlət insanlar arasında aid olduqları fərqli sinif, irq, din, məzhəb, iqtisadi vəziyyətə görə ayrı-seçkilik salınmasının qarşısını almağa çalışır. Cəmiyyətdə müxtəlif tip insanların sülh içərisində yaşamalarını təmin edir.İqtisadi inkişafın təmin olunması: dövlətin iqtisadi inkişafı üçün investisiyalara münbit şərait yaradır. İqtisadi fəaliyyətlərdə tam məşqulluq halını təmin etmək üçün buna uyğun fəaliyyətlər həyata keçirilir.

İşçilərin müdafiəsi: az yaşlı işçilərin müdafiəsi, iş vaxtının nizamlanması, iş yeri şəraitinin tənzimlənməsi, haqsız yerə işdən çlxarılma hallarının qarşısının alınması, normal əmək haqqı təminatı və : bu kimi işçi problemlərinin həllinə istiqamətlənmiş tədbirlər görülür. Demokratiyanın inkişafı, hakimiyyətə gəlmək istəyən siyasi partiyaların xalqla hesablaşması demək idi. Bunun nəticəsi olaraq da ilk öncə işçi sinifi başda olmaqla onların problemlərinə istiqamətlənmiş sosial-iqtisadi tədbirlər bütünü partiyaların və partiyalar timsalında dövlətin əsas məqsədinə çevrildi. Daha sonra sosial siyasət tədbirləri cəmiyyətin bütün sinif və qruplarına tətbiq edildi.Hazırda öz xalqına yüksək rifah şəraiti yaratmış bir çox avropa dövləti sosial dövlət sisteminə üstünlük verir

və sosial siyasət mexanizmlərindən istifadə edərək cəmiyyətdə baş verə biləcək sosial-iqtisadi problemlərin qarşısını almağa çalışır.

## Ədəbiyyat

Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. B., 2001
Амелин В. Н. Социология политики. М.,1992.
Волков Ю. Г. Социология. М, 2004.
Зеленов Л. А. Социология города: для вузов. М., 2000.
Социология. Учебник. М., 2002
Şəfiyev Ü. Konfliktologiya: siyasi - sosioloji təhlil. B., 2002
Ağayev T. B. Sosiologiyaya dair sxemlər. B., 2002
Əzimov K. A., Həsənov R. M. Sosiologiya. B., 2003
Бурдье П. Социология политики. М.,1993
Радугин А. А., Радугин К. А. Социология: Курс лекций. М.,2001.
Quliyev R. Sosiologiya: nəzəriyyə və tədqiqat metodologiyası. B., 1995.
Vahidov F. Ağayev T. Sosiologiya. B., 2005.
Abbasova Q. Y. Elmin və təhsilin sosiologiyası. B., 2002.
Буданцев Ю. П. Социология средств массовой информации. М., 1997.



## SİYASİ SOSİOLOGİYANIN OBYEKTİ PREDMETİ VƏ STRUKTURU

Siyasi sosiologiya siyasətin sosial konteksti haqqında elmdir. Siyasi sosiologiya sosiologiyanın bir sahəsi olaraq cəmiyyət daxilində və ya cəmiyyətlər arasında hakimiyyətin paylanmasının sosial səbəb və nəticələrini, hakimiyyətin paylanmasında dəyişiklərə gətirən sosial və siyasi konfliktləri öyrənir. Seymur Martin Lipset tamamilə haqlı olaraq qeyd edir: "Əgər sosiologiya üçün əsas məsələ cəmiyyətin sabitliyidirsə, siyasi sosiologiya üçün bu - siyasi rejimin... sabitliyidir". Buradan da siyasi sosiologiya siyasi və sosial fenomenlər (yaxud dövlətlə vətəndaş cəmiyyəti) arasındakı qarşılıqlı əlaqəni tədqiq edən elm kimi xarakterizə oluna bilər.

Bu elm sahəsinin kökləri qədimlərə gedib çıxsa da (məs., Platon, Aristotel antik dövrdə, Makiaveli, Hobbs Yeni dövrdə və s.) o əsas nəzəri problematikasını XIX əsrin nəhəngləri sayılan Hegel, Marks və Tokvilin, XX əsrin əvvəllərində yaşamış Veber, Mixels və Dürkheymin əsərlərindən götürülmüşdür. Bu əsasda siyasi sosiologiyanın bir elm kimi birinci Dünya müharibəsi ərəfəsində yaranmasını göstərmək olar. Siyasi sosiologiya bu elmin formalaşmasında böyük rol oynamış Reynard Bendiks və Martin Lipsetlə yanaşı Barrinqton Mur, Vilyam Kornhauzer, Robert Leyn və müəyyən dərəcədə bu sahəyə aidiyyatı olan Karl Doyç, Qabriel Almond, Sidney Verba, Harri Ekştayn və Devid Apterin əhəmiyyətli elmi işləri nəticəsində qəti olaraq xüsusi bir elm sahəsinə çevrilə bilmişdir. "Siyasi sosiologiya" termini 1930-cu illərin əvvəllərində bir sıra tədqiqatları ifadə etmək, eləcə də kommunist inqilabları, faşizmin yayılması və ikinci Dünya müharibəsi ilə əlaqədar baş verən sosial və siyasi dəyişiklikləri əks etdirmək üçün qəbul edildi. "Siyasətin sosiologiyası" və "siyasi so-

siologiya" anlayışları ilə bağlı bir sıra suallar meydana çıxır. Bunlar eyni, yoxsa fərqli termindir? Əgər bu terminlər arasında fərq yoxdursa, onda niyə onların hər ikisi də işlədilir?

Siyasətin sosiologiyası siyasi sfera və onun institutlarının digər ictimai institutlarla əlaqəsini öyrənən bir elm sahəsidir. Siyasətin sosiologiyası siyasi sistemin, qeyri-siyasi sistemlərin, siyasi aktyorların, siyasi davranış, siyasi təsisatların, siyasi proseslərin, siyasi kommunikasiya və siyasi nəticələrin sosioloji fonunun sistematik tədqiqini nəzərdə tutur. Bütün bunlar siyasi sosiologiyada da geniş öyrənilir. Lakin siyasətin sosiologiyası o qədər də uğurlu anlayış olmayaraq hakimiyyət münasibətləri də daxil omaqla ictimai həyatın bütün sahələrində məqsədyönlü fəaliyyətə dair çox geniş problemləri əhatə edir və burada siyasi tədqiqatçı üçün kənarda müşahidə edilən, onun daxil olmadığı, zahirən ondan uzaq bir fenomen kimi çıxış edir.

Siyasi sosiologiya anlayışına gəldikdə isə burada insanın hər hansı bir sosial qrup və ya sosial təşkilatın üzvi kimi bütün problemlərə deyil, yalnız hakimiyyətlə qarşılıqlı münsaibətlərinin, bu və ya digər siyasi aksiyalara münasibətdə mövqeyinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Siyasi sosiologiya diqqəti sözün dar mənasında yalnız siyasət problemlərində (insanların siyasi vəziyyəti, siyasi meyilləri və siyasi inkişaf problemlərini qavraması, siyasi həyatda iştirakı və s.) cəmləşdirir. Nəhayət, müasir elmi ədəbiyyatda demək olar ki, "siyasi sosiologiya"ya "siyasətin sosiologiyası" anlayışından daha çox rast gəlinir. Siyasi sosiologiyanın obyekti sosiologiyanın obyektindən heç nə ilə fərqlənmir. Sosiologiyanın obyekti isə bildiyimizə görə, vətəndaş cəmiyyətidir. Vətəndaş cəmiyyətinin partiyalar, ictimai təşkilatlar, könülli birliklər, vətəndaş təşəbbüsü və s. kimi qurumları dövlətə bir müxalif olaraq yaranmışlar. Onlar dövlət problemlərinin alternativ həlli yollarını irəli sürür, lazım gəldikdə onları şübhə altına da alırlar. Beləliklə, Siyasi sosiologiyanın obyekti vətəndaş cəmiyyətinin siyasi həyatıdır. Siyasi sosiologiyanın predmeti siyasi həyatın subyekti olan şəxsiyyətin siyasi şüuru və davranışı təşkil edir. Müasir cəmiyyətdə hər bir insan siyasi münasibətlərin subyektidir. İnsanların siyasi həyatda iştirakdan istənilən şəkildə uzaqlaşdırılması ciddi nəticələrə gətirib çıxara bilər. İstənilən səviyyəli rəhərin və ya siyasi təşkilat strukturunun rolu nə qədər əhəmiyyətli olsa da insanların siyasət sahəsində şüur və davranışları son nəticədə həmişə həlledici olaraq qalır. Burada üç elmi yanaşma nəzərdən keçiriləcək: biheviorist, sistem təhlil və input-autput (bu termin Azərbaycan dilinə "giriş-çıxış", "töhfə-məhsul"; "qoyuluş-nəticə" və s. kimi tərcümə edilə bilər) təhlilləri.



Bu metod mənşə etibarilə psixologiyaya məxsus olsa da digər elmlər, məsələn, tarix, iqtisadiyyat, antropologiya, siyasi elm, sosiologiya, siyasi sosiologiya və s. tərəfindən də istifadə olunur. Biheviorizm şüuru elmi tədqiqatın predmeti kimi inkar edir. Bu nəzəriyyəyə görə, insan psixikası müxtəlif davranış formalarının təzahürüdür. İnsan davranışı isə orqanizmin xarici stimullarına (S) göstərdiyi reaksiyaların (R) cəmidir (S→R). Metodoloji cəhətdən biheviorizmin ilkin şərtləri pozitivist fəlsəfəsinin prinsipləri təşkil edir ki, buna da əsasən, elm yalnız bilavasitə müşahidə edilə biləni tədqiq etməlidir.

Biheviorizm XX əsrin əvvəllərində ABŞ-da yaranmışdır. Onun banisi Con Votson öz baxışlarını "Psixologiya biheviorist mövqeyindən" və "Biheviorizm" kimi əsərlərində ifadə etmişdir. Bu nəzəriyyənin digər nümayəndələrindən Eduard Torndaykın, Brres Skinnerin ("Elm və insan davranışı"), Talkott Parsonsun, Eduard Şilzin, eləcə də İvan Pavlovun, Vladimir Bextetevin, İvan Seçevin və b. adlarını çəkmək olar.

Biheviorizmə görə, insanın davranışını öyrənmək onun fikrini öyrənməkdən daha asandır: insan davranışı onun

fikrinin ifadəsidir və buna görə də insan davranışını öyrənərkən biz dolayısı ilə insan düşüncəsini də öyrənmiş oluruq. Bu metodun əsas üstünlüyü ondadır ki, o, bizə insanın insanın qanun və prinsipləri dərk etməyə kömək edir.

Sosioloqlar, siyasətşünaslar və siyasi sosioloqlar insanın ictimai-siyasi davranışını müxtəlif kontekstlərdə, məs., seçkilər, tətil və pekitlər vaxtı öyrənmişlər. Lakin çox zaman ağılda baş verən hərəkətlə müvafiq qaydada ifadə olunmur və ya əksinə, davranış heç də dərrakənin nəticəsi kimi çıxış etmir. İqtisadiyyatın, sosiologiyanın, psixologiyanın, coğrafiyanın və d. elmlərin inkişafına təsir göstərmiş bu təhlil metodu siyasi sosiologiyada yenidir. Sistemli yanaşma dedikdə cəmiyyətd və ya dövlətin bir sistem kimi götürülərək təhlil edilməsi nəzərdə tutulur. Bu metodun inkişafında tanınmış amerikan siyasi sosioloqu Devid İstonun böyük rolu olmuşdur ("Siyasi sitem" (1953), "Siyasi analizin strukturu (1965)). Qeyd edildiyi kimi, sistem təhlil dövlət və ya cəmiyyəti bütöv kimi götürsə də onun müxtəlif bölmələrinə ehtiyac bir hissə kimi münasibət bəsləyir. Məs., mexaniki bir sistem və ya hər hansı bir maşın çoxlu miqdarda ehtiyat hissələrə malik olduğu kimi, siyasi sitem də belədir. Maşınlar kimi siyasi sistemlər də böyük və ya kiçik, güclü və ya zəif ola bilər. Maşında bütöv bir sistem daxilində müxtəlif sistemlər olduğu kimi, siyasi sistemdə də bis sistem daxilində mextəlif sistemlər və ya subsistemlər mövcuddur. Onlardan bəziləri enerji, bəziləri isə hərəkət və ya başqa tipli iş yarada bilər. Misal üçün avtomobili götürək. Avtomobilin mühərriyi onu enerji ilə təchiz edir, ötürücü mexanizm onun işinə, elektrik subsistemi isə batareyaların işləməsinə və s. yardım edir. Bura həm də avtomobilin sürətinə nəzarət edən sussistemi aid edə bilərik. Eyni sxemi biz siyasi sistemə də tətbiq edə bilərik. Məs., siyasi partiyalar və təzyiq ruplarını avtomobildəki ötürücü mexanizmlə müqayisə edə bilərik. Siyasi sistemdəki



kommunikasiya subsistemi avtomobildəki elektrik subsistemi ilə müqayisə edilə bilər. Siyasi sistemdəki ordu və polisi əyləc subsistemi ilə müqayisə etmək olar və s. Sistem təhlil tərəfdarları mühəndislik, fizika, kimya, riyaziyyat, statistika və s. kimi sahələrdən çoxlu belə misallar gətirmişlər. Sistem təhlilin üstünlüklərindən onu göstərmək olar ki, o, müxtəlif idarəetmə, siyasi sistemlər və cəmiyyətlər haqqında məlumat və birliklərin təşkilinə və sistemləşdirilməsinə kömək edir. Sistem təhlil bu sistemlərin inkişafını və müxtəlif meylləri qabaqcadan söyləməyə və bunlar barəsində ölçü götürməyə imkan verir. Bu nəzəriyyə siyasi sistem də daxil olmaqla müxtəlif istehsal sistemlərinə faydalı və effektiv baxışı əks etdirir. Bu nəzəriyyə siyasi elmə və ya siyasi sosiologiyaya iqtisadiyyat elmi vasitəsilə gəlmişdir. Onu ilk dəfə Harvard universitetinin iqtisadiyyat kafedrasının professoru Vasiliy Leontyev irəli sürmüşdür. İnput-autput nəzəriyyəsi qısaca olaraq istehsal sisteminə daxil olanla ondan alınana nəticə arasında mühüm əlaqənin olduğunu bildirir. Məsələn, toxuculuq fabrikində pambıq, şəkər zavodunda isə şəkər qamışı giriş, onlarda istehsal olunan parça və şəkər isə çıxış, nəticə hesab oluna bilər. Daha sonra, eyni vaxtda birdən çox giriş ola bilər. Məsələn, pambığa və ya şəkər qamışına əlavə etmək üçün müəyyən kimyəvi maddələr lazım gələ bilər. Belə ki, müxtəlif sistemlər müxtəlif giriş tələb edə bilər ki, bunların da faizi və ya dərəcələri bir-birindən fərqli olar bilər. Çıxışa gəldikdə isə, burada da bir-birindən faiz və dərəcələrinə görə fərqlənən bir neçə çıxış ola bilər. Yenə də misala müraciət edək. Şəkər zavodu şəkərdən başqa əlavə məhsul kimi alkoqollu içkilər də (məs., viski, konyak) istehsal edə bilər. Beləliklə, verilən sistemdə istər giriş, istərsə də çıxış tək və ya sadə, yaxud çox və ya mürəkkəb olar bilər.

Giriş-çıxış təhlili müxtəlif istehsal sistemləri ilə yanaşı siyasi sistemə də tətbiq edilə bilər. Sitem təhlilin inkişafın-

da böyük rol oynamış Devid İston giriş-çıxış nəzəriyyəsindən də bəhs edir. Daha sonra Qabriel Almond və Binqam Pauel "Müqayisəli siyasət: inkişaf yanaşması" adlı əsərdə bu məsələyə toxunaraq siyasi sistemdə iki cür girişin mümkünlüyünü qeyd edirlər: siyasi sistemdəki tələbatlar və siyasi sistemə göstərilən dəstək. Siyasi sistemdə müxtəlif fərdlər müxtəlif tip tələbatlara malik olurlar. Onların siyasi sistem tərəfindən təmin olunmalı müxtəlif ümid və ehtiyacları vardır. Bura hər hansı bir əmtəə və ya xidmətə, mənzilə, təhsilə, siyasi sistemdə iştiraka və s. tələbat aid ola bilər. Tələbatlar eyni zamanda siyasi sistem tərəfindən məcbur ediləbiləcək müəyyən bir qayda və ya nizamlama ilə də bağlı ola bilər. Məsələn, dövlət ailə planlaşdırılması proqramından çıxış edərək vətəndaşlar uşaq doğumuna qoyulan məhdudiyyətin aradan qaldırılmasına tələb edə bilərlər; başqa bir tələb isə nazirlərin vəzifəyə təyin olunanadək öz əmlakı və öhdəçilikləri haqqında ictimaiyyəti məlumatlandırması ola bilər.Beləliklə, müxtəlif sistemlərdə fərdlər siyasi sistem tərəfindən ödənilməli olan müxtəlif cür tələbatlara malik ola bilərlər.

İkinci tip girişə siyasi sistemə göstərilən müxtəlif tipli dəstək aid edilə bilər. Əgər hər hansı bir şəxs öz sağlamlığının qeydinə qalırsa bunu siyasi sistemə dəstək kimi də dəyərləndirmək olar. Bu vaxt dövlət səhiyyə sahəsi həmin şəxsə xəstə olacağı təqdirdə sərf edəcəyi maliyyə vəsaitinə və ya dərmanlara qənaət etmiş olacaq; həmin şəxs fiziki və zehni cəhətdən sağlam olduğu təqdirdə o, məsələn, polis və ya orduda xidmət üçün yaralı olaraq dövlətə də xeyir gətirəcəkdir. Beləliklə, hətta adi bir vətəndaş təkcə bu yolla dövlətə dəstək nümayiş etdirmiş olur. Başqa bir misal gətirək. Prezidentin inauqurasiya (andiçmə) mərasimini televiziyadan seyr edən və ya Müstəqillik gününün qeyd olunmasında iştirak edən vətəndaş siyasi sitemə rəmzi və ya təntənəli dəstək nümayiş etdirmiş olur; əgər o, qayda-qanuna tabe olub ona riayət



edirsə bununla yenə də siyasi sistemə dəstək nümayiş etdirmiş olur; əgər fövqəlada hallar və müharibə zamanı o, insanlara kömək əlini uzadır, orduda könüllü xidmətə yollanırsa bununla da siyasi sitemə dəstək nümayiş etdirmiş olur; əgər o, kütləvi informasiya vasitələrindən istifadə edərək vətəninin daxili və ya xarici siyasətinə dair hər hansı bir materialar tanış olursa, bu da siyasi sistemə dəstək kii qiymətləndirilə bilər. Bütün bu misallar siyasi sitemə göstərilən dəstəyin müxtəlifliyi, çoxluğu və mürəkkəbliyinə misaldır.

Siyasi sistemdə liderlər giriş-çıxış təhlili nöqeyi-nəzərindən mühüm rol oynaya bilər. Liderlər siyasi, iqtisadi, dini, mədəni və s. sahələrdə fərqlənə bilərlər. Onlar aktyor, jurnalist, ideya lideri və s. ola bilərlər. Bu liderlər siyasi sistemdə müxtəlif girişlərin yaranmasında və eləcə də müxtəlif çıxışların əldə olunmasında böyük rol oynaya bilərlər. Məsələn, əgər tanınmış idmançılar qrupu gənvlərə ordu sıralarına qatılmaq çağrışı ilə müraciət edirsə, bu siyasi sistemə giriş kimi qiymətləndirilə bilər. Eyni şəkildə nəticələr də liderlər tərəfindən tələb edilə bilər. Məsələn, neft sənayesi işçiləri birliyinin liderləri tətil edərək əmək haqqının qaldırılmasını tələb edirsə, demək, onlar siyasi sistemdən çıxış tələb etmiş olurlar. Beləliklə, giriş-çıxış yanaşmasının araşdırılmasından aşağıdakı nəticələrə gəlmək mümkündür:

Giriş-çıxış fəlsəfəs' siyasi sistemi hərəkətə gətirən bir qüvvədir. Əgər siyasi sistemdəki girişlər məlumdursa, bunun əsasında siyasi sistemi də səciyyələndirmək mümkündür;

Bu mənada giriş-çıxış təhlili ənənəvi səbəb və nəticə təhlilini xatırlada bilər. Ənənəvi səbəb və nətivə təhlili də siyasi sistemin və ya dövlətin siyasətini və rəhbərliyinin fəaliyyətini səbəb-nəticə nöqteyi-nəzərindən aydınlaşdırmağa çalışır. Ənənəvi nəzəriyyəçi hansı səbəblərin hansı nəticələrə gətirib çıxaracağını müəyyənləşdirməyə çalışır. Aristotel cəmiyyətdəki bərabərsizliyin inqibların əsas səbəbi olduğu-

nu göstərir. Platon isə qeyd edirdi ki, xalqla hesablaşmamaq və eyni zamanda ona həddən artıq azadlıq bəxş etmək xaos və anarxiyaya gətirib çıxarır. Sokrat yazırdı ki, bilikli olmaq comərd olmaq deməkdir. Monteskye hakimiyyət bölgüsünün insan azadlığının zəmanəti olmasını sübut etməyə çalışırdı.

Bütün bu misallardan güründüyü kimi, böyük mütəfəkkirlər səbəb-nəticə arasındakı münasibəti müəyyənləşdirməyə çalışmışlar.

Nəhayət, qeyd etmək lazımdır ki, səbəb və nəticə arasında olduğu kimi girişlə çıxış arasındakı münasibət də həmişə məntiqə uyğun olmur. Belə ki, istənilən bir siyasi sistemdə giriş heç də həmişə müvafiq çıxışla sona çatmır. Məsələn, neftçilər əmək haqqının qaldırılmasından ötrü tətil elan edə bilərlər. Bunu çıxış adlandıraq. Lakin onların gözlədiyi çıxış alınmaya da bilər. Bu o vaxt baş verə bilər ki, hökumət onların tələblərini ədalətsiz hesab etsin. Beləliklə, tətil baş tutmaya da bilər. Başqa sözlə desək, verilən giriş lazım olan çxışla nəticələnməyə də bilər. Lakin əlbəttə, həmiş belə olmur.

Beləliklə, giriş-çıxış təhlili də universal olmayaraq, müəyyən istisnalara malikdir.

Əgər siyasi elm diqqəti əsasən siyasi sferada cəmləşdirirsə, siyasi sosiologiya siyasi prosesləri tam başa düşmək üçün siyasəti bütövlükdə sosial strukturla əlaqələndirməyə çalışır. Ənənəvi siyasi elm məhdud mövqedən çıxış edərək siyasi aktorların davranışını müəyyənləşdirən çoxaspektli siyasi prosesləri tam izah edə bilmir. Siyasi sosiologiya siyasi proses və siyasi fəaliyyətə daha geniş baxış nümayiş etdirməyə çalışır və bu nöqteyi-nəzərdən o, siyasi elmdən fərqlənir.

S.M.Lipsetin sözləri ilə desək, siyasi elm siyasi istitutların pozitiv və aşkar (manifest) funksiyaları ilə məşğuldur. Siyasi sosiologiya digər tərəfdən "radikal" bir fənn olaraq diqqəti sosial konflikt və sosial dəyişikliklərdə cəmləşdirərək siyasətin gizli (latent) funksiyalarını, qeyri-formal aspektlərini və disfunksional aspektlərini öyrənir. Başqa sözlə, "əgər siyasi elm fikri aysberqin görünən hissəsinə yönəldirsə, siyasi sosiologiya diqqəti onun görünməyən hisssəsində cəmləşdirir (L.Kozer). Əlbəttə ki, aysberqin suyun altında qalan hissəsi xeyli çoxdur.



Siyasi sosioloqlar siyasi prosesi formal siyasi institutların funksiyası kimi göstərməkdənsə üstünlüyü qeyri-siyasi, qeyri-rəsmi, qeyri-formal iqtisadi dominantların demokratik prosesə açıq şəkildə təsirini göstərməyə verirlər. Onlar göstərirlər ki, siyasət hər hansı bir nəticə əldə olunanda effektiv olur.

Siyasi elm kimi siyasi sosiologiya da cəmiyyətdə hakimiyyətin paylanması və həyata keçirilməsinin tədqiq edir. Lakin siyasi elmdən fərqli olaraq siyasi sosiologiya hakimiyyətin paylanması və həyata keiçirilməsinin institusional təminatı ilə məşğul olmur, onları olduqları kimi qəbul edir.

Siyasi sosiologiya siyasi elmlə sosiologiyanın bir-birinə yaxınlaşması nəticəsində fənlərarası yeni bir elm kimi meydana gəlmişdir. Fikrimizi daha aydın şəkildə ifadə etsək, siyasi sosiologiya nə siyasi elmsiz, nə də ki sosiologiyasız mövcud ola bilməz. Siyasi sosiologiya sosiologiyanın xüsusi bir bölməsidir. Siyasi sosiologiya sahəsində tədqiqatlar sosiologiyaya arxalanaraq aparılır. Sosiologiya siyasi sosiologiyanın birtərəfli və spesifik tədqiqat və ümumiləşdirilmələrindən faydalanır və əksinə. Siyasi sosiologiya iqtisadiyyatla müəyyən mənada bağlı olan bir elmdir. Siyasi sosiologiyadakı və iqtisadiyyatdakı nəzəriyyələr, ideya və prinsipləri bir-birilə əlaqədardır. Belə ki, siyasi sosioloq sinifləri, sosial qrupları, onların məqsəd və istəklərini, institut və assosiasiyalarını, dini və iqtisadiyyatı öyrənir. Əhalinin rifahını öyrənən iqtisadçı da öz işində bunlardan istifadə edir, bunları nəzərə alır. Əgər siyasi sosioloq hakimiyyətin yaranması və istifadəsini öyrənirsə, iqtisadçı öz növbəsində iqtisadiyyatı öyrənərkən siyasətin ona təsirini tədqiq edir.

Siyasi sosioloq iqtisadi prinsipləri, motivləri, isnitutları, prosesləri və s. nəzərə almadan keçinə bilməz. Məsələn, sosioloq seçkiləri düzgün öyrənə bilməz. Əksinə, iqtisadçı siyasi sosioloq tərəfindən öyrənilən prinsiplər, motivlər, institutlar, proseslər və s. nəzərə almadan istehsal məhsulunun paylanması, əhalinin alıcılıq qabiliyyətini və s. düzgün tədqiq edə bilməz. Bu misal iki elmin bir-birinə yaxınlığını yaxşı nümayiş etdirir. Hər iki elm, demək olar ki, eyni metod və texnikalardan istifadə edir. Eyni zamanda iqtisadiyyat statistik və ya riyazi metodlar və texnikadan daha çox istifadə edir. Bunun nəticəsidir ki, iqtisadiyyatın ekonimetriya və ya riyazi iqtisadiyyat və s. kimi sahələri inkiaşf etmişdir.

Elmlərin əksəriyyəti fəlsəfədən doğmuşdur. Siyasi sosiologiya da belə elmlərdəndir.Siyasi sosiologiya çox xüsusiləşdirilmiş bir sahə olduğundan geniş əhatəli fəlsəfə üçün əhəmiyyət kəsb edir. Eyni zamanda siyasi sosiologiya fəlsəfi baxışdan, metodlardan və s. istifadə edir.

Hər iki elm yenidir və oxşar metod və texnikalardan istifadə edirlər. Lakin psixologiya daha çox laboratoriyada aparılan eksperimental metodlardan istifadə edir. Məsələn, hər hansı bir dini problemə dair ictimai rəyi öyrənərkən psixoloq sosial psixologiyanı başa düşməlidir. Əgər psixologiya siyasi sosiologiyadan bəhrələnmirsə onda onun mövqeyi yəqin ki, zəifləmiş olur. Hər hansı bir sosial qrupun dini baxışlarını, münasibət və hərəkətlərini öyrənərkən psixoloq siyasi sosioloqun axtarış və nəticələrini hökmən nəzərə almalıdır.

Bu iki elm arasında müəyyən yaxınlıq vardır. Hər iki elm tədqiqat prpsesində əhəmiyyətli dərəcədə məlmat və faktlardan istifadə edir. Məsələn, səsvermə zamanı seçicilərin davranışı, liderlik məsələləri, müxtəlif nöc statistk analizlər və proqnozlar, modernləşmə və inkişaf problemləri və s. siyasi sosiologiya və statistika üçün ümumi dərəcədə maraq doğurur. Tutaq ki, siyasi sosioloq hakimiyyət fenomenini



dövlət, hökumət, cəmiyyət, sosial idarəetmə kontekstlərində öyrənmək istəyir. Tədqiqat məqsədləri üçün digər vasitələrdən başqa çoxlu statistik faktlardan da istifadə etmək olar. Stastistikanın bir elm kimi yaranması alman filosofu Q.V. Leybnitsin adı ilə bağlıdır.

Statistika siyasi sosiologiyadan daha qədim elmdir.Hər iki elm bir-birini zənginləşdirir. Belə ki, siyasi sosiologiyanın hakimiyyət, siniflər, təzyiq qrupları, liderlik, seçkilər, sosial-siyasi inkişaf və s. haqqındakı ümumiləşdirmələri statistika üçün çox gərəkli ola bilər. Eləcə də statistika da riyaziyyat və ya məntiq elmləri kimi siyasi sosiologiya üçün metodoloji və prosedur əhəmiyyət kəsb edir.Siyasi və sosial sistemlərin, dinin və dini institutların, müxtəlif mədəniyyətlərin, liderliyin və s. yaranması, inkişafı və süqutu həm siyasi sosiologiya, həm də tarix üçün ümumi maraq kəsb edir.

## Ədəbiyyat


1. Abbasov Q.Y. Elmin və təhsilin sosiologiyası. B., 2002.
2. R.Həsənov Siyasi sosiologiya B.2010
3. Əfəndiyev M.Şirinov A. Sosiologiya nəzəriyyəsinin predmeti B.2003
4. Xəlilov S.S. Lider Dövlət Cəmiyyəti B. 2007
5. Şəfiyev Ü. Konfiliktologiya siyasi sosioloji təhlil B.2002
6. Vahidov F.Ağayev T. Sosiologiya B.2007
7. Əzimov K., Həsənova R. Sosiologiya B. 2003
8. Amellin B.H. Siyasi sosiologiya B.1992
9. Artemov Q.P.Politiciskiy sosiologiya 2002
10. Cozef Ştiqlitz Qlobalaşma və onun doğurduğu narazılıq 2008.

## SİYASİ SOSİALLAŞMA PROSESİNDƏ İDEOLOGİYALARİN ROLU

«Siyasi sosiallaşma» termin kimi 1959-cu ildən siyasi elmə Amerika tədqiqatçısı Q.Hayman tərəfindən daxil edilmişdir [11, 59]. 1969-cu ildə E.Danson və K.Rriutt «Siyasi sosiallaşma» adlı kitab nəşr etdirdilər [5, 714 ]. Politoloqlar bu terminin metodoloji potensialından insanın siyasət aləminə daxil olması prosesini öyrənməyə cəhd göstərmişlər. Bu müstəvidə araşdırmalar apararaq politoloqlar «siyasət» kateqoriyasının öyrənilməsi ilə paralel olaraq, «siyasi sosiallaşma» anlayışının çoxlu sayda təriflərini verməyə müvəffəq olmuşlar. Həmin problemin aktuallığı politoloqlarla yanaşı, filosofları, sosioloqları və psixoloqları da şəxsiyyətin siyasətə cəlb olunması, onun siyasi davranışının və şüurunun genezisinə dair maraqlı əsərlər yazmağa cəlb etmiş, yeni-yeni maraqlı əsərlərin meydana gəlməsinə stimul yaratmışdır. Bu mənada demək olar ki, «siyasi sosiallaşma» konsepsiyasını meydana gətirən ən mühüm səbəb insanların siyasətə marağı və siyasətin insanların fəaliyyətində oynadığı danılmaz rol olmuşdur.

Siyasi yönümdə belə bir fikrə gəlirik ki, siyasi sosiallaşma problemlərinə hələ XX əsrin 20-ci illərində yüksək diqqət yetirilsə də, ümumi qəbul edilmiş siyasi nəzəriyyə hazırlamaq mümkün olmamışdır. Buradan belə bir sual meydana çıxa bilər ki, siyasi sosiallaşma prosesinin öyrənilməsinin elmi-konseptual əsaslarının hazırlanmasına nə üçün məhz, XX əsrin ortalarında nail olundu? Məgər cəmiyyətdə siyasi sosiallaşma prosesi ilə bağlı problemlər mövcud deyildimi? Mövzu ilə bağlı apardığım araşdırmalar bunu deməyə əsas verir ki, tarixi inkişafın müxtəlif dövrlərində siyasi sosiallaşma ilə bağlı meydana çıxan problemlər həmin dövrün mövcud siyasi sistemi və onun ənənəvi institutları tərəfindən müsbət həll edilirdi. Yəni, mövcud siyasi sistemin ənənəvi institutları bu məsələlərlə bağlı yaranan problemləri həll etmək iqtidarına və gücünə malik idi, həmçinin, problem böhran həddinə çatmadan həll edilirdi. Məhz, XX əsrin ortalarından başlayaraq, siyasi sosiallaşma prosesinin doğurduğu problemlər cəmiyyətdə böhranlarla müşayiət olunmağa başladı ki, bu da siyasi tədqiqatçıları bu mövzuya daha ciddi şəkildə yanaşmağa məcbur etdi. Cəmiyyətdə baş verən böhranın əsas səbəbi isə zənnimcə, nəsillərarası varislik əlaqələrinin pozulması idi. Nəsillərarası ziddiyyət mövcud siyasi ideal və dəyərlərin ötürülməsi prosesinin təmin edilməsinə mane olurdu. Fikirlərimin təsdiqi kimi, siyasi sosiallaşma nəzəriyyəsinin yaradıldığı dövrün siyasi tarixinə nəzər salmaq daha münasib olardı.

Siyasi sosiallaşmanın elmi-nəzəri əsaslarının meydana gəlməsi XX əsrin 50-ci illərində qərb cəmiyyəti siyasi sisteminin ənənəvi institutlarının böhranı ilə əlaqədar idi. Ənənəvi institutlar reklam olunan demokratik dəyərlərin yeni nəsillər tərəfindən könüllü olaraq qəbul edilməsini təmin edə bilmirdilər. Böhran fərdi və kütləvi şüurun hakimiyyətin artan korrupsiyalaşmasına, onun postindustrial cəmiyyətdə meydana gəlmiş maraq qruplarını təmin etmək qabiliyyətini itirməsinə reaksiyası idi. Fərdin sistemdən siyasi özgələşməsinin nəticəsi hakimiyyət institutlarına qarşı güclənən inamsızlıq, siyasi absenteizm, nəhayət, rəsmi hakimiyyətə qarşı kütləvi çıxışlar oldu. Siyasi sosiallaşma sisteminin böhranının təzahürü XX əsrin 60-cı illərində qərb cəmiyyəti siyasi sisteminə qarşı gənclərin çıxışlarında ifadə olunan nəsillərin münaqişəsi oldu. Bu böhran 70-ci illərdə zənci və digər irqi həyəcanlarla, 80-ci illərdə kütləvi antihərbi, ekoloji və feminist hərəkatlarla müşayiət olundu. Mənbələrə nəzər salaq:

Siyasi ideya və dəyərlərin nəsildən-nəslə ötürülməsi (translyasiyası) mexanizmində baş verən pozuntular siya-

si institutların qəbul etməyə hazır olmadıqları yeni maraq qruplarının meydana gəlməsi idi [4, 241]. Qərb cəmiyyəti 60-cı illərdə yüksək texnologiyalarla əlaqədar əhali qruplarının təhsil, mədəniyyət, həyat tərzi, dəyərlər sistemində dəyişikliklərə gətirib çıxaran postindustrial mərhələyə qədəm qoydu. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə əhali qruplarının maddi tələblərinin təmin edilməsi postmaddi, hər şeydən əvvəl əxlaqi dəyərləri – bunlardan şəxsiyyətin azad özünürealizə imkanları, əlverişli yaşayış mühiti, insan və təbiətin harmoniyası, həmrəylik – birinci plana çıxardı. Hakim mədəniyyətin şəxsi uğur, maddi, zənginliyə cəhd kimi ənənəvi maddi dəyərlərini inkar edən submədəniyyətlər meydana gəldi. Qeyd etdiklərimizdən aydın olur ki, siyasi sosiallaşma nəzəriyyələrinin yaradılmasına təkan verən əsas məsələ nəsillərarası translyasiya (ötürülmə) prosesinin pozulması olmuşdur. Yeni nəslin yeni tələbləri ənənəvi siyasi sistem institutlarının transformasiyasını tələb edirdi. Yaradılan siyasi sosiallaşma nəzəriyyələri insan və siyasi sistem münasibətlərini yoluna qoymağa çalışırdı. Burada T.Parsonsun fikri daha çox yerinə düşür. Parsons yazırdı:

«Hər bir yeni nəslin gəlişini barbarların basqını ilə müqayisə etmək olar və yalnız sosiallaşma prosesi bu «gəlmələr»lə birgə yaşayışın normalarının mənimsənilməsini təmin edə bilər» [3, 212-213]. Siyasi dəyər və ideyaların ötürülməsi prosesinin tənzimlənməsi məsələləri Amerika tədqiqatçılarının daim diqqət mərkəzində olmuş və onlar prosesi izləməklə daim nəzarətdə saxlamağa çalışmışlar. Amerika politoloqları şaquli və üfüqi sosiallaşmanı fərqləndirirlər. Şaquli sosiallaşma dedikdə, siyasi-mədəni dəyərlərin yaşlı nəsildən gənc nəslə, babalardan ata və oğullara ötürülməsi başa düşülür. Üfüqi sosiallaşma eyni bir nəsil – qardaşlar, bacılar, həmsiniflər, bərabərlər çərçivəsində həyata keçirilir. Başqa sözlə, eyni bir nəslin nümayəndələri



bir-birinə təsir edirlər. Buradan belə bir nəticə çıxarmaq olar ki, həm nəsillər arası, həm də eyni nəsillərarası siyasi münasibətlərin uzlaşdırılması siyasi sosiallaşmanın ən vacib məsələlərindən biri sayılır. Çünki, məhz siyasi sistemin normal fəaliyyəti insanların həmin siyasi sistemə və biri-birinə münasibətindən asılıdır. Çox vaxt deyirlər ki, insan ümumi modelə harmonik olaraq uyğunlaşırsa, deməli, həyata yaxşı hazırlaşıb, əgər müəyyən olunmuş standartlardan yayınırsa deməli, pis hazırlaşıb.

Siyasi sosiallaşmanın dəqiq müəyyən edilmiş tərifi mövcud deyildir. Bu prosesi tədqiq edən mütəxəssislər onu çoxtərəfli və çoxcəhətli, müxtəlif çalarlara malik yetkinləşmə kimi dəyərləndirirlər. Siyasi sosiallaşmanın təhlili zamanı onun müəyyən edilməsi üçün verilən təriflər «anarxiya»sını nəzərdən keçirməmək düzgün olmazdı. Ona görə də, bu prosesə xüsusi olaraq diqqət göstərməliyik. Siyasi sosiallaşma dedikdə, şəxsiyyətin siyasi şüur və davranışının yaranması, siyasi adların qəbulu və icrası siyasi aktivliyin təzahürü prosesinin məcmusu nəzərdə tutulur. Başqa sözlə, siyasi sosiallaşma adı altında insanın mövcud siyasi sistemə uyğun olan norma, münasibət və davranışları öyrənməsi prosesi başa düşülür. Siyasi sosiallaşma gedişatı müddətində (baş verdiyi) uşaq və yeniyetmələrin məlum cəmiyyət üçün tipik olan ideya, siyasi mövqe və davranışları qəbul etdikləri inkişaf prosesidir [2, 536]. Bu cür yanaşma onu deməyə əsas verir ki, siyasi sosiallaşma fərdlərin siyasi şüur və siyasi davranışlarının əsasını təşkil edir və onun xarakterindən asılı olaraq yönləndirilir.

Bütövlükdə cəmiyyətin hər bir üzvü sosiallaşma və böyümə prosesində sosial-mədəni varlıq kimi formalaşır və bu keyfiyyətə o, siyasi mədəniyyəti və onun ayrı-ayrı komponentlərini mənimsəyir. Bu nöqteyi-nəzərdən, hər bir ayrı gənc konkret olaraq, hansı sosial birlik şəraitində sosiallaşması ilə siyasi mədəniyyətin daşıyıcısına çevrilir. Bu kon-

tekstdə siyasi mədəniyyət sosial-mədəni sistemin ayrılmaz hissəsini təşkil edir [1, 321]. Əslində bu, «sosiallaşma» anlayışının etimoloji mənasından irəli gələn bir məsələdir. Sosiallaşmanın əsasında – bir toplum, cəmiyyət durur. Cəmiyyətin əsasını insanların biri-biriləri ilə qarşılıqlı münasibətləri təşkil edir. Bu eyni zamanda, sosiallaşmanın fərdlərin münasibət və davranışları üzərində formalaşıb inkişaf etməsini deməyə əsas verir. Ona görə də, təbii olaraq, siyasi sosiallaşma da sosiallaşma prosesinin tərkib hissəsi olaraq cəmiyyətin siyasi münasibətlər sferasının tənzimlənməsi ilə məşğul olur. Siyasi tədqiqatçı K.Hacıyev siyasi sosiallaşmanı dar və geniş anlamda təhlil edir. Dar mənada bu siyasi dəyər, inam və vərdişlərin şüurlu və məqsədyönlü şəkildə yeridilməsidir. Bu vəzifəni əsasən, rəsmi və qeyri rəsmi müəssisələr, institutlar, təşkilatlar yerinə yetirirlər. Onların məqsədi insanlar tərəfindən hakim sosial qaydaların və onun dəyərlərinin qəbul edilməsi, dünyanın ümumi xəritəsinə, onun iqtisadi, siyasi və hərbi tələblərinə uyğunlaşması, sosial qaydaların qəbul edilməməsi üçün münasib şərait yaratmaqdan ibarətdir. Məktəblər və digər tədris müəssisələri hakim sosial, iqtisadi və siyasi qüvvələrin agenti (subyekti) kimi mövcuddur. Onlar istehsal və istehlak, bunların nəsildən-nəslə ötürülməsi daxil olmaqla sosial münasibətlərin yenidən yaradılması və güclənməsi funksiyasını yerinə yetirməklə, cəmiyyətin institut və sosial münasibətlərini əks etdirir. Geniş mənada siyasi sosiallaşma yalnız siyasi deyil, siyasi davranış və qaydalarda özünü göstərən qeyri siyasi tədris daxil olmaqla həyat tərzinin bütün mərhələlərini əhatə edir [1, 320]. Politoloq və sosioloqlar etiraf edirlər ki, şəxsiyyətin sosiallaşması mexanizmində sistem yaradan amillər – dövlət quruluşunun xarakteri və tipi, siyasi institutlar, partiyalar, təşkilatlar, hərəkatlar əhəmiyyətli yer tuturlar.

Şəxsiyyətin siyasi sosiallaşma prosesi yalnız onun yetkinliyi ilə deyil, daha çox sosial-psixoloji mühitlə bağlıdır. Politoloqlar belə hesab edirdilər ki, ailə, yaşıdlar qrupu, məktəb, iş, dini ənənə, mədəniyyət, kütləvi informasiya vasitələri kimi qeyri-siyasi faktorlar sosiallaşma prosesinin mühüm mexanizmləridir. Siyasi şüurun təkrar istehsalı və inkişafı insanlar tərəfindən siyasi sosiallaşma prosesinə də dilin, dəyərlərin, normaların və davranış nümunələrinin mənimsəməsi yolu ilə baş verir. Sosiallaşma gedişində insanın elə sosial keyfiyyətləri, xassələri, bilikləri və bacarığı formalaşır ki, o, onların fəal iştirakçısına çevrilir. Başqa sözlə deyilsə, siyasi sosiallaşma fərdin siyasətin subyekti kimi qərarlaşması, onun mövcud siyasi sistemə uyğunlaşmasına və burada müəyyən funksiyalar yerinə yetirməsinə imkan verən keyfiyyətlərin və xassələrin formalaşması prosesidir. Siyasi sosiallaşma fərdin siyasi mədəniyyətə qovuşmasının bütün formalarını əhatə edir. Onun fərd üçün başlıca mənası siyasi həyatda düzgün səmtləşməyi və burada müəyyən hakimiyyət ilə bağlı funksiyalar yerinə yetirməyə öyrətməsindədir.

Siyasi sosiallaşmanın mərkəzi məqamı hakimiyyət və hakimiyyət münasibətləri haqqında adekvat təsəvvürlərin formalaşdırılmasıdır. Psixoloji baxımdan yanaşsaq, deməliyik ki, hakimiyyət anlayışının nə olduğunu ailədə valideynlərin münasibətlərinin timsalında dərk etmək olar. Ailədə rol bölgüsü – atanın ailə başçısı olması, onun ailədə icra etdiyi atalıq funksiyaları uşaqlara ilk hakimiyyət təsəvvürünü formalaşdırır. Siyasi sosiallaşmanın əsasında «şəxsiyyət və hakimiyyət» münasibətləri mühüm əhəmiyyət kəsb edir. Siyasi sosiallaşmanın birinci versiyası «tabeçilik» modelindən irəli gəlir. Bu istiqamətə daha çox Z.Meriam, Q.Lassuel kimi bixevioristlər, həmçinin D.İston, C.Dennis, Q.Almond, C.Verba, K.Doyc kimi sistemli yanaşma tərəfdarları üstünlük verirlər. Onlar siyasi sosiallaşmaya, siyasi sistemin fərdlərə onlarda sistemə qarşı müsbət yönümlər yaratmaq yolu ilə təsir et-

məsi prosesi kimi yanaşırdılar. Məlum yanaşmada şəxsiyyət siyasi sistemin elementi kimi siyasətin məqsədi deyil, sistem tarazlığın saxlanılması vasitəsi kimi çıxış edir. Şəxsiyyətə siyasi sistemin təsirinin passiv obyekti kimi, məzmununun hakimiyyət strukturlarının göstərişlərilə tamamlanan tam kimi baxılır. Bu yanaşmada siyasi sosiallaşmanın modeli həddən artıq sadədir və həyatının müxtəlif dövrlərində siyasi sistemin təqdim etdiyi siyasi davranışın dəyər və standartlarının fərdlər tərəfindən könüllü olaraq qəbul edilməsi prosesi kimi görünür. Sosiallaşmanın ikinci versiyası münaqişə (Veber, Q. Moska, F.Parkin, U.Qud, P.Blau), plüralizm (R.Dal, V.Hart) və hegemonluq (R.Milibend, R.Dauson, K.Previtt) nəzəriyyələri çərçivəsində işlənilmişdir. Bu yanaşmada siyasi sosiallaşma hakimiyyət və fərdin qarşılıqlı təsir terminləri ilə ifadə olunur. Burada fərdlər siyasi sistemin təsir etdiyi passiv obyekt deyil. Hakimiyyətlə qarşılıqlı təsirdə fərdin aktivliyi onun maraqları ilə, özünütəkmilləşdirməyə cəhdlə dərk edilmiş, fəaliyyət bacarığı ilə şərtlənir [4, 243]. Tədqiqatçıların əksəriyyəti siyasi sosiallaşmanı ikitərəfli proses kimi dəyərləndirirlər. Siyasi sosiallaşmanın əsas nüvəsini təşkil edən insan bir tərəfdən siyasi subyektlərin özünün də təsirini hiss edir, digər tərəfdən özü cəmiyyətin siyasi həyatına müdaxilə etmək imkanına malik olur. Yəni, həm təsirə məruz qalır, həm də təsir başqa cür desək, burada təsir və əks təsir prosesi baş verir. Şəxsiyyət bu prosesdə həm sosiallaşmanın obyekti, (təsir edilən) həm də subyekti (təsir edən) ola bilir. Bunlar həm də onu deməyə əsas verir ki, siyasi sosiallaşma prosesində sosial amillərin, xüsusən də mədəniyyətin güclü təsirə malik olduğunu qeyd etməklə yanaşı, bunu həm də çox şişirtmək olmaz. Çünki, bu proses zamanı insan yalnız siyasi mühitə uyğunlaşıb, siyasi davranış və siyasi fəaliyyət standartlarını mənimsəmələr, eyni zamanda, miras aldıqları təcrübəni ötürməklə, qorumaqla öyrənir, ətraf aləmi yenidən qururlar.



Müqayisə nəticəsində belə məlum olur ki, digər cəmiyyətlərdən fərqli olaraq, demokratik cəmiyyətlərdə siyasi sosiallaşma prosesinə daha çox əhəmiyyət verirlər. Təhlillər bunun səbəbini 2 cür qruplaşdırmağa imkan verir:

1. Varislik və yaxud ötürülmə prosesinin yaxşı təmin edilməsi. Bir sıra tədqiqatçılar qeyd edirlər ki, normal siyasi sosiallaşma prosesində cəmiyyətdə siyasi qayda və digər yönümlərinin nəsildən-nəslə ötürülməsinin varisliyi təmin edilir. Amerika politoloqları bu prosesi «mədəni transmissiya» adlandırırlar.

2. İnsanların ictimai-siyasi həyata maneəsiz şəkildə daxil olmalarının təmin edilməsi. Tədqiqatçılar eyni zamanda qeyd edirlər ki, normal siyasi sosiallaşma prosesində vətəndaşların hüquq və öhdəliklərinin reallaşmasına hazırlıq həyata keçirilir ki, bu da onların ictimai-siyasi həyata rahat daxil olmalarını təmin edir. Siyasi sosiallaşma prosesində onun həyata keçirilməsi vasitələri, mexanizm və səviyyələri mühüm əhəmiyyət kəsb edir. Siyasi sosiallaşmanın səviyyəsi onun fərdlərə təsir səviyyəsi ilə müəyyən edilir. Məsələn, siyasi sosiallaşmanın ən geniş səviyyəsi beynəlxalq birlik və təşkilatları əhatə edən beynəlxalq səviyyədir. Burada şəxsiyyətə beynəlxalq birliklərdə qəbul edilmiş dəyər, norma və amillər təsir göstərir. Siyasi sosiallaşmanın sosial səviyyəsi bütövlükdə cəmiyyəti və böyük sosial qrupları – sinif, sənət, milli-etnik icma və s. əhatə edir. Bu səviyyədə şəxsiyyətə dövlət, hökumət, siyasi partiyalar, sosial-iqtisadi böhranlar, işsizlik, ölkədə cinayətkarlığın səviyyəsi və s. təsir edir. Siyasi sosiallaşmanın şəxsiyyət səviyyəsi onun nisbətən aşağı səviyyəsi sayılır. Bu səviyyədə şəxsiyyətə onun siyasi psixologiya, dəyər və qaydalarına birbaşa nüfuz edən, bilavasitə əhatə dairəsini təşkil edən insanlar təsir göstərirlər. Politoloqlar belə bir elmi qənaətə gəlib ki, siyasi şüurun təsir mexanizmləri kimi insanların siyasi şəraitə uyğunlaşmasını

təmin edən və siyasi eyniliyini formalaşdıran təlqinetmə, yoluxdurma kimi vasitələri göstərmək olar [6, 404].

Bu və ya digər siyasi sistemlərdə mədəni adət və normaların ötürülmə mexanizmlərindəki fərqlər həmin sistemlərə uyğun siyasi sosiallaşma tiplərini müəyyən etməyə imkanlar yaradır. Siyasi sosiallaşmanın tiplərinə aiddir: [7, 353].

İlk növbədə qeyd etmək lazımdır ki, siyasi sosiallaşmanın tipləri qeyd etdiklərimizlə məhdudlaşmır və biz bu tiplərin sayını artıra bilərik. Lakin digər tiplər də yuxarıda qeyd etdiyimiz tiplərlə eyni mahiyyəti ifadə etdiyindən və təkrarçılıqdan uzaq olmaq naminə onları açıqlamağa lüzum görmədik. Bu tipləri ümumiləşdirərək qeyd etmək olar ki, harmonik və plüralist tip siyasi sosiallaşma, əsasən demokratik və liberal dəyərlərin hökm sürdüyü açıq cəmiyyətlərə, münaqişəli və hegemon tipli siyasi sosiallaşma isə azadlıq və demokratiya ideyalarından uzaq qapalı cəmiy-yətlər üçün xarakterikdir. Çox vaxt harmonik tipi ingilis –amerikan tipi də adlandırırlar. Bu tipi bir qədər geniş açıqlasaq qeyd etməliyik ki, ingilis-amerikan tipi homogen siyasi mədəniyyəti (yekcins) əsas götürür. Bu zaman mədəni – yekcins mühit yaradılır, yetkin demokratik ənənələr vətəndaş cəmiyyəti tərəfindən təmin olunur. Əslində mənim bu tipi bir qədər geniş açıqlamaqda məqsədim var. Əgər bir qədər diqqət etsəniz görərsiniz ki, bu tipə xas xüsusiyyətlər XXI əsrin inkişaf strategiyasına çevrilən və fövqəldövlətlər tərəfindən ifrat şəkildə təlqin edilən qloballaşmanın əsas ideya istiqamətlərini təşkil edir. Qloballaşma prosesində əsas diqqət mədəni homoqenezasiya və qlobal mədəniyyətin yaradılması üzərində cəmlənmişdir. Ona görə də, qloballaşma axınına cəlb olunan milli dövlətlər onun milli mədəniyyətlərə təzyiqlərini hiss etməkdədirlər. Qloballaşma tərəfdarları yaxşı başa düşürlər ki, milli dövlətlərə təzyiqin artırılması üçün milli mədəniyyətlərin unifikasiyası və vahid qlobal mədəniyyətə tabe etdirilməsi çox vacib və eyni zamanda çox çətin başa gələcək məsələdir. Çünki siyasi, iqtisadi və sosial sahələrdə asanlıqla baş verən qloballaşmanı mədəni sahədə həyata keçirmək elə də asan və itkisiz başa gəlməyəcəkdir. Lakin bu zaman belə bir sual yaranır: bu proses çox çətin və böyük itkilər tələb edirsə, onda qloballaşma tərəfdarları nə üçün imtina edib geri çəkilmirlər? Bu sualın cavabını əslində bu prosesin nəticəsində axtarmaq lazımdır. Belə ki, qlobalistlər və yaxud qloballaşma adı altında qərbləşmə prosesini həyata keçirən fövqəldövlətlər yaxşı bilirlər ki, mədəni sahədə həyata keçirilən qloballaşma insana, daha doğrusu, insanların şüuruna, davranışına, mənəviyyatına, bütövlükdə millətlərin mentallığına, mənliyinə və varlığına təsiri ilə seçilir. Əslində, vahid və homogen dünya mədəniyyətini milli mədəniyyətləri, milli kimliyi, milli «məni» məhv etməklə yaratmaq mümkündür. Bunu insanların şüuruna, davranışına, bütövlükdə mənəviyyat sahəsinə hakim olmaqla, daha dəqiq desək, insanların şüurunu, davranışını, mənəviyyatını idarə edilən alətə çevirib (zombi insan, kiber insan), vahid və homogen (yekcins) normalara tabe etməklə mümkündür. Öz milli varlığından, milli mədəniyyətindən, milli adət və ənənələrindən məhrum olmuş bir millətin gələcəyi çox təhlükəli görünür. Ona görə də mədəni sahənin tam qloballaşması qlobalistlərin nəinki qələbəsini və hətta rahat gələcəyini təmin edəcək bir prosesdir. Yadda saxlamaq lazımdır ki, hər hansı bir millətin iqtisadi, siyasi, sosial və digər sahələrdə itirdiyini bir neçə illər sonra bərpa etmək olar, lakin itirilən mədəni və mənəvi dəyərləri uzun onilliklər boyu geri qaytarmaq və yaxud bərpa etmək çox çətindir və bəlkə də mümkün deyildir. Bu sanki, insan orqanizmindəki bərpası mümkün olmayan sinir hüceyrələrini xatırladır. Bu təhlilin nəticəsi olaraq qeyd etmək istəyirəm ki, siyasi cəhətdən yetkin olmayan, daha doğru yetkin siyasi şüur və düşüncəyə malik olmayan bir milləti

bu cür uğursuz gələcək gözləyə bilər.

Siyasi sosiallaşmanın bu tipləri bütövlükdə şəxsiyyətin siyasətdə öz yerini müəyyən etməsinə kömək edir ki, bu da onun siyasi fəaliyyətinin istiqamətləndirilməsinə təkan verir. Bu tiplərdən hər hansı birinin üstünlüyü, əsasən, mövcud siyasi-tarixi şəraitdən, siyasi sistemdən asılı olaraq dəyişə bilər. Ümumilikdə, vətəndaşların siyasi fəaliyyətini bu tiplərdən biri ilə konkret olaraq normativləşdirmək, əslində onların siyasi sosiallaşması prosesinin məhdudlaşdırılması kimi də qəbul edilə bilər. Lakin insanın siyasi sosiallaşması onun bütün həyatı boyu davam edir, sosial, siyasi yetkinliyinin formalaşdığı dövrdən başlayaraq daim dəyişir, yenilənir və inkişaf edir. Ona görə də, bir insanda siyasi fəaliyyəti boyunca müxtəlif siyasi sosiallaşma tiplərinə xas xüsusiyyətlərin müşahidə edilməsi təbii haldır. Əsas məsələ normal siyasi sosiallaşma tiplərinin (hormonik, plüralist) fəaliyyətinə şərait yaradan siyasətin təmin edilməsidir. Buna əsasən, demokratik və liberal dəyərləri özündə əks etdirən qərb cəmiyyətlərində rast gəlmək mümkündür. Totalitar və avtoritar rejimli qapalı cəmiyyətlərdə hakim və idarə edilən, nəzarətdə olan siyasi sosiallaşma tipinin qorunmasına ciddi nəzarət edilir. (Münaqişəli və hegemon). Digər tipli yanaşmaların özünü büruzə verməsinin qarşısı zorakılıqla alınır. Qərb cəmiyyətlərində əsasən, hormonik və plüralist tiplərin hakim olmasına baxmayaraq, müəyyən siyasi-tarixi şəraitdən asılı olaraq digər tiplərə (münaqişəli və hegemon) xas bir sıra xüsusiyyətlərin özünü göstərməsi istisna edilmir. Dünya tarixi bu cür nümunələrdən məhrum deyildir.

Qərb cəmiyyətlərində həyata keçirilən siyasi sosiallaşma tiplərinin müsbət tərəflərinin qeyd edilməsi onların ideallaşdırılmasına səbəb olmamalıdır. Bu tiplər müsbət cəhətlərlə yanaşı, problemli cəhətlərdən də sığortalanmamışdır. Bu eyni zamanda, müasir dinamik dünyanın tələblərindən irəli gəlir. Qlobal dünyanın sürətli siyasi inkişafı onun vətəndaşlarının da bu sürətlə ayaqlaşmasını və daha yetkin olmasını tələb edir. Ona görə də bir siyasi davranışına qapanaraq fəaliyyət göstərmək, yeni modellər araşdırmamaq bu inkişafdan geri düşməklə nəticələnə bilər. Məhz bu tələbin nəticəsidir ki, dünya politoloqları durmadan çalışır, yeni və dəyişən sosial və siyasi reallığı əks etdirə biləcək yeni modellər verməyə çalışırlar.



Məsələn, 1986-cı ildə R.Merilman tərəfindən təqdim edilən siyasi dəyər və qaydaların mənimsənilməsi mexanizmi prinsipcə yenidir [10, 279-319].

Siyasi sosiallaşmanın məqsədi eyni zamanda, siyasi sistemin stabilliyini, tarazlığını və möhkəmliyini təmin etməkdən ibarətdir. Ümumiyyətlə, siyasi sistemdə stabillik, tarazlıq əsasən, ətraf mühitlə qarşılıqlı mübadilə vasitəsilə təmin olunur. Bu məsələyə D.İston və C.Dennisin «Siyasi dəstək» nəzəriyyəsində xüsusi diqqət yetirilir. Siyasi sistemin ətraf aləmlə qarşılıqlı fəaliyyəti giriş-çıxış mexanizmi vasitəsilə həyata keçirilir. «Giriş»də sistemə tələb və dəstəklər daxil olur, «Çıxış»da bu tələb və dəstəklər hakimiyyətin siyasi qərar və fəaliyyətində təcəssüm olunur. Siyasi məqsəd və dəyərlərin güc metodları ilə qəbul etdirilməsi mümkün deyildir. Sistemin stabilliyinin təmin edilməsi üçün yeni metod tələb olunmuşdur. Bu metod insanların könüllü olaraq, siyasi məqsədlər qəbul etməsini təmin etməlidir. Bu o zaman baş verə bilər ki, sistem insanların öz qanuniliyi və legitimliyinə olan inamını doğrulda bilər. Sistem müsbət psixoloji qaydalar yaratmaqla insanların dəstəyini qazana bilər. Bu zaman vətəndaşlar cəmiyyətdə hakim mədəniyyətlə dəyər və normalarını könüllü şəkildə qəbul edirlər. Bu prosesi bir qədər başqa cür ifadə etsək, deməliyik ki, sistem özünü qoruyub saxlamaq istəyirsə, onda mövcud nəsil gələcək kiçik nəsildə təkrarlanmalıdır. Siyasi ideologiya siyasi sosiallaşmanın

vacib elementi olub, siyasət, siyasi hakimiyyət, dövlət və s. təsisatlar haqqında ideya, anlayış və təsəvvürləri özünə daxil edir. Siyasi ideologiya siyasi sosiallaşmada ən mobil və effektiv element hesab edilir. İlk növbədə siyasi ideologiyada mövcud cəmiyyətin və bütövlükdə dövrün sosial problemləri əks olunur və özünün ideya-nəzəri əsaslarını tapır. Tarixi proses göstərir ki, burada yalnız o qüvvələr qələbə çalır ki, *onlar insanların şüuruna, siyasi* beyninə və əqlinə sahib olur, siyasi sosiallaşmasına təsir edərək əksəriyyətini öz ardınca aparır. Bu müddəa siyasi ideyaları siniflər arasındakı münasibətlərdə və ictimai sistemdə, bütövlükdə bəşəriyyətin sosial tərəqqisində çox böyük rolunu şərtləndirir.

Siyasi sosiallaşmada növbəti element kimi – siyasi psixologiya götürülür. Çox vaxt siyasi psixologiyanı emosional element kimi də adlandırırlar. Bunun səbəbi onunla əlaqədardır ki, insan siyasət sferasında yalnız təfəkkürlə, yəni rasional elementlə hərəkət edə bilməz. Ona görə də, siyasi psixologiya, yəni emosional element üzvi olaraq siyasi şüurun strukturuna daxil olur. Çox vaxt fəaliyyət və yayılma xüsusiyyətlərinə görə, siyasi ideologiyanı nəzəri, siyasi psixologiyanı adi siyasi şüurla uyğunlaşdırırlar. Çox vaxt siyasi ideologiya və siyasi psixologiyanı mərkəzi elementlər, mif və utopiyaları «əyalət» və yaxud «sərhəd» elementləri adlandırırlar. Siyasi ideologiya siyasi reallığı nəzəriyyə vasitəsilə təhlil etsə də, bütövlükdə nəzəriyyə çərçivəsinə sığmır. Çünki siyasi ideologiya cəmiyyətdə yalnız olanları deyil, həm də olmalıları təqdim edir ki, bu da onu nəzəri əsasdan məhrum edir. Həqiqətdir ki, hər bir nəzəriyyə öncəxəbərvermə gücünə malik olur və gələcəklə əlaqə qura bilir. Bu fakt əslində siyasi ideologiya ilə nəzəriyyənin uyğunsuzluğu fikrini mənasız edir. Lakin nəzərə alsaq ki, bu tezisin həyata keçirilməsi sosial reallığın inkişafının subyektiv-iradəvi amili ilə əlaqədar mövcud dəyişikliklər edilməsini tələb edir, onda siyasi ideologiya və nəzəriyyənin eynilik təşkil etməsinin mümkünsüzlüyü aydın olur. Əgər siyasi ideologiya gələcəkdə hər hansı bir sosial modelin həyata keçirilməsi haqqında danışırsa, bu və ya digər sosial layihənin realizə edilməsi daha çox bəşəriyyətin subyektiv iradəvi seçimindən asılı olur ki, bu seçimi ciddi olaraq nəzəri cəhətdən əsaslandırmaq mümkün deyildir [9, 447]

Azərbaycan vətəndaşlarının siyasi sosiallaşmasında rəsmi dövlətçilik ideologiyası olan Azərbaycançılıq ideologiyası mühüm əhəmiyyət kəsb edir. Heydər Əliyev milli həmrəyliyi milli müstəqilliyin əsas istiqamətverici şərti hesab edirdi. O, çıxışlarından birində söyləyirdi: «Biz müstəqilliyimizi yalnız milli həmrəylik əsasında qoruyub saxlaya biləcəyik. Biz Azərbaycanın xoşbəxt gələcəyini yalnız bu əsasda təmin edə biləcəyik. Məhz bu əsasda biz Azərbaycanı müharibə şəraitindən çıxara biləcəyik. Məhz bu əsasda biz Azərbaycanın ərazi bütövlüyünü təmin edə biləcəyik» (Azərbaycanın Dövlət Müstəqilliyi gününə həsr olunmuş təntənəli yığıncaqda çıxışından. 17.10.94).

Heydər Əliyev milli həmrəyliyi əsas tutaraq bütün azərbaycanlıları müstəqil Azərbaycan dövləti ətrafında birləşdirməyə səy göstərirdi. «Əgər sən azərbaycanlısansa, özünü azərbaycanlı hesab edirsənsə, deməli bilməlisən ki, harada doğulmağından, harada yaşamağından asılı olmayaraq dünya azərbaycanlılarının indi bir müstəqi dövləti var». Böyük siyasətçi bu sahədə mövcud nöqsanların olduğunu qeyd edərək yazırdı ki, düşdüyümüz mühitdə bəziləri əriyib başqalarına qarışır, öz milli mənliyini saxlaya bilmir. («Azərbaycan» qəzeti, 3 mart 1994). O, həmçinin düşmənimiz olan erməniləri təhlil edərək yazırdı ki, nə olsun ki, Azərbaycanda doğulmayıblar, Amerikada yaşayan ermənilər Ermənistanda doğulublar? Onlar Dağlıq Qarabağda doğulublar? Amma ermənilər ona görə də, Ermənistan haqqında düşünürlər». Heydər Əliyev milli məsələnin çox incə və təhlükəli olduğunu nəzərə alaraq elə bir milli dövlətçilik ideologiyası ya-

ratmağa nail oldu ki, bu ideologiya ölkənin dağılması, ərazinin etnik əlamətlərə görə parçalanması təhlükəsinin qarşısını aldı. Bu dövlətçiliklə əlaqələndirilən – Azərbaycançılıq ideologiyası idi. Bu ideologiya Azərbaycan vətəndaşlarının mənəvi birliyinin və siyasi sosiallaşmasının əsas dayağına çevrildi.

«Bu gün harada yaşamasından asılı olmayaraq Azərbaycanı özlərinin tarixi vətəni sayan bütün insanlar ölkəmizin müstəqilliyini qoruyub saxlamaq naminə dövlətçilik ideyaları ətrafında sıx birləşməli, sarsılmaz həmrəylik nümayiş etdirməlidir, vətəni, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin dönməz olması üçün səy göstərməlidir. Bütün azərbaycanlılarda, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxsə azərbaycanlılıq, vətənpərvərlik hissləri, tarixi torpağımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamaq hamımızın ümdə vəzifəsidir. Vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır» Heydər Əliyev milli inkişafımızı təmin etməklə yanaşı, onun mühüm vəzifə və istiqamətini də müəyyən etmişdir. «Azərbaycan bizim üçün nə qədər dəyərli bir ölkə olsa da, bizim nə qədər mədəniyyətimiz, musiqimiz, şairlərimiz, yazıçılarımız, rəssamlarımız və tarixi memarlıq abidələrimiz olsa da, biz özümüzü tanıda bilməmişik. O çərçivədə bunu tanıtmaq da mümkün deyildi. Digər tərəfdən də, dünyanın başqa ölkələrində, xüsusən Avropada, Amerikada, yəni dünya siyasətini tənzimləyən ölkələrdə Azərbaycanın..... qədər soydaşları, müəyyən mənsəb tutmuş, siyasi, iqtisadi imkana malik nümayəndələri olmamışdır. Ona görə də, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra bizim bütün başqa vəzifələrimizlə yanaşı, Azərbaycanı hər gün, hər ay təbliğ etmək, tanıtmaq və xarici ölkələrdə, xüsusən dünyanın böyük və inkişaf etmiş, dünya siyasətinə və iqtisadiyyatına təsir edən dövlətlərdə Azərbaycanı olduğu kimi göstərmək və respublikamızın əleyhinə olan təbliğatın qar-



şını almaq, yenə də deyirəm, başqa işlərimizlə yanaşı, bizim əsas vəzifəmizdir».

## Ədəbiyyat


Гаджиев К. Политология. Москва: Логос, 2004, с.321 70

Громов И., Мацкевич И., Семенов В. Западная социология, Москва: СПО, ООО, ДНК, 2003, с.536 78

Матвеев С., Буланенко Л., Михеев С. Политология, Учебное пособие, Харьков, 2000, с.213.95

Моль А. Социодинамика культуры, Москва: ЛКИ, 2008, с.418.97

Мухаев Р. Политология. Москва: Приор., 1998, с.263.98

Оруелл. Дж. 1984, Пермь: Капик, 1992, с.436.100

Политология. Под. ред. Лавриненко В., Москва: Юнити, 2000, с.447. 104

Политология. Учебник для вузов под ред. проф. Василина, Москва: Юрист, 1999, с.478.109

Политология. Учебник, под.ред. проф. Лавриненко В., Москва: Юнити, 2005, с. 445.

Пугачев В., Соловьев А. Введение в политологию. Москва, с.353.116

Human H. «Political socialization o studu in the psychology of political behaviour – Clecol, 1959.117

## "ƏSRİN MÜQAVİLƏSİ" MÜSTƏQİL AZƏRBAYCANDA DÖNÜŞ NÖQTƏSİ KİMİ

"Əsrin müqaviləsi" imzalanması təkcə özünün iqtisadi əhəmiyyətinə deyil, həm də siyasi mahiyyətinə görə Azərbaycan üçün bəlkə də həmin ərəfədə qazanılan dövlət müstəqilliyi qədər tarixi və önəmli bir hadisə idi. Əslində ötən əsrin 90-cı illərinin ilk yarısında baş vermiş bu mühüm hadisələri ayrılıqda təhlil etmək mümkün deyil. Onlar Azərbaycan xalqının və dövlətçiliyinin tarixində bir-birini tamamlayan və biri digərindən asılı olan məsələlərdir (1, s. 67).

Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı bu qarışıqlı mübarizədən Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsini məharətlə həyata keçirmişdir. Bu mübarizədə dövrün tələblərini və ölkənin düşdüyü ağır siyasi vəziyyəti düzgün qiymətləndirərək başlıca istifadə vasitəsi kimi yeni neft strategiyasını əsas meyar kimi seçərək «Əsrin müqaviləsi» adlanan və əsrin qlobal həyatına təsir edən layihə həyata keçirildi.

Azərbaycan bu müqavilənin bağlanması sayəsində bütün dünyanın diqqətini özünə cəlb etməklə yanaşı, eyni zamanda da qlobal məkanda özünün yerinin müəyyən edilməsinə nail ola bilmişdir. Dövlət müstəqilliyinə əsaslanan bu status əksər dövlətlərdən fərqli olaraq Azərbaycanı digər ölkələrdən təkcə asılı vəziyyətə düşməyə qoymadı, eyni zamanda həm də ölkəmizi dünya birliyinin bərabərhüquqlu üzvünə çevirdi. Bunun əsas səbəbi o illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən uğurla, cəsarətlə həyata keçirilmiş Azərbaycanın neft strategiyası nəticəsində bu gün Azərbaycan dünyada ən dinamik şəkildə inkişaf edən ölkədir».



Bu strategiyanın uğurlu icrası bu gün həm də Azərbaycan iqtisadiyyatının digər sahələrinin də inkişafına stimul vermiş və ictimai-siyasi həyatımızın bütün sahələrində canlanma yaratmışdır. Nəticədə ölkəmiz sürətlə inkişaf edir və qüdrətlənir, regionda və dünyada öz mövqelərini daha qətiyyətlə ifadə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, «bizim əsas uğurlarımızın səbəbi iqtisadi islahatlar, siyasi islahatlar, ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq, ölkə daxilində yaranmış vətəndaş birliyi, xalqla iqtidar arasında olan birlik və xarici investorların Azərbaycana çox etibarlı ölkə kimi baxmalarıdır.... növbəti beş ili əhatə edən inkişaf proqramı təsdiq edilibdir. Bu proqram çox ciddi sənəddir. Orada inkişafın əsas istiqamətləri müəyyən olunub, lazımi tədbirlərin görülməsi təmin edilibdir... Beləliklə,...beşillik proqram icrası nəticəsində Azərbaycanın qarşısında duran əsas, ciddi sosial və iqtisadi problemlər tamamilə öz həllini tapacaqdır» (3).

«Əsrin müqaviləsi» imzalandıqdan sonra Cənubi Qafqazda qismən,eləcə də bütün Xəzər regionunda geosiyasi vəziyyəti nisbətən dəyişdi. Xəzər nefti dünya bazarlarına nəqli marşrutunun seçilməsi problemi az kecmədi ki, aktuallaşdı. Belə bir fakt da sübut etməyə ehtiyac yoxdur ki, Xəzər nefti və qazının nəqlinin inhisarlaşdırılması Mərkəzi Asiya və Qafqazda bütün geosiyasi vəziyyəti nəzarətdə saxlamağa imkan verir (12, s. 162).

Belə bir şəraitdə Azərbaycan dövlətinin neft siyasətinin bütövlükdə regionun enetji siyasətinin bütün perspektivinə təsir edə biləcək başlıca strateji məsələ «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəmərinin çəkilişi məsələsi idi. Xəzər neftinin tranziti problemi Vaşinqton üçün də aparıcı problemlərdən biri oldu. ABŞ neftin gələcək böyük həcminin ixracı probleminin «çoxtərəfli həllinin» tərəfdarıdır. Nəzərə almaq lazımdır ki, neft idxal edən dövlətlər, xüsusilə də ABŞ

neftin idxalını və onun nəqli yollarının mümkün qədər daha geniş diversifikasiya etməyə çalışır ki, bununla da dünya iqtisadiyyatının Yaxın Şərqdən asılılığını maksimum aşağı salınmasına nail olur.

ABŞ hökümətinin «Bakı-Ceyhan» neft boru kəmərinin layihəsinin işlənib hazırlanmasına verdiyi əhəmiyyət həm də bununla izah edilir ki, Amerika siyasətinin regiondakı məqsədi - regionun yeni dövlətlərini dəstəkləyərək, onları Rusiya və İran nəzarətindən kənar nəqliyyat magistralı ilə təmin etməkdir. Eyni zamanda ABŞ höküməti regiondaxili əməkdaşlığı stimullaşdıracaq və bununla da enerji daşıyıcılarının dünya bazarına təhlükəsiz və stabil çıxışını təmin edə biləcək regionda müvafiq siyasi və iqtisadi şəraitin yaradılmasının əhəmiyyətini dərk edir. Bütövlükdə, Amerika Birləşmiş Ştatlarının mövqeyinin əsasında qabarıq siyasi dominantlığa meyl edən mürəkkəb geosiyasi və iqtisadi baxışlar dayanır. Bu layihə ABŞ üçün Rusiyanı Xəzərin neft imkanlarından kənarlaşdırmaq, onun nəqli üzərində öz nəzarətini qurmaq, öz təsirini daha da gücləndirərək Qafqaz regionunda geosiyasi maraqlarını təmin etmək demək idi. ABŞ Qafqaz və Mərkəzi Asiyanın yeni müstəqil ölkələrini Rusiya və İran təsirindən qurtarmaq və eyni zamanda onların Türkiyə - regionda özünün əsas müttəfiqi ilə əlaqələrini gücləndirmək qərarına gəldi. Abxaz, Çeçen və Dağlıq Qarabağ münaqişələri blokada və iqtisadi böhranlar Rusiya vasitəsilə Şimal-Cənub istiqamətində ticarəti çətinləşdirdi. Vaşinqton bu situasiyadan geosiyasi tarazlığı kökündən dəyişmək üçün istifadə etdi (4, s. 516).

Bu istiqamətdə gedən siyasi proseslərə yanaşmada Rusiyanın rəsmi mövqeyində bildirilir ki, 1994 cü ildə Bakıda imzalanan və «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac neft kəmərinin tikintisinə hazırlığın başlanılması ilə nəticələnən «Əsrin müqaviləsi» superlayihəsində Qərbin marağı ondan



ibarətdir ki, birincisi, Qərbin mövqeyi Rusiya üçün geosiyasi baxımdan həssas olan zonada iqtisadi cəhətdən möhkəmlənəcək; ikincisi, Qərb Mərkəzi Asiya və Qafqaz ölkələrinin yeni kommunikasiyası xətləri ətrafında üfüqi konsolidasiyasına dəstək olacaq və Rusiyanı əmtəə dövriyyəsi üzərində nəzarətdən məhrum edəcək; üçüncüsü, Qərb investisiyalar vasitəsilə postsovet məkanında yeni formalaşmış ölkələrin kövrək dövlətçiliyinin möhkəmləndirilməsində iştirak edəcək və dördüncüsü, Qərb tərəfindən Rusiyaya qarşılıq güclü iqtisadi və hərbi-siyasi ittifaq yaradılacaq (12, s.163).

ABŞ-ın Rusiyanı BTC - dən sıxışdırıb çıxarmasını hətta iddia edənlər də vardı. Lakin bununla belə, Rusiyanın layihədəki iştirakı «Lukoyl» şirkətinin Xəzər neftinin mənimsənilməsi və işlənilməsindəki iştirakı ilə saxlanılırdı. 1998 -ci ildə İstanbulda «Dünyanın qovşaqları» adlı konfransda tamamilə aydın oldu ki, Rusiyanın Xəzər neftini öz ərazisindən keçirmək planları iflasa məruz qalmışdır.

Qərb ardıcıl olaraq layihənin geosiyasi çəkisini artırmaqda idi. 1998 - ci ilin oktyabr ayında Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ nümayəndəsi «Bakı-Ceyhan» layihəsinə dəstək olaraq «Ankara Bəyannaməsi»ni imzaladılar və bu Bəyannamənin imzalanması ilə beynəlxalq əməkdaşlığın nümunəsi sayılan «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəməri layihəsinin reallaşması başlamışdır (2, s. 107-113).

Böyük həcmdə neft ehtiyatlarının mövcudluğu və işlənilməsi hələ uğur və çiçəklənmənin zəmanəti sayıla bilməz. Əsas məqsəd odur ki, lazımı məhsulu lazımı yerə lazımı qiymətlə və əlverişli siyasi şəraitdə çatdırılsın. Avropa və Asiyanı daha da yaxınlaşdıran boru kəmərinin təməlqoyma mərasimində 18 sentyabr 2002-ci ildə Səngəçalda Azərbaycan Prezidenti Heydər Əliyev «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərinin qlobal əhəmiyyətini xarakterizə edərək demişdir: «... bu illüziya deyil,

əfsanə deyil, üç dəniz - Xəzər, Qara və Aralıq dənizləri qovuşacaqdır. Onları isə birləşdirən Türkiyə, Gürcüstan və Azərbaycan onlar tərəfindən həyata keçirilən layihə və ABŞ - ın bu məsələdə daimi dəstəyi olmuşdur. Ona görə də xəyallar geridə qaldı, biz reallığa yaxınlaşmışıq» (1, s. 67).

ABŞ prezidenti Corc Buş özünün bu tarixi hadisə ilə bağlı Heydər Əliyevə ünvanladığı müraciətində «birgə səylərin qələbəsi»ni qeyd etmiş, BTC kəmərinin isə «Müstəqil Azərbaycanın dünya iqtisadiyyatına, inteqrasiyasının parlaq nümunəsi» kimi qiymətləndirmişdir (4, s. 66).Xarici neft şirkətlərinin əsas iqtisadi məsələlərin - gələcəkdə neft və qazın ixracının kəskin artımı məsələsinin həllinə cəlb edilməsi strategiyası bir sıra maneələrlə, xüsusilə də regionda dominantlığa can atan və dünya bazarında rəqiblərə malik olmaq istəməyən Rusiya və İran tərəfindən güclü əngəllərlə qarşılaşdı. Digər tərəfdən, Heydər Əliyevin Xəzər siyasəti Qərblə ilk növbədə Azərbaycanın İranla qarşıdurma vəziyyətində iqtisadi və siyasi dəstəyinə böyük ümid etdiyi ABŞ -la dost münasibətlərinin bərpa olunmasına gətirib çıxardı. Azərbaycanla əməkdaşlıq edən bütün ölkələrə artıq məlum oldu ki, bu strateji layihələri ardıcıl olaraq həyata keçirməklə Azərbaycan, həm də bütün Xəzəryanı qonşuları ilə dost münasibətlərinin qurulmasına çalışır (4, s. 150).

Xalqın böyük dəstəyi nəticəsində 2003-cü ilin oktyarbr ayının 15-də inamlı qələbə ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev 31 oktyabrda bu münasibətlə keçirilmiş andiçmə mərasimində xalqına və Vətəninə sədaqət göstərəcəyinə and içdi və artıq onun prezidentliyə doğru keçdiyi on il müddətində ölkə həyatında, o cümlədən respublika iqtisadiyyatının neft sektorunda əhəmiyyətli.hadisələr baş verdi. Həmin illər ərzində «Bakı-Tbilisi-Ceyhan» layihəsi üzrə də geniş işlər aparılırdı. Bu istiqamətdə görülən işlər çərçivəsində Milli Məclis 9 dekabr 2003 - cü il tarixdə



Azərbaycan, Türkiyə və Gürcüstan arasında «Şərq-Qərb» enerji dəhlizinin təhlükəsizliyinin təmin edilməsi haqqında imzalanmış üçtərəfli hökümətlərarası protokolu ratifikasiya etdi. Həmin sənəd «Bakı-Tbilisi-Ceyhan» neft kəməri tərəflərinin əməkdaşlığı mexanizmini tənzimləyir.

16 dekabr 2003 -cü il tarixdə isə Azərbaycan və Qazaxıstan arasında bu ölkənin neftinin «Bakı-Tbilisi-Ceyhan» kəmərindən nəqlinə dair əsas hüquqi aspektləri razılaşdırılmışdır. 30 yanvar 2004-cü il tarixində Londonda «Bakı-Tbilisi-Ceyhan»ın tikintisinin kreditləşdirilməsi üzrə yekun saziş hazırlayan ekspertlərin yekun görüşü olmuş və həmin görüşdə Bakıda imzalanacaq bir sıra sənədlər hazırlanmışdır.

Görülən bu işlərin məntiqi nəticəsi olaraq 3 fevral 2004-cü ildə «Gülüstan» sarayında «Bakı-Tbilisi-Ceyhan» layihəsinin maliyyələşdirilməsi ilə bağlı sənədlərin imzalanması mərasimi keçrilmişdir ki, bu da həmin layihənin gerçəkləşməsində əhəmiyyətli addım olmuşdur. Mərasimdə aşağıdaki imzalanmış dörd əsas sənəd Azərbaycanın bu prosesdəki mühüm rolunu və dünyaya inteqrasiyasının göstəricisidir. «Bakı-Tbilisi-Ceyhan» kəmər çəkən kompaniyası aksionerləri və bu kəmərin tranzit ərazisinə malik olan ölkələrin hökümətləri arasında razılıq təsdiqlənməsi»;

«Azərbaycanın təminat sazişi»,

«Kəmər çəkən «Bakı-Tbilisi-Ceyhan» kompaniyasının aksiyaçıları və BTC layihəsinin kreditorları arası saziş»,

«Layihənin bilavasitə kreditorları arasında saziş»,

Bütövlükdə, Azərbaycan, Gürcüstan və Türkiyə hökümətlərinin, həmçinin «Bakı-Tbilisi-Ceyhan»ın kreditorları qrupunun nümayəndələri tərəfindən maliyyələşdirmə paketi 78 tərəfin imzası ilə 208 maliyyə sənədini əhatə etmişdir və bu sənədlərin imzalanması tikintisinin qiyməti 2,59 mlrd. ABŞ doll. təşkil edən neft kəmərinin maliyyələşdirilməsi üzrə müqavilələrin yerinə yetirilməsində vacib mərhələnin baş-

langıcını qoymuşdur. «Bakı-Tbilisi-Ceyhan» layihəsinə xərclərin təxminən 30 faizi bu layihənin iştirakçıları tərəfindən maliyyələşdirilir, qalan 70 faizi isə üçüncü tərəfin kreditlər formasında təqdim olunmuş, layihənin maliyyələşdirilməsi maliyyə təşkilatlarının 2,6 mlrd.doll. həcmində ümumi məbləğə kreditlərin ayrılması öhdəliklərinin öz üzərlərinə götürülməsi ilə başa çatdırmışdır (13, s. 8-9).

20 sentyabr 2004-cü il tarixdə Bakıda «Əsrin müqaviləsi»nin on illiyinə həsr olunmuş təhtənəli tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin, Gürcüstanın, ABŞ-ın, Azərbaycanın neft-qaz layihələrində iştirak edən bir sıra digər xarici şirkətlərin rəsmi nümayəndələri iştirak etmişlər. Əhəmiyyətli addım həm də ondan ibarət olmuşdur ki, «Əsrin müqayiləsi»nin on illiyinin bayram edilməsi çərçivəsində «Azəri», «Çıraq», «Günəşli» yataqlarına dair «Faza-3» layihəsi sanksiyalaşdırılmışdır.

Tədbir iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ilk addımlardan başlayaraq, bu günənədək bütün mərhələlərdə, yaranan bütün çətinlikləri aradan qaldıraraq, yüksək səviyyədə prinsipiallıqla və qətiyyətli şəkildə milli maraqları müdafiə edərək aparılan işə bacarıqla rəhbərlik etdiyinə görə dərin təşəkkür və ehtiram ifadə etmişlər. Ölkə Prezidenti İlham Əliyevin bu sahədə uğurlu fəaliyyətini son vaxtlar dünyanın siyasi institutları, beynəlxalq təşkilatlar və əlaqədar qurumlar tərəfindən geniş təhlil edilir, mühüm göstəricilərin olduğu əsaslandırılır.

Aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktaybr ayında baş tutmuş, 26 may 2005-ci il tarixdə isə Heydər Əliyev adına əsas ixrac kəmərinin Azərbaycan sahəsinin istismara verilməsi münasibətilə təntənəli mərasim keçirilmişdir. Bütövlükdə isə «Bakı-Tbilisi-Ceyhan» neft kəmərinin açılışı mərasimi Azərbaycanın



Gürcüstan və Türkiyənin tarixinə mühüm iqtisadi-siyasi-əhəmiyyətli bir gün kimi daxil olan 13 iyul 2006-cı ildə baş tutmuş və BTC istifadəyə verilmişdir. Azərbaycan, Gürcüstan və Türkiyənin tarixində əhəmiyyətli iqtisadi-siyasi hadisələrindən biri olan «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəməri layihəsi həm də iştirakçı tərəflər - ölkələr, neft kampaniyaları, beynəlxalq maliyyə institutları arasında beynəlxalq əməkdaşlığı yaratmaqa imkan verdi. Bununla yanaşı, Azərbaycanda neft layihələrinin reallaşdırılması ilə əksər sosial problemlər də öz həllini tapmağa başladı. Sosial problemlərin həllinin həyata kecirilməsi davamlı xarakter almışdır.

Beləliklə "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac kəməri reallaşmaqla regiondakı inkişafa böyük təkan verdi. Prezident İlham Əliyev qeyd edirdi ki, «Bu layihənin reallaşması yeni mərhələdə inkişaf üçün böyük əhəmiyyətə malikdir. Bu, təkcə iqtisadi, texniki və siyasi layihə deyil. Həmcinin BTC regional çərçivədən çıxaraq qlobal layihə statusuna malikdir. Prezident İlham Əliyev daha sonra qeyd edirdi ki, digər ölkələr bu dəhlizdən istifadə edə bilər. Bu halda Azərbaycan öz dostları ilə neft istehsalçısı, həm də tranzit ölkəsi kimi əməkdaşlıq edəcək» (15, s. 4).

«Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərindən sonra Samsun -Ceyhan neft kəməri və «Bakı-Tbilisi-Ərzurum» qaz kəmərinin istismara verilməsi haqqında irəli sürülən konsepsiya, həmçinin Transxəzər qaz kəməri layihəsi üzərində gedən gərgin iş öz başlanğıcını məhz «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərindən götürdü. Bu dünyaya inteqrasiyada çox mühüm amil idi. Xüsusilə ölkələrin diqqətinin Şərq-Qərb enerji dəhlizinə, əsasən də NABUCCO qaz kəmərinin istismara verilməsinə yönəldilməsi regionun iqtisadi inkişafına, həmçinin sülh və sabitliyin möhkəmləndirilməsinə töhfə olduğu bu prosesin davamı kimi günümüzün mühüm hadisələrindəndir. Bunların həyata keçirilməsi və reallaşdı-

rılınası «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərinin əhəmiyyətini iqtisadi müstəvidən kənara çıxmışdır. Bu prosesi təhlil edərək o zamankı Türkiyə prezidenti Ə.N.Sezər bildirmişdir: «Ümüd edirəm ki, "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac kəmərinə neft kəmərinin tikintisi zamanı şahid olduğumuz əməkdaşlıq ruhu sonralar da saxlanılacaq və yeni layihələrin reallaşdırılmasına yardım edəcək» (16, s. 11).

Maraqlıdır ki, «Bakı-Tbilisi-Ceyhan» neft kəmərinin əhəmiyyətini qiymətləndirən İsrail dövləti də o zaman kəmərin öz ərazisindən çəkilişini təklif etmişdir. Belə ki, 2006-cı ilin iyununda özünün Bakıya səfəri gedişində bu ölkənin infrastruktur naziri Benjamin Ben Elizer qeyd etmişdir ki, «İsrail Ceyhandan 60 km məsafədə yerləşir ki, bu da Xəzər neftinin Yaxın Şərqə İsrail boru kəmərləri vasitəsilə çatdırılmasını mümkün edir. O, ümidvar olduğunu bildirmişdir ki, gələcəkdə neftin Qırmızı dənizə ixracı da mümkün olacaqdır. İsrail həmçinin Azərbaycan neftinin emalında da maraqlıdır» (17, s. 14).

Digər maraqlı məqam kimi ekspertlər üçün də gözlənilməz hadisələrdən biri İranın Energetika nazirliyinin Xəzər və MDB məsələləri üzrə idarəsinin rəhbəri Mahmud Xaqaninin ölkəsinin «Bakı-Tbilisi-Ceyhan» layihəsində iştirak etməklə bağlı marağını bildirməsi olmuşdur. Əvvəllər layihənin tikintisi əleyhinə çıxış edən ölkələrin bu vacib strateji xəttdən kənarda qalmaq istəməməsi «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərinin effektivliyini bir daha sübut edir (17, s.15). Azərbaycan neftinin ixracında təhlükəsizliyin xüsusi əhəmiyyətini qiymətləndirərək bu əsasda Prezident İlham Əliyev 26 oktyabr 2007-ci il tarixdə xüsusi Sərəncam imzaladı və bu sahədəki işləri rəsmi şəxslərə tapşırdı. Almaniyanın Silahlı Qüvvələrinin idarəedici tərkibi Akademiyası nəzdindəki beynəlxalq təhlükəsizlik formunun üzvü professor Yoxanes Ran Bakıda «Azər-baycan 2008; modernləşmə yolları» mövzusundakı konfransda öz çıxışında qeyd etmiş-



dir ki, "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac kəməri «neftdən çox siyasət və strategiya ilə doldurulmuşdur. Bundan başqa, Çin də Qazaxıstan nefti ilə çox maraqlanır, belə ki, Çinin öz ehtiyatları indiki gedişlə 9-10 ildən sonra tükənəcəkdir» (18).

ARDNŞ nümayəndələrinin Azərbaycanın özünün kifayət qədər neft ehtiyatının olması və «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərinm doldurulması ilə bağlı problemin olmayacağı haqqında bəyanatlarına baxmayaraq, kəmərin Aktauya qədər uzadılacaqını nəzərə alaraq Qazaxıstanın da layihəyə qoşulması faydalı hesab olunurdu. Hətta özünün Astanaya səfərində ABŞ-ın sabiq dövlət katibi M.Olbrayt layihənin Aktau - Ceyhan adlandırılacağını əminliklə bildirmişdir. Astanada Azərbaycan, Gürcüstan və Türkiyə arasında hökümətlərarası və tranzit ölkələri və «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərində iştirak edən şirkətlər arasında imzalanmış razılaşmaların təqdimatı, baş tutmuşdur ki, bu tədbirin də əlaqələndiricisi qismində ABŞ prezidenti və dövlət katibinin Xəzərin enerji resursları məsələləri üzrə rəsmi nümayəndəsi E. Couns çıxış etmişdir (4, s. 233).

Belə vəziyyətdə Qazaxıstan Prezidenti N.Nazarbayev «Qazaxıstan neftinin yaxın gələcəkdə Aktau-Ceyhan marşurutu ilə nəqlində vacib fıqurlardan birinə çevrilməyə bilməz» fikrini bu prosesdəki zərurəti nəzərə alaraq söyləmişdir. Qazaxıstan rəsmiləri belə bir fikri əsaslandırırdılar ki, bu ölkə Moskva və Vaşinqtonun maraqlarını bacarıqla balanslaşdıraraq kifayət qədər dividend əldə edə bilər. Eyni zamanda N.Nazarbayev Rusiya qarşısında həm də Tengizdən Novorossiyskə gedən «Atıran-Samara Xəzər» boru kəməri konsorsiumunu Qazaxıstan nefti ilə təmin etmək öhdəliklərinə malikdir (4, s. 124).

Nəhayət, 16 iyun 2006-cı il tarixində əsas hadisə baş verdi. «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərinə daim maraq ifadə edən Qazaxıstan rəsmi şəkildə layihədəki iştirakını

təsdiqlədi. «Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə «Bakı-Tbilisi-Ceyhan» sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında» müqavilənin imzalanması mərasimi oldu. Müqaviləni Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev imzaladılar. «İmzalanmış müqavilə müttəfiqlik nümunəsi olan ölkələrimiz və xalqlarımız arasında bərqərar olan yüksək səviyyəli münasibətlərin növbəti sübutu oldu. Bu razılaşma regionun yaxın gələcəkdəki inkişafını əvvəlcədən təyin edir. Qazaxıstanın qoşulduğu boru kəmərinə qiymət vermək çətindir, indi o, regionun ən nəhəng neft daşıyan arteriyası olacaqdır» - deyə Nursultan Nazarbayev brifinqdə qeyd etmişdir (17, s. 15).

"Bakı-Tbilisi-Ceyhan" əsas ixrac kəmərinin işə salmması ilə Rusiya faktiki olaraq Cənubi Qafqazda təsirini itirir, Transxəzər kəmərinin reallaşması isə Rusiyanın təsiri dairəsinə Mərkəzi Asiyanı çıxarır. Bu strateji əhəmiyyətli regionlardan ABŞ-ın səylərinə qarşı çıxmaq cəhdi Rusiyanı əvvəl «Bakı-Tbilisi-Ceyhan»a əks olaraq «Novorossiysk-Burqas-Aleksandropulos» layihəsinə, daha sonra Xəzərlə bağlı layihələrin həyata keçirilməsinə gətirib çıxardı. Ekspertlərin fikrincə, «Novorossiysk-Burqas-Aleksandropulos» layihəsinin başlıca üstünlüyü ondan ibarətdir ki, burada xammalın Bolqariya və Yunanıstan vasitəsilə Bosfor və Dardanell boğazlarından yan keçərək çatdırılması mümkün olar. Beləliklə də əsas maraq Rusiyanın Aralıq dənizi regionunda möhkəmlənməsindən və dünya bazarlarına çıxışın optimallaşdırılmasından gedirdi. Lakin Rusiya rəhbərliyinin dövlətin daxili və xarici siyasətini yenidən qurmaq niyyətləri olduğunu nəzərə alaraq ekspertlər, həm də energetika sahəsində də olmaqla xarici iqtisadi prioritetləri dəyişməsi mümkünlüyü



barədə fikirlər söyləyirdi. Digər tərəfdən, Rusiya rəhbərliyi dövlət və korporativ siyasətin tətbiq olunmasında maraqlı idi. Xəzər regionunda Rusiyanın böyük enerji kompaniyaları işləyir. Nə vaxtadək Rusiya höküməti kompanyaların bu və ya digər yataqların işlənilməsi ilə məşğul olub-olmaması barədə qərarların qəbul edilməsi hüququnu öz əlində saxlayır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, «Rusiya kompaniyalarının Xəzər layihələrində iştirak etməsi problematik olacaqdır» (4, s. 112).

Demək olar ki, «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəməri Ümummilli lider Heydər Əliyevin strategiyasının həyata keçirilməsi yolunda, habelə Azərbaycanın Qafqazın və Xəzər regionunun geosiyasətində vacib rol oynamasına imkan verən siyasi addımdır və ifadə etmək olar ki, bu konsepsiya respublikamızı təbii karbohidrogenlərin istifadəsi, mənimsənilməsi neftin və qazın dünya bazarlarına ixrac edilməsi üzrə beynəlxalq mərkəzə çevrilmişdir. Beləliklə də Azərbaycan ABŞ-ın, Avropa və Asiya ölkələrinin strateji maraqlarının cazibə mərkəzinə çevrilmiş, özü də təkcə neft və qaz ehtiyatlarına görə deyil, həm də Avrasiya nəqliyyat dəhlizinin Qara dəniz-Xəzər hövzəsində mövcud geosiyasi vəziyyətinə görə də...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci ilin 7 fevral tarixində «Bakı-Tbilisi-Qars» dəmir yolunun tikintisi layihəsinin reallaşması ilə bağlı sazişlər paketinin imzalanması mərasimindəki çıxışında əsaslandırılan faktlar göstərir ki, Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı layihələr regonda təhlükəsizliyin və sabitliyin möhkəmlənməsinə gətirib çıxaracaq. Bu layihələrin («Bakı-Tbilisi-Ceyhan», «Bakı-Tbilisi-Ərzurum» və «Bakı-Tbilisi-Qars») kimi layihələr regional təhlükəsizliyin möhkəmləndirilməsi işində də rolu olduqca böyükdür. Həmin çıxışda Azərbaycan Prezidenti vurğulamışdır ki, BTC və BTƏ layihələri üzrə qərarlar mürəkkəb geosiyasi şəraitdə qəbul olunmuş və həyata

keçirilmişdir. Lakin yeni müstəqil dövlətlər kimi Azərbaycan və Gürcüstan qəti siyasi iradə göstərmiş və onların suverenliyinin möhkəmlənməsinə yönələn layihələri həyata keçirmişdir (18).

Əvvəldən Azərbaycan əsasən Əsas İxrac Boru kəməri konsepsiyasından ciddi şəkildə çıxış edirdi və bu konsepsiya bir neçə bəndi özünə daxil edirdi ki, onlardan da ən əsası və mühüm olanı Qafqaz iqtisadi məkanının formalaşması çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli şansını artırırdı. Bununla bağlı Azərbaycanın bölgədəki siyasətini səciyyələndirərək dövlət başçısı bildirirdi ki, «bizim düşünülmüş və milli maraqlar əsasında qurulmuş siyasətimiz Azərbaycanı növbəti illərdə də böyük uğurlara gətirib çıxaracaq, Azərbaycanın bölgədəki mövqelərini daha da möhkəmləndirəcək, bizim təsir imkanlarımız daha da artacaq. Azərbaycan öz hesabına yaşayır, daxili imkanlarına güvənir, Azərbaycan xalqının istedadına iqtisadiyyatının gücünə, öz siyasi gücünə arxalanır, bölgədə əldə edilmiş mövqelərə və müstəqil siyasətə arxalanır. "Bu yol uğurlu yoldur" fikrini son illərdə gedən uğurlu siyasətin nəticəsinə istinadən göstərirdi. Əlbəttə, araşdırmalar göstərir ki, Azərbaycanın sosial-siyasi həyatında aparılan hər bir islahat cəmiyyətimizin yeniləşməsinə və vətəndaş cəmiyyətinin inkişafına yönələn islahatların həyata keçirilməsinə xidmət etmişdir. Müasir dünyanın geosiyasi vəziyyətində isə güclü iqtisadiyyatın olması əslində həm daxili, həm də xarici siyasətin müəyyənləşdirdiyi ən başlıca faktora çevrilmişdir. Azərbaycan bu mühüm prioritet vəzifəni beynəlxalq əməkdaşlıq fonunda düşünülmüş halda qurdu ki, bu strategiyanın reallaşmasında BTC-əsas ixrac kəməri avanqard rolunu oynamışdır. Bu kəmər artıq dostluq, qarşılıqlı faydalı əməkdaşlıq körpüsü yaratmaqla, həm də qüdrətli iqtisadi konsepsiyadır.

Bütün bunlara əsaslanaraq Azərbaycan Prezidenti İlham Əliyev onu da göstərmişdir ki, «bizim əsas uğurları-



mızın səbəbi iqtisadi islahatlar, siyasi islahatlar, ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq, ölkə daxilində yaranmış vətəndaş birliyi, xalqla iqtidar arasında olan birlik və xarici invenstorların Azərbaycana çox etibarlı ölkə kimi baxmalarıdır» qənaətinə gəlmişdir. Ona görə də inkişaf strategiyası çərçivəsində neft və enerji siyasəti ölkənin xarici əlaqələrini və beynəlxalq nüfuzunu az vaxtda xeyli gücləndirmişdir. Azərbaycan üçün böyük tarixi əhəmiyyətə malik olan «Əsrin müqaviləsi»nin uğurlu həyata keçirilməsi ötən illər ərzində dünyanın ən nüfuzlu şirkətləri ilə əlavə olaraq 26 yeni neft müqavilələrinin imzalanmasına imkan vermişdir. Bu neft müqavilələrinin imzalanması və uğurla həyata keçirilməsi ilk sosial pespektivləri haqqında nikbin əhval-ruhiyyə yaratmış, mövcud iqtisadi, siyasi, sosial və mənəvi problemlərin həllinə dəstək olmuşdur.

Respublika Prezidenti İlham Əliyevin yeritdiyi uğurlu enerji siyasəti nəticəsində, xüsusilə, sosial vəziyyəti çətin olan və bazar iqtisadiyyatına çətin uyğunlaşan qaçqın və köçkünlərin, təqaüdçülərin, elm, təhsil, mədəniyyət və səhiyyə işçilərinin problemlərinin həlli üçün ölkəmiz etibarlı maliyyə təminatı almışdır. «Əsrin müqaviləsi»nin 5 illiyi tədbirlərində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: «1 sentyabr 1999-cu ilədək təkcə bonuslar, vergi və digər ödənişlər şəklində neft müqavilələrindən Azərbaycana 3 mlrd. 400 mln. manat vəsait daxil olmuşdur. Müqayisə üçün deyək ki, həmin ildə ölkənin illik büdcəsi 3 mlrd 900 mln manata bərabər idi» (6). Hazırda isə Azərbaycanın dövlət büdcəsi bundan 6 dəfə çoxdur. Neft müqavilələri bağlandıqdan sonra dünya siyasətçilərinin transmilli korporasiyaların, iş adamlarının, beynəlxalq təşkilatların, politoloqların nəzər diqqəti daha çox Bakıya yönəlmişdir. Dünya enerji siyasətində və beynəlxalq münasibətlər sistemində Azərbaycanla bağlı

yeni prioritetlər, dövlətarası və beynəlxalq əlaqələrdə yeni istiqamətlər yaradılmışdır. Yalnız neft strategiyasının ilk uğurlarından sonra Xəzər dənizi və Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yaranmışdı, eyni zamanda ölkənin tranzit potensialı bir neçə dəfə artırmışdır. Azərbaycanda hasil edilən neftin əsas hissəsi Ulu Öndərimizin adını daşıyan Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac olunur. 2014-cü il sentyabrın 1-dək dünya bazarlarına 357 milyon ton neft, o cümlədən Bakı-Tbilisi-Ceyhan kəməri ilə 255 milyon ton, Bakı-Supsa kəməri ilə 69 milyon ton, Bakı-Novorossiysk kəməri ilə 11,3 milyon ton və dəmir yolu ilə 20,4 milyon ton neft ixrac edilib. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi ilə Azərbaycan, Gürcüstan, Türkiyə ilə Mərkəzi Asiya regionu arasında idxal-ixrac münasibətlərinin və iqtisadi əlaqələrin inkişafına təkan verilmiş oldu. Odur ki, hazırda ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Türkiyə, Yaponiya, Norveç, Almaniya, Çin və digər nüfuzlu dövlətlər Azərbaycanla neft və qeyri-neft sahəsində mühüm iqtisadi layihələrdə iştirak edirlər. Həmin ölkələr son dövrlər ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində yürüdülən iqtisadi, o cümlədən enerji siyasətini yüksək qiymətləndirir, həyata keçirilən transmilli layihələrin təşəkkül tapmasına və ölkəmizin beynəlxalq aləmə inteqrasiyasında hərtərəfli dəstək vermişlər.

Hələ 1999-cu il noyabrın 18-də ATƏT-in «İstanbul Zirvə toplantısı» gedişində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl tərəfindən «Xam neftin Azərbaycan, Gürcüstan



və Türkiyə əraziləri ilə «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş» imzalayarkən yekdil qərara gəlmişlər ki, bu kəmər Mərkəzi Asiya Azərbaycan, Gürcüstan və Türkiyəni daha çox birləşdirəcək, onların dostluğunu və əməkdaşlığını daimi edəcək, dünya enerji bazarlarına sərbəst çıxışı təmin edəcəkdir.

Azərbaycan Respublikası ilə bərabər Xəzər regionunda dünya dövlətlərinin həyata keçirdiyi bu cür qlobal enerji layihələri Prezident Heydər Əliyevin uzaqgörən yeni neft strategiyasını həyata keçirməsi və bir çox Qərb dövlətləri, xüsusən də ABŞ-ın bu strategiyanı yaxından dəstəkləməsi nəticəsində mümkün olmuşdur. BTC əsas ixrac kəmərinin çətin sınaqlardan keçməsi məlum faktdır. Onun ətrafında çoxlu müzakirələr, pessimist proqnozlar, əhval-ruhiyyələr olmuşdur. Hətta onun gerçəkləşməsi möcüzə kimi görünürdü. Beləliklə də, bütün çətinliklərə, maneələrə baxmayaraq, Azərbaycana bu layihənin həyata keçirilməsinə nail oldu. Süni surətdə layihənin iqtisadi qeyri-səmərəliliyi barədə şayiələr yayılırdı, digər ölkələr bu kəmərlə neft nəql etməsələr onun iqtisadi cəhətdən qeyri-rentabelli olacağı barədə provokasiya xarakterli fikirlər söylənilirdi. Lakin bir tarixi həqiqət vardır ki, «Bakı-Tbilisi-Ceyhan» neft kəməri istisna olaraq Azərbaycan neftinin dünya bazarlarına çıxarılması və burada milli maraqlarımızın təmin olunması üçün tikilibdir.

«Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərinin həm siyasi, həm iqtisadi və digər sahələrə təsir imkanlarını təhlil edərkən əsas üstünlüklərinin aşağıdakılardan ibarət olduğunu əminliklə demək mümkündür.Siyasi müstəvidə:

Azərbaycanın dünyaya inteqrasiyasını dərinləşdirir, regional inteqrasiyanı gücləndirir, bu prosesə Mərkəzi Asiya dövlətlərini, xüsusilə Qazaxıstanı da cəlb edir;

Regional təhlükəsizliyi gücləndirir, regiondakı etnik münaqişələrin həllinə şərait yaradır, cəlb olunmuş xarici inves-

tisiyalar Cənubi Qafqazın təhlükəsizliyi məsələsini Avropanın, Qərbin təhlükəsizliyi müstəvisinə daşıyır;
Layihə Avropanın enerji təhlükəsizliyində Xəzər regionunun əhəmiyyətini artırır, eyni zamanda Xəzər regionunda Azərbaycanın mövqelərini möhkəmləndirir və onu aparıcı bir dövlətə çevirir. Qeyd edək ki, ölkəmizin geosiyasi mövqeyi bu məsələdə böyük rol oynayır;

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üçün faydalı ola biləcək əməkdaşlıq formatı yaranır (Qərb-Cənubi Qafqaz-Mərkəzi Asiya). Qərbin bu məsələdə öz maraqlarından çıxış edərək Azərbaycanın mövqelərini dəstəkləməsi ölkəmizin regionda nüfuzunu artırır. Qərb tədqiqatçıları da dəfələrlə belə qənaətdə olduqlarını ortaya qoymuşlar ki, BTC-nin təhlükəsiz fəaliyyəti və əməkdaşlığın inkişafı ücün Xəzərin hüquqi məsələləri öz həllini tapmalıdır və buna hamımız səy göstərməliyik.

Analitiklər BTC kəmərinin siyasi əhəmiyyətinə aşağıdakıları da aid edirlər:

- Region ölkələrinin Avropaya inteqrasiyasını dərinləşdirir, regiondaxili inteqrasiyanı sürətləndirir, bu prosesə Mərkəzi Asiya dövlətlərini, xüsusilə də Qazaxıstanı cəlb edir;
- Regionun təhlükəsizliyi üçün etibarlı zəmin formalaşdırır, etnik münaqişələrin həllinə şərait yaradır, cəlb olunmuş xarici investisiyalar Cənubi Qafqazın təhlükəsizliyi məsələsini Avropanın, Qərbin təhlükəsizliyi müstəvisinə çıxarır;

Avropanın enerji təhlükəsizliyində Xəzər regionunun əhəmiyyətini artırır və Xəzər regionunda Azərbaycanın mövqelərini möhkəmləndirir;

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üçün faydalı ola biləcək əməkdaşlıq formatı (Qərb-Cənubi Qafqaz-Mərkəzi Asiya) yaradır (8, s.41-43).

**İqtisadi müstəvidə:**

«Bakı-Tbilisi-Ceyhan» əsas ixrac kəmərinin ən mühüm



iqtisadi üstünlüyü Azərbaycan neftinin dünyanın ən dərin və böyük hövzəsi olan birinci dərəcəli limanına çatdırılmasıdır Ceyhan limanının okean supertankerlərinin daxil olması imkanları Azərbaycan neftinin ünvanına çatdırılması xərclərini xeyli ixtisar edir. Belə ki, Ceyhandan Rotterdamadək neftin daşınması Qara dəniz yolu ilə nəzərdə tutulan alternativ variantlarla müqayisədə iki dəfə ucuz başa gəlir; Bütövlükdə neft kəməri boyunca sosial inkişaf və ətraf mühitin mühafizəsinə investisiya qoyulur, marşrut boyunca yaşayan insanların gəlirləri çoxalır, onların işlə təminat imkanları artır, təlim və təhsil proqramlarının həyata keçirilməsi nəticəsində zəruri biliklər əldə edilir, yerli təchizatçılar və tədarükçülər üçün yeni imkanlar açılır, kiçik və orta sahibkarlığın inkişafına stimul yaranır. Qeyd edək ki, işlərin qızğın çağında bu layihə üzrə bilavasitə Azərbaycan vətəndaşları üçün tikintidə 3 minə yaxın yüksək əmək haqqı verilən iş yerləri açılmışdı (8, s. 41-43).

- Kəmər boğazlardan yan keçir;
- «Bakı-Novorossiysk» və «Bakı-Supsa» kəmərlərindən fərqli olaraq bu kəmər Qara dənizə yox, Aralıq dənizinə çıxır. Bu da neft ixracatçısına əlavə manevr imkanları verir. Həm də Qara dəniz hövzəsi ölkələrinə nisbətən Aralıq dənizi hövzəsi ölkələri daha böyük həcmdə neft almaq imkanına malikdirlər.

Qeyd edək ki, Qazaxıstanın da öz neftini dünya bazarına çıxarmaq üçün ikinci tranzit variantı kimi BTC-ni seçməsi (hərçənd ki, Qazaxıstan Çinə də neft ixrac edir) böyük perspektiv vəd edir. Belə ki, qazax neftinin çox hissəsi hazırda Rusiyaya məxsus boru kəmərləri vasitəsilə ixrac olunur, az bir hissəsi Azərbaycan ərazisindən keçməklə daşınır. 2006-cı ilin noyabrında Azərbaycanın Avropaya inteqrasiyası baxımından əlamətdar hadisə baş verdi. Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqına rəsmi səfəri za-

manı energetika sahəsində qarşılıqlı anlaşma Memorandumunu imzalandı. Həmin sənəd çərçivə formatına malik olmaqla hüquqi xarakter daşımır (iki tərəfin iradəsini ifadə edir). Memorandumun mahiyyəti ondadır ki, 2004-cü ildə Azərbaycan və Avropa İttifaqı arasında başlanmış dialoqun məntiqi nəticəsi olmuşdur. Avropa İttifaqı Orta Asiyadan qaz ixracının TransXəzər marşrutlarına, həmçinin Azərbaycan qazının Avropaya ixracına maraq göstərdi. Memorandum əsasında Avropa komissiyası razılaşmanın həyata keçirilməsinə dair keçid hesabatı hazırladıqdan sonra hüquqi sənəd nəzərdə tutulmuşdur (6, s. 41). Analoji sənəd ABŞ-la da imzalanmışdır. Həmin sənədlərin imzalanması ilə dünyanın enerji ehtiyatlarına olan zərurətin Xəzər nefti üzərində cəmləşməsi açıq-aydın özünü büruzə vermişdir. Deyilən fikir iqtisadi **əhəmiyyət** deyil, həm də siyasi əhəmiyyət kəsb etmişdir ki, bu sonrakı proseslərə-Azərbaycan-Avropa arasında bir sıra sənədlərin imzalanması və qarşılıqlı əməkdaşlığa yönələn siyasi kursu fomalaşdırmışdır.

Beləliklə, göründüyü kimi Heydər Əliyevin neft strategiyası, alternativ tranzit variantları ilə nəinki Azərbaycanın, bütövlükdə regionun gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Tədqiqatçı F.Əhmədova bu barədə yazır: «Enerji strategiyası Azərbaycanın dünya birliyinə qoşulmasında böyük maraq doğurur» (18, s. 155). Bu baxımdan xarici ekspertlərin rəyi də xüsusi maraq doğurur. Məsələn. Almaniyanın Azərbaycandakı səfiri Per Kristofer Stançinanın fikrincə, *«Bakı-Tbilisi-Ceyhan» layihəsinin reallaşması Azərbaycanın* dünya siyasətinə və iqtisadiyyatına inteqrasiyası baxımından mühüm əhəmiyyət daşıyır (8, s. 625).

Bu layihə «Şərq-Qərb» enerji dəhlizinin əsasını təşkil edir və XXI əsrdə Azərbaycanda həyata keçirilən nəhəng layihələrdən biridir. BTC layihəsi onda iştirak edən ölkələr, neft kompaniyaları, beynəlxalq maliyyə institutları arasında beynəlxalq birliyi yaratmağa imkan vermişdir. Bundan başqa neft layihələrinin reallaşması ilə Azərbaycanda sosial problemlər öz həllini tapmışdır. BTC-nin əhəmiyyəti barədə danışarkən Prezident İlham Əliyev qeyd etmişdir ki, bu layihə regiondakı inkişafa böyük impuls vermişdir. Bu layihənin başa çatması yeni inkişaf mərhələsidir. Bu, təkcə iqtisadi, texniki deyil, həm də siyasi layihədir, baxmayaraq ki, bütün bu sahələrdə onun reallaşmasında problemlər olmuşdur. İndi BTC regional çərçivədən çıxaraq qlobal layihəyə çevrilmişdir. (16, s. 9).

Bununla bağlı sabiq Gürcüstan prezidenti M. Saakaşvili qeyd etmişdir ki, «BTC neft kəməri regionun dövlətləri üçün böyük əhəmiyyət daşıyır. Bu layihə təkcə ayrı-ayrı dövlətlər arasındakı əlaqələrin inkişaf etməsinə deyil, həmçinin iri beynəlxalq təşkilatların da diqqətini bu regiona cəlb edilməsinə imkan verir» (16, s. 10).

Gürcüstandan keçəcək Bakı-Tbilisi-Ərzurum qaz kəməri də işə düşmüşdür ki, bu da bizim üçün daha da əhəmiyyətlidir. Bu qaz xətti eyni zamanda mavi yanacaq baxımından Gürcüstanın asılılığını aradan qaldırmağa kömək edəcəkdir. Bütün bunlar, eləcədə bugünkü mərasim bizim üçün tarixi bir hadisədir. Əhəmiyyətlisi odur ki, regionumuz dünya üçün açıq və perspektivlidir. Hansı ölkədə iqtisadi rəqabət varsa orada düzgün seçim və demokratik inkişaf var. Deməк o, ölkənin müstəqilliyi güclənir. Bütün bu dəyərlər neft və qazdan qat-qat üstündür.Türkiyənin Baş naziri R.T.Ərdoğan isə BTC-ni «mühəndislik möcüzəsi» və «regionda sosial-iqtisadi situasiyaya və təhlükəsizliyə təsir edən mühüm strateji layihə»-si adlandırmışdır. (16, s.7).

Bu fonda belə inkişaf ssenarisinin regional əlaqələndiricisi rolunda çıxış edən Azərbaycanın ümumi, qlobal əhəmiyyəti getdikcə artır. Ölkə Prezidenti İlham Əliyev özünün çıxışlarından birində demişdir: Bakı-Tbilisi-Ceyhan neft

kəməri geosiyasi xarakter daşıyır və dünya proseslərinə təsir göstərəcəkdir." Həqiqətən də. bu gün çoxları Azərbaycanın xammalına ehtiyac duyur. ABŞ prezidenti Corc Buş özünün «Xəzərin nefti və qazı-2006» sərgisi iştirakçılarına göndərdiyi müraciətində, həmçinin xüsusi olaraq enerji təhlükəsizliyində Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz qaz kəmərlərinin əhəmiyyətini qeyd etmişdir. Onun məktubunda deyilir: «Biz qaz hasilatının artmasını gözləyirik və o bu gün qazın defisitliyini yaşayan mərkəzi Avropaya daşınacaq. Biz həm də Qazaxıstan neftinin «Bakı-Tbilisi-Ceyhan» neft kəməri ilə nəqlinə köməklik göstərmək istəyirik və gələcəkdə enerji təhlükəsizliyini artırmaq üçün əməkdaşlıq etməyə hazırıq» (19. s.75). Çünki bütün qurumlar hesabatlarında bu uğurlu siyasəti təlqin edirdilər.

Ölkəmizdə aparılan islahatların beynəlxalq qurumların hesabatlarında əksini tapdığını xatırladan dövlətimizin başçısı bildirmişdir ki, Dünya bankı 2008-ci ildə Azərbaycanı bir nömrəli islahatçı ölkə elan etmişdir. Bizim məqsədimiz inkişaf etmiş ölkələrin sırasına daxil olmaqdır. Buna nail olmaq üçün islahatlar davam etdirilməlidir. Neftdən əldə olunan gəlirlər təhsilə, səhiyyəyə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına sərf olunur, yeni müasir infrastruktur yaradılır. Dünyada maliyyə böhranının hökm sürməsinə baxmayaraq, bu ilin doqquz ayında Azərbaycan iqtisadiyyatı 8 faiz artmışdır. Bunlar deməyə əsas verir ki, Azərbaycan sabit, müasir, güclü iqtisadiyyata malik ölkədir.

Azərbaycanın enerji siyasətinin son dövrlərdə ən çox aktual olan aspektini ölkəmizin Avropaya inteqrasivasında strateji əhəmiyyət kəsb edən qaz siyasəti də təşkil edir. Bu siyasət sayəsində qazanılmış nailiyyətlər də göz önündədir. Qeyd etmək lazımdır ki, 2007-ci ilədək Azərbaycan öz ehtiyaclarını ödəmək üçün xaricdən qaz idxal edirdi, 2006-cı ildə Rusiyadan 4,5 milyard kubmetr qaz idxal edilmişdi. La-



kin bu əməliyyut ildən-ilə baha başa gəlirdi. Çünki öz neftqaz ehtiyatlarından və inhisarından siyasi təzyiq vasitəsi kimi istifadə edən Rusiya «etibarsız» imici qazanmışdı. Belə ki, Azərbaycan 2000-ci ildən Rusiyadan qaz alırdı. 2005-ci ildə bu qazın hər min kubmetrinin qiyməti 60 dollar idi. 2006-cı ildə bu qiymət 110 ABŞ dolları oldu. 2007-ci ildə isə «Qazprom» qiyməti 235 dollara qədər qaldırmaq istədi. Bu qiymət isə Azərbaycana sərf etmədi. Ümumiyyətlə, təhlil göstərir ki, əməkdaşlıq hər iki tərəfə lazım idi. Lakin qazın qiyməti artırılaraq 235 dollara çatdırılanda, Azərbaycan Rusiya qazından imtina etdi və məcbur oldu ki, «Bakı-Novorossiysk» kəməri ilə nəql etdiyi nefti əhəmiyyətli dərəcədə azaltsın, onu emal edərək mazut kimi, öz ehtiyacları üçün istilik elektrik stansiyalarında qaz əvəzinə işlətsin. Nəticədə, Rusiya bu prosesdən kənarda qalsa da sonra kəmərlə neft ixracı bərpa olundu.

Bütün bu göstəricilər Azərbaycanın nüfuzunun həm regionda, həm də dünyada artmasına gətirib çıxarır. Çünki təbii qaz bu gün Avropa üçün strateji əhəmiyyətə malik bir nemətdir. Hesablamalara görə 2012-ci ildən etibarən Avropa ölkələrində təbii qaza olan tələbat sürətlə artmaqdadır. Bu halda, Azərbaycan qazına olan tələbat daha da çoxalacaqdır və ölkəmiz dünyada baş verən iqtisadi-siyasi proseslərdə həlledici nüfuza malik olacaqdır (9, s. 147). Neft strategiyamızın əsas məqsədlərindən biri də məhz budur. 2007-ci ilin avqustunda işə düşmüş «Şərq-Qərb enerji dəhlizinin ikinci komponenti olan «Bakı-Tbilisi-Ərzurum» (BTƏ) qaz kəməri də bu məqsədə xidmət edir.

BTƏ həm də regionun və Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verəcək tranzit dəhlizidir. Trans Xəzər qaz kəməri və NABUCCO kimi iri layihələrə yaşıl işıq yandırır. Nabukko layihəsi Azərbaycanda hasil olunan enerji daşıyıcıların Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəq-

lini nəzərdə tutan «Cənub dəhlizi»nin əsas elementlərindən biri olmaqla, Azərbaycan qazının Qərb bazarlarına çıxarmaq imkanı verə bilən və buraya Nabukko, Türkiyə-Yunanıstan - İtaliya və Transadriatik boru kəməri layihələri daxildir (10). Bu gün Azərbaycan qazı artıq regional bazarlara - Gürcüstan və Türkiyəyə çatdırılır. Qazın müəyyən hissəsi Türkiyədən ötürücü qurğular vasitəsilə Yunanıstana və s. ölkələrə verilir. Bu o deməkdir ki, hazırda Azərbaycan qazı artıq Avropa İttifaqının bazarına nəql edilir.Bakı-Tbilisi-Ceyhan və «Bakı-Tbilisi-Ərzurum» layihələrindən danışarkən Azərbaycan Prezidenti İlham Əliyev onların nəhəng layihələr olduğunu, göstərərək qeyd etmişdir ki, «tarixi əhəmiyyət daşıyan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər neft-qaz layihələri, bizim zəngin neft-qaz yataqlarımızın işlənməsi və hasilatın artırılması. Azərbaycanın dünya miqyasında, Avropa qitəsində enerji təhlükəsizliyi baxımından mühüm ölkəyə çevrilməsi bütün bunlar reallıqlardır» (7).

Azərbaycan Qərb investorlan ilə diplomatik vasitələr və iqtisadi-partnyorluq münasibətlərinin uyğunlaşdırılmasının daha mütərəqqi sistemini seçmişdir. Rəsmi Bakı tərəfindən kiminləsə çətin münasibətlər yaratmaq, şantaj yolu ilə yaxud digər qeyri- səlist hərəkətlər etmək, məsələn, əvvəllər imzalanmış müqavilələrə yenidən baxmaq kimi hallarına yol verilməmişdir. Neft diplomatiyasında istiqamətlər müəyyən olunmasında «açıq qapılar» prinsiplərinə və balanslaşdırılmış siyasətə prioritet verilirdi. Tədqiqatçılunn da qeyd etdiyi kimi, Heydər Əliyev tərəfmdən yaxşı düşünülmüş və İlham Əliyev tərəfindən savadla və böyük bacarıqla həyata keçirilən neft strategiyası Azərbaycanda neft kontraktları birjasının yaranmasına gətirib çıxardı və bu birjada xarici kompaniyalar bir-biri ilə hər bir layihədə iştirak uğrunda olduqca sərt mübarizə aparır. Onların kəskin rəqabəti nəticəsində Azərbaycan yalnız qazanır (19, s. 81).Neft strategiyasının regionda Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm yer tutduğunu və «Bakı-Tbilisi-Ceyhan» neft kəmərinin işə salınmasından sonra ölkəmizin regionun şəriksiz liderinə çevrildiyi qənaətinə gələn tədqiqatçı E.Bağırov bu strategiyanın mövcud problemlərin həllinə, o cümlədən neft gəlirlərinin qeyri-neft sektorunun inkişafına yönəldiyini faktlarla göstərmişdir. Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft və «Bakı-Tbilisi-Ərzurum» qaz kəmərlərinin məntiqi davamı olaraq artıq «Bakı-Tbilisi-Qars» dəmir yolunun tikintisi kimi müxtəlif nəqliyyat layihələrinin, o cümlədən İranla birbaşa əlaqənin yaradılması Azərbaycanı qlobal nəqliyyat dəhlizlərinə qoşur, Cənubi-Şərqi Avropa üçün Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir ki, neft siyasətinin mühüm sahələrindən Azərbaycan Mərkəzi Asiya üçün körpüyə çevrilir (19, s.40). Onlardan ən vaciblərindən birini neft-qaz layihələrinin dəstəklənməsi və ölkənin beynəlxalq nəqliyyat kommunikasiyaların yaradılmasında iştirakı təşkil edir. Bu baxımdan Bakıda, Krovkovda (Polşa), Litva və s. keçirilən enerji sammitləri xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2014-cü ilin üçüncü rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında nitqində demişdir: "...sentyabrın 20-də "Cənub" qaz dəhlizinin təməlini qoyduq. Onun da böyük rəmzi mənası var. Biz təməlqoyma mərasimini başqa gündə də keçirə bilərdik. Sadəcə fikirləşdim ki, 20 il bundan əvvəl sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmışdır və bu, Azərbaycanın inkişafını müəyyən etmişdir. Çünki əgər o vaxt ulu öndər Heydər Əliyevin qətiyyətli yanaşması olmasaydı, o müdrik addım atılmasaydı bu gün Azərbaycan necə inkişaf edəcəkdi, - bu, böyük sualdır, - nəyin hesabına inkişaf edəcəkdi? "Əsrin kontraktı"nın imzalanması və onun uğurla icra edilməsi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmə-

rinin tikintisi tarixi nailiyyətlərdir. Bu kontrakt bizə imkan verir ki, iqtisadi və maliyyə imkanlarımızı artıraq. Çünki biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlayanda da əlbəttə, buna bir layihə kimi baxırdıq. Amma görün bu layihə nə qədər böyük dəyişikliklərə gətirib çıxarmışdır. Bizim beynəlxalq əməkdaşlığımız genişləndi, maliyyə imkanlarımız artdı. Biz xarici ölkələrə investisiya qoymağa başlamışıq. Daxildə iqtisadi və enerji təhlükəsizliyimizi tam şəkildə təmin etmişik" (11).

Azərbaycan iki qitənin Avropa və Asiyanın qovşağında yerləşir. Vaxtilə Böyük İpək Yolunun bərpası barədə razılığa gəlinməsi də bu strateji məkana söykənirdi. Ötən illərdə isə bu istiqamətdə xeyli işlər görüldü. TRASEKA proqramına əsasən hava, su, dəmiryol, avtomobil ilə yük daşınmasına başlanmışdır. Transxəzər kəmərinin Azərbaycandan keçməsi, Qazaxıstan neftinin və Türkmənistan qazının bu ərazidən ixracı ölkəmizə böyük iqtisadi faydalar gətirmiş, eyni zamanda ölkəmizin geostrateji əhəmiyyətini daha da artırmışdır. Hazırda Azərbaycanla əməkdaşlıq edən, habelə Böyük İpək Yolu marşrutundan istifadə edən dövlətlər bu gün ölkəmizdə sabitlik, sülh və təhlükəsizliyin olmasında maraqlıdırlar. Onlar Azərbaycana rəqib yox, tərəfdaş kimi baxırlar. Ölkəmizin və regionun geostrateji vəziyyətini dəqiq qiymətləndirən müdrik siyasi xadim Heydər Əliyev «İstanbul sammiti»ndə Cənubi Qafqazda sülh, Təhlükəsizlik və Əməkdaşlıq paktının yaradılması barədə çox dəyərli təklif irəli sürmüşdü: Bu gün XXI əsrdə sülhə xidmət edən ən dəyərli təkliflərdən biri kimi qiymətləndirilən bu təklif hamı tərəfindən bəyənilib, alqışlanır. Ən əsası isə Azərbaycanı təcrid olunan ölkələr sırasından çıxararaq Qafqazda sülhün dayağına, əməkdaşlıq mərkəzinə çevirmişdir. Yalnız Heydər Əliyev zəkası bu kəmərin vacibliyini hamıdan əvvəl müəyyənləşdirmiş və şübhələri tamamilə dağıtmışdır. Bax inqilabiliyin bir amili də fikrimizcə



bundadır (20).

Beləliklə, dərindən düşünülmüş neft strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında İNOQEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir. Bu gün Azərbaycanın uğurlu siyasətinin və beynəlxalq mövqeyinin əsasında duran bu strategiyaya əsaslanan vəziyyəti isə Prezident İlham Əliyev belə səciyyələndirir: «Azərbaycan enerji təhlükəsizliyi sahəsində qarşıda duran bütün vəzifələri icra edibdir. Biz enerji təhlükəsizliyi baxımından özümüzü tam arxayın hiss edirik. Azərbaycan nefti, qazı və elektrik enerjisi müxtəlif istiqamətlərdə dünya bazarlarına ixrac edilir. Siyasi cəhətdən müqavilənin əhəmiyyəti ondadır ki, o, Azərbaycanın müstəqil dövlət və etibarlı tərəfdaş olduğunu göstərməklə dünyanın aparıcı dövlət və şirkətlərini əmin oldular ki, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Təsadüfi deyil ki, bu saziş imzalandıqdan sonra xarici şirkətlərlə daha 32 müqavilə bağlandı.

**Ədəbiyyat**


1. T. Quliyev, V.Həsənov: İlham Əliyev-Zirvədən boylanan günəş. Bakı, Nurlan, 2004. 251 s.

2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2009-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında nitqi "Xalq qəzeti". 2009, 23 aprel, № 114.

3. Zeynalov Y. Azərbaycanın yeni neft strategiyasının

ölkənin iqtisadi və sosial həyatında əhəmiyyəti \\ Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. 2007, № 3 (19), s. 144-150.

4. Məmmədov R. Azərbaycanın ABŞ-la beynəlxalq münasibətlərində enerji təhlükəsizliyi məsələləri \\ Sosial-siyasi problemlər (elmi-nəzəri jurnal). Bakı, 2007. № 1 (14-15). 317 səh. s. 107-113.

5. Azərbaycanın inkişaf strategiyası xarici mətbuat səhifələrində. "Azərbaycan" qəzeti, 29 dekabr 1999-cu il. № 297.

6. Həmidov H. Azərbaycan və İpək yolu. Bakı, Təknur, 2009, 158 s.

7. Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərin icmalı (2003-2006) \ Elmi redaktor akademik R.Mehdiyev. Bakı, "Azərnəşr" nəşriyyatı, 2007. 944 s.

8. Tsalik S. Xəzərin neft gəlirləri. Bakı, 2003, 268 s.

9. Azərbaycan Prezidenti İlham Əliyevin "Bloomberq" agentliyinə müsahibəsi \\ "Xalq qəzeti". 3 fevral, 2010-cu il, № 43.

10. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2014-cü ilin üçüncü rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında nitqi "Xalq qəzeti". 2014, 9 oktyabr, № 218.

11. Джабиев Р. Социально-экономическое развитие Азербайджанской Республики за годы независимости. Баку, 2005, 294

12.Матяш В.Н.Россия и США в Каспийском регионе – ХХЖ век: проблемы и перспективы

13. Мухаев Р.Т. Политика. М.Юнити... 2007, 623

14.Новоселов С.В. Политика национальной безопасности России Каспийском регионе в 1991-2000 годах. Астрахань, 2004, 417с.

15. Кушкумбаев С. Каспии на перекрестке геополитических интересов: нефть, политика, безопасность. Астана, 2008, 211 с.



16. Rojin Y. Rusiya və Azərbaycan əməkdaşlıq və qarşılıqlı əlaqələrin perspektivləri. Azərbaycan Fokus. Bakı, Şərq-Qərb, iyul-avqust. 2009, № 11

17. Мюнклер Х. Терроризм как стратегия коммуникации. Послание 11 сентября. «İnternationale Politik», №12, декабрь 2001.

18. Чернявский А. Новый путь Азербайджана, М., Азер-Медиа, Книга и бизнес, 2002,352с. 157.Цыганов О.В. Ильхам Алиев: открытый мир - М.: издательский дом

19.http://teleqraf.com/news/22948#sthash.FZuXTEV8.dpuf

## AZƏRBAYCANDA HUMANİTAR FORUMLAR
*(tarixi-siyasi aspektdə)*

Azərbaycan Respublikası beynəlxalq münasibətlərin subyekti kimi son illərdə fəal şəkildə müxtəlif və çoxsaylı beynəlxalq tədbirlərin iştirakçısı və bir çox halda təşkilatçısı, təşəbbüskarıdı. Azərbaycan müstəqil dövlət olaraq bir çox beynəlxalq, regional təşkilatların işində yaxından iştirak etməkdədi. Bu tədbirlər ölkənin dünya miqyasında tanıdılması, onun nüfuzunun artırılması və beynəlxalq legitimliyin möhkəmləndirilməsi baxımından vacibdi. Azərbaycanın beynəlxalq əlaqələri kifayət qədər geniş və çoxaspektlidir.

Azərbaycan Respublikası müstəqil dövlət olaraq beynəlxalq münasibətlərin subyektidir. Müstəqillik ölkənin tanınması, mənafelərinin müdafiəsi, dövlətin beynəlxalq legitimliyinin möhkəmləndirilməsi üçün ən yaxşı imkanlar yaradır. İstiqlaliyyət əldə etdiyi son 23 il ərzində Azərbaycan Respublikası öz xarakter və miqyasına görə çoxsaylı lokal, regional və beynəlxalq tədbirlərə ev sahibliyi edib, onların təşkili və keçirilməsini icra edib. Şübhəsiz ki, belə tədbirlər ölkənin nüfuzunun yüksəldilməsi, strateji maraqları baxımından böyük önəm daşıyır. Qeyd edək ki, son illərdə Azərbaycan Respublikasında, ilk növbədə onun paytaxtı Bakı şəhərində beynəlxalq konfransların, forumların, simpoziumların keçirilməsi davamlı hala çevrilib. Araşdırmalar görə Azərbaycan iri beynəlxalq tədbirlərin ölkədə təşkilinə görə Asiya-Sakit Okean və Yaxın Şərq regionunun 40 ölkəsi arasında 33-cü yeri tutur. Bu barədə Beynəlxalq Konqreslər və Yığıncaqlar Assosiasiyasının (İCCA) "Beynəlxalq Assosiasiyaların Yığıncaqları Bazarı" adlı hesabatında da məlumat vardır.Hesabata görə, 2011-ci ildə Azərbycanda beynəlxalq assosiasiyaların 2 yığıncağı keçirilib.Hesabatın dünya ölkləri



üzrə sıralamasında (beynəlxalq renkinqi) isə Azərbaycana yer verilməyib. Beynəlxalq renkinqdə göstərilir ki, 2011-ci ildə 104 ölkədə 10070 beynəlxalq tədbir keçirilmişdir. Ən çox tədbir 759 olmaqla Amerika Birləşmiş Ştatlarında keçirilmişdir. Həmçinin Almaniya 577, İspaniya 463 və Böyük Britaniya 434 tədbirlə ilk sıralarda yer tutublar. Bundan başqa beynəlxalq renkinqdə Rusiyaya 40-cı, Estoniyaya 41-ci, Latviyaya 58-ci, Ukraynaya 70-ci, Qazaxıstana 91-ci və Ermənistana 98-ci yer verilib. Hesabatın beynəlxalq renkinq siyahısına il ərzində ən azı 5 beynəlxalq tədbirin keçirildiyi ölkələrin adları daxil edilib.Beynəlxalq Konqreslər və Yığıncaqlar Assosiasiyasına görə, dünyada beynəlxalq tədbirlərin ən çox keçirildiyi şəhər Viyana (181), Paris (174) və Barselonadır (150).Hesabatda qeyd olunur ki, keçirilmiş beynəlxalq tədbirlərdə 5,5 milyon nəfər iştirak etmişdir. Orta hesabla bir nümayəndənin beynəlxalq tədbirdə iştirakına təxminən 560 ABŞ dolları xərc çəkilmişdir.Qeyd edək ki, Beynəlxalq Konqreslər və Yığıncaqlar Assosiasiyasının əsası 1963-cü ildə qoyulub. Dünyanın 87 ölkəsindən 900 - dən çox şirkət və təşkilat Assosiasiyanın üzvüdür.(1)

Ölkəmizdə son illərdə keçirilən beynəlxalq tədbirlər respublikamızın nüfuzunu yüksəltməklə yanaşı, ən müxtəlif sahələrdə yeni və zəruri olan təcrübənin qazanılmasına da kömək etməkdədi. Dünyanın ən mühüm və nüfuzlu təşkilatları ilə əməkdaşlıq edən Azərbaycan Respublikasının beynəlxalq arenada fəliyyətı çoxcəhətlidi. Məsələn Azərbaycan Respublikası Avroatlantik məkanın 4 əsas təşkilatı – Avropa Birliyi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) və Avropa Şurası ilə sıx əməkdaşlıq etməkdədi. Bu qurumaların müxtəlif xarakterli tədbirləri ölkəmizdə keçirilib. Beynəlxalq xarakterli humanitar tədbirlərin mühüm bir qismi Heydər Əliyev Fondunun təşəbbüsü və iştirakı ilə icra edilib. Cari ildə Heydər

Əliyev Fondunun fəaliyyətə başlamasından 10 il keçir. On il ərzində Fond saysız-hesabsız uğurlara nail olmuş, təhsil, səhiyyə və digər humanitar sahələrdə ciddi islahatların aparılmasına töhfəsini vermişdir. Heydər Əliyev Fondu, həmçinin ölkəmizin dünyada təbliği və zəngin dəyərlərimizin tanıdılması istiqamətində yorulmaz fəaliyyət göstərmişdir. Heydər Əliyev Fondu bir çox beynəlxalq musiqi festivallarının da təşkilatçısıdır. Bu sırada Qəbələ Beynəlxalq musiqi festivalı öz möhtəşəmliyi və əhatə dairəsinin genişliyi ilə fərqlənir. "Eurovision-2011" beynəlxalq mahnı müsabiqəsində qalib gələn Azərbaycan Heydər Əliyev Fondunun xidmətləri sayəsində 2012-ci ildə 57-ci dəfə keçirilən müsabiqəni uğurla reallaşdırdı, Qərb ilə Şərqin qovuşuğunda yerləşən ölkəmiz bir daha dünyanın diqqət mərkəzinə çevrildi. Heydər Əliyev Fondunun beynəlxalq əlaqələrinin uğurlarıdır ki, akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 100 illik yubileyləri UNESCO səviyyəsində qeyd olundu. Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxtda Müasir İncəsənət Muzeyi açıldı, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi fəaliyyətə başladı. Qeyd edək ki, Fondun başlıca məqsədləri humanitar xarakterli fəaliyyətdir.

Hazırda Azərbaycan Respublikasının türkdilli ölkələrlə mədəni əlaqələrində Türksoy təşkilatı əsas rol oynamaqdadır. Türksoy təşkilatının əsası 1992-ci ilin yazında İstanbul şəhərində türkdilli dövlətlərin mədəniyyət nazirlərinin birinci görüşü zamanı qoyulmuşdur. Türksoyun idarəetmə orqanlarının strukturu və fəaliyyət mexanizmləri təşkilatın 1992-ci ilin dekabrında Bakıda keçirilən ikinci toplantısında formalaşdırılmışdır.

Bundan sonra "Türksoyun yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə" sənədi 12 iyul 1993-cü ildə Almatı şəhərində 6 təsisçi-dövlət və təşkilatın daimi üzvləri – Azərbaycan, Qazaxıstan, Türkiyə, Türkmənistan, Qırğızıstan və Özbəkistan respublikaları tərəfindən imzalanmışdır. Daha sonra bu müqaviləyə müşahidəçi dövlət qismində Tatarıstan, Başqırdıstan, Şimali Kipr türk respublikaları, həmçinin RF tərkibində olan Tuva, Xakasiya, Altay, Saxa-Yakutiya respublikaları və Moldova Respublikası tərkibində TAO Qaqauz Yeri qoşulmuşdur.

Əlbəttə, həyat inkişaf etdikcə Türksoyun da fəaliyyət istiqamətləri genişlənir və çeşidli tədbirlər keçirilir. Türkdilli ölkələr arasında elmi-mədəni əlaqələrin genişləndirilməsi fikri 2-3 oktyabr 2009-cu il tarixində Türkdilli Dövlətlərin Dövlət Başçılarının Naxçıvan şəhərində keçirilmiş 9-cu Sammitində qəbul edilmiş Bəyannamədə öz əksini tapmışdır. Qeyd edək ki, Naxçıvan şəhərində keçirilmiş türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüºü Türksoyun fəaliyyətinə böyük dəstək göstərmiº və türk dünyasının mədəniyyət sahəsindəki əməkdaşlığına yeni yollar açmışdır. Türksoy " Bakı İslam Mədəniyyətinin Paytaxtı- 2009» mədəniyyət ili çərçivəsində keçirilən tədbirlərdə də fəal iştirak etmişdir. Bu məqsədlə Türksoyun Daimi Şurasının 26-cı toplantısı 16-17 oktyabr 2009-cu ildə Bakı şəhərində keçirilmişdir. Toplantını açan Azərbaycan mədəniyyət və turizm naziri Ə. Qarayev hesabat dövründə təşkilatın fəaliyyəti haqqında məlumat verərək bildirmişdir ki, Avrasiyanın türkdilli arealı çərçivəsində milli dil, tarix, mənəvi irs, mədəniyyət və incəsənət yaxınlığı ilə birləşən ölkə və xalqların regional əməkdaşlığını həyata keçirən Türksoy bu sahədə öz fəaliyyətini daha da genişləndirmişdir. Tədbirdə çıxış edən Türksoyun baş direktoru Düsen Kaseinov bu təşkilatın türk xalqlarının daha da yaxınlaşması istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat vermişdir. Türk xalqlarının mədəni əlaqələrinin genişlənməsindən bəhs edən D.Kaseinov bildirmişdir ki, dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun "Koroğlu» operası artıq beş ölkədə böyük

uğurla nümayiş etdirilmişdir. O qeyd etmişdir ki, dünyanın ən böyük operalarından olan "Koroğlu"nun türk xalqlarının teatr səhnəsində oynanılması bu xalqların mədəni həyatında böyük hadisədir. Türksoyun beynəlxalq əməkdaşlıq sahəsindəki rolundan danışan D.Kaseinov vurğulamışdır ki, təşkilat YUNESKO, İSESKO, Avropa Şurası, Avrokomissiya, Dövlətlərarası Humanitar Əməkdaşlıq Təşkilatı (DHƏT) və MDB arasında əməkdaşlığın gücləndirilməsinə istiqamətlənmiş bir sıra tədbirlər həyata keçirmişdir.

**Bütövlükdə Azərbaycan Respublikasında beynəlxalq xarakterli humanitar tədbirlərin təşkili və keçirilməsi ənənəvi bir hal almaqdadır. Şübhəsiz ki bunun başlıca səbəblərindən biri də ölkəmizin, dövlətimizin nüfuzunun yüksəlməsi ilə bağlıdı.**

**Azərbaycan Respublikasında keçirilən ən nüfuzlu və mühüm beynəlxalq əhəmiyyət kəsb edən tədbirlərdən biri ilk dəfə 2011-ci ildən bəri ardıcıl olaraq hər il keçirilən Bakı Beynəlxalq Humanitar Forumudur.** Forumun keçirilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunda qəbul edilmişdir. **Bakı Beynəlxalq Humanitar Forum –** Bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədi ilə hər il tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı qaliblərini və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan tədbirdir. Qeyd etdiyimiz kimi, 2010-cu ilin Forumunun təşəbbüsçüləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və onun həmkarı, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev idi.Forum təşkilatçılarının və iştirakçılarının, təbii, sosial və humanitar elmlər, o cümlədən dünya mədəni elitasının



nümayəndələrinin qarşılarında qoyduqları iddialı məsələ, gələcəkdə beynəlxalq səviyyədə baxılması məqsədi ilə yeni humanitar gündəmin formalaşmasıdır. Foruma həmçinin " Dünyanın ən böyükləri" dəvət olunurlar, bunlar dövlətlərin cari və ya keçmiş rəhbərləri və transmilli korporasiyaların təsisçiləridir. İnsan fəaliyyətinin bütün sahələrində çalışan mütəxəssisləri bir araya gətirərək bəşəriyyəti narahat edən aktual məsələlərin həlli tapılır. Forumun qloballaşma dövründə humanitar problemlərə aid olan və bəşəriyyətin ürək ağrısını özündə əks etdirən mövqeləri Bakı Bəyannaməsində işıqlandırılır. Forumun məqsədi dəyirmi masalar vasitəsilə dialoqun qurulmasıdır. Bu şüuru həyəcanlandıran, çox aktual mövzular arenasında sadə insandan dövlət liderinədək hamı eyniliklə eşidə və eşidilə bilər.

Forumun vəzifəsi – ideyalar, nəzəri və praktiki bilik mübadiləsi, konstruktiv debat və müzakirələr üçün platforma formalaşdırılmasıdır. Forumun nəticəsi, beynəlxalq təşkilatlara, ölkə liderlərinə və ayrılıqda hər bir şəxsə tövsiyələr və müraciətlərdə təcəssüm olunur. Forum ənənəvi olaraq ildə bir dəfə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilir. Forumun işçi dilləri Azərbaycan, rus və ingilis dilləridir. İlk tədbir 10 oktyabr 2011-ci ildə keçirilib. Prezident İlham Əliyev Beynəlxalq Humanitar Forumun açılışında iştirak edib. İlk Beynəlxalq Humanitar Forumda dünya şöhrətli alim, akademik, "Oçevidnoye-neveroyatnoye" televerilişinin aparıcısı Sergey Kapitsa, RF rəhbərlilərindən olan Sergey Narışkin, Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlu, Rusiya Federasiyasının Mədəniyyət naziri Aleksandr Avdeyev, UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuura və digər nüfuzlu ictimai xadimlər iştirak edirdi.**Forum "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilmişdir.** 2011-ci ilin 10-11oktyabr tarixlərində keçirilən "XXI Əsr: ümid və çağırışları" adlı forum çərçivəsində

dünyanın 20 dən çox ölkəsindən qonaqlar iştirak ediblər.

Şübhəsiz ki, Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir tədbirdi. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ən uyğun ölkədi. Forumun işində 20-dən çox ölkənin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən mədəniyyət və incəsənət xadimləri, aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, ictimai xadimlər iştirak edirlər. Bu tədbirdən sonra 24.10.2011-ci il tarixində "Bakı Beynəlxalq Humanitar Forumunun nəticələri haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncam vermişdir. Sərəncamda deyilir: "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində 2011-ci il oktyabrın 10–11-də Bakı Beynəlxalq Humanitar Forumu keçirilmişdir. Forum multikulturalizmin nailiyyətləri və problemləri, dünyanı dəyişdirən müasir texnologiyalar, elmlərin konvergensiyası, biotexnologiyalar və etikanın problemləri, inkişafın iqtisadi modellərinin humanitar aspektləri, sosial jurnalistika və yüksək texnologiyalar, postmodernist mədəniyyətdə ənənəvi dəyərlər sistemləri kimi aktual mövzulara həsr olunmuşdur. Azərbaycan nümayəndələri ilə yanaşı dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli təmsilçiləri, o cümlədən tanınmış dövlət xadimlərinin, elmin müxtəlif sahələri üzrə Nobel mükafatçılarının və mötəbər beynəlxalq qurumların rəhbərləri bu məsələlər ətrafında geniş fikir mübadiləsi və müzakirələr aparmışlar. Qloballaşma dövrünün humanitar problemlərinə dair Forum iştirakçılarının mövqeyi qəbul olunmuş Bakı bəyannaməsində öz əksini tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və forum iştirakçılarının Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi təşkili ilə bağlı təkliflərini dəstəkləyərək qərara alıram: 1.



Bakı Beynəlxalq Humanitar Forumunun müvəffəqiyyətlə keçirilməsini və beynəlxalq miqyasda qaldırdığı problemlərin aktuallığını nəzərə alaraq onun ənənəvi olaraq təşkil edilməsi zəruri sayılsın". Məhz bu qərardan sonar Bakı Beynəlxalq Humanitar Forumu hər il keçirilməyə başladı. 04 oktyabr 2012-ci ildə İkinci Bakı Beynəlxalq Humanitar Forumu keçirlib.İkinci Bakı Beynəlxalq Humanitar Forumunda 70 ölkəni və 7 mötəbər beynəlxalq təşkilatı təmsil edən 694 nəfər iştirak edir. Onlardan 10 nəfəri sabiq dövlət başçısı, 11-i Nobel mükafatı laureatı, 5-i dünyanın nüfuzlu fəxri professoru (Emeritus professor), 10-u mötəbər beynəlxalq təşkilatları təmsil edən rəhbər vəzifəli şəxs, 55-i görkəmli ictimai və siyasi xadimdir.

Tədbir çərçivəsində qonaqlar üçün Azərbaycanın paytaxtı Bakı şəhəri və ölkənin regionları, Azərbaycan xalqının zəngin mədəni iris və incəsənəti ilə tanış olmaq üçün geniş proqramlar təşkil olunmuşdu.Bakı Beynəlxalq Humanitar Forumun iştirakçısı olan Nobel mükafatı laureatı Əhməd Zevaylın Forumun elmin və təhsilin inkişafına mühüm töhfə olduğunu qeyd edir. (5)

3-cü forum isə **2013-cü ilin 31 oktyabr – 1 noyabr tarixlərində keçirilib. Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunda** 70 ölkəni və 5 mötəbər beynəlxalq təşkilatı təmsil edən 800 nəfər iştirak etmişdir. Onlardan 7 nəfəri sabiq dövlət başçısı, 13-ü Nobel mükafatı laureatı, 7-si dünyanın nüfuzlu fəxri professoru (Emeritus professor), 107-i görkəmli ictimai və siyasi xadim idi. Rumıniyanın keçmiş prezidenti Emil Konstantinesku, Estoniyanın keçmiş prezidenti Arnold Rüütel, Latviyanın keçmiş prezidenti Valdis Zatlers, Serbiyanın keçmiş prezidenti Boris Tadiç, İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Azərbaycan-Niderland Dostluq Cəmiyyətinin sədri Rene Van der Linden, Xorvatoya sabiq prezidenti Stepan Mesiç, Bolqar Georgi Pırvanov, Yunanıstanın sabiq xarici işlər naziri Dora Bakoyannis, Türkiyənin sabiq

prezidenti Süleyman Dəmirəl, Slovakiya sabiq president Rudolf Şuster, Bolqarısatanın sabiq prezidenti Petr Stoyanov və digər nüfuzlu ictimai-siyasi liderlər iştirak etmişlər.

Tədbir çərçivəsində qonaqlar üçün Azərbaycanın paytaxtı Bakı şəhəri və ölkənin regionları, Azərbaycan xalqının zəngin mədəni irsi və incəsənəti ilə tanış olmaq üçün geniş proqramlar təşkil olunmuşdur. Forum iştirakçılarına Azərbaycan Respublikası prezidenti İlham Əliyev, Rusiya Federasiyası prezidenti V.Putin, BMT Baş Katibi Ban Gi Mun, YUNESCO baş katibi İrena Bokova,İSESCO baş katibi Əbdü Əziz əl-Tuveycri təbrik məktubları göndərmişlər.

09.01.2014-cü il tarixində keçirilən Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında İlham Əliyevin giriş nitqində qeyd edirdi ki, "Bakıda **III Beynəlxalq Humanitar Forum** keçirilmişdir. Bu, artıq gözəl ənənədir və dünya ictimaiyyətinin diqqətini çəkir. Tanınmış siyasətçilər, elm xadimləri, 10-dan çox Nobel mükafatı laureatı bu tədbirdə iştirak etmişlər. Artıq Azərbaycan dünya gündəliyində dözümlülük, tolerantlıq, humanitar əməkdaşlıq məsələləri ətrafında öz böyük rolunu ortaya qoymuşdur. Bakı və Azərbaycan artıq dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük mərkəzlərindən birinə çevrilibdir. Artıq beynəlxalq ictimaiyyət də bunu qəbul edir, dəstəkləyir. "(7)

Forumun işində dünyanın ən nüfuzlu elm adamların iştirak etməkdədi. Bunların sırasında Nobel mükafatçılarını xüsusilə qeyd etmək olar. fon Klitzinq Klaus, Fizika üzrə Nobel mükafatı laureatı, Maks Plank adına Bərk Cismlər Tədqiqat İnstitutunun direktoru, Kidland Fin İqtisadiyyat üzrə Nobel mükafatı laureatı, Santa Barbara, Kaliforniya Universitetinin iqtisadiyyat kafedrasının professoru, Kornberq Rocer Deyvid, kimya üzrə Nobel mükafatı laureatı, Stenford Universiteti, tibb üzrə professor, Qross Deyvid Conatan, fizika üzrə Nobel mükafatı laureatı,



Santa Barbarada Kaliforniya Universitetin F.Kavli adına Nəzəri Fizika İnstitutunun daimi üzvü, Laflin Robert Betts, fizika üzrə Nobel mükafatı laureatı, Stanford Universitetinin professoru, Lukas Robert Emerson, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı, Çikaqo Universitetinin professoru, Markus Rudolf Artur, kimya üzrə Nobel mükafatı laureatı, Kaliforniya Texnologiya İnstitutunun Noyes adına kimyəvi fizika laboratoriyasının professoru, Preskott Edvard, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı, Arizona Dövlət Universitetinin iqtisadi səmərəlilik sahəsi üzrə perspektiv tədqiqatlar Mərkəzinin professoru, Rotman Ceyms Edvard, Fiziologiya və Tibb üzrə Nobel mükafatı laureatı, Yel Universitetinin sədri, Smut Corc Ficerald, Fizika üzrə Nobel mükafatı laureatı, Berklidə Kaliforniya Universitetinin professoru, Şextman Dan, Kimya üzrə Nobel mükafatı laureatı, "Technion - Israel Institute of Technology" İnstitutunun professoru, Varşel Ariye, kimya üzrə Nobel mükafatı laureatı, Cənubi Kaliforniyanın Kimya Universitetinin fəxri professoru, Yonat Ada, kimya üzrə Nobel mükafatı laureatı, Veytsman İnstitutunun professoru, biomolekulyar struktur və birləşmə üzrə Kimmelman adına Mərkəzin direktoru və digərlərinin də adı var. Eyni zamanda Bakı Humanitar Forumun tədbirlərində beynəlxalq təşkilatların nümayəndələri da yaxından iştirak edib.

III Forumun açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanda humanitar əməkdaşlığa bütün dövrlərdə böyük diqqət göstərildiyini və bu forumun gözəl bir ənənəyə çevrildiyini bildirib."Ölkəmizdə bu sahədə artıq gözəl təcrübə də toplanıb". Prezident eyni zamanda qeyd edib ki, multikulturalizm Azərbaycanda dövlət siyasətidir: «Artıq tarixi keçmişimiz də bunu diktə edir. Eyni zamanda, multikulturalizm Azərbaycanda həyat tərzidir. Gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk və bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir». (8)

Forum iştirakçılarının çıxışları bu tədbirin elmi-humanitar baxımından mühümlüyünü və səviyyəsini göstərir. Məsələn, Moskva Dövlət Universitetinin rektoru Viktor Sadovniçi dövlətlər və xalqlar arasında humanitar əməkdaşlıq məsələlərinin belə bir möhtəşəm forumda artıq beynəlxalq miqyasda müzakirə edilməsinin əhəmiyyətini vurğulayıb. Elmi, mədəni, sosioloji, humanitar məsələlərin müzakirəsi üçün Forumun yaxşı fürsət olduğunu deyən Rumıniyanın sabiq prezidenti Emil Konstantinesku dinlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişaf etdirilməsinə onun mühüm töhfə verəcəyinə əminliyini bildirib. Kimya üzrə Nobel mükafatı laureatı Əhməd Zeveyl çıxışında informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafından söz açaraq dünyada iki milyard insanın internetdən istifadə etdiyini diqqətə çatdırıb, problemlərin həllində dünyanın müxtəlif bölgələrində yaşayan insanların səylərini birləşdirməyin əhəmiyyətini qeyd edib. İqtisadiyyat sahəsində Nobel mükafatı laureatı Ceyms Mirrlis bildirib ki, iqtisadiyyatın məqsədi insanların həyat səviyyəsini yaxşılaşdırmaqdır. Lakin hazırda bəzi ölkələr iqtisadi baxımdan çox böyük problemlərlə üzləşmişlər. Biz iqtisadi inkişafın təmin olunmasına diqqət yetirməklə yanaşı, sağlamlıq, ətraf mühit, təhsil və s. amilləri də nəzərə almalıyıq. Cəmiyyətdəki problemlərin diqqətə çatdırılmasında, humanitar əməkdaşlığın inkişafında yazıçıların rolunu yüksək qiymətləndirən ədəbiyyat üzrə Nobel mükafatı laureatı Vidiadhar Suracprasad Naypol onların bu məsələlərdə daha asan dil tapa bildiklərini vurğulayıb.Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akinci dünyanın qloballaşdığı bir şəraitdə prezident İlham Əliyevin təşəbbüsü ilə belə bir Forumun keçirilməsini təqdirəlayiq hal kimi qiymətləndirib. Rusiya Elmlər Akademiyasının müxbir üzvü Mixail Kovalçuk müasir dünyada elmlərin konvergensiyasından söhbət açıb, texnosferanın mədəni dəyərləri zənginləşdirən əsas amillərdən biri olduğunu bildirib.Rusiya Elmlər Akademiyasının akademiki, gen mühəndisliyi və biotexnologiya üzrə alim Konstantin Skryabin son illərdə biotexnologiyaların sürətlə inkişaf etdiyini deyərək cəmiyyətin həyatında mühüm əhəmiyyət kəsb edən məsələlərin müzakirəsində Forumun əhəmiyyətini qeyd edib.(9) **III Bakı Beynəlxalq Humanitar Forumunun bəyannaməsi müasir sivilizasiya üçün çox aktual olan problemlərə toxunur. Bəyannamədə deyilir:**

"siyasi, mədəni və elmi elitanı, beynəlxalq təşkilatları və vətəndaş cəmiyyəti nümayəndələrini qloballaşma dövründə yeni humanitar etikanın mövcud tələblərinə uyğun qaydada əməkdaşlığın gücləndirilməsinə çağıraraq;davamlı insan inkişafının əsas amillərinin qorunub saxlanılması üçün hələ görülməli çox işlərin olduğunu və biliyə əsaslanan iqtisadiyyatın dəstəklənməsi üçün:

- texnologiyaların konvergensiyası və XXI əsrin əsas çağırışları; iqtisadi inkişafın humanitar aspektləri; elmi innovasiyalar və onların təhsil sahəsinə tətbiqi; multikulturalizm və özünəməxsusluq; postmodern dövrdə milli özünüdərk; davamlı inkişaf və ekoloji sivilizasiya; molekulyar biologiyanın və biotexnologiyanın nailiyyətləri; informasiya məkanının qloballaşması şəraitində medianın aktual məsələləri kimi istiqamətlərdə qazanılmış nailiyyətlərə əsaslanmağın zəruriliyini dərk edərək; idarəçilik və istehsal texnologiyalarının konvergensiyası ilə bağlı müasir çağırış və təhlükələrin qlobal xarakter aldığını və cəmiyyətin inkişafında yeni dominantların aşkarlanması baxımından dünya birliyinin xüsusi diqqətini tələb etdiyini təsdiqləyirik;" (10)

Humanitar məsələlər, humanitar əməkdaşlıq xalqları, ölkələri birləşdirən amillərdir. Dünya birliyinin böyük bir hissəsinin intellektual elitası Bakıda keçirilən humanitar forumda iştirak edib. Azərbaycanda humanitar əməkdaşlığa bütün dövrlərdə böyük diqqət göstərilmişdir.Tolerantlıq

Azərbaycanda daim diqqət mərkəzində olan bir məsələdir. Çünki bütün dövrlərdə Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri sülh, əmin-amanlıq, qardaşlıq şəraitində yaşamışlar. Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Azərbaycanda çoxmillətli, çoxkonfessiyalı cəmiyyət mövcuddur. Bu gün ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələrinin tarixi abidələri qorunur, bərpa edilir. Azərbaycanda qədim Zərdüştlük məbədi bərpa edilmişdir. Qafqazın ən qədim kilsəsi də Azərbaycanda yerləşir. O da əsaslı şəkildə bərpa edilibdir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi əsaslı təmir edilibdir. Bu məscidin 1270 yaşı vardır. Yəni, bütün dinlərin abidələrinin bərpası, qorunması dövlət siyasətidir.Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Çünki Azərbaycanın tarixi keçmişi bunu diktə edir. Eyni zamanda, multikulturalizm Azərbaycanda həyat tərzidir. Bu tədbirlər ölkəmizin önəmini artıran, beynəlxalq imicini möhkəmləndirən və Azərbaycanı dinamik, müasir dövlət kimi bir daha dünya ictimaiyyətinə təqdim edir.

## Ədəbiyyat


http://w.marja.az/mikro/seminar/item/21228-az

2. http://www.heydar-aliyev-foundation.org
3. "Azərbaycan" qəzeti. 25 oktyabr 2011-ci il
4. *www.bakuforum.org*
5. www.azertag.az
6. *"Xalq qəzeti.2 noyabr 2013-cü il*
7. "Azərbaycan" qəzeti. 10 yanvar 2014-cü il
8. "Azərbaycan" qəzeti, 1 noyabr 2013
9. http://azerbaycanli.org/az/news-755.html
10. **"Azərbaycan" qəzeti, 3 noyabr 2013-cü il**




## MÜNDƏRİCAT


Ön söz ........ 3

Giriş əvəzi: Elmi təmələ söykənən inkişaf strategiyası (İlham Məmmədzadə) ........ 7

Siyasi qlobalistika bir elm kimi (*Rəna Mirzəzadə*).... 16

Формирование политической социологии как науки (Лала Мовсумова) ........ 24

Azərbaycanda siyasi sosiologiyanın yaranması və tarixi inkişaf mərhələləri (XIX əsrin sonu, XX əsrin əvvəlləri) (Ə.Tağıyev) ........ 35

Siyasətin sosiologiyasında nəzəri metodlar və əsas inkişaf istiqamətləri (*Tahirə Allahyarova*) ........ 49

Siyasi sosiologiya haqqında elmi ideyaların genezisində Qərb ənənəsi (*Ziba Ağayeva*) ........ 63

Siyasi sosiologiya haqqında elmi ideyaların genezisində Şərq ənənəsi (*Davud Həşimov*) ........ 77

Elitanın sosial mənşəyi və rolları siyasi-sosioloji kontekstdə (Şahin Bağırov) ........ 88

Siyasi sosiologiyanın optimal konsepsiyası (Əli İbrahimov) ........ 103

Siyasi sosioloji texnologiyaların mahiyyəti və xüsusiyyətləri (*Zaur Əyev*) ........ 110

Siyasi sosiologiyanın obyekti, predmeti və strukturu (*Etibar Əsədov*) ........ 121

Siyasi sosiallaşma prosesində ideologiyaların rolu (*Kamran Məmmədov*) ........ 132

"Əsrin müqaviləsi" müstəqil Azərbaycanda dönüş nöqtəsi kimi (*Telman Quliyev*) ........ 148

Azərbaycanda humanitar forumlar(tarixi-siyasi aspektdə) (*Mehman Kərimov*) ........ 176

Çapa imzalanmışdır: 12.12.2014
Kağız formatı: 60x84 1/16. Həcmi: 11,9ç.v.
Tiraj 100.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektronvariantdan çap olunmuşdur.

Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.

Mətbəənin direktoru: Ələkbər Məmmədov

Telefon: 408-86-23; 050-222-40-25.